# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ALTMIŞ DOQQUZUNCU KİTAB

## MAY 2015 - İYUL 2015

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində «Bakı–2015» I Avropa oyunları ərəfəsində paytaxt sakinləri və şəhərimizin qonaqları üçün Heydər Əliyev Fondunun layihəsi olan yeni mədəniyyət obyektinin, Dövlət Bayrağı Meydanı ərazisində muzeyin, «Azərbaycan Evi»nin açılışları, həmçinin fəaliyyətə başlayacaq YARAT Müasir İncəsənət Mərkəzi ilə tanışlıq, Dövlət Bayrağı Meydanı ərazisində Heydər Əliyev Fondunun daha bir layihəsi olan yeni ekspozisiya mərkəzinin, ölkəmizin təsviri incəsənətinin inkişafının yüzillik tarixini əhatə edən «XX–XXI əsr Azərbaycan rəngkarlığı» ekspozisiyasının, Bayıl bulvarının açılışları, Avropa oyunları parkının qarşısında yaradılmış şəraitlə tanışlıq və digər idman və mədəniyyət mərkəzlərinin açılışına həsr olunmuş toplantılarda çıxış və nitqləri yer almışdır.

Kitabda, həmçinin «Bakı–2015» I Avropa oyunlarının təntənəli açılışı zamanı dövlət başçısının geniş nitqi, bu məqsədlə ölkəmizə gələn müxtəlif ölkələrin dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarına, ölkə başçısının İtaliya Respublikasına işgüzar səfəri zamanı burada keçirilən beynəlxalq sərgidə iştirakına dair materiallar da toplanılmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ VLADİMİR SEMAŞKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Baş nazirin müavini Vladimir Semaşko Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfərindən ötən qısa dövr ərzində Azərbaycanda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Vladimir Semaşko Azərbaycanın dünya tarixində ilk dəfə keçiriləcək I Avropa oyunlarına hazırlıq proseslərinin maraqla izlənildiyini vurğuladı.*

*Dövlətimizin başçısı ölkəmizdə I Avropa oyunlarına hazırlıq işlərinin qısa vaxt ərzində, cəmi 2 ilə başa çatdırıldığını qeyd edərək, bu oyunların keçirilməsi üçün ən müasir idman obyektlərinin və infrastrukturun yaradıldığını bildirdi. Görüşdə XXI Azərbaycan Beynəlxalq qida sənayesi və IX Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgilərinin yüksək səviyyədə təşkil olunduğu, həmçinin bu tədbirə marağın ildən-ilə artdığı da qeyd olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, kənd təsərrüfatı, sənaye, maşınqayırma və digər sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus Prezidentinə çatdırmağı xahiş etdi.*

**İORDANİYA KRALI II ABDULLAH İBN ƏL-HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş İordaniya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2015-ci il*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı dərin tarixi kökləri olan çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. Əlamətdar haldır ki, istər ikitərəfli qaydada, istərsə də regional və beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əməkdaşlıq münasibətlərimiz bütün sahələrdə dinamik inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, həyata keçirdiyimiz irimiqyaslı iqtisadi layihələr xalqlarımızın rifahına, ölkələrimizin tərəqqisinə, regionumuzda sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Gürcüstan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2015-ci il*

## BÖYÜKŞOR BULVARININ VƏ PARKININ AÇILIŞI MƏRASİMİ

*22 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 22-də Böyükşor bulvarının və parkının açılışında iştirak etmiş və Böyükşor gölünün bərpası layihəsinin birinci mərhələsi çərçivəsində görülmüş işlərlə tanış olmuşlar.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev Böyükşor gölünün bərpasının birinci mərhələsi çərçivəsində görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi,*

*Sonra prezident İlham Əliyev Böyükşor bulvarının və parkının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva elektromobil və avtobusla Böyükşor bulvarının və parkının ərazisini gəzdilər.*

*Bu layihə prezident İlham Əliyevin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na və «Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında» 2013-cü il 26 dekabr tarixli Fərmanına uyğun olaraq həyata keçirilir.*

*Layihə ilk növbədə, böyük sosial əhəmiyyəti ilə diqqət çəkir. Vaxtilə sürətlə inkişaf edən paytaxtın tələblərinə uyğun gəlməyən, ekoloji tarazlığı pozan bu ərazidə çox qısa zamanda bu cür nəhəng infrastruktur layihəsinin reallaşdırılması prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin uğurlarının əyani təsdiqidir. I Avropa oyunlarına daxil olan tədbirlərin böyük əksəriyyətinin Böyükşor gölünün şərq sahilində yerləşən Bakı Olimpiya stadionunda və digər infrastruktur komplekslərində keçirilməsi isə bu layihənin əhəmiyyətini daha da artırır.*

*Layihənin birinci mərhələsi çərçivəsində həyata keçirilən tikinti işləri zamanı gölün şərq və cənub sahilində bulvar və park salınıb. Ümumi abadlıq işlərinin sahəsi 15 hektardan çoxdur. Bu ərazidə neftlə çirklənmiş torpaqlar təmizlənib. Həmçinin çirklənmiş yeraltı suların gölə daxil olmasının qarşısı tamamilə alınıb və drenaj sistemi qurulub.*

*Bildirildi ki, sahilboyu gəzinti zolağının uzunluğu 2,5 kilometr, bulvar sahəsinin ümumi eni isə 94 metrdir. Burada idman və uşaq oyun meydançaları qurulub, ayrıca qaçış və velosiped zolaqları salınıb, minlərlə ağac və bəzək kolu əkilib. Gölün içində quraşdırılmış fəvvarələr kompleksi şəharimizin qonaqlarının zövqünü oxşamaqla yanaşı, həm də gölün suyunun keyfiyyətinin yaxşılaşdırılması üçün onu oksigenlə zənginləşdirir. Gölün idarə edilməsi, su keyfiyyətinin yaxşılaşdırılması və monitoringi üçün günəş enerjisi ilə qidalanan xüsusi qurğulardan istifadə edilir.*

*Bakı Olimpiya stadionuna yaxın olan Böyükşor gölünün sahilində həyata keçirilən abadlıq-quruculuq tədbirləri şəharimizin daha da gözəlləşməsinə, insanların rahatlığına xidmət edəcək və paytaxtımızın sakinlərində və qonaqlarında xoş təəssüratlar, dərin məmnunluq hissi yaradacaq. Bir vaxtlar burada mövcud olan ekoloji fəlakətin aradan qaldırılması indi bu ərazini geniş yaşıllıq zolaqlarının, təbii landşaftın olduğu məkana çevirib. Burada iaşə və əyləncə məkanlarının yaradılması isə onun paytaxtın arxitekturasına xüsusi yaraşıq verəcəyini bir daha təsdiqləyir.*

*Qeyd edildi ki, beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən, Böyükşor gölü dünyada ən çox çirklənmiş sututarlardan hesab olunurdu. Qısa müddətdə görülmüş işlər nəticəsində gölün ekoloji göstəricilərinin dinamikası müsbətə doğru əhəmiyyətli dərəcədə dəyişib. Uzun illər Böyükşor gölünə axıdılan sənaye və məişət tullantı sularının və neft qalıqlarının qarşısı xeyli alınıb. Belə ki, layihənin icrasına başlamazdan əvvəl gölə 76 mənbədən sənaye və məişət tullantı suları axıdılırdı. Layihə ərazisində bu mənbələr tamamilə ləğv edilib,*

*qalan sahədə isə 20-yə endirilib və bu göstərici azalmaqdadır. Gölün dibinin təmizlənmiş ərazilərində neftlə çirklənmənin səviyyəsi 121 min mq/kiloqramdan 86-ya enib ki, bu da gölün dibinin artıq ekoloji normalar çərçivəsində olması deməkdir. Layihə ərazisinin cənub sahili boyunca kanalizasiya xətti çəkilib və bu hissədə çirklənmə mənbələrinin qarşısı tamamilə alınıb. Gölə axıdılan bütün mənbələrin qarşısının alınması suyun keyfiyyətini yaxşılaşdırır. Neftlə çirklənmiş əsas ərazi layihə ərazisinin Balaxanı qəsəbəsi tərəfindədir. Gölün şimal hissəsi sovet dövründə, əsasən də İkinci dünya müharibəsi zamanı xam neft üçün açıq anbar ərazisi kimi istifadə edilib və bu, gölü həddindən artıq çirkləndirib. Qədim Balaxanı neft yataqlarından gölün bu hissəsini çirkləndirən neft tullantılarının qarşısının alınması üçün 1850 metr uzunluğunda xüsusi bənd inşa edilib. Bu bənd Balaxanı qəsəbəsi tərəfdən gölün tarixi məcrasının sərhədləri boyunca tikilib. Eyni zamanda, 100 ildən artıq müddətdə göl dibinə yığılmış çirkli çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi işləri görülür.*

*Layihənin ilkin mərhələsində gölün dibindən 2,8 milyon kubmetr həcmində çöküntü çıxarılaraq gələcəkdə zərərsizləşdirilməsi üçün müvəqqəti təcrid edilmiş anbar ərazisinə toplanılıb, dib çöküntülərinin zərərsizləşdirilməsi üçün isə 100 hektar ərazidə müvəqqəti saxlanc anbarı inşa edilib. Gölün mühafizə zonası da daxil olmaqla, ciddi mühafizə işi təşkil edilib, göl və sahil xətlərinin məişət və tikinti tullantıları ilə çirklənməsinin qarşısı tamamilə alınıb. Bundan əlavə, burada su səviyyəsini tənzimləyən 3 su keçid hidrotexniki qurğusu inşa edilib. Suyun səviyyəsinin və keyfiyyətinin idarə edilməsi üçün avtomatlaşdırılmış nəzarət-monitorinq sistemi quraşdırılıb.*

*Gölün Bakı Olimpiya stadionu tərəfində ümumi uzunluğu 7200 metr olan 2 neft, 2 qaz və 2 su borusu yeraltı dəhlizə köçürülüb. Gölün mühafizə zonasında 11 mühafizə məntəqəsi quraşdırılıb və bərk tullantıların atılmasının və əraziyə kənar müdaxilələrin qarşısı tam alınıb. Birinci mərhələnin icrası və layihə ərazisinin təcrid edilməsi məqsədilə burada 1570 metr*

uzunluğunda bənd çəkilərək, Böyükşor gölü 2 hissəyə ayrılıb. Gölün digər tərəfinin təmizlənməsi işləri layihənin növbəti mərhələsində həyata keçiriləcək. Bu bənd gələcəkdə Ziya Bünyadov prospekti ilə Balaxanı şosesini birləşdirəcək 8 zolaqlı magistral yolun özülü olacaq. Buradan da görünür ki, Böyükşor gölünün 300 hektara yaxın hissəsində icra olunan birinci mərhələ üzrə işlər uğurla həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən gölün tam bərpasını nəzərdə tutan növbəti mərhələdə göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaqdır.

## «THE BUSİNESS YEAR» JURNALINA MÜSAHİBƏ

*22 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də «Bakı–2015» I Avropa oyunları ilə bağlı «The Business Year» jurnalına geniş müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi sahəsində görülmüş işləri necə qiymətləndirirsiniz? Sizin fikrinizcə, əldə olunmuş nəticələr Azərbaycanda artıq liberal, rəqabətədavamlı iqtisadi sistemin formalaşdığını deməyə əsas verirmi?**

**C a v a b:** Müstəqillik illərində qarşımızda duran ən vacib məsələlərdən biri liberal, güclü, rəqabətədavamlı və modern iqtisadi sistemin yaradılması olmuşdur. 1993-cü ildən sonrakı dövrdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilməyə başlanılmış liberal iqtisadi islahatların davam etdirilməsi, iqtisadiyyatın prioritet sahələrinin müəyyənləşdirilməsi və onların inkişafının stimullaşdırılması, investisiyaların təşviqi, məqsədyönlü dövlət proqramlarının reallaşdırılması nəticəsində qısa zamanda iqtisadi sahədə strateji hədəflərə nail olunub. Son 10 ildə iqtisadiyyatın 3 dəfədən çox artması, işsizlik və yoxsulluq problemlərinin əsaslı şəkildə həlli, sosial və iqtisadi infrastrukturun yenidən qurulması, əhalinin rifahının davamlı yüksəlişi və əldə olunmuş digər uğurlu nəticələr hər bir dövlət üçün inqilabi sıçrayış kimi səciyyələndirilə bilər.

Düzdür, hal-hazırda enerji sektoru Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olaraq qalır. Lakin karbohidrogen ehtiyatlarının hasilatından və satışından əldə olunmuş gəlirlərin bir hissəsini qeyri-neft sektorunun inkişafına yönəltməklə, biz həm iqtisadiyyatımızın ənənəvi sahələrini yenidən qurduq, həm də informasiya-kommunikasiya texnologiyaları, turizm, kosmik sənaye, müdafiə sənayesi və digər bu kimi yeni istiqamətlər

yaratdıq və inkişaf etdirdik. Son bir neçə ilin statistikasına əsasən, ümumi daxili məhsulun istehsalında qeyri-neft sektorunun çəkisi ardıcıl olaraq yüksəlib və 2014-cü ildə 61 faizə çatmışdır. Bu isə Azərbaycan iqtisadiyyatının şaxələndirildiyini və neft amilindən asılılığının azaldığını açıq şəkildə göstərir.

Dünyanın mötəbər iqtisadi və maliyyə qurumlarının hesabatlarında Azərbaycanın uğurları xüsusi qeyd olunur. Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik indeksində Azərbaycan 144 ölkə arasında 38-ci yerə yüksəlib və ardıcıl olaraq 5 ildir ki, MDB ölkələri arasında birinciliyi əldə saxlayır.

**S u a l: Siz 2014-cü ili «Sənaye ili» elan etmişdiniz. Sənayeləşmənin stimullaşdırılmasına yönəldilmiş milli təşəbbüslərin müvəffəqiyyətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Müstəqilliyin ilk illərində Azərbaycan dərin sosial-iqtisadi böhranla üzləşdi. Bütün sənaye sahələri, hətta iqtisadiyyatımızın əsas lokomotivi olan neft sənayesi də tənəzzül etmişdi. Ermənistanın Azərbaycana qarşı təcavüzü, ölkədə mövcud olan siyasi böhran iqtisadi durumu daha da ağırlaşdırmışdı. Bununla belə, 1993-cü ildə ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra cəmiyyət həyatında stabilləşmə dövrü başlandı, ölkə iqtisadiyyatı bərpa edildi, sənayedə ciddi geriləmə aradan qaldırıldı.

Sonrakı dövrdə, xüsusilə son 10 ildə Azərbaycanda neft-qaz istehsalından əldə olunmuş gəlirlərin bir hissəsi məqsədyönlü şəkildə və xüsusi proqramlar çərçivəsində qeyri-neft sektorunun, sənayenin inkişafına yönəldilmişdir. Məhz bunun nəticəsidir ki, bəhs etdiyimiz dövrdə qeyri-neft sektorunda orta hesabla 10 faiz illik artım müşahidə olunmuş, ümumilikdə isə həmin illərdə Azərbaycanda sənaye istehsalının həcmi 3 dəfə artmışdır.

2014-cü il «Sənaye ili» elan olunduqdan sonra «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı» qəbul olundu, sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft

sənayesinin ixrac potensialının artırılması, yüksək əlavə dəyər yaradan rəqabətqabliyyətli, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi, yeni istehsal sahələri ilə bağlı ixtisaslı kadrların hazırlanması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə başlanıldı.

«Sənaye ili» çərçivəsində 200-dək, o cümlədən 40-dan çox orta və iri müəssisə açılıb. Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Ölkədə bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayırıq. 2013-cü ilin Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi də bunu bariz şəkildə təsdiq edir. Təsadüfi deyil ki, həmin il fevralın 8-də ölkəmiz üçün tarixi hadisə baş verdi – «Azərspace-1» ilk milli telekommunikasiya peyki orbitə çıxarıldı. Bununla da Azərbaycan kosmik ölkələr sırasına qoşuldu. Ötən il dekabrın əvvəlində isə sayca 2-ci olan «Azərsky» müşahidə peykinin «Azərkosmos» ASC-yə təhvil verilməsi Azərbaycanda elmtutumlu sənayenin inkişafına böyük diqqət göstərildiyinin əyani təzahürüdür.

Sənayeləşmə siyasətində milli hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi də prioritet vəzifələrdən biri kimi müəyyənləşdirilib. Artıq Milli Ordumuz bir sıra silah və hərbi ləvazimatlarla yerli istehsal hesabına təmin olunur, hərbi sənaye məhsullarımız beynəlxalq sərgilərdə nümayiş etdirilir, hətta ixrac üçün ilkin satışlar da həyata keçirilib.

Məlumdur ki, 2013-cü ilin sentyabrında Bakı Gəmiqayırma zavodu istifadəyə verildi. Ölkəmiz həm neft-qaz əməliyyatları, həm də hərbi məqsədlər üçün tankerlər və yük gəmilərinin istehsalına başladı. Bakı Gəmiqayırma zavodu gələcəkdə həm də region ölkələrinin bu sahədə ehtiyaclarını ödəyə biləcək nəhəng istehsal müəssisəsidir.

Ümumən, biz qeyri-neft sektorunun inkişafına həm ölkənin daxili tələbatını ödəmək, həm də ixrac potensialımızı genişləndirmək üçün əlavə imkan kimi baxırıq. Azərbaycanın həm kənd təsərrüfatı, həm də qida sənayesi məhsullarına bizim ənənəvi bazarlarda böyük tələbat var. Bundan əlavə, yeni

bazarlara çıxmaq üçün də yollar axtarırıq. Eyni yanaşma inşaat materialları istehsalına da tətbiq olunur.

Artıq biz ölkənin inşaat sektorunu sementlə tam şəkildə təmin edirik. Ötən il istifadəyə verilən ən böyük yeni Sement zavodu bu sahədə idxaldan asılılığımızı tam şəkildə aradan qaldırıb. Sement istehsalında əlavə həcmlər var və ixrac imkanlarımız da artacaq. Biz alüminium, poladtökmə, metallurgiya sənayesini də inkişaf etdiririk. Sənaye klasterlərinin yaradılması prosesi gələcəkdə də davam etdiriləcək. Çünki Azərbaycanda həm kifayət qədər xammal, həm də lazımi sənaye potensialı var.

Sənaye sahəsində zəngin təcrübəsi olan Sumqayıt, Mingəçevir və Gəncədə müvafiq olaraq kimya, toxuculuq və metallurgiya sahələrinin inkişafı üçün tədbirlər davam etdirilir. Bu gün Sumqayıt sadəcə, Azərbaycanın deyil, həm də Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilib. Azərbaycanda yeni sənaye mərkəzlərinin yaradılması prosesi davam etdirilir. Qarşıda duran işləri həyata keçirmək üçün bizim potensialımız, maddi resurslarımız, ixtisaslı kadrlarımız, işçi qüvvəmiz, ən əsası, siyasi iradəmiz vardır.

**S u a l: Azərbaycanda biznes və investisiya fəaliyyətinin daha da asanlaşdırılması üçün əlavə hansı addımlar atılıb?**

**C a v a b:** Son 11 il ərzində Azərbaycan iqtisadiyyatına 180 milyard dollardan artıq investisiya qoyulub. Bu, ölkədə yaradılmış sabitliyin, normal biznes mühitinin nəticəsidir. Ötən il ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya yatırılıb ki, bunun da 11 milyardı xarici sərmayədir. Bu bir daha göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə olaraq qalır. Çünki indiki şəraitdə 11 milyard dollar xarici investisiya cəlb etmək istənilən ölkə üçün böyük uğur hesab oluna bilər.

Keçən il martın 3-də sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» Fərman imzalanıb. Biz Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, sağlam rəqabət mühitinin təmin edilməsi, biznesə başlama prosedurlarının

sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi və investorların maraqlarının qorunması sahəsində məqsədyönlü tədbirləri davam etdiririk.

Təsadüfi deyil ki, biznes mühitinin inkişaf etdirilməsi sahəsində atılan addımlar nüfuzlu beynəlxalq iqtisadi və maliyyə qurumlarının da diqqətini cəlb edir. 2015-ci ilin «Doing Business» hesabatına görə, Azərbaycan ən çox islahat aparan 10 ölkədən biridir. Azərbaycan daşınmaz əmlakın qeydiyyatının sadəliyinə görə dünyada 10-cu, biznesə başlamağa görə isə 11-ci yerdədir.

«Heritage» Fondu və «Wall Street Journal» qəzetinin birgə hazırladığı «İqtisadi Azadlıq İndeksi – 2014» hesabatında isə respublikamız 186 ölkə arasında 81-ci yeri tutaraq iqtisadi cəhətdən azad ölkələr sırasına daxil olmuşdur.

Azərbaycanda makroiqtisadi vəziyyətin sabitliyi, qeyri-neft sektorunun davamlı inkişafı, böyük maliyyə potensialının mövcudluğu, həmçinin sağlam rəqabət və investisiya mühitinin təmin edilməsi həm xarici sərmayəçilərə, həm də yerli iş adamlarına əlavə nikbinlik verir.

**S u a l: Davos şəhərində keçirilmiş Dünya İqtisadi Forumunda dünya liderləri «Yeni qlobal kontekst»i müzakirə etdilər. Siz həmçinin «Enerji geosiyasəti üzrə yeni qlobal kontekst» mövzusunda keçirilmiş sessiyada çıxış etdiniz. «Yeni kontekst» Azərbaycan üçün nədir?**

**C a v a b:** 2008-ci ildən etibarən Davos Dünya İqtisadi Forumunda əsasən iqtisadi və maliyyə sistemində böhrandan çıxış yolları müzakirə olunur. Bu il «Yeni qlobal kontekst» adlandırılan yubiley Forumunun iştirakçıları inkişaf və sabitlik, böhranlar və onların aradan qaldırılması üçün əməkdaşlıq, cəmiyyət və təhlükəsizlik, innovasiyalar və digər məsələlər ətrafında fikir mübadiləsi apardılar. Bütün bu müzakirə və fikir mübadilələrinin başlıca məqsədi dünyada siyasi və iqtisadi kataklizmlər fonunda inkişafa, tərəqqiyə, qarşılıqlı faydalı əməkdaşlığa yol aça biləcək yeni birgəyaşayış modelinin müəyyənləşdirilməsi və təşviqidir. Biz müstəqillikdən sonra

nəinki mənfidən müsbətə doğru dəyişən, həm də vəziyyətin gərginləşdiyi, get-gedə daha çox münaqişə, hədələr, terrorizm təhlükəsinin mövcud olduğu regionda yaşayırıq. Lakin qarşılıqlı faydalı əməkdaşlıq eləcə də ölkə hüdudlarından kənarda müəyyən dərəcədə proqnozlaşdırılan vəziyyət olduğu təqdirdə mümkündür. Buna görə də Azərbaycanın həyata keçirdiyi siyasət, reallaşdırdığı nəhəng transmilli layihələr regionda və daha geniş arealda proqnozlaşdırıla bilən mühitin yaradılmasına yönəlib.

Azərbaycan bölgədə nəqliyyat dəhlizlərinin yaradılması, müasir nəqliyyat infrastrukturunun formalaşması işində fəal rol oynayır. Həm Şərq–Qərb, həm Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi nəticəsində Azərbaycan həm də Avropanı Asiya ilə birləşdirən ölkəyə çevriləcəkdir.

Xəzər dənizi hövzəsində ən böyük dəniz ticarət limanı Azərbaycanda tikilir. Artıq ötən il Ələtdə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin birinci hissəsi – bərə terminalı istifadəyə verildi. Ticarət limanının tam şəkildə yaxın 2 il ərzində istifadəyə veriləcəyini gözləyirik. Bu limanın yükaşırma qabiliyyəti 25 milyon ton yük və 1 milyon konteyner olacaq. Bununla da Xəzərdə yükdaşımalarının həcminin artırılması gözlənilir.

Hava nəqliyyatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilir. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni terminal binası tikilib. Bölgələrdə 6 aeroport inşa edilib, onlardan 4-ü beynəlxalq aeroportdur. Beləliklə, bu gün ölkəmizdə 5 beynəlxalq aeroport vardır. Artıq Azərbaycan bu sahədə həm yük, həm sərnişindaşımaları ilə regional bir mərkəzə çevrilibdir.

Azərbaycanın liderliyi ilə həyata keçirilən enerji layihələri Azərbaycan xalqının rifahı ilə yanaşı, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə xidmət göstərir. Hazırda reallaşdırılan «Cənub Qaz Dəhlizi» layihəsi də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaq.

Göründüyü kimi, bizim nəqliyyat və enerji layihələrimiz Avropa ilə Asiyanı birləşdirən körpü rolunu oynayır və mürəkkəb geosiyasi proseslər fonunda qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edir.

Azərbaycan həm də qlobal təhdidlərə, o cümlədən terrorizmə qarşı mübarizənin fəal iştirakçısıdır və beynəlxalq antiterror koalisiyasının üzvlərindən biridir. Azərbaycan BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyi dövrdə müzakirəyə çıxardığı iki məsələdən biri terrorizmə qarşı mübarizəyə həsr edilmişdi. Çünki terrorizmin müxtəlif təzahürləri ilə mübarizədə Azərbaycan kifayət qədər problemlərlə üzləşib. Ermənistan tərəfindən müxtəlif dövrlərdə ölkəmizə qarşı 30-dan çox terror aktı həyata keçirilib, nəticədə 2000-dən artıq soydaşımız qətlə yetirilib.

Azərbaycan üçün çağırış həm də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başda olmaqla, bu tipli problemlərin beynəlxalq hüquq normaları əsasında həll edilməsidir. Biz 20 ildən artıqdır ki, Ermənistanın işğalından əziyyət çəkirik. Təəssüf ki, bu gün dünyada mövcud olan ikili standartlar, bəzi hallarda işğalçı ilə işğala məruz qalan tərəflərin eyniləşdirilməsi münaqişənin həllini ləngidir. Hesab edirəm ki, keçmiş sovet məkanındakı və ümumiyyətlə, dünyadakı bütün münaqişələrə eyni beynəlxalq hüquq normaları prizmasından baxılmalı, onların həlli üçün eyni yanaşma tətbiq edilməlidir. Çünki hər hansı bir münaqişə həll olunmursa və ya dondurulursa, onda digər münaqişələr üçün zəmin yaranır.

Forumda qeyd edildiyi kimi, 2015-ci ildə biz yolayrıcındayıq: bir tərəfdə ayrı-seçkilik, fundamentalizmə, nifrətə, qarşılıqlı ittihamlara şərait yaradan meyillər, digər tərəfdə isə həmrəylik və əməkdaşlığa aparan yol var. Azərbaycanın inkişaf, əməkdaşlıq və inteqrasiya modeli siyasi və iqtisadi proseslərin proqnozlaşdırılması, ümumi maraqların təmin edilməsi üçün etibarlı zəmin yarada bilər.

**S u a l: Xəzər dənizindən «Cənub Qaz Dəhlizi» vasitəsilə Avropaya ilk qazın 2019-cu ildən etibarən nəql ediləcəyi gözlənilir. Bu baxımdan, gələcəkdə qlobal enerji**

**təhlükəsizliyinə münasibətdə Azərbaycanın necə rol oynayacağını düşünürsünüz?**

**C a v a b:** 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft boru kəməri istismara veriləndə biz artıq Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm bir addım atmışdıq. Bu gün Azərbaycandan daxil olan neft bəzi Avropa ölkələrinin enerji balansında 30–40 faiz təşkil edir.

Uzun illər Azərbaycan tərəfindən təşəbbüs olaraq irəli sürülən layihələr həm də «Cənub Qaz Dəhlizi»nin reallaşmasına xidmət göstərmişdir. 20 ildir ki, Azərbaycan öz enerji resurslarının dünya bazarlarına müxtəlif yollarla çıxarılması ilə bağlı gərgin iş aparır və geniş şaxələndirilmiş nəqliyyat infrastrukturuna malikdir. «Cənub Qaz Dəhlizi» bu gün Avropada ən böyük infrastruktur layihədir. Azərbaycan isə Avropaya yaxın zamanlarda nəql ediləcək qazın yeganə yeni mənbəyidir. Bu layihə bir neçə komponentdən ibarətdir. İlk növbədə, «Şahdəniz» qaz yatağının işlənilməsi, Azərbaycanı Gürcüstanla birləşdirən «Cənubi Qafqaz» kəmərinin genişləndirilməsi, Trans–Anadolu – TANAP layihəsinin icra edilməsi və Trans–Adriatik–TAP layihəsinin tikintisi «Cənub Qaz Dəhlizi»ni formalaşdıran seqmentlərdir.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir, proqnozlaşdırılan ehtiyatların həcmi isə bundan 2 dəfə artıqdır. Geniş şaxələndirilmiş infrastruktur imkan verir ki, biz qaz ixracımızı istənilən istiqamət üzrə artıraq. Hazırda «Cənub Qaz Dəhlizi»nin tikintisi ilə bağlı bütün istiqamətlər üzrə ardıcıl iş aparılır. Keçən il sentyabrın 20-də Bakıda «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur. Bu tarixin çox böyük rəmzi mənası var idi. Çünki bölgənin enerji xəritəsini dəyişmiş «Əsrin müqaviləsi» məhz 20 il əvvəl bu tarixdə imzalanmışdı. Bu ilin fevralında Bakıda «Cənub Qaz Dəhlizi» ölkələrini təmsil edən nazirlərin Məşvərət Şurasının iclası keçirilmişdir ki, bu da görüləcək işlərin əlaqələndirilməsi üçün çox önəmli addım oldu. Cari il martın 17-də isə Türkiyənin Qars vilayətində Azərbaycan, Türkiyə və Gürcüstan

prezidentlərinin, həmçinin Avropa İttifaqı və ABŞ-ın nümayəndələrinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasiminin keçirilməsi «Cənub Qaz Dəhlizi»nin reallaşdırılması baxımından olduqca əlamətdar hadisədir.

«Şahdəniz-2» və «Cənub Qaz Dəhlizi» layihələri Azərbaycanın neft strategiyasına yeni nəfəs verməklə yanaşı, həm də dünyanın enerji xəritəsini dəyişdirəcək və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında yeni vəziyyətin yaranmasına səbəb olacaq. Çünki «Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi layihəsi kimi, Avrasiyada yeni əməkdaşlıq formatının əsasını qoyur. Biz ilk mərhələdə üçtərəfli formatı yaratdıq – Türkiyə–Gürcüstan–Azərbaycan enerji, nəqliyyat, siyasi, iqtisadi, strateji tərəfdaşlıq formatı. Bu gün bu, real bir regional amil kimi özünü göstərir. İndi isə Yunanıstan, Albaniya və İtaliyanın bu prosesə qoşulması həmin formatı daha da genişləndirir. Eyni zamanda, Nabukko layihəsinin üzvü – Bolqarıstan artıq bizim layihədə iştirak edir. Rumıniya, Macarıstan da bu layihələrə qoşula bilər. Biz digər Balkan ölkələrinə də Azərbaycan qazının çatdırılmasını istəyirik. Hesab edirik ki, bu ölkələrlə həm istehlakçı, həm tranzit ölkələr kimi tərəfdaşlıq edə bilərik. Beləliklə, yeni əməkdaşlıq formatında iştirak edən dövlətlər həm də təbii müttəfiqlərə çevrilirlər və nəticə etibarilə Avrasiya bölgəsində çox ciddi və yeni bir müttəfiqlik formatı yaranır. Bunun həm siyasi, həm iqtisadi təsiri çox böyük olacaqdır. Buna görə də «Cənub Qaz Dəhlizi» sadəcə olaraq, enerji layihəsi, boru kəməri deyil, bu, ciddi siyasi təşəbbüsdür.

**S u a l: Bu ilin iyununda Azərbaycanda I Avropa oyunları keçiriləcək. İlk oyunlara ev sahibliyi edən bir şəhər olaraq, Bakıda hansı nadir cəhətlər nəzərdə tutulur? Eyni zamanda, oyunlar Azərbaycanın idman həyatında hansı izlər qoyacaq?**

**C a v a b:** I Avropa oyunlarını keçirmək bizim üçün həm böyük etimad, həm də böyük məsuliyyətdir. Eyni zamanda, biz bunu Azərbaycana beynəlxalq miqyasda göstərilən marağın təzahürü kimi dəyərləndiririk. Son 10 ildə Azərbaycanın

dinamik inkişafı, cəmiyyət həyatının bütün sahələrində əldə olunmuş mühüm uğurlar, beynəlxalq arenada yürütdüyümüz müstəqil, fəal siyasət ölkəmizin nüfuzunu daha da yüksəltmişdir. Həmçinin həyata keçirilmiş nəhəng quruculuq və abadlıq işləri nəticəsində Bakı dünyanın ən gözəl, ən müasir şəhərlərindən birinə çevrilib. Ümid edirəm ki, Bakı qonaqlar və idmançılar üçün gözəl məkan olacaqdır.

Azərbaycan həm də beynəlxalq olimpiya hərəkatının fəal üzvlərindəndir, idmançılarımızın mötəbər beynəlxalq turnirlərdə qazandığı uğurların sayı ildən-ilə artır. Azərbaycanın əksər bölgələrində müasir standartlara uyğun olimpiya kompleksləri, digər idman qurğuları yaradılıb. Bu həm də Azərbaycanda idmanın kütləviliyini şərtləndirən mühüm amillərdən biridir.

Azərbaycan çoxsaylı beynəlxalq və regional səviyyəli tədbirlərə ev sahibliyi etməkdə böyük təcrübə qazanıb. Bu günədək Bakıda siyasi, iqtisadi, humanitar, idman və digər sahələrdə mühüm beynəlxalq tədbirlər uğurla keçirilib.

Bu il iyunun 12-dən 28-dək baş tutacaq ilk Avropa oyunlarında 49 ölkədən 6000-dən artıq idmançı 20 idman növündə mübarizə aparacaq. Biz bu oyunları Yay Olimpiya oyunları səviyyəsində keçirəcəyik.

Avropa Olimpiya Komitəsinin dəstəyi ilə 40-dan artıq ölkənin nümayəndələrinin çalışdığı güclü beynəlxalq komanda formalaşdırılıb və artıq hazırlıq işləri yekunlaşmaq üzrədir. Müasir idman infrastrukturunun yaradılması sahəsində genişmiqyaslı iş aparılıb. Tədbirlərin keçiriləcəyi idman obyektlərinin böyük əksəriyyətinin tikintisi başa çatıb və ya son tamamlanma işləri görülür. Ümumilikdə, ilk Avropa oyunları Bakıda 21 idman obyektində keçiriləcək. Açılış mərasiminin baş tutacağı 68 min nəfərlik Bakı Olimpiya stadionundan əlavə, 7300 nəfərlik Olimpiya şəhərciyi də oyunlara hazırlanır. Paytaxtın nəqliyyat infrastrukturu təkmilləşdirilib, müvafiq təhlükəsizlik tədbirləri görülüb, qonaqların, idmançıların

qarşılanması, yerləşməsi, məşqlərin keçirilməsi və digər təfərrüatlar tam nəzərə alınıbdır.

Hesab edirəm ki, Avropa oyunları müxtəlif idman növlərinin ölkəmizdə təbliği, yeni nəsil idman mütəxəssislərinin formalaşması baxımından mühüm əhəmiyyətə malikdir. Həmçinin oyunlar Azərbaycan üçün gözəl sosial təbliğat vasitəsi olacaqdır. Ölkə əhalisinin üçdə ikisinin yaşı 35-dən aşağıdır və bu böyük təbəqə idmanın təşviq etdiyi amallar haqqında məlumatlar alacaqdır. Avropa oyunlarının keçirilməsi üçün yaradılmış infrastruktur şəhərimizin və ölkəmizin gələcəkdə digər beynəlxalq idman yarışlarına ev sahibliyi etməsini də asanlaşdıracaq. 2016-cı ildə biz Dünya Şahmat Olimpiadasını keçirəcəyik, eyni zamanda, ilk dəfə olaraq «Formula-1» yarışları regionumuza gələcəkdir. 2017-ci ildə isə Bakı müsəlman dünyasını bir araya gətirən İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcək.

Bir ölkədə, bir şəhərdə 2 il ərzində həm Avropa Olimpiya, həm də İslam Həmrəyliyi oyunlarının keçirilməsinin rəmzi mənası vardır. Azərbaycan bütün dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı çoxmillətli, çoxkonfessiyalı və çoxmədəniyyətli ölkədir. Bu gün Azərbaycan daha çox aktuallaşan sivilizasiyalararası dialoqa öz dəyərli töhfəsini verir.

Düşünürəm ki, bu oyunlar Azərbaycanın mədəniyyətinin, zəngin multikulturalizm ənənələrinin, turizm imkanlarının, həmçinin Azərbaycan brendi olan məhsulların təbliği baxımından da çox faydalı olacaqdır.

Bir sözlə, bizim güclü potensialımız, mükəmməl idman infrastrukturumuz, böyük beynəlxalq tədbirləri təşkil etmək sahəsində yaxşı təcrübəmiz vardır və əminəm ki, bu oyunları ən yüksək səviyyədə keçirəcəyik. «Bakı–2015» idman tarixində yeni maraqlı bir səhifə olacaq. Bu həmçinin 4 ildən sonra keçiriləcək növbəti oyunlara bələdçi hadisədir və Avropa oyunlarının standartları məhz Bakıda müəyyənləşdiriləcək.

**S u a l: Dünya arenasında Azərbaycanın əhəmiyyətinin artmasını şərtləndirən amillərdən biri də ölkənizin fəal**

**xarici siyasətidir. 2014-cü ildə Azərbaycanın xarici siyasətində hansı məqamları xüsusi qeyd etmək istərdiniz və 2015-ci il üçün prioritet sahələr hansılardır?**

**C a v a b:** Azərbaycan dövləti çoxşaxəli, balanslaşdırılmış xarici siyasət kursu həyata keçirərək, beynəlxalq aləmə uğurla inteqrasiya olunub, region və dünya ölkələri ilə səmimi, qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan çoxtərəfli və ikitərəfli əlaqələr qurub. Güclü potensialımız bizə imkan verir ki, beynəlxalq arenada tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürüdək. Azərbaycan regionun aparıcı ölkəsi olmaqla yanaşı, dünyada mövqeyi nəzərə alınan güc amilinə çevrilir, qlobal məsələlərin həllinə cəlb olunur.

Ötən il Azərbaycan üçün xarici siyasət prioritetlərinin həyata keçirilməsi baxımından kifayət qədər uğurlu dövr olmuşdur. Ölkəmiz beynəlxalq aləmdə öz mövqelərini əhəmiyyətli dərəcədə gücləndirmiş, üzv və tərəfdaş olduğu təşkilatlarla, ayrı-ayrı dövlətlərlə əlaqələrini daha da dərinləşdirmişdir. Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etdiyi 6 ay müddətində Azərbaycan korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet istiqaməti seçməklə yanaşı, demokratiya, insan hüquqları, təhlükəsizlik, dinlərarası dialoq məsələlərinə də geniş diqqət ayırmış, bir sıra səmərəli təşəbbüslərlə çıxış etmişdir.

Azərbaycanın korrupsiyaya qarşı mübarizə məqsədilə həyata keçirdiyi institusional islahatlara nümunə olaraq «ASAN xidmət» mərkəzlərini göstərə bilərik. Hazırda «ASAN xidmət» mərkəzlərində 30 növ hüquqi, 32 növ funksional yardımçı xidmətlər təşkil edilib. Ümumilikdə fəaliyyətə başladığı 2012-ci il dekabrın 29-dan bu günədək «ASAN xidmət»lərə 4 milyon 120 mindən çox müraciət daxil olub. Azərbaycan brendi olan «ASAN xidmət»ə dünyada böyük maraq vardır. Təsadüfi deyil ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək, «ASAN xidmət»lərin fəaliyyəti ilə yaxından tanış olurlar.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçinin təyin olunması, Azərbaycanın haqq səsinin Avropa

ictimaiyyətinə daha dolğun çatdırılması ölkəmizin bu nüfuzlu qurumun ali orqanına rəhbərliyi dövründə əldə etdiyi uğurlardır. 2014-cü ilin iyununda ATƏT-in Parlament Assambleyasının Bakıda keçirilmiş sessiyasında qəbul olunmuş Bəyannamədə ölkələrin sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü prinsipi bir daha vurğulanmışdır.

Azərbaycan tam müstəqil siyasət yürüdən dövlət kimi, beynəlxalq aləmdə böyük nüfuz və hörmət qazanıb. 2012-ci ildə Azərbaycan Meksikada «Böyük iyirmilik»in Sammitinə dəvət edilən 10 ölkədən biri və MDB məkanından yeganə dövlət idi. 2011-ci ildə seçkilərdə 155 dövlətin dəstəyini qazanmış ölkəmiz 2 il müddətinə BMT Təhlükəsizlik Şurasına üzv seçilmiş və 2 ay həmin ali quruma sədrlik etmişdir. Azərbaycan 2015-ci ildə Türkiyədə keçiriləcək «Böyük iyirmilik» Sammitinə də dəvət alıb.

Azərbaycanın xarici siyasəti müəyyən olunan strategiya əsasında həyata keçirilir. Qarşıdan gələn dövrdə biz düşünülmüş xarici siyasət kursumuzu davam etdirəcəyik, Azərbaycanın suveren hüquqlarının, milli maraqlarının təmin edilməsi, ölkənin ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişaf etdirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində həlli, bütün regionumuz, Avropa üçün mühüm əhəmiyyət kəsb edən nəhəng transmilli enerji layihələrinin davam etdirilməsi və digər əhəmiyyətli məsələlər qarşıdan gələn dövrdə də diqqət mərkəzində olacaqdır.

## BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORU JOZE QRATSİANO DA SİLVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Jose Qratsiano da Silvanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Jose Qratsiano da Silva ilə Romadakı son görüşünü məmnunluqla xatırladan dövlətimizin başçısı onun ölkəmizə səfərinin, keçirdiyi görüşlərin məhsuldar və uğurlu olacağına əminliyini ifadə etdi. Azərbaycan ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında əməkdaşlığın fəal şəkildə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev tərəfdaşlıq əlaqələrimizin genişləndirilməsi üçün böyük planların olduğunu dedi.*

*Jose Qratsiano da Silva «Minilliyin İnkişaf Məqsədləri» üçün dünyanın 128 ölkəsinin yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürdüyünü və bu ölkələrdən yalnız 18-nin buna nail olduğunu vurğuladı. Bu öhdəlikdən sonra həmin ölkələrin yoxsulluğun 5 faizdən aşağı endirilməsini hədəf götürdüklərini qeyd edən baş direktor Azərbaycanın dünyada buna nail olan 29 ölkədən biri olduğunu vurğuladı. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının bu ilin iyununda keçirəcəyi konfransda ölkəmizin bu təşkilatın xüsusi medalı ilə təltif ediləcəyini dedi.*

*Görüşdə Azərbaycan ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**HƏBƏŞİSTAN FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ**

Hörmətli cənab Prezident!

Həbəşistan Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Efiopiya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 may 2015-ci il*

## I AVROPA OYUNLARININ ATLETLƏR VƏ MEDİA KƏNDLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*25 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mayın 25-də Bakıda I Avropa oyunlarının Atletlər və Media kəndlərinin açılışlarında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Atletlər kəndində olmuşlar.*

*Gənclər və İdman naziri, I Avropa oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov dövlətimizin başçısına və Təşkilat Komitəsinin sədrinə görülmüş işlərlə bağlı məlumat verdi.*

*Qeyd edildi ki, I Avropa oyunlarının keçirilməsi zamanı istifadə olunacaq Atletlər kəndi 383 min kvadratmetr sahəni əhatə edir. Atletlər kəndi oyunların keçiriləcəyi əsas idman komplekslərinə – Bakı Olimpiya stadionuna, Milli Gimnastika Arenasına və Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxın olmaqla yanaşı, şəhərin müxtəlif istiqamətlərinə gediş-gəlişin rahat və sərfəli olduğu bir ərazidə yerləşir.*

*Azərbaycan prezidenti İlham Əliyev Atletlər kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva atletlərin qalacağı binalarda yaradılan şəraitlə tanış oldular. 13 yaşayış binasından və yardımçı binalardan ibarət kompleksdə 2, 3 və 4 otaqlı 1042 mənzil var. Hər mənzil isə 2, 4 və 6 yataq otağından ibarətdir. Burada ümumilikdə 7499 atlet və rəsmi şəxs yerləşə biləcək. Atletlər kəndində idmançılar və komanda rəsmiləri üçün təhlükəsiz, rahat yaşayış şəraiti yaradılıb. Hər binanın 1-ci mərtəbəsində ümumi*

*istirahət yerləri var. Burada pulsuz internetə çıxış imkanı olacaq.*

*Oyunlar müddətində atletləri və qonaqları idman arenalarına vaxtında çatdırmaq üçün inşa edilən böyük avtobus dayanacağında hər cür şərait yaradılıb.*

*Prezident İlham Əliyev və Mehriban Əliyeva Atletlər kəndindəki yeməkxana ilə tanış oldular. Bildirildi ki, burada idmançılara əsasən dünya mətbəxindən təamlar təqdim ediləcək. Yeməkxanada eyni vaxtda 2015 atletə yüksək səviyyədə xidmət göstəriləcək.*

*Dövlətimizin başçısı Atletlər kəndinin kommersiya mərkəzi ilə də tanış oldu. Burada gözəllik salonu, poçt, turizm ofisi və valyuta mübadiləsi məntəqəsi fəaliyyət göstərəcək. Oyunların keçirildiyi günlərdə buradakı supermarketdə «Bakı–2015» I Avropa oyunlarının rəmzlərinin əks olunduğu məhsullar satışa çıxarılacaq. Kommersiya mərkəzindən müxtəlif stadionlarda və idman qurğularında oyunları izləmək üçün bilet almaq da mümkün olacaq. Bunun üçün ayrıca bilet satışı məntəqəsi fəaliyyət göstərəcək.*

*Qeyd olundu ki, bu mötəbər idman yarışını izləmək üçün artıq 200 minə yaxın bilet satılıb. Bu proses hazırda davam edir. Müşahidələr göstərir ki, oyunlara maraq həddən artıq böyükdür.*

*Atletlər kəndinin mədəniyyət və turizm mərkəzində isə sərgi təşkil olunacaq. Burada ölkəmizin müxtəlif dövrlərə aid sənətkarlıq nümunələri, o cümlədən xalça, geyim və məişət əşyalarının nümayişi və satışı təşkil ediləcək.*

*Sonra prezident İlham Əliyev və I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva «Best of Azerbaijan» adlanan yeməkxana ilə tanış oldular. Burada yalnız ölkəmizin zəngin mətbəxinə aid təamlar təklif olunacaq və bu xidmətdən eyni vaxtda 450 idmançı istifadə edə biləcək.*

*Atletlər kəndində əsas diqqət yetirilən məsələlərdən biri də yarışlar zamanı idmançılara və məşqçilərə, qonaqlara, ümumiyyətlə, ehtiyacı olan hər kəsə yüksək tibbi xidmət göstərmək-*

dir. Bu məqsədlə burada xüsusi poliklinika fəaliyyət göstərəcək. Binada müxtəlif təyinatlı otaqlar, o cümlədən qeydiyyat, müalicə, stomatoloji, oftalmoloji, laboratoriya, rentgen, fizioterapiya və s. xidmət sahələri var. Poliklinika ən zəruri avadanlıqlarla təchiz olunub. Bu səhiyyə mərkəzi hər gün səhər saat 8-dən axşam saat 20-dək fəaliyyət göstərəcək və günün 24 saatı təcili yardım xidməti olacaq. Dopinq nəzarəti mərkəzi poliklinika ilə yanaşı yerləşir.

Sonra prezident İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Media kəndinin açılışında iştirak etdilər.

Azərbaycan Prezidenti Media kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.

I Avropa oyunlarını işıqlandırmaq məqsədilə ölkəmizə gələn jurnalistlər Media kəndində yerləşdiriləcək. Burada media nümayəndələrinə səmərəli işləmək və istirahət etmək üçün hər cür şərait yaradılıb. Akkreditasiya mərkəzi ilə tanışlıq zamanı bildirildi ki, ilk Avropa oyunlarını işıqlandırmaq məqsədilə 900-ə yaxın xarici media təmsilçisi qeydiyyatdan keçib. Burada da mədəniyyət və turizm mərkəzi yaradılıb. Mərkəzdə jurnalistlər üçün Azərbaycan haqqında müxtəlif məlumatların əks olunduğu bukletlər və kitablar sərgilənir. Burada yaradılan şərait təsdiq edir ki, Azərbaycanda I Avropa oyunlarına ən yüksək səviyyədə və bütün parametrlərə uyğun hazırlıq gedir. Xarici media təmsilçilərinə yaradılan şərait jurnalistlərə oyunları operativ şəkildə bütün dünyaya çatdırmağa imkan verəcək. Onları Media kəndindən idman arenalarına pulsuz xüsusi avtobuslar aparıb-gətirəcək.

Prezident İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva jurnalistlərin qalacağı mənzillərlə tanış oldular. Media kəndindəki 4 binada ümumilikdə 536 mənzil var. Media kəndində jurnalistlər üçün ayrıca yeməkxana nəzərdə tutulub. Burada onlara dünya mətbəxindən müxtəlif təamlar təklif olunacaq. Yeməkxanada eyni vaxtda 500 nəfər qidalana biləcək.

*Həm Atletlər, həm də Media kəndlərində yaradılan şərait dünyada idman ölkəsi kimi tanınan, olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycanda bu cür infrastruktur layihələrinin icrası həm də ölkəmizin uğurlu inkişafının göstəricisidir. Burada görülən hazırlıq işləri bu mötəbər beynəlxalq idman tədbirinin yüksək səviyyədə keçiriləcəyinə bir daha əminlik yaradır. Oyunlar zamanı paytaxtımıza 10 minədək idmançının, məşqçinin, rəsmi şəxsin, jurnalistin gələcəyi gözlənilir. Yarış günlərində Avropanın, eləcə də dünyanın aparıcı telekanalları Bakıdan xəbərlər yayacaq, paytaxtımız növbəti dəfə dünya idmanının mərkəzinə çevriləcək. I Avropa oyunlarının keçirilməsində qazanacağımız təcrübə gələcəkdə digər mühüm yarışlara ev sahibliyi etməyimizə geniş imkan yaradacaq.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ANDJEY DUDAYA**

Hörmətli cənab Duda!

Polşa Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Polşa arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Ümidvaram ki, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Polşa xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2015-ci il*

**NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM BARAN YADAVA**

Hörmətli cənab Prezident!

Nepal Federativ Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Nepal xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2015-ci il*

## «DALĞA BEACH–AQUA PARK» AİLƏVİ İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*26 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 26-da «Dalğa Beach–Aqua Park» ailəvi istirahət mərkəzinin açılışında iştirak etmişlər.*

Paytaxtın Xəzər rayonunun Mərdəkan qəsəbəsində yeni inşa edilmiş «Dalğa Beach–Aqua Park» xidmətin müxtəlifliyi və quruluşunun cazibədarlığı ilə fərqlənir.

Ailəvi istirahət parkında yaradılan şəraitlə bağlı dövlətimizin başçısına məlumat verildi. Qeyd edildi ki, «Dalğa Beach–Aqua Park»ın ümumi sahəsi 68 min kvadratmetrdir. Ərazisinə görə bu, Azərbaycanda ən böyük «Aqua park»dır. Xəzər dənizinin sahilində yerləşən istirahət mərkəzi nəfis tərtibatda, orijinal üslubda inşa olunub. İstirahət kompleksində ümumi sahəsi 12 min kvadratmetr olan 7 hovuz yaradılıb. Bu hovuzlarda qonaqlar süni dalğalar vasitəsilə «Surfinq» idman növü ilə məşğul ola biləcəklər. Hovuzlarda 7 su attraksionu quraşdırılıb. Burada balacaların mənalı istirahəti üçün 700 kvadratmetr sahəsi olan hovuz və digər əyləncə qurğuları yaradılıb. İstirahət edənlərə xidmətin ən müasir səviyyədə təşkili üçün kompleksdə çoxlu sayda restoran və xidmət obyektləri inşa edilib. «Dalğa Beach–Aqua Park»ın disko-klubunda dünyanın məşhur şirkətlərinin səs və işıq effektləri avadanlığı quraşdırılıb. Bu isə disko-klubda müxtəlif səpkili əyləncəli şou və proqramları təşkil etməyə imkan verir.

Qonaqların istirahətinin mənalı təşkili üçün ərazidə hər şey yüksək zövqlə tərtib olunub. Rəngarəng yaşıllıq guşələri, hovuzların əlverişli arxitektura ilə salınması istirahət üçün buraya üz tutanlarda gözəl əhval-ruhiyyə yaradacaq. İstirahət mərkəzinə gələnlərə buradakı restoranlarda Azərbaycan və dünya

*mətbəxinin nümunələri, həmçinin dəniz məhsullarından hazırlanmış müxtəlif çeşidli yeməklər təklif olunacaq. Yeni istirahət mərkəzini fərqləndirən əsas cəhətlərdən biri də burada daimi fəaliyyət göstərən və orijinallığı ilə seçilən su attraksionunun olmasıdır.*

*Dövlətimizin başçısı və xanımı dənizin içində inşa edilmiş «Mayak» restoranında da oldular. Bu iaşə obyekti xidmətin orijinal təşkili ilə yanaşı, Bakının köhnə mayaklarının arxitektura üslubunda tikilməsi ilə də diqqəti cəlb edir. Buradan Xəzərə açılan mənzərə istirahətə gələnlərdə xoş ovqat yaradacaq.*

*İstirahət mərkəzində 26 min kvadratmetr sahəsi olan çimərlik zonası da var.*

*«Dalğa Beach–Aqua Park» kompleksində «VIP-house» da inşa olunub. Burada müştərilərin rahatlığını tam təmin etmək məqsədilə hərtərəfli şərait yaradılıb. «VIP-house»un pəncərələrindən Xəzər dənizinə və istirahət mərkəzinə gözəl mənzərə açılır.*

*Təmiz hava və füsunkar dəniz mənzərəsinə malik «Dalğa Beach–Aqua Park» yerli və xarici turistlərin sevimli əyləncə və istirahət məkanına çevriləcək. Bu obyektin istifadəyə verilməsi Bakının turizm potensialını artırmaq və şəhərimizə gələn qonaqların istirahətini mənalı təşkil etmək baxımından mühüm əhəmiyyət daşıyır. Belə müasir infrastrukturla təchiz edilən ailəvi istirahət məkanının «Bakı–2015» ilk Avropa oyunları ərəfəsində açılması bu yarışlarla bağlı paytaxtımıza gələn turistlərdə ölkəmiz haqqında yaranacaq təəssüratları daha da zənginləşdirəcək.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.*

*97 il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən – «Əqdnamə»dən göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib. XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib.*

*Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi – 28 Mayı Respublika Günü kimi qeyd edir.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*«Buta» sarayı*

*27 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 27-də «Buta» sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilmiş rəsmi qəbulda iştirak etmişlər.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Prezident İlham Əliyev rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünya miqyaslı tarixi hadisə idi. Çünki müsəlman aləmində ilk demokratik respublika yaradılmışdı. Biz fəxr edirik ki, bu tarixi Azərbaycan xalqı yazıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bir daha onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı, vətənpərvər və mütərəqqi xalqdır. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsi bizim üçün əzizdir. Azərbaycan dövləti və Azərbaycan xalqı onların xatirəsini ehtiramla yaşadır. Bir neçə il bundan əvvəl mənim müvafiq sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılıb. Bu gün səhər mən o abidəni ziyarət etdim.

Dövlət quruculuğu prosesi başlanmışdı. Demokratik institutlar təsis edilmişdi. Siyasi islahatlar aparılmağa başlanmışdı. Bizim dövlət atributlarımız – Dövlət himnimiz, milli bayrağımız təsdiq edilmişdi. Qadınlara səsvermə hüququ verilmişdi. Onu da qeyd etməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti bunu bəzi Avropa ölkələrindən daha əvvəl etmişdi. Bir sözlə, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti çox müsbət, uğurlu idi. Baxmayaraq ki, Xalq Cümhuriyyəti bunu çox ağır geosiyasi şəraitdə etmişdi.

Əfsuslar ki, itkilərimiz də olmuşdu. Onların içində ən böyük itkimiz İrəvanın Ermənistana verilməsidir, bu bizim sağalmayan yaramızdır. Əlbəttə, biz tarixi həqiqətləri bilməliyik. Əfsuslar ki, tarix yaşlı nəslə təhrif edilmiş şəkildə təqdim olunurdu. Biz oxuduğumuz tarix kitablarında tarixi həqiqətləri görmürdük. Ona görə bəzi qaranlıq məqamlar da var idi. Bu gün Azərbaycan müstəqil dövlət kimi dünyaya açıqdır. Bu gün bütün tarixi həqiqətlər hər bir Azərbaycan vətəndaşı üçün bəllidir, artıq sirr deyil. İrəvanın Ermənistana verilməsi, əlbəttə, böyük səhv idi. Əfsuslar olsun ki, bu addım gələcəkdə Azərbaycana yönəlmiş işğalçı erməni siyasətini dayandırmadı.

Respublikanın ömrü qısa oldu. Əgər 2 ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bəlkə də bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş ölkə ola bilərdi. Ondan sonra sovet dövrü başlandı. Sovet dövründə həm müsbət, həm mənfi tərəflər var idi. Hesab edirəm ki, bizim alimlər sovet dövrünü və Azərbaycanın rolunu daha geniş şəkildə təhlil etməli, sanballı elmi əsərlər təqdim etməlidirlər. Necə ki, vaxtilə mənim məsləhətimlə alimlərimiz İrəvan xanlığı haqqında çox dəyərli, tarixi həqiqətə əsaslanmış elmi əsər yaratdılar.

Sovet dövrü də mürəkkəb dövr idi, Azərbaycan müstəqil, azad deyildi. Ancaq xalqımız inkişaf edirdi. Azərbaycanda o illərdə elm, təhsil inkişaf edirdi. Bu gün biz qürur hissi ilə deyirik ki, Azərbaycanda savadlılıq 100 faiz səviyyəsindədir. Bunun əsası, əlbəttə ki, sovet dövründə qoyulmuşdur.

Ölkəmizin sənaye potensialı, xüsusilə neft sənayesi inkişaf edirdi. Bu yaxınlarda faşizm üzərində Qələbənin 70 illiyini qeyd edərkən bütün dünya bir daha gördü ki, Azərbaycan xalqı, Azərbaycan neftçiləri ümumi Qələbəyə nə qədər böyük töhfə vermişlər. Azərbaycan nefti olmasaydı, müharibənin nəticəsi fərqli ola bilərdi.

Sovet dönəmində Azərbaycanın sürətli inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sadəcə olaraq, statistik rəqəmlərə baxmaq kifayətdir ki, bunu hər kəs görsün. Məhz ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda çox böyük quruculuq işləri aparıldı. Əgər o vaxta qədər Azərbaycan Sovet İttifaqında ən geridə qalmış yerlərdə idisə, keçən əsrin 80-ci illərinin əvvəllərində Azərbaycan ən qabaqcıl yerlərə çıxa bilmişdi. Rusiya Federasiyasından başqa, cəmi 2 respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri də Azərbaycan idi.

Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. O dövrü biz hamımız yaxşı xatırlayırıq, çox ağır dövr idi. O dövrdə Azərbaycan böyük itkilər verdi. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçdi. Xaos, anarxiya, iqtisadi və siyasi böhran, vətəndaş müharibəsi təhlükəsi, torpaqlarımızın işğal altına düşməsi. Xüsusilə Kəlbəcər, Laçın, Şuşa rayonlarının işğalından sonra Ermənistan ilə Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı və bu, müharibənin birinci mərhələsinin yekunlarına, əlbəttə ki, öz mənfi təsirini göstərdi.

1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra vəziyyət sabitləşdi. Əlbəttə, sabitlik başlıca şərt idi ki, Azərbaycan inkişaf etsin. Siyasi sabitlik, ondan sonra da iqtisadi sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, siyasi, iqtisadi islahatlar aparılmağa başlandı. Bir sözlə, o tarix – 1993-cü il müstəqil Azərbaycanın yeni dövrünün başlanması idi. Əslində müstəqilliyimiz məhz o vaxt başlandı. O vaxtdan başlayaraq bu günə qədər Azərbaycan sürətlə inkişaf edir.

Mayın 10-da – ulu öndərin doğum günündə o dövrü və ondan sonrakı dövrü mən geniş təhlil etdim. Bu gün Azərbaycan dövləti möhkəm əsaslar, milli maraqlar üzərində qurulub. Bizim milli ideologiyamız, azərbaycançılıq fəlsəfəsi bütün cəmiyyəti birləşdirir. Müstəqil Azərbaycan dövləti möhkəm milli dəyərlər üzərində qurulub. Bizim güclü iqtisadi dayaqlarımız var. İqtisadi potensial həm iqtisadi, həm də siyasi müstəqilliyimizi şərtləndirir. Beynəlxalq aləm Azərbaycanın dünyadakı rolunu qiymətləndirir və bizə çox böyük dəstək verir.

Ölkəmizdə bütün işlər müsbət istiqamətdə inkişaf edir. Bir neçə il bundan əvvəl yaşanan iqtisadi və maliyyə böhranı bütün dünyanı bürümüşdü, amma bu, Azərbaycana çox az təsir etmişdi. Hazırda yenə də dünyada yaşanan siyasi, hərbi və iqtisadi böhran Azərbaycana təsir etmir. Ona görə ki, biz düşünülmüş siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Biz öz gələcəyimizi bunda görürük. Müstəqil siyasətin aparılması həm ölkədəki vəziyyəti daha da sabitləşdirir, eyni zamanda, dünya miqyasında Azərbaycan etibarlı tərəfdaş kimi tanınır. Bizim sözümüzün çəkisi var və bizim rolumuz həm regionda, həm qitədə, həm də dünyada artmaqdadır.

Biz buna Azərbaycan xalqının zəhməti, istedadı hesabına və düşünülmüş siyasət nəticəsində nail olmuşuq. Heç kim bizə kömək etməmişdir. Bu gün reallıqlar onu göstərir ki, dünya miqyasında Azərbaycan kimi sürətlə inkişaf edən ölkələr azlıq təşkil edir.

Eyni zamanda, ölkəmizdə ictimai proseslər müsbət istiqamətdə inkişaf edir. Azərbaycanda vətəndaş cəmiyyəti tam formalaşıb. Azərbaycanda azad cəmiyyət mövcuddur. İqtisadi, siyasi sahədə bütün azadlıqlar təmin edilir. Bu bizim uğurlu inkişafımızı təmin edir. Baxın, dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar, müharibələr, böhranlar yaşanır. Əvvəldən qalan münaqişələr öz həllini tapmır, üstəgəl yeni münaqişə zonaları yaradılır. Bu bizim gözümüzün önündədir. Ancaq

Azərbaycan burada yenə də sabitliklə, düşünülmüş siyasətlə seçilir. Azərbaycan bu gərgin məkanda nəinki sabitlik adasıdır, eyni zamanda, sabitləşdirici amildir. Bizim bölgəyə çox müsbət təsirimiz var. Siyasi təşəbbüslər, iqtisadi, enerji, nəqliyyat təşəbbüsləri regional əməkdaşlığın əsasını təmin edir və burada Azərbaycanın rolu artır. Əlbəttə, bu bizi sevindirir. Ancaq ən önəmlisi ondan ibarətdir ki, bizim artan beynəlxalq nüfuzumuz ölkəmizin inkişafına çox müsbət təsir göstərir.

Neftin qiymətinin aşağı düşməsi bizə o qədər də böyük problem yaratmadı. Hər halda, bütün sosial proqramlar, nəzərdə tutulmuş bütün infrastruktur layihələri icra edilir. Əlbəttə ki, biz öz xərclərimizə yenidən baxmalı olduq. Ancaq hesab edirəm ki, burada müsbət məqamlar da çoxdur. Biz gələcəkdə öz maliyyə resurslarımızdan daha da qənaətlə istifadə edəcəyik, ölkəmizin və real sektorun inkişafına daha çox diqqət göstərəcəyik, əsas vəsaiti bu istiqamətə yönəldəcəyik. Təbii ki, sosial proqramlar və sosial məsələlər, o cümlədən sosial infrastrukturun yaradılması da diqqət mərkəzində olacaqdır.

Bu gün bayram ərəfəsində mən qarşıda duran vəzifələr haqqında fikirlərimi bildirmək istəyirəm. Mən bu məsələlərlə bağlı mütəmadi qaydada öz sözlərimi deyirəm, çıxış edirəm, xalqa hesabat verirəm və gələcək istiqamətlər haqqında fikirlərimi çatdırıram.

Daxili siyasətlə bağlı bizim çox konkret proqramlarımız var. Azərbaycanda daxili sabitlik qorunur, bütün azadlıqlar təmin edilir. Gələcəkdə Azərbaycanda demokratiyanın inkişafı prosesi daha da sürətlə gedəcək. Hüquqi dövlət quruculuğu prosesi də uğurla gedir. Bütün azadlıqlar bundan sonra da təmin ediləcək. Mətbuat azadlığı, söz azadlığı, siyasi fəaliyyət azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan, din azadlığı tam şəkildə təmin edilir və biz gələcəkdə də bu yolla gedəcəyik. Biz möhkəm demokratik əsaslar qururuq ki, ölkəmizin inkişafı dayanıqlı və uzunmüddətli olsun.

Azərbaycanda dinlərarası münasibətlər ən müsbət şəkildə tənzimlənir. Bunu Azərbaycan xalqı da qeyd edir, görür. Eyni

zamanda, Bakıya, Azərbaycana gələn bütün xarici qonaqlar da bunu qeyd edirlər ki, Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlər ən yüksək səviyyədə təmin edilir. Bu da bizim çox böyük sərvətimizdir və ölkəmizin gələcəkdə uğurlu, təhlükəsiz inkişafı üçün əsas şərtdir. Bundan sonra da Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bizim dövlət siyasətimiz bundan ibarətdir. Milli, etnik, dini müxtəliflik bizim böyük sərvətimizdir və bizim üçün güc mənbəyidir.

Cəmiyyəti narahat edən məsələlərlə bağlı konkret addımlar atılır. Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır. Həm inzibati tədbirlər, lazım gəldikdə cəza tədbirləri də həyata keçirilir. Ən əsası odur ki, bu sahədə sistem xarakterli islahatlar, institusional islahatlar mühüm rol oynayır. Biz bu sahədə «ASAN xidmət»in fəaliyyətini qeyd etməliyik. Bu yaxınlarda «ASAN xidmət» BMT tərəfindən yüksək mükafatla təltif edilib. Qısa müddətdə – 2 il ərzində 4 milyondan çox insan bu xidmətin imkanlarından faydalanıb. Biz bu şəffaflıq prinsiplərini bütün sistemimizə – dövlət quruculuğu sisteminə, maliyyə sisteminə tətbiq etməliyik və bu müsbət təcrübəni yaymalıyıq. Konkret tapşırıqlar verilib və əlavə tədbirlərin görülməsi üçün indi iş gedir.

İdarəetmə sahəsində müsbət islahatlar aparılır. Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, bu mənim çox səmimi fikirlərimdir. İctimai nəzarət olmasa, ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam – prezident, yaxud da ki, rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə bəzi hallarda qanunsuzluqlar, qanun pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu bizi çox üzür. Biz buna yol verə bilmərik. Bunun qarşısını almaq üçün mütləq çox güclü ictimai nəzarət olmalıdır. Belə olarsa, o zaman işlər daha da sürətlə gedər və xoşagəlməz halların aradan qaldırılması üçün yeni bir mexanizm yarana bilər. Burada, əlbəttə ki, dövlət idarəetmə prinsiplərində

ciddi islahatlar aparılmalıdır və eyni zamanda, ictimaiyyət də daha fəal olmalıdır. Biz bunu son vaxtlar görürük. Bizim ictimaiyyət hər hansı bir yerdə qanunsuzluq, pozuntu, ədalətsizlik baş verdikdə dərhal reaksiya verir. Mən bunu alqışlayıram. Bu bizə kömək edir. Bu canlı bağlantı daim olmalıdır və güclənməlidir.

Azərbaycanda daxili siyasətlə bağlı digər məsələlər də müsbət istiqamətdə tənzimlənir. Xalqla iqtidar arasında birlik bizim uğurlu inkişafımızın əsas şərtidir. Azərbaycanın uğurlu inkişafı təmin edilir.

Təhlükəsizliklə bağlı tədbirlər indi bütün ölkələri düşündürür. Biz bu işlərlə ciddi məşğuluq və məhz buna görə Azərbaycanda kriminogen durum çox müsbətdir. Biz adambaşına düşən cinayətlərin sayının azlığına görə dünyada ən yaxşı yerlərdən birini tuturuq. Azərbaycanda siyasi, iqtisadi islahatlar, insanların rifah halının yaxşılaşması, eyni zamanda, təhlükəsizlik tədbirlərinin tətbiqi nəticəsində bu gün deyə bilərəm ki, ölkədə daxili təhlükə mənbəyi yoxdur. Əlbəttə ki, xaricdən təhdidlər ola bilər. Xüsusilə terrorizmlə bağlı təhdidlər. Ancaq bizim hüquq-mühafizə orqanları bu məsələlərlə bağlı ciddi fəaliyyət göstərirlər. Əminəm ki, Azərbaycan xalqı bundan sonra da təhlükəsizlik şəraitində yaşayacaqdır.

Ölkəmizdə çoxsaylı beynəlxalq tədbirlər keçirilir. Mən bunu alqışlayıram. Deyə bilərəm ki, bir çox hallarda bu tədbirlərin təşəbbüskarı da mənəm. Bu, ölkəmizin inkişafı üçün çox vacibdir. Eyni zamanda, dünyada Azərbaycanı daha çox tanıyacaqlar, Azərbaycana daha da çox hörmət edəcəklər. Bakıya gələn qonaqlarla apardığım söhbətlər əsnasında onlar qeyd edirlər ki, Azərbaycanın və Bakının bu qədər inkişaf etmiş ölkə və şəhər olduğunu gözləmirdilər.

Azərbaycanda siyasi tədbirlər, dövlət və hökumət başçılarının iştirakı ilə müzakirələr, forumlar, mədəniyyətlərarası forumlar keçirilir. Bu yaxınlarda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Qlobal Bakı Forumu keçirildi. Azərbaycanda Beynəlxalq Humanitar Forum keçirilir. Bu tədbirlər, eyni zamanda, idman tədbirləri, Avropa oyunları,

İslam Həmrəyliyi oyunları, digər beynəlxalq idman yarışları Azərbaycanı dünyaya inkişaf edən, müasir, güclü dövlət kimi təqdim edir. Bu özlüyündə Azərbaycana qoyulan investisiyaların həcmində də, turistlərin artan sayında da özünü göstərir. Yəni həm imic, həm təqdimat, həm də real iqtisadiyyat baxımından bunlar çox önəmli tədbirlərdir. Biz gələcəkdə də Azərbaycanda müxtəlif qlobal tədbirlərin keçirilməsini təmin edəcəyik. Bu gün Bakı, Azərbaycan regionun iqtisadi, siyasi və mədəni mərkəzlərindən biridir.

Xarici siyasətlə bağlı bizim düşünülmüş addımlarımız ölkəmizin imicini yüksəldir. Bu da göz qabağındadır. Biz bütün ölkələrlə bundan sonra da bərabərhüquqlu əlaqələrin inkişafını təmin edəcəyik. Bu, xarici siyasətimizin əsas prinsiplərindən biridir. Biz daha çox ikitərəfli formata üstünlük veririk. Biz görürük ki, həm siyasi əlaqələr, həm də iqtisadi investisiya baxımından ikitərəfli formatda çox böyük nailiyyətlər əldə etmək olar. Azərbaycanın ikitərəfli formatda heç bir ölkə ilə heç bir problemi yoxdur. Əksinə, biz bütün ölkələrlə çox sağlam əlaqələr yarada bilmişik. Bu əlaqələr, əlbəttə ki, prinsiplər üzərində qurulmalıdır və qurulubdur. Bizim siyasətimiz həmişə bundan ibarət olub ki, burada bərabərhüquqlu, bir-birinə hörmət və bir-birinin işinə qarışmamaq prinsipləri əsasında üfüqi əlaqələr olmalıdır. Biz buna nail oluruq. Bizim təbliğ etdiyimiz bu prinsiplər bu gün başqa ölkələrlə əlaqələrimizdə üstünlük təşkil edir.

Beynəlxalq təşkilatlarla əlaqələrimiz də yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal iştirak edirik və bundan sonra da fəal iştirak edəcəyik. İlk növbədə, BMT-də və «Qoşulmama Hərəkatı»nda. Bu qurum BMT-dən sonra ölkələrin sayına görə 2-ci təşkilatdır. Azərbaycan «Qoşulmama Hərəkatı»na bir neçə il bundan əvvəl üzv oldu və dərhal bu qurum Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü əsasında həlli ilə bağlı qətnamə qəbul etdi.

Azərbaycan müsəlman aləminin bir parçasıdır və İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının baş katibi ölkəmizdə olarkən Azərbaycanın rolu haqqında danışdı. Biz Avropa Şurasının da üzvüyük və bu yaxınlarda Avropa Şurasına sədrlik edirdik. Bu əməkdaşlıq da həm bizim, həm də Avropa Şurası üçün çox önəmlidir. Bu yaxınlarda III Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində qeyd edildi ki, məhz Azərbaycan «Bakı prosesi»nin müəllifidir. «Bakı prosesi» Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mədəniyyət sahəsində və başqa sahələrdə dialoqun əsasını təşkil edir.

Bizim bu nadir rolumuz bu gün həm müsəlman aləmində, həm də Avropada yüksək qiymətləndirilir. Sizə deyə bilərəm ki, heç bir başqa ölkə hazırda bu rolu öz üzərinə götürə bilməz, götürsə də bizim qədər uğur əldə edə bilməz. Çünki Azərbaycanda bu müsbət prosesin inkişafı üçün çox möhkəm tarixi əsaslar var. Əsrlərboyu Azərbaycanda multikulturalizm meyilləri yaşayıb. Sadəcə olaraq, bu, yeni söz olduğu üçün biz bu sözü bilmirdik və bu sözü tələffüz etmək o qədər də asan deyil. Ancaq bu anlayış Azərbaycanda həmişə var idi. Üstəgəl bu gün bizim dövlət siyasətimiz də bu əsaslar üzərində qurulur və bu siyasət real siyasətdir. Bu hansısa şüar naminə deyilən sözlər deyil. Çünki bilirsiniz, beynəlxalq aləmdə hər kəs şüarı real işdən ayıra bilir. Ona görə bu nadir rolu Azərbaycan öz üzərinə götürüb. Götürməyə də bilərdi. Götürməsəydik də, bilirsiniz, bizim iqtisadi, siyasi inkişafımız üçün heç bir problem yaranmazdı. Amma biz bu rolu üzərimizə götürürük. Çünki biz istəyirik ki, dünyada müsbət meyillər üstünlük təşkil etsin. Biz istəyirik ki, dinlərarası əlaqələr normal, sağlam məcrada olsun. Əks təqdirdə, dünyada parçalanma meyilləri daha da güclənəcək. Biz onu görürük. Hazırda dini, milli zəmində, məzhəb əsasında qarşıdurmalar, qanlı toqquşmalar dünyanı fəlakətə aparır. Əlbəttə ki, ölkəmizin dünya xəritəsindəki coğrafi yeri o qədər də böyük deyil. Amma

gördüyümüz işlər çox böyükdür. Biz bundan sonra da bu istiqamətdə səylərimizi göstərəcəyik.

Xarici siyasətimizin əsas problemi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Burada da bizim siyasətimiz və mövqemiz birmənalıdır. Birincisi, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Erməni lobbisinin çirkin səylərinə baxmayaraq, hesab edirəm, biz son illər ərzində apardığımız siyasət nəticəsində sübut edə bilmişik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. İkincisi, Dağlıq Qarabağ bütün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Biz BMT-yə üzv olduqda Dağlıq Qarabağ da bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi, Azərbaycanın bir parçası kimi qəbul edildi. Bu gün siyasi müstəvidə, əlbəttə ki, Azərbaycanın siyasi çəkisi Ermənistanın çəkisi ilə müqayisəedilməz dərəcədədir. Üçüncüsü, iqtisadi amildir. Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından ən azı 10 dəfə böyükdür və güclüdür. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Postsovet məkanında buna oxşar münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamə qəbul etməyib. Ancaq bu məsələ ilə bağlı qəbul olunmuş qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Ermənistan bunu nə qədər təhrif etməyə çalışsa da, mümkün deyil, çünki bu yazılıb və dərc edilib. Odur ki, siyasi, tarixi, hüquqi əsaslar var, onların hamısı bizim mövqemizi dəstəkləyir.

Azərbaycanda çox müsbət demoqrafik dinamika var, əhalimizin sayı artır. Artıq 9 milyon 600 mindir. Ermənistanda isə əhali azalır. Həm təbii azalma, həm də ki, kütləvi köç baş alıb gedir. Onların rəsmi statistikasına görə, hər il təxminən 70–80 min vətəndaş Ermənistanı həmişəlik tərk edir. Hesab edirəm ki, real statistika bundan daha böyükdür. Ona görə bu güclər nisbəti göz qabağındadır. Münaqişə ancaq ölkələrin ərazi bütövlüyü çərçivəsində həllini tapa bilər.

Azərbaycanın ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmir. Bunu hamı bilməlidir. Məsələ ərazi bütövlüyü çərçivəsində həllini tapacaq. Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək. Azərbaycan bunu heç vaxt qəbul etməyəcək və dünya bunu heç vaxt tanımayacaq. Bu yaxınlarda orada separatçı rejim və Ermənistan tərəfindən keçirilmiş saxta və qanunsuz «seçkilər» bir daha onu göstərdi ki, heç kim bunu tanımayıb və ölkələrin bir çoxu bu «seçkilər»i qınayıb.

Ordu quruculuğu prosesi bundan sonra da sürətlə gedəcək. Bu bizim diplomatik sahədə apardığımız səylərə böyük dəstəkdir. Son vaxtlar, keçən ilin yayından başlayaraq bu günə qədər Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü təmin edib və düşmənə sarsıdıcı zərbələr endirib. Bu gün artıq Ermənistan rəhbərliyi etiraf edir ki, xarici yardım olmadan Azərbaycanın qabağını almaq mümkün olmayacaq. Biz isə həmişə deyirik ki, siz əgər ölmək istəmirsinizsə, Dağlıq Qarabağdan, işğal edilmiş torpaqlardan çəkilin. Ondan sonra sülh yarana bilər, ondan sonra Azərbaycan və erməni xalqları barışa bilərlər. Biz hər halda, gələcəyi belə görürük. Biz hesab edirik ki, bu ədavət və düşmənçilik əbədi ola bilməz. Amma buna, ilk növbədə sülhə nail olmaq üçün erməni silahlı qüvvələri Dağlıq Qarabağdan və işğal edilmiş torpaqlardan çəkilməlidir. Burada ən məqbul variant məsələnin mərhələli həllidir. Biz dəfələrlə bu barədə öz sözümüzü demişik. Ancaq mərhələli həll burada məsələnin həllinə gətirib çıxara bilər. Əks təqdirdə, Ermənistan bundan sonra da daim qorxu, təşviş, vahimə içində yaşayacaq və gün gələcək ki, artıq Azərbaycan Ordusu öz sözünü deməli olacaq.

Bütün bu müsbət inkişafın təməlində, əlbəttə ki, bizim iqtisadi islahatlarımız, iqtisadi uğurlarımız dayanır. Mən bu barədə də kifayət qədər öz sözümü demişəm. Bütün iqtisadi göstəricilər ən müsbət mənzərə yaradır. Hətta bu il neftin qiymətinin 2 dəfə aşağı düşməsinə baxmayaraq, iqtisadiyyatımız ötən 4 ayda 5 faizdən çox, qeyri-neft sektorumuz təxminən 7

faiz artıb. Qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun təxminən 70 faizini təşkil edir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuzun təxminən 70–75 faizini, bəlkə də daha çox təşkil edir. Xarici borc 10 faiz ətrafındadır. Yoxsulluq, işsizlik 5 faiz səviyyəsindədir. Daha deməyə bundan artıq söz qalmır və ehtiyac da yoxdur.

Gələcəklə bağlı siyasətimiz ondan ibarətdir ki, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı təmin ediləcək. Azərbaycanda dayanıqlı inkişaf modeli tətbiq edilir. Əlbəttə ki, gələcəkdə sənayenin inkişafı, kənd təsərrüfatı istehsalının, ixrac potensialımızın artırılması daim diqqət mərkəzində olacaqdır.

Azərbaycanda indi sənayeləşmə prosesi gedir. Kənd təsərrüfatı da sürətlə inkişaf edir. Bu il «Kənd təsərrüfatı ili» elan edilib. Əsas hədəfimiz özümüzü lazımi ərzaq məhsulları ilə 100 faiz təmin etməkdir. Həmçinin güclü rəqabətqabliyyətli ixrac potensialı da yaratmalıyıq. Çünki gələcəkdə kənd təsərrüfatımız ancaq ixrac hesabına sürətlə inkişaf edə bilər. Yaxın bir neçə il ərzində biz daxili tələbatı tam yerli istehsal hesabına təmin edəcəyik.

Nəqliyyatla bağlı gələcək planlarımız artıq görülmüş işlər əsasında qurulur. Ümid edirəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu yaxın vaxtlarda işə düşəcək. Bu da dünya üçün çox əhəmiyyətli layihədir. Hazırda Azərbaycanda 7 aeroport fəaliyyət göstərir, onlardan 5-i beynəlxalq statusa malikdir. Xəzərdə ən böyük dəniz limanı yaradılır. Eyni zamanda, Gəmiqayırma zavodu işə düşüb, Vaqonqayırma zavodu tikilir. Yəni Azərbaycan logistik və nəqliyyat mərkəzi kimi dünya xəritəsində öz mövcudluğunu artıq təsdiq edir. Gələcəkdə bu sahəyə qoyulacaq investisiyalar, əlbəttə ki, çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılmasına kömək göstərəcək. Şimal–Cənub və Şərq–Qərb dəhlizləri Azərbaycan ərazisindən keçir. Hər iki istiqamətdə çox fəal iş aparılır.

Son müddət ərzində, keçən bayramlardan sonra görün energetika sahəsində nə qədər əhəmiyyətli hadisə baş verib. Keçən il sentyabrın 20-də «Cənub Qaz Dəhlizi»nin təməli qoyuldu. O

tarix də çox rəmzi məna daşıyır. Ondan sonra Bakıda «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının ilk toplantısı keçirildi. Mart ayında isə Türkiyədə TANAP layihəsinin təməli qoyuldu. İndi bütün səylərimiz ona yönəlib ki, bizi Gürcüstanla birləşdirən «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsini və TANAP–Trans–Anadolu layihəsinin inşasını vaxtında, bəlkə də vaxtından əvvəl təmin edək. Məncə, biz qarşımıza qoyduğumuz hədəflərə vaxtında, bəlkə də daha tez çatacağıq. Ümid edirəm ki, TAP–Trans–Adriatik layihəsinin qarşısında da heç bir süni əngəl meydana çıxmayacaq. Əgər belə əngəl olarsa, o zaman, əlbəttə ki, burada udan tərəf olmayacaq.

Onu da qeyd etməliyəm ki, Azərbaycanın zəngin qaz resursları bizi və tərəfdaşlarımızı bundan sonra ən azı 100 il ərzində təmin edəcək. Əlbəttə ki, bizim bazarlara çıxışımızla bağlı konkret addımlar atılır. Əgər TAP layihəsində hər hansı bir problem yaranarsa, o zaman biz qazımızı daha çox Türkiyə bazarına ixrac edəcəyik. Hər halda, onu qeyd etməliyəm ki, bazarlarla bağlı bizim heç bir narahatlığımız yoxdur. Sadəcə olaraq, TAP iştirakçılarının hamısı gərək məsuliyyətli davransınlar və süni şəkildə problem yaratmasınlar. Gələcəkdə, əlbəttə ki, «Cənub Qaz Dəhlizi»nin tam şəkildə işə düşməsi «Şahdəniz» yatağının işlənməsi ilə bərabər, bizim strateji hədəfimizdir.

Əslində qarşıda duran vəzifələr daha da çoxdur, bir çıxışda onların hamısını qeyd etmək mümkün deyil. Sadəcə olaraq, bəziləri haqqında fikirlərimi bildirdim. Həm söylədiyim sözlər, həm aparılan təhlil, həm gələcəyə olan baxışlarımız bir daha bizi əmin edir ki, Azərbaycanın inkişafı davamlı olacaq. Biz bundan sonra da inkişaf yolu ilə gedəcəyik. Bu inkişafın əsası bizim müstəqilliyimizdir. Müstəqilliyimiz bizim ən böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq.

Sağ olun.

## MİSİR ƏRƏB RESPUBLİKASININ CƏNUBİ SİNAY ƏYALƏTİNİN QUBERNATORU XALED FOUDANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Misir Ərəb Respublikasının Cənubi Sinay əyalətinin qubernatoru Xaled Foudanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qubernator Xaled Foudanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu olacağına və ölkəmizlə yaxından tanışlıq üçün yaxşı imkan yaradacağına əminliyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında həm ikitərəfli, həm çoxtərəfli və eləcə də regionlararası əməkdaşlıq əlaqələrinin yüksək səviyyəyə qaldırılmasının önəmini vurğuladı və bu əlaqələrin inkişaf etdirilməsinin daim diqqət mərkəzində saxlanılmasının zəruriliyini bildirdi. Xalqlarımızın bir-birinə böyük rəğbət bəslədiyini deyən dövlətimizin başçısı əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da səfərin əhəmiyyətini qeyd etdi.*

*Cənubi Sinay əyalətinin qubernatoru Xaled Fouda Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, 28 May – Respublika Günü münasibətilə dövlətimizin başçısını təbrik etdi. Xaled Fouda Azərbaycana ilk dəfə səfər etməsinə baxmayaraq, artıq ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Misirli qonaq Azərbaycanın regionda aparıcı ölkə olduğunu qeyd edərək, prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun genişləndirilməsi, regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işində mühüm rol*

*oynadığını vurğuladı. I Avropa oyunlarının ilk dəfə olaraq Azərbaycanda keçirilməsini yüksək qiymətləndirən Xaled Fouda 2017-ci ildə İslam Həmrəyliyi oyunlarının ölkəmizdə keçirilməsi ilə bağlı qəbul olunmuş qərarın önəmini vurğuladı.*

*Dövlətimizin başçısı prezident Əbdülfəttah əs-Sisinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Misir Prezidentinə çatdırmağı xahiş etdi.*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə İtaliya arasında möhkəm dostluq münasibətləri mövcuddur. Ümidvaram ki, daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız bundan sonra da ölkələrimizin çiçəklənməsinə, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İtaliya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2015-ci il*

## I AVROPA OYUNLARI ƏMƏLİYYAT KOMİTƏSİNİN BAŞ OFİSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*29 may 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mayın 29-da «Bakı–2015» Əməliyyat Komitəsinin baş ofisində yaradılan şəraitlə tanış olmuşlar.*

*Azərbaycanın Gənclər və İdman naziri, «Bakı–2015» I Avropa oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov və əməliyyatlar üzrə baş direktor Saymon Kleq ofisdə yaradılan şərait barədə dövlətimizin başçısına və Təşkilat Komitəsinin sədrinə məlumat verdilər.*

*Bildirildi ki, Bakıda keçiriləcək I Avropa oyunlarına hazırlıq üçün cəmi 2 il yarım vaxt ayrılmasına baxmayaraq, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın sədrlik etdiyi Təşkilat Komitəsinin, eləcə də Əməliyyat Komitəsinin səmərəli fəaliyyəti nəticəsində yarışların yüksək səviyyədə keçirilməsi üçün görülən işlər artıq başa çatmaq üzrədir. I Avropa oyunları ilə əlaqədar bütün nəqliyyat, qeydiyyat, informasiya, təhlükəsizlik və digər əməliyyatlar bu mərkəzdən idarə olunacaq. Mərkəzdə yerli və xarici mütəxəssislərin yüksək səviyyədə xidmət göstərmələri üçün hər cür şərait yaradılıb. Ümumilikdə, Komitədə yerli və xarici mütəxəssislərdən ibarət 1500-ə yaxın işçi çalışır.*

*Atletlərə xidmət və idman şöbəsi ilə tanışlıq zamanı bildirildi ki, oyunlarda iştirak edəcək bütün idmançıların, məşqçilərin yerləşməsi və lazımi idman avadanlıqları ilə təmin edilməsi, həmçinin onların təmsil olunduqları ölkələrin Milli Olimpiya komitələrinin rəsmilərinin qarşılanması və yerləşdirilməsi buradan idarə ediləcək.*

*Texnoloji Əməliyyatlar Mərkəzi və texnoloji dəstək şöbəsi I Avropa oyunlarına tam hazırdır. Oyunların keçiriləcəyi bütün obyektlərdə istifadə ediləcək texnoloji avadanlıqlar və oyunların yayımı buradan idarə olunacaq. Bütün bu işlər Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə aparılır.*

*Dövlətimizin başçısı və Təşkilat Komitəsinin sədri I Avropa oyunlarının keçiriləcəyi məkanlar və ümumi marşrutun əks olunduğu xəritə ilə də tanış oldular. Oyunlar zamanı təhlükəsizlik məsələləri də yüksək səviyyədə həyata keçiriləcək.*

*Birgə Təhlükəsizlik Əməliyyatları Mərkəzi ilə tanışlıq zamanı məlumat verildi ki, ilk Avropa oyunlarında qitə ölkələrindən minlərlə idmançı iştirak edəcək. Atletlərlə birgə, oyunları izləməyə gələcək çoxlu sayda tamaşaçı və turist axını da gözlənilir. Ən əsası isə həmin idmançıların və tamaşaçıların təhlükəsizliyinin təmin edilməsidir. Ümumilikdə, həm yarışların keçiriləcəyi arenalarda, həm də Avropa oyunlarına daxil olan marşrutlar üzrə 2400 kamera quraşdırılıb. Bütün təhlükəsizlik tədbirləri də bu mərkəzdən idarə ediləcək. Burada hüquq-mühafizə orqanlarının hər birindən nümayəndələr olacaq. Bütün bunlar Avropa oyunları ilə bağlı ölkəmizə gələn qonaqların rahatlığını təmin etmək baxımından önəmlidir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Oyunlar Əməliyyatlarına Dəstək Mərkəzi ilə tanış oldular.*

*Burada I Avropa oyunları Əməliyyat Komitəsinin bütün şöbələrinin rəhbərləri fəaliyyət göstərəcəklər. Əməliyyatların yüksək səviyyədə həyata keçirilməsi üçün mərkəz sutkaboyu işləyəcək.*

*Artıq ilk Avropa oyunlarının açılışına az vaxt qalıb. Çox qısa müddətdə görülən işlər bir daha təsdiqləyir ki, ilk Avropa oyunlarının Bakıda keçirilməsi ölkəmizdə yaşanan olimpiya hərəkatına verilən dəyərin təzahürüdür. Bu möhtəşəm hadisə həm də Azərbaycanda idman sahəsində yaşanan inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk*

belə hadisəyə ev sahibliyi etməsi təbii ki, həm də son illərdə ölkəmizin idman sahəsində qazandığı uğurlardan qaynaqlanır. Bu bir daha təsdiqləyir ki, 4 ildən bir keçiriləcək Avropa oyunlarının standartları məhz Azərbaycanda müəyyən olunacaq.

İyunun 12-dən 28-dək keçiriləcək I Avropa oyunlarında 49 ölkədən 6000-dən artıq atlet idmanın 20 növü üzrə mübarizə aparacaq. İlk Avropa oyunları Bakıda 21 məkanda keçiriləcək.

Avropa oyunları Əməliyyat Komitəsinin baş ofisində yaradılan şərait bu idman tədbirinin yüksək səviyyədə keçiriləcəyinə bir daha təminat verir.

Prezident İlham Əliyevə və Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya oyunlarda Azərbaycan idmançılarının istifadə edəcəkləri geyimlər barədə məlumat verildi.

Sonda xatirə şəkli çəkdirildi.

## XXII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ» SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli iştirakçılar!

Sizi XXII Beynəlxalq «Xəzər neft və qaz» sərgi və konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Böyük nüfuza malik bu ənənəvi işgüzar tədbiriniz təşkil olunduğu ilk vaxtlardan Azərbaycanın neft-qaz sənayesinin strateji hədəf və nailiyyətlərinin bəyan edilməsi üçün əlverişli şərait yaratmışdır.

İndi ölkəmiz özünün sosial-iqtisadi yüksəliş dövrünü yaşayır. Sürətli inkişafın nəticəsi olaraq qazandığımız uğurlar həyatımızın bütün sahələrində, o cümlədən qeyri-neft sektorunda əsaslı irəliləyişlərə yol açdı.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi enerji strategiyası bu gün də ardıcıl davam etdirilir. Azərbaycan iri həcmdə neft və qaz ixrac edən ölkələr sırasında qısa müddətdə öz layiqli yerini tutmaqla, Avropanın enerji təhlükəsizliyi üzrə strateji müttəfiqinə çevrilmiş və regional əməkdaşlıq məsələlərində konstruktiv rol oynayan etibarlı tərəfdaş olmuşdur.

Ötən dövr ərzində neft siyasətində davamlı inkişaf nümayiş etdirən Azərbaycan bir sıra transmilli layihələrin həm təşəbbüskarı olmuş, həm də onların icrasında fəal iştirak etmişdir.

TANAP qaz boru kəmərinin bu yaxınlarda keçirilmiş təməlqoyma mərasimi belə geosiyasi layihələrdə ölkəmizin mövqeyini möhkəmlədən önəmli addımlardan biridir.

20 ildən artıq təcrübəsi olan «Xəzər neft və qaz» sərgi və konfransı qüvvələrimizi birləşdirməklə, bütün iştirakçılar arasında həqiqi qarşılıqlı anlaşma mühiti yaradır, geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açır.

İnanıram ki, sərgi və konfransınız dünyada neft-qaz sahəsində gedən proseslər fonunda səmərəli əməkdaşlığa öz töhfəsini verəcək, mühüm görüş yeri olduğunu bir daha sübut edəcəkdir.

Hamınıza ölkələrinizin rifahı və tərəqqisi naminə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2015-ci il*

## LONDON ŞƏHƏRİNİN LORD-MERİ ALDERMAN ALAN YARROUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Böyük Britaniyanın London şəhərinin Lord-meri Alderman Alan Yarrounun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*London şəhərinin Lord-meri Alderman Alan Yarrou ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. O, I Avropa oyunlarının Azərbaycanda keçirilməsinin önəmini qeyd etdi. Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgi və konfransında iştirak edəcəyini bildirən Alderman Alan Yarrou tədbirdə ölkəsinin Baş naziri adından çıxış edəcəyini vurğuladı.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə yaxşı tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu dedi. Prezident İlham Əliyev Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgi və konfransının artıq ənənəvi olaraq hər il keçirildiyini və tədbirə marağın ildən-ilə artdığını məmnunluqla qeyd edərək, Böyük Britaniya Baş nazirinin sərgi və konfransa göstərdiyi diqqəti yüksək qiymətləndirdi. Son illər ölkəmizdə gedən sürətli inkişaf proseslərinə toxunan dövlətimizin başçısı paytaxtda böyük quruculuq işlərinin həyata keçirildiyini, müasir infrastrukturun və istirahət obyektlərinin yaradıldığını bildirdi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində bp-nin xüsusi rolu vurğulandı və əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırıldı.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ İVİTSA DAÇİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası Baş nazirinin müavini və Xarici İşlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İvitsa Daçiç ilə son görüşünü məmnunluqla xatırladan dövlətimizin başçısı İlham Əliyev onun ATƏT-in sədri kimi, ölkəmizə səfərinin önəmini qeyd etdi.*

*ATƏT-in fəaliyyətdə olan sədri İvitsa Daçiç Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Serbiyalı qonaq Azərbaycanda keçiriləcək I Avropa oyunlarının açılışı mərasimində ölkəsinin prezidentinin iştirak edəcəyini vurğuladı. Serbiyanın Baş naziri Aleksandr Vuçiçin bu yaxınlarda Azərbaycana səfərinə toxunan İvitsa Daçiç onun bu səfərdən çox məmnun qaldığını dedi.*

*Görüşdə Azərbaycan–ATƏT əməkdaşlığının perspektivləri, Azərbaycan ilə Serbiya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə daha da inkişaf etdirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlar prosesi, təmas xəttində baş verən hadisələr, problemin həllinin uzadılması, münaqişənin həllinə yanaşmada ikili standartların mövcud olması və digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

# İRAQ RESPUBLİKASININ NEFT NAZİRİ ADİL ƏBDÜLMEHDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də İraq Respublikasının Neft naziri Adil Əbdülmehdinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev əməkdaşlığımızın genişləndirilməsində müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı enerji sahəsində əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı.*

*Ölkəsinin Azərbaycan ilə dost münasibətdə olduğunu deyən İraqın Neft naziri Adil Əbdülmehdi əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən neft-qaz və digər sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İraq Respublikasının Neft Nazirliyi arasında imzalanan Memorandumun energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmi qeyd olundu.*

## BAKI «AĞ ŞƏHƏR» BULVARININ AÇILIŞI MƏRASİMİ

*1 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva iyunun 1-də Bakı «Ağ şəhər» bulvarının açılışında iştirak etmişlər.*

*Yeni «Ağ şəhər» bulvarı layihəsi çərçivəsində işlər yüksək səviyyədə həyata keçirilib. Bu bulvar əvvəllər «Qara şəhər» kimi tanınan və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazidə prezident İlham Əliyevin tapşırığı ilə ən müasir standartlara uyğun şəkildə salınıb.*

*Prezident İlham Əliyev bulvarın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısının sərəncamı ilə inşa olunan Bakı «Ağ şəhər» bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 33 hektardır. Burada gələcəkdə Uşaq kinoteatrının inşası da nəzərdə tutulub. Yeni bulvarda basketbol, voleybol və 2 futbol meydançası, ümumilikdə 4 yeni meydança inşa edilib. Bundan başqa, açıq havada yaradılan trenajor sahəsi də istirahətə gələnlərin ixtiyarına veriləcək.*

*Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi maraqlanıb, layihənin yüksək keyfiyyətlə icra olunmasına şəxsən nəzarət edib.*

*Prezident İlham Əliyev bulvarda istirahət edən sakinləri salamladı.*

**İlham Əliyev:** Necəsiniz? Necə istirahət edirsiniz?

**Sakinlər:** Çox sağ olun. «Son zəng»lə əlaqədar gəzintiyə çıxmışıq.

**İlham Əliyev:** Çox yaxşı. Burada yeni yol açılıb, köhnə bulvar «Ağ şəhər» bulvarı ilə birləşib.

**S a k i n l ə r:** Bəli, çox sağ olun.

*Azərbaycan Prezidenti və xanımı sakinlərlə xatirə şəkli çəkdirdilər.*

*Yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq «Bakı Ağ şəhər» layihəsini tamamlayır. Bundan başqa, bu layihənin reallaşması paytaxtımızın simasını daha da gözəlləşdirir. Bu bulvardakı «Boulevard» hoteldən Bayıl bulvarındakı Bakı Su İdmanı Sarayının qarşısınadək xüsusi qatarlar hərəkət edəcək. Qatarların bulvar boyu bir neçə yerdə dayanacağı olacaq.*

*«Ağ şəhər» bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində yaradılıb. Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artırdı.*

*Bakı «Ağ şəhər» bulvarı «Ağ şəhər»dən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edir. Belə müasir istirahət məkanının dünyanın diqqət mərkəzində olan I Avropa oyunları ərəfəsində istifadəyə verilməsi şəhərimizə gələn turistlərin istirahətini yüksək səviyyədə təmin etmək üçün şərait yaradır. Bu layihə bir daha onu göstərir ki, Bakının inkişafı ilə bağlı qarşıya qoyulan bütün məqsədlərə vaxtında və keyfiyyətlə nail olunur.*

## XXII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2015» SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİ

*Bakı Sərgi Mərkəzi*

*2 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 2-də Bakı Sərgi Mərkəzində XXII Beynəlxalq «Xəzər neft və qaz–2015» sərgisinin açılışı mərasimində iştirak etmişlər.*

*Mərasimi «ITE Group Plc» şirkətinin baş məsləhətçisi Endryu Vud açdı.*

**Endryu Vud:** Zati-aliləri cənab prezident Əliyev!

Xanımlar və cənablar!

Bu gün burada «ITE Group Plc» adından və eyni zamanda, XXII «Xəzər neft və qaz» sərgi və konfransının təşkilatçı komitəsi kimi iştirak etməkdən çox böyük məmnunluq duyuram.

Bu sərgi beynəlxalq gündəmdə artıq bir ənənəyə çevrilib. Neft və qaz sənayesi sahəsində ilk sərginin təməli sabiq prezident Heydər Əliyev tərəfindən qoyulub. Burada enerji sektoruna aid fürsətlər və imkanlar əvvəlki illərdə olduğu kimi, bu ilin də əhəmiyyətini artırır və bizim buraya gəlməyimizi daha önəmli edir. Bu sərgidə 300-dən çox şirkət iştirak edir, 20-dən artıq ölkə təmsil olunur. Almaniyadan, Rusiyadan, Çindən və digər ölkələrdən şirkətlər də iştirak edir. Çexiyadan və Polşadan şirkətlər bu sərgidə ilk dəfə təmsil olunur.

Azərbaycan hər zaman bu cür sərgilərə və konfranslara öz dəstəyini verib. Buna görə biz Azərbaycan hökumətinə öz təşəkkürümüzü bildiririk. Biz Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə işimizi böyük məmnuniyyətlə davam etdiririk və buna görə təşəkkür edirik.

Lakin, zati-aliləri, biz xüsusilə Sizə öz təşəkkürümüzü bildirmək istəyirik. Sizin bizə verdiyiniz dəstək və Azərbaycanda

keçirilən bütün tədbirlərə yüksək diqqət və qayğınız çox böyük əhəmiyyət daşıyır. Bu gün Sizin bu mərasimdə iştirakınız sərgi və konfransımızın nə dərəcədə əhəmiyyətli olduğunu bir daha göstərir.

Sonda mən bu fürsətdən istifadə edərək, zati-aliləri, təşkilatçılar adından Sizi və Azərbaycan xalqını ilk Avropa oyunlarının keçirilməsi münasibətilə təbrik edirəm. Bu nəinki mühüm tədbirdir, eyni zamanda, idman tarixində qalacaq böyük bir göstəridir.

Xanımlar və cənablar, bu sərgi-konfransda iştirak edənlərin hamısına uğurlar arzu edirəm. Hesab edirəm ki, biz birlikdə yeni-yeni fürsətlər axtarmalıyıq ki, bu sahəni daha da inkişaf etdirək. Çox sağ olun. Təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Qonaqlara Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm.

Bu gün «Xəzər neft və qaz» sərgisinin açılışı münasibətilə Azərbaycan xalqını təbrik etmək istəyirəm. Bu sərginin ölkəmizin həyatında çox böyük rolu vardır.

Birinci sərginin 1994-cü ildə keçirilməsi əlamətdar hadisə idi. Çünki o vaxt Azərbaycan çox gənc müstəqil dövlət idi. Məhz 1994-cü ildən sonra Azərbaycanda inkişafa doğru ciddi addımlar atılmağa başlandı.

Müstəqilliyimiz 1991-ci ildə bərpa edilmişdir. Ancaq 1991–1993-cü illərdə vəziyyət çox ağır idi, ölkəmizi böhran bürümüşdü – həm siyasi, həm iqtisadi, həm hərbi böhran. İqtisadiyyat iflic vəziyyətində idi və sənaye istehsalında, o cümlədən neft hasilatında tənəzzül müşahidə edilirdi. Ona görə 1994-cü ildə birinci sərginin keçirilməsi Azərbaycanı dünyaya təqdim etdi, tanıtdı.

Mən sərginin təşkilatçılarına minnətdarlığımı bildirmək istəyirəm. Onlar 22 il ərzində bu sərgini təşkil edir, Azərbaycanın artan enerji potensialını dünyaya nümayiş etdirir və bizimlə bərabər tərəfdaşlıq şəraitində fəal işləyirlər ki, Azərbaycan daha da sürətlə inkişaf etsin.

Artıq qeyd olundu ki, sərgidə 300-dən çox şirkət iştirak edir. Bu onu göstərir ki, baxmayaraq, birinci sərgidən 22 il ötür, sərgiyə maraq azalmır və beləliklə, Azərbaycan dünyaya öz imkanlarını təqdim etməyə davam edir.

1994-cü ildə birinci sərginin keçirilməsindən sonra Azərbaycanın yeni neft strategiyası formalaşdırılmışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Azərbaycanın yeni neft strategiyası bu gün ölkəmizin uğurlu inkişafını təmin edir.

1994-cü ilin sentyabr ayında tarixi müqavilə – «Əsrin müqaviləsi» imzalandı və bu, ölkəmizə böyük həcmdə xarici sərmayənin yatırılmasına gətirib çıxardı. Əgər 1994-cü ildə o tarixi addım atılmasaydı, indi ölkəmizin inkişafını təsəvvür etmək çox çətin olardı.

O illərdə xarici investorlar bizə inandılar. Baxmayaraq ki, Azərbaycan o vaxt çox riskli bir ölkə kimi tanınırdı. Xarici sərmayələrin qoyuluşu, investorlara çox yaxşı şəraitin yaradılması, eyni zamanda, imzalanmış bütün kontraktlarda Azərbaycanın milli maraqlarının qorunması bu uğurlu əməkdaşlığımızın əsas şərti idi. Həm investorların, həm dövlətin, həm də Azərbaycan xalqının maraqları üst-üstə düşürdü. Məhz bu gözəl əməkdaşlıq ruhu bu gün Azərbaycanın nəinki neft-qaz sektorunda, bütün başqa sahələrdə də uğurlu inkişafını təmin edir. Neft-qaz sahəsində xarici tərəfdaşlarla qazandığımız təcrübə bizə imkan verir ki, başqa sahələrə də investisiyaları cəlb edək, xarici şirkətlərlə uğurlu əməkdaşlıq edək və ölkəmizin şaxələndirilmiş inkişafını təmin edək.

«Əsrin müqaviləsi» XX əsrin müqaviləsi idi. Bu gün biz artıq XXI əsrin müqaviləsini icra edirik. «Cənub Qaz Dəhlizi» XXI əsrin müqaviləsidir və məhz 1994-cü ildə imzalanmış müqavilə və ondan sonra əldə olunan uğurlar bugünkü reallığı

mümkün etdi. 1996-cı ildə «Şahdəniz» qaz yatağı üzrə Beynəlxalq konsorsiumla müqavilə bağlandı. O vaxt dünyanın neft-qaz sektorunda qaz amili o qədər də böyük əhəmiyyət daşımırdı. Ölkələrin enerji təhlükəsizliyi o vaxt bilavasitə qaz ehtiyatları ilə bağlı deyildi.

«Şahdəniz» qaz yatağı dünyanın ən böyük yataqlarından biridir və onun işlənilməsi bu gün «Cənub Qaz Dəhlizi»nin əsas resurs bazasını təmin edir. O vaxta qədər isə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Supsa neft və qaz kəmərləri inşa edilmişdi. Beləliklə, tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə və Aralıq dənizi ilə çoxşaxəli kəmərlər şəbəkəsi ilə bağlandı. Bu da tarixi hadisə idi. Xəzər dənizi–Qara dəniz–Aralıq dənizi əməkdaşlığı formalaşdı. Bu əməkdaşlıq başqa sahələrdə də özünü büruzə verməyə başladı. Bu gün məhz bu dəhliz vasitəsilə böyük infrastruktur layihəsi olan Bakı–Tbilisi–Qars dəmir yolu inşa edilir. Əgər biz enerji siyasətimizi düzgün qurmasaydıq, bu, mümkün olmaya bilərdi.

Beləliklə, keçən əsrin 90-cı illərinin sonlarında görülmüş işlər və 2000-ci illərin əvvəllərində açılmış Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri, əlbəttə ki, böyük tarixi nailiyyət idi. Bu kəmərlər imkan verdi ki, Azərbaycan böyük həcmdə valyuta ehtiyatları əldə etsin. Biz bu valyuta ehtiyatlarımızdan səmərəli istifadə edərək, onları ölkəmizin əsas inkişaf istiqamətlərinə yönəltdik. İnsanların rifah halı yaxşılaşdı, ölkəmizin iqtisadi inkişafı təmin edildi. Son 10 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən yüksək templərlə inkişaf edərək, 300 faiz artıb. Eyni zamanda, ölkə qarşısında duran infrastruktur layihələri icra edilib, sosial məsələlər öz həllini tapıb. Biz düşünülmüş iqtisadi siyasət apararaq neftdən asılılığı xeyli azalda bilmişik. Bu gün ümumi daxili məhsulumuzda neft amili təxminən 30 faiz təşkil edir. Beləliklə, biz ölkə iqtisadiyyatının şaxələndirilməsi işində böyük nailiyyətlərə imza atmışıq.

Bütün bunların təməlində, əlbəttə ki, ölkəmizə keçən əsrin sonlarında və bu əsrin əvvəlində qoyulan böyük sərmayələr

dayanır. Beləliklə, bu gün biz iqtisadi sahədə neft amilindən daha da az asılı vəziyyətdəyik. Məhz buna görə bu il iqtisadiyyatımız 5 faizdən çox artıb, baxmayaraq ki, neftin qiyməti 2 dəfəyə yaxın azalıb. Yəni ölkəmizin şaxələndirilmiş şəkildə inkişafı, iqtisadiyyatımızın dayanıqlılığı artıq reallıqdır. Bu gün bizim qarşımızda duran əsas vəzifələr, əlbəttə ki, neft-qaz sektoru ilə bağlı deyil. Əsas vəzifələr iqtisadiyyatı şaxələndirmək, neft amilindən asılılığı daha da azaltmaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, hələ icra edilməmiş böyük infrastruktur layihələrini icra etmək və beləliklə, uzunmüddətli inkişaf üçün daha da güclü zəmin yaratmaqdır. Bununla bərabər, əlbəttə, enerji sektorunda qarşımızda duran ciddi vəzifələr təbii ki, öz həllini tapacaq. Çünki bunun çox böyük əsası var. Bir daha demək istəyirəm, neft-qaz sahəsində beynəlxalq əməkdaşlıq bu gün onu göstərir ki, Azərbaycanın xarici tərəfdaşları ilə əməkdaşlığı çox sağlam zəmində qurulub. Burada mən SOCAR–*bp* əlaqələrini xüsusi qeyd etmək istəyirəm. *bp* bizim əsas tərəfdaşımızdır, ən böyük sərmayə yatıran şirkətdir. *bp* həm «Əsrin müqaviləsi»nın icrasında, həm də «Şahdəniz» layihəsində aparıcı xarici investordur, tərəfdaşdır. Digər layihələr üzrə SOCAR–*bp* əməkdaşlığı davam edir və bu əməkdaşlığın artıq 20 ildən çox tarixi vardır.

SOCAR–*bp* əməkdaşlığı bundan sonra onilliklər ərzində davam edəcək. Bu həm dövlətimiz, həm də xarici tərəfdaşlar üçün fayda gətirir. Bax, Azərbaycanda belə gözəl mühit yaranıb. Bütün xarici sərmayələr layiqincə qorunur. Bildiyiniz kimi, bütün neft-qaz kontraktları parlament tərəfindən təsdiq edilir və qanun qüvvəsinə minir. Bu, əlbəttə ki, investorlarda bizə inamı daha da artırır.

Bu gün artıq keçmişə baxaraq qürur hissi ilə deyə bilərik ki, Azərbaycan enerji sahəsində qarşıda duran bütün vəzifələri ləyaqətlə, vaxtında icra etmişdir. Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, «Şahdəniz» qaz, «Azəri–Çıraq» neft yataqlarının işlənilməsi – bu layihələrin hər biri özlüyündə nəhəng enerji layihəsidir. Bununla bərabər, «Cənub

Qaz Dəhlizi»nin icrası prosesi də başlanmışdır. Bu da tarixi hadisədir. Qeyd etməliyəm ki, Azərbaycan bu layihənin icrasında öz liderlik keyfiyyətlərini və rolunu bir daha göstərdi. Bildiyiniz kimi, Xəzər hövzəsindən Avropaya çatdırılacaq qazın marşrutu uzun illərdir ki, müzakirə mövzusu idi və Azərbaycan bu müzakirələrdə iştirak edirdi. Ancaq görəndə ki, bu müzakirələr konkret nəticəyə gətirib çıxarmır, biz öz təşəbbüsümüzü irəli sürdük və 2012-ci ildə Türkiyə ilə Azərbaycan arasında TANAP qaz kəməri layihəsi haqqında müqavilə imzalandı. Ondan sonra proseslər daha da sürətlə getməyə başladı. Trans–Adriatik qaz kəməri Avropaya gedən əsas ixrac marşrutu kimi seçildi və «Cənub Qaz Dəhlizi»nin icrası başlandı. «Şahdəniz-2» layihəsinə start verildi.

Bütün bu nailiyyətləri biz son 3 il ərzində əldə edə bilmişik. Mən xatırlayıram, keçən il, düz 1 il bundan əvvəl sərgidə çıxış edərkən demişdim ki, əminəm, gələn sərgidə biz yeni uğurlar haqqında xalqımıza hesabat verəcəyik. Həqiqətən, bu belədir. Baxın, keçən XXI sərgidən ötən dövr ərzində «Cənub Qaz Dəhlizi»nin Bakıda, Səngəçal terminalında təntənəli şəkildə təməli qoyuldu, özü də sentyabrın 20-də, «Əsrin müqaviləsi»nın imzalandığı bir gündə. Bu özlüyündə böyük rəmzi məna daşıyan bir hadisə idi. Ondan sonra Azərbaycanın təşəbbüsü ilə bu ilin fevralında Bakıda «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının birinci iclası keçirildi. «Cənub Qaz Dəhlizi»ndə iştirak edən bütün ölkələrin yüksəkvəzifəli şəxsləri, eyni zamanda, Avropa Komissiyasının vitse-prezidenti və digər məsul şəxslər bu tədbirdə iştirak etdilər.

Mart ayında biz Türkiyənin Qars şəhərində TANAP layihəsinə start verdik. Baxın, bütün bu hadisələr son 1 il ərzində, yəni keçən sərgidən ötən dövr ərzində baş verib. «Cənub Qaz Dəhlizi» artıq reallıqdır və icra edilir. Əminəm ki, «Cənubi Qafqaz» qaz kəmərinin genişləndirilməsi işləri – əslində bu, yeni kəmərin tikintisi deməkdir – və 3 ildən sonra istifadəyə veriləcək TANAP layihəsinin icrası vaxtında yerinə yetiriləcək. Beləliklə, Azərbaycan «Şahdəniz-2»dən qazı həm Gürcüstana,

həm Türkiyəyə nəql edə biləcək. Bununla bərabər, ümid edirəm ki, TAP layihəsinin icrasında da heç bir problem yaşanmayacaq. Hesab edirəm ki, burada bütün tərəflər böyük məsuliyyət daşımalıdır. Çünki bu bizim ümumi işimizdir. Azərbaycanın təşəbbüsü ilə bu ilin fevralında Bakıda keçirilmiş «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının müzakirələri və qəbul edilmiş mətbuata bəyanat onu göstərir ki, iştirak edən bütün tərəflər öz məsuliyyətini dərk edir. O bəyanatda Azərbaycanın rəhbər rolu, yəni xüsusi rolu qeyd edilib.

Ona görə hesab edirəm ki, bu layihənin icrası zamanı əlaqələndirmə işlərinə daha böyük ehtiyac var. Mən bunu Məşvərət Şurasının iclasında da demişəm. Bu layihəni həyata keçirmək üçün qarşılıqlı inam mütləq yüksək səviyyədə olmalıdır. İştirak edən bütün ölkələr bir nöqtəyə vurmalıdır və burada heç kim əlavə imtiyaz əldə etmək istəməməlidir. Çünki burada hər şey göz qabağındadır. Bütün müqavilələr imzalanıb və bu qlobal layihədə iştirak edən bütün tərəflər, şirkətlər, ölkələr böyük xeyir götürəcəklər. Əlbəttə ki, biz indi yeni bir əməkdaşlıq formatına başlayırıq. Əvvəlki dövrlərdə Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli formatı yaranıb və biz çox böyük səmərə ilə işləyirik. Bütün layihələri 3 qardaş ölkə sıx əməkdaşlıq şəraitində icra edir. İndi isə format daha da genişlənir və buraya yeni oyunçular daxil olunur. Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya «Cənub Qaz Dəhlizi»nin üzvləridir. Eyni zamanda, bir neçə Balkan ölkəsinin «Cənub Qaz Dəhlizi»ndə iştirakı ilə bağlı memorandumlar imzalanıb. Yəni görün, bizim dairəmiz nə qədər genişlənir. Bir tərəfdən bu, böyük üstünlükdür. Digər tərəfdən, əlbəttə ki, müəyyən mərhələlərdə bəzi məsələlər ortaya çıxa bilər. Bütün bu məsələlər gərək dostluq və qarşılıqlı anlaşma şəraitində müzakirə olunsun və həll edilsin. Bir daha demək istəyirəm ki, bizim qarşımızda heç bir süni maneə olmamalıdır və əminəm, olmayacaq da. Belə olan halda, biz TAP layihəsini də vaxtında icra edəcəyik. Beləliklə, Azərbaycan qazı Avropa məkanına nəql edilməyə

başlanacaqdır. Bu da tarixi hadisə olacaq, həm bizim üçün, həm də Avropa istehlakçıları üçün. Çünki biz çox böyük qaz bazarına çıxış əldə edəcəyik. Onlar üçün də alternativ mənbədən böyük həcmdə və artan templə qaz daxil olacaqdır.

«Cənub Qaz Dəhlizi»nin üstünlüyü ondan ibarətdir ki, burada yeni qaz mənbəyindən söhbət gedir. Marşrutların şaxələndirilməsi, əlbəttə ki, vacib məsələdir. Hər bir ölkə çalışır ki, çoxşaxəli kəmərlər şəbəkəsi olsun, o cümlədən Azərbaycan. Çünki bizim hazırda 7 neft-qaz kəmərimiz var və beləliklə, biz heç bir istiqamətdən 100 faiz asılı deyilik. Təbii, istehlakçılar da istəyirlər ki, onlara çatacaq enerji resursları müxtəlif yollarla gəlsin. Ona görə marşrutların şaxələndirilməsi, əlbəttə, enerji təhlükəsizliyini gücləndirir. Əgər mənbənin şaxələndirilməsi yoxdursa, bu o qədər də böyük əhəmiyyət daşımır. Bizim üstünlüyümüz ondan ibarətdir ki, qaz Avropaya yeni marşrutla nəql ediləcək, eyni zamanda, bu qaz yeni mənbədən hasil olunacaq və bu mənbə çox böyükdür. «Cənub Qaz Dəhlizi»nin hazırda yeganə resurs bazası olan «Şahdəniz» yatağı 1,2 trilyon kubmetr qaz ehtiyatına malikdir. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları hazırda 2,6 trilyon kubmetrdir və əminəm ki, bu, son rəqəm deyil. Bu rəqəm artacaq, çünki hazırda bir çox yataqlarda qiymətləndirmə işləri gedir. Bir neçə yataqda kəşfiyyat işləri aparılır və əminəm ki, bizim təsdiq edilmiş qaz resurslarımız daha da böyük olacaq.

Ona görə enerji təhlükəsizliyi deyəndə, əlbəttə ki, marşrutların, mənbələrin şaxələndirilməsindən söhbət gedir. Burada Azərbaycanın çox nadir rolu var və bu rol layiqincə qiymətləndirilir. Hələ 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Memorandum imzalanıb. Bu yaxınlarda Avropa İttifaqının enerji siyasətində gedən proseslər onu göstərir ki, Azərbaycan çox önəmli tərəfdaş kimi qəbul edilir və müvafiq sənədlərdə Azərbaycanın adı xüsusi qeyd olunur. Biz, əlbəttə ki, öz rolumuzu yaxşı bilirik, eyni zamanda, öz məsuliyyətimizi də dərk edirik. Azərbaycan özünü Avropa üçün etibarlı tərəfdaş kimi təsdiq edir. Gələcəkdə

enerji sahəsində görüləcək işlər Avropa İttifaqı ilə Azərbaycan arasında olan əlaqələri daha da yüksək səviyyəyə qaldıracaqdır. Bizim niyyətimiz ondan ibarətdir ki, strateji tərəfdaşlıq formatı təşkil edilsin. Ondan sonra hər bir tərəf uzunmüddətli strategiyanı müəyyən edə bilər və bütün məsələlər ciddi əlaqələndirmə şəklində öz həllini tapa bilər.

Azərbaycanın həm zəngin neft-qaz resursları, həm cəsarətli siyasəti və düşünülmüş addımları Avropanın enerji xəritəsini yenidən tərtib edir. Bu reallıqdır və bizim rolumuz getdikcə artacaq. Bu, ölkəmizi daha da gücləndirəcək. Bu, ölkəmizə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək və nəticə etibarilə Azərbaycan xalqının daha da yaxşı yaşamasını təmin edəcək.

Bununla bərabər, biz iqtisadi sahədə islahatlar aparırıq. Azərbaycanda həyata keçirilən islahatlar dünyanın aparıcı beynəlxalq maliyyə institutları tərəfindən yüksək qiymətləndirilir. Bütün iqtisadi göstəricilərimiz ən yüksək səviyyədədir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatın rəqabətqabliyyətliliyi üzrə 38-ci yerdədir. Xarici borc cəmi 10 faiz, işsizlik 5 faiz səviyyəsindədir. Valyuta ehtiyatları ümumi daxili məhsulumuzun 75 faizini, bəlkə ondan da çox hissəsini təşkil edir. Neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Azərbaycan iqtisadi inkişafını təmin edir. Bu ilin 4 ayında iqtisadiyyat 5,3 faiz, qeyri-neft sektorumuz isə təxminən 7 faiz artıb.

Azərbaycan böyük, mötəbər beynəlxalq tədbirlər keçirir. 10 gündən sonra tarixdə ilk dəfə olaraq məhz Azərbaycanda, Bakıda I Avropa oyunları keçiriləcəkdir. Bu, tarixi hadisədir və cəmi 2 il ərzində biz bu oyunlara hazırlıq işlərini gördük. Qısa bir vaxt çərçivəsində biz Olimpiya oyunları səviyyəsində keçiriləcək oyunları təşkil etdik. Bu, ölkəmizin gücünü, güclü siyasi iradəmizi göstərir. Baxmayaraq ki, biz müstəqil ölkə kimi gəncik, amma artıq dünya xəritəsində öz yerimizi tuta bilmişik.

Mən sərginin iştirakçılarına uğurlar arzulayıram. Sərgini təşkil edən şəxslərə bir daha minnətdarlığımı bildirirəm. Əminəm

ki, sərgi müvəffəqiyyətlə keçəcək və bizim beynəlxalq şirkətlərlə tərəfdaşlığımız uğurla davam edəcəkdir. Sağ olun.

* * *

**A l d e r m a n  A l a n  Y a r r o u** *(London şəhərinin Lord-meri):* Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Mən burada olmaqdan böyük məmnunluq hissi duyuram. Bu gün möhtəşəm XXII Beynəlxalq «Xəzər neft və qaz–2015» sərgisində iştirak edirik. Bu bizim üçün şərəfdir.

Mən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun təbrik məktubunu diqqətinizə çatdırmaq istəyirəm. Məktubda deyilir:

«Zati-aliləri!

Mən Sizi və Azərbaycan xalqını XXII «Xəzər neft və qaz» sərgisi və konfransı münasibətilə hökumətim adından təbrik edirəm. Ölkələrimiz arasındakı güclü və davamlı qarşılıqlı münasibətləri yüksək qiymətləndirirəm.

Azərbaycanın enerji ehtiyatları dünya iqtisadiyyatının inkişafında, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatında həyati əhəmiyyətə malikdir. Mən çox şadam ki, Birləşmiş Krallığın şirkətləri Azərbaycanın karbohidrogen sektorunun davamlı inkişafında mühüm rol oynamaqdadır.

Avropa özünün enerji təhlükəsizliyini təmin etmək üçün həm enerji marşrutlarını, həm də enerji mənbələrini şaxələndirməlidir. Bu baxımdan «Cənub Qaz Dəhlizi» mühüm rola malikdir. Mən «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının fevral ayında keçirilən ilk uğurlu görüşünə görə, eyni zamanda, Trans–Anadolu boru kəmərinin təməlinin qoyulması münasibətilə Azərbaycan hökumətini təbrik etmək istəyirəm. Artıq əsas məsələ odur ki, biz TANAP layihəsinin vaxtında və səmərəli şəkildə başa çatdırılmasını təmin etməliyik. Əminəm ki, bu perspektivli, ambisiyalı layihə reallığa çevriləcək. Çox şadam ki, *bp* şirkəti bu mühüm işdə çox yaxından iştirak edir.

Azərbaycanın yaxın dostu kimi, biz gələcək uzun illər üçün sabit enerji mənbəyini təmin etmək baxımından bütün

tərəfdaşlara xoş arzularımızı bildiririk. Bu xoş fürsətdən istifadə edərək, bu il keçirilən XXII «Xəzər neft və qaz» sərgisinin bütün iştirakçılarına uğurlar arzu edirəm.

*Hörmətlə,*

**Devid Kemeron**
**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri».**

Bir daha vurğulayıram ki, Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasındakı əlaqələr həqiqətən də çox mühümdür, xüsusilə enerji nöqteyi-nəzərindən. Hesab edirəm ki, sərgi bu münasibətlərin daha da dərinləşdirilməsi baxımından bizim üçün böyük fürsətlər yaradacaq. Məni bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm.

Çox sağ olun.

**Y a n u ş P e x o ç i n s k i** *(Polşa Respublikası Baş nazirinin müavini, İqtisadiyyat naziri):* Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar!

Qlobal enerji sektoru çox böyük çağırışlarla üzləşir. Yanacağın ənənəvi daşıma marşrutları və bununla əlaqədar ətraf mühitin mühafizəsi ilə bağlı öhdəliklər, iqlimin qorunmasına dair tədbirlər, nəqletmə infrastrukturuna böyük sərmayələrin yatırılması zərurəti bizi enerji təhlükəsizliyi və iqtisadi rəqabət sahəsində böhranların qarşısının alınması üçün qəti tədbirlərin həyata keçirilməsinə vadar edir. Bu mənada mən Cənubi Qafqazın qlobal enerji sənayesi üçün əhəmiyyətini vurğulamaya bilmərəm. Bu onun strateji coğrafi yerləşməsindən qaynaqlanır. Bu region kəşfiyyat və hasilat layihələri, habelə enerji resurslarının daşınması baxımından əlverişli məkana çevrilib və onun rolu bundan sonra da artacaq.

Mən bu regionun enerji sektorunun mühüm hadisəsi – Beynəlxalq «Xəzər neft və qaz» sərgisində iştirakımdan məmnunluq hissi duyuram. Ümid edirəm ki, qarşıdan gələn və konfrans çərçivəsindəki müzakirələr bizi yeni, çox dəyərli mütəxəssis bilikləri ilə təmin edəcək, dövlət qurumları və şirkətlər arasında bilik və təcrübə mübadiləsi üçün Azərbaycanın regional mərkəz mövqeyinin güclənməsinə xidmət göstərəcək.

Bilik və ən münasib fəaliyyət metodlarının mübadiləsi bu gün hər iki sektor üçün çox aktualdır. Çünki bu gün biz böyük transformasiyaların astanasındayıq və vahid, qlobal enerji bazarının yaradılması prosesində səylərimizi birləşdiririk.

Neft və təbii qazın nəqli dəhlizlərinin gələcək geosiyasi arxitekturasının inkişafı baxımından Azərbaycanın və Cənubi Qafqazın həlledici rolunu vurğulamaq yerinə düşərdi. Azərbaycan bu prosesdə xüsusi rol oynayır. Avropa İttifaqı 10 ildən çoxdur ki, enerji mənbələrinin, təchizat marşrutlarının şaxələndirilməsi siyasətini həyata keçirməyə çalışır və Azərbaycanla enerji sahəsində əməkdaşlığı genişləndirməkdə çox maraqlıdır. Avropa dövlətləri üçün alternativ enerji resurslarına çıxışın əldə edilməsinin nə dərəcədə vacib olduğunu görmək üçün Avropa İttifaqı ölkələrinin enerji balanslarında neft və təbii qazdan asılılığı əks etdirən statistikaya nəzər salmaq kifayətdir.

Mərkəzi Avropanın inkişafda olan dövlətinin Baş nazirinin müavini və İqtisadiyyat naziri kimi, vurğulamaq istərdim ki, mənbələrin və marşrutların şaxələndirilməsi regionumuzun enerji siyasətinin prioritetidir. Polşa ümumi daxili məhsulun 3,6 faiz artımını nümayiş etdirib və sərmayələrin cəlb olunması baxımından yaxşı göstəricilərə malikdir. Polşa eyni zamanda, şaxələndirmə sahəsində də uğurlu siyasət aparır. Mən Mərkəzi Avropanın idxal imkanlarının çox böyük olduğunu vurğulamaq istərdim. İnanıram ki, bu sərgidə ilk dəfə iştirak edən Polşa şirkətləri işgüzar təmaslar yaradacaq və ya Qafqaz regionunda artıq fəaliyyət göstərən investor-larla müxtəlif layihələr çərçivəsində işgüzar əlaqələri daha da dərinləşdirəcək.

Xanımlar və cənablar, sərgidə iştirak edən bəzi qonaqlar xəbərsiz ola bilər ki, XIX əsrin sonu – XX əsrin əvvəlində polşalılar yalnız Bakının memarlıq intibahına deyil, həm də neft sənayesinin inkişafına töhfələrini vermişlər. Polşalı Stanislav Zenoviç Azərbaycan Neft Akademiyasından öncə müvafiq məktəbi təsis edib və bu gün bu akademiya daha bir polşalı Yozef Qoslavskinin memarı olduğu həmin binada yerləşir. Daha bir polşalı, təcrübəli mühəndis Pavel Pototski dəniz quyularından neftin hasil edilməsi üsulunu ilk dəfə burada tətbiq edib. Öz vəsiyyətinə görə, o, ötən əsrin 30-cu illərinin əvvəlində məhz burada dəfn edilib. Onun abidəsinin yaradılmasını Azərbaycan hökuməti maliyyələşdirib. Buna görə də Azərbaycan hökumətinə dərin minnətdarlığımı bildirirəm.

Biz polşalılara gözəl gələcək arzu edirik. Azərbaycana da daha böyük uğurlar diləyirik. Cənab Prezident, Sizə Avropa İttifaqı ilə hökumətlərarası və işgüzar səviyyədə əməkdaşlığın dərinləşdirilməsinə görə minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, bu gün açılışını qeyd etdiyimiz bu tədbir Avropada daha güclü enerji təhlükəsizliyi istiqamətində atılan növbəti addım olacaq. Mən hər kəsi beynəlxalq çərçivə və standartlar daxilində Azərbaycana sərmayə qoymağa dəvət edirəm.

Uğurlu siyasət hər zaman xalqa xidmət edir. Bu isə iqtisadiyyatın inkişafına töhfəsini verir. Azərbaycanı bu nailiyyətlərə görə təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

**Adil Əbdülmehdi** *(İraq Respublikasının Neft naziri):* Zati-aliləri cənab Prezident!

Xanım Əliyeva!

Xanımlar və cənablar!

XXII Beynəlxalq «Xəzər neft və qaz» sərgisinə dəvət olunmağım mənim üçün şərəfdir. Mən 2 gün yarımdır ki, buradayam və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təməlini qoyduğu və cənab Prezident, Sizin rəhbərliyinizlə davam etdirilən siyasət nəticəsində təkcə neft-qaz sahəsində deyil, bütün sahələrdə baş verən müasirləşmənin, qazanılan

uğurların şahidi olmuşam. Mən bu təcrübəni öz ölkəmdə – İraqda tətbiq edəcəyəm.

Azərbaycan dünyada sənaye üsulu ilə neft çıxaran ilk ölkədir. Bildiyimə görə, ilk quyu 1847-ci ildə qazılıb. Dənizdə də ilk neft quyusu Azərbaycanda qazılıb. Azərbaycan XX əsrdə uğurlu dövrünü yaşayıb. Sovet İttifaqı dağılandan sonra Azərbaycan çətin vaxtlar yaşayıb. Son 20 il ərzində mənzərə dəyişib, yüksəliş aydın görünür. Azərbaycanlı mühəndis və işçilərin az sayda əcnəbilərlə birlikdə dənizdə qaz hasil edən ən böyük platformanı tikməsi məndə dərin təəssürat yaratdı. Azərbaycan öz qazını bir çox ölkələrə satmaq iqtidarındadır.

Cənab Prezident, Siz 3 dənizin – Xəzər, Qara və Aralıq dənizlərinin birləşdirilməsini tarixi nailiyyət adlandırdınız. Ümid edirəm ki, qarşıdakı illərdə Siz körfəzin Türkiyədən keçərək, Avropaya gedən kəmərlər şəbəkəsinə qoşulması ilə 4-cü dənizin birləşdirildiyini bəyan edəcəksiniz.

Hazırda biz Bəsrədə Fars körfəzindən Aralıq dənizinə neft və qaz ixrac etmək üçün İordaniya və Misirlə danışıqlar aparırıq. Düşünürəm ki, Sizin Xəzər və Qara dəniz ölkələri ilə əməkdaşlıq təcrübənizə uyğun olaraq, biz də qonşu ölkələrlə əməkdaşlıq vasitəsilə Fars körfəzini, Oman dənizini və Hind okeanını birləşdirməklə dördüncü nailiyyəti əldə edəcəyik.

Azərbaycan regional və bəlkə də qlobal oyunçuya çevrilməkdədir. Son 20 il ərzində Azərbaycanın neft və qazı bu transformasiyanın mühüm komponenti olub. Mən azərbaycanlı həmkarlarımla keçirilən məhsuldar görüşlərdən çox şadam. Dünən biz Energetika naziri ilə neftin kəşfiyyatı, hasilatı, nəqli, emalı və satışı ilə bağlı bütün növ fəaliyyətlərə yol açacaq Anlaşma Memorandumunu imzaladıq.

SOCAR artıq bu işin mərkəzindədir və bizim ölkəmizdə fəaliyyət göstərir. Bizim bir çox birgə layihələrimiz var. Azərbaycanın və İraqın oxşar keçmişi var. İraq çətin vaxtlar yaşayır. Lakin dünən zati-alilərinə dediyim kimi, əgər SOCAR, *bp*, «Shell», «ExxonMobil», «LUKoyl» kimi böyük xarici şirkətlər İraqda fəaliyyət göstərə bilirsə, bu o deməkdir ki, bizdə kifayət

qədər sabitlik var, investisiya mühiti əlverişlidir və dayanıqlı ola bilər. Ölkənin əksər hissəsində –18 əyalətdən 15-də vəziyyət sabitdir və ora böyük investisiyalar yatırılır.

İraqın neft sektoru artıq dəyişikliklərin katalizatoru rolunu oynayır və gələcəkdə onun rolu daha da artacaq. İstehsal daim artır və bu meyil davam edəcək. Ötən ay biz 3,1 milyon barreldən artıq neft ixrac etmişik. Hazırda istehsal həcmi 4 milyon barrelə yaxındır. İraq dünyada qaz istehsalının həcminə görə öncül mövqelərdədir. Hazırda biz ehtiyatlarımızın həcminə görə 11-ci yerdəyik. Lakin biz bütün lazımi kəşfiyyat işlərini başa çatdırdıqdan sonra ölkəmiz 5-ci yerdə olacaq.

İraqın neft və qaz sahəsində böyük potensialı var. Biz öhdəliklərimizi yerinə yetirmək üçün tərəfdaşlarımızla onların özlərini daha çox inamlı hiss etdikləri sahələr üzrə birgə işləyirik. Dediyim kimi, tezliklə SOCAR bizim neft-qaz sahəsində daha böyük bir tərəfdaşımız olacaq. Yayda neftin qiyməti aşağı düşsə də, hazırda bu qiymət bizim üçün qənaətbəxşdir. Neft öz bazarını, bazardakı payını müdafiə etməlidir, baxmayaraq ki, vaxtaşırı olaraq bu çox ağrılı proses ola bilər. Bütün bunlara baxmayaraq, Neft Nazirliyi istehsalı artırmaq, infrastruktur potensialını bərpa etmək, İraq xalqının xeyrinə yeni investorların cəlb edilməsi məqsədilə etimad mühiti yaratmaq üçün tədbirlər görür. Bu baxımdan mən beynəlxalq neft şirkətlərinin hamısını qarşılıqlı mənfəət naminə İraqda fəaliyyət göstərməyə dəvət edirəm.

Cənab Prezident, bir daha demək istəyirəm ki, Azərbaycanda olmaqdan məmnunam və biz ölkələrimizin maraqları naminə SOCAR ilə birgə fəaliyyət göstərməyi səbirsizliklə gözləyirik. Təşəkkür edirəm.

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva XXII Beynəlxalq «Xəzər neft və qaz» sərgisi ilə tanış oldular. Respublikamızın paytaxtında ənənəvi olaraq keçirilən neft-qaz*

*sərgi və konfransı Xəzəryanı regionda bu cür ən böyük tədbirdir.*

*Dövlətimizin başçısına SOCAR-ın ekspozisiyası təqdim olundu. Prezident İlham Əliyevə axtarış və kəşfiyyat işləri, neft və qaz hasilatı, «Əsrin müqaviləsi» çərçivəsində görülən işlər, «Cənub Qaz Dəhlizi»nin icrası vəziyyəti, Azərbaycanda neftin və qazın ixrac marşrutları ilə bağlı həyata keçirilən tədbirlər, neft emalı və neft-kimya sənayesi, Heydər Əliyev adına Bakı Dərin özüllər zavodunda görülən işlər barədə geniş məlumat verildi. Bundan başqa, SOCAR-ın xətti ilə nanotexnologiyaların tətbiqi, neft-qaz sahəsində aparılan elmi işlər və kadr hazırlığı ilə bağlı həyata keçirilən tədbirlər də dövlətimizin başçısının diqqətinə çatdırıldı. SOCAR-ın xarici sərmayələrlə bağlı siyasəti və ekoloji layihələr barədə də prezident İlham Əliyevə ətraflı məlumat verildi.*

*Böyük Britaniyanın bp şirkəti «Əsrin müqaviləsi»nin başlanğıcından Azərbaycan ilə sıx əməkdaşlıq edir. Dövlətimizin başçısına «Şahdəniz-2» və digər layihələrlə əlaqədar həyata keçirilən tədbirlər barədə məlumat verildi və qısa videoçarx nümayiş etdirildi.*

*bp şirkəti Azərbaycanda keçiriləcək I Avropa oyunlarının rəsmi tərəfdaşlarından biridir. Bu şirkət Azərbaycanın milli atletlərini dəstəkləyir və idmançılarımızdan 6-sı bp-nin atlet səfirləri sayılır.*

*Malayziyanın PETRONAS şirkəti də Azərbaycanda yeni fəaliyyətə başlayıb. Bu iqtisadi qurum dünyanın 30-dan çox ölkəsinin neft-qaz sektorunda çalışır. PETRONAS şirkəti də Azərbaycan ilə əməkdaşlığını genişləndirməkdə maraqlıdır.*

*«Türkiyə Petrolları» şirkəti də «Əsrin müqaviləsi»nə start veriləndən Azərbaycanda geniş fəaliyyət göstərir. Ümumilikdə, Türkiyə Azərbaycanın enerji sektorunda həyata keçirilən bütün layihələrdə ölkəmizlə hərtərəfli və uğurlu əməkdaşlıq edir. «Türkiyə Petrolları» Azərbaycanda bundan sonra da reallaşdırılacaq layihələrdə yaxından iştirak etməyə və sərmayə yatırmağa hazırdır. Dövlətimizin başçısına «SOCAR Türkiyə»*

*şirkətinin Türkiyə iqtisadiyyatına, o cümlədən neft-qaz sektoruna qoyduğu sərmayələr barədə məlumat verildi. Qeyd edildi ki, İzmirdəki limanın tikintisi artıq yekunlaşmaq üzrədir. Bundan başqa, SOCAR-ın xətti ilə qardaş ölkədə elektrik stansiyalarının inşa edildiyi Azərbaycan Prezidentinin diqqətinə çatdırıldı.*

*Fransanın dünyada böyük nüfuz sahibi olan «Total» şirkəti də Azərbaycanın ənənəvi tərəfdaşlarından biridir. Bu şirkət ən müasir texnologiyalarla bağlı zəngin təcrübəsini bundan sonra da ölkəmizlə bölüşməyə hazırdır. «Total» şirkəti «Abşeron», «Ümid» və «Babək» qaz yataqlarında ölkəmizlə yaxından əməkdaşlıq edir. Şirkətin ekspozisiyasında «Formula» yarışları ilə bağlı yeniliklər də prezident İlham Əliyevə təqdim olundu.*

*Fransanın «GDF Suez» şirkəti artıq «ENGIE» adlanır. Prezident İlham Əliyevə məlumat verildi ki, dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərən bu şirkət Xəzərin neft-qaz ehtiyatlarının işlənilməsində, o cümlədən «Abşeron» qaz yatağında Azərbaycan ilə sıx əməkdaşlığını davam etdirmək əzmi ilə çalışır. Respublikamızda 7 ildir fəaliyyət göstərən bu iqtisadi qurumun müxtəlif ölkələrdə 153 mindən çox işçisi var.*

*RUSSNEFT şirkəti də respublikamızın neft-qaz sektorunda fəaliyyətini genişləndirir. Rusiyada fəaliyyət göstərən 10 ən iri neft-qaz şirkətlərindən biri olan RUSSNEFT ilə ölkəmiz arasında son illərdə həyata keçirilən birgə layihələrin xüsusi əhəmiyyəti var.*

*Ümumilikdə, XXII Beynəlxalq «Xəzər neft və qaz» sərgisində 27 ölkədən 315 şirkət təmsil olunur. Bunların böyük əksəriyyəti dünyanın ən nüfuzlu şirkətləridir və onların bir qismi «Əsrin müqaviləsi»nin iştirakçılarıdır. SOCAR-ın «Caspian Drilling Company» şirkətinin yeni nəsil qurğusu da dövlətimizin başçısına təqdim edildi. Qeyd olundu ki, bu müasir qurğunun tikintisi qrafik üzrə gedir.*

*Çin Xalq Respublikasının «Jereh» şirkəti planetin 60-dan çox ölkəsində fəaliyyət göstərir. Şirkət neft-qaz avadanlığı üzrə ixtisaslaşıb və ölkəmizlə geniş əməkdaşlıqda maraqlıdır.*

*«North Drilling» şirkəti İran İslam Respublikasının tanınmış iqtisadi qurumlarından biridir. Bu şirkət İranın neft-qaz sənayesinin inkişafında mühüm rol oynayır və Azərbaycan ilə əməkdaşlıq imkanlarını araşdırır.*

*Almaniya şirkətləri də uzun müddətdir ki, respublikamızla sıx əməkdaşlıq edir. Sərgidə Almaniya şirkətləri geniş təmsil olunub.*

*Azərbaycanın neft-qaz bazarına Polşa şirkətləri də böyük maraq göstərir. Bu ölkə sərgidə 15 şirkətlə təmsil olunub.*

*Qeyd edək ki, Beynəlxalq «Xəzər neft və qaz» sərgisi artıq 10 ildir dalbadal Ümumdünya Sərgi Sənayesi Assosiasiyasının fərqlənmə nişanına layiq görülür.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Nobel qardaşları və Bakı nefti. Mükafat» mövzusunda rəsm sərgisi ilə tanış oldular. Bu rəsm kolleksiyası Nobel qardaşlarına məxsus neft şirkətinin Azərbaycandakı fəaliyyətinin 136-cı ildönümünə həsr olunub. Sərgi Nobel qardaşları irsini dolğun şəkildə əks etdirir.*

*Sərgi ilə tanışlıqdan sonra prezident İlham Əliyev XXII Beynəlxalq «Xəzər neft və qaz» sərgi və konfransının Xatirə kitabını imzaladı.*

## POLŞA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ YANUŞ PEXOÇİNSKİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Polşa Respublikası Baş nazirinin müavini, İqtisadiyyat naziri Yanuş Pexoçinskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Yanuş Pexoçinskinin Bakıda keçirilən XXII Beynəlxalq «Xəzər neft və qaz» sərgi və konfransında iştirakını ölkələrimiz arasında ikitərəfli münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Polşa arasında əməkdaşlıq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən energetika, investisiya qoyuluşu, ticarət və digər sahələrdə bundan sonra da fəal şəkildə davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Polşa Respublikası Baş nazirinin müavini, İqtisadiyyat naziri Yanuş Pexoçinski qeyd etdi ki, o, ölkəmizə səfərindən və müasir dünyada gedən prosesləri dərindən bilən siyasi xadim – Azərbaycan Prezidenti ilə görüşməkdən məmnunluq duyur. Yanuş Pexoçinski ölkəsinin və özünün Avropa İttifaqında dövlətimizin başçısı tərəfindən irəli sürülən təşəbbüsləri daim dəstəklədiklərini dedi. O, əldə olunan böyük nailiyyətlər münasibətilə prezident İlham Əliyevi Polşa hökuməti adından təbrik etdi.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında kənd təsərrüfatı, qida sənayesi, infrastruktur, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**DANİMARKA KRALİÇASI**
**ÜLYAHƏZRƏT II MARQRETEYƏ**

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Danimarka xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2015-ci il*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2015-ci il*

# I AVROPA OYUNLARI ÜÇÜN AVTOBUS DEPOSU VƏ TƏLİM MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*3 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də «BakuBus» MMC-nin I Avropa oyunları üçün avtobus deposu və təlim mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı deponun və təlim mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Maliyyə naziri Samir Şərifov prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.*

*Qeyd edildi ki, bu ərazidən əvvəllər neftlə çirklənmiş torpaqların və məişət tullantılarının atılma məntəqəsi kimi istifadə olunub. Sahəsi 16 hektar olan bu ərazidə 2014-cü ilin sentyabrından abadlıq və yenidənqurma işləri aparılıb, torpaq qatı təmizlənib, yaşıllıq zolaqları salınıb. Ərazidə yağış sularından təkrar istifadə üçün kiçik kanallar çəkilib, yeraltı çənlər hazırlanıb. Burada 9 hektarlıq ərazidə 1 inzibati və 4 xidməti bina inşa edilib. İnzibati binada ulu öndər Heydər Əliyevin büstü qoyulub. İşçilər üçün hərtərəfli şəraitin yaradıldığı binada mühasibatlıq, marşrut xətlərini idarəetmə, İKT, beynəlxalq əlaqələr, kadrlar və təhlükəsizlik şöbələri fəaliyyət göstərir. Bundan başqa, binada server otağı və iclas zalları da yaradılıb. Ümumilikdə, «BakuBus» MMC-də 1000-ə yaxın iş yerinin açılması nəzərdə tutulur ki, bunlardan təqribən 750-sini sürücülər təşkil edir. Orta aylıq əməkhaqqının 700 manat olması nəzərdə tutulur. İlkin yoxlama və qarajın idarəetmə binasında sürücülərin həkim yoxlama otağı, daxili dispetçer xidməti, iş rejimindən sonra avtobusları qəbuletmə və yoxlama məntəqəsi yaradılıb.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «BakuBus» MMC-nin avtoparkı Fransa istehsalı olan 151 «İveco Crealis» və 151 «İveco Urbanway» markalı avtobuslarla təchiz olunub.*

*Dövlətimizin başçısına avtobusların texniki göstəriciləri barədə məlumat verildi. Onların uzunluğu 12,3 metrdir. Avtobusların üstün cəhətlərindən biri də odur ki, onların pilləkənləri yoxdur. Bu da sərnişinlərin rahatlığı və təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyır. Avtobusların hər birində 26 oturacaq var. Bundan əlavə, bu nəqliyyat vasitələri daha 74 sərnişini ayaqüstə daşıya bilər. Avtobuslar yaşlılar və əlillər üçün yerlə də təchiz edilib. Sərnişinlərin ön qapıdan minib arxa qapıdan düşmələrini nəzərə alaraq avtobusun daxilində 7 dayan–tələb düyməsi qoyulub. Dayanacaqlar səsli anonslarla elan ediləcək. Avtomatik transmissiya ilə birgə avtobusda ABS, ASR və sürəti tənzimləmə sistemi quraşdırılıb. Avtobuslarda hərəkət sürətini saatda 50 kilometrədək məhdudlaşdırma sistemi tətbiq edilib, nəqliyyat vasitələrinin salonunda 5, xaricində isə 3 təhlükəsizlik kamerası quraşdırılıb. Bundan əlavə, avtobusun qapıları xüsusi avadanlıqla təmin olunub ki, maneə yarandıqda onlar təkrar açılsın. Qapılar tam bağlanmadıqda isə avtobusların hərəkəti mümkün deyil. Bu nəqliyyat vasitələrinin ön, yan və arxa şüşələri buzlanma və buxarlanma əleyhinə sistemlə təmin edilib. Avtobusun ümumi konstruksiyasında soyuğu və istini izolə edən materiallardan istifadə olunub. Eyni zamanda, avtobusda iqlim-nəzarət və havalandırma sistemi də mövcuddur. Bu nəqliyyat vasitələrində gediş haqqı vahid ödəmə kartları ilə aparılacaq. Bu kartlardan «BakuBus» MMC-yə aid olan bütün avtobuslarla yanaşı, həm də metroda istifadə etmək mümkün olacaq. Avtobusların daha bir üstünlüyü isə onların sıxılmış təbii qazla işləməsidir. Bu da ekoloji baxımdan əhəmiyyətlidir.*

*Təmir və texniki baxış binasında avtobuslara bütün növ xidmət nəzərdə tutulur. Burada eyni vaxtda 12 avtobusa təmir və xidmət göstərmək mümkündür. Binada rəngləmə, yağdəyişmə, mühərriklərin, şassilərin dəyişdirilməsi və təmiri ilə bağlı ən ağır və mürəkkəb əməliyyatlarda beynəlxalq təcrübədən geniş*

*istifadə olunur. Bunun üçün binada dünyanın məşhur şirkətlərinin avadanlıqları quraşdırılıb.*

*Ərazidə avtoyuma məntəqəsi də yaradılıb. Məntəqənin ümumi sahəsi 651 kvadratmetrdir. Məntəqədə eyni anda 3 avtobusun yuyulması mümkündür. Buradakı yüksək şərait avtobusların yuyulma müddətinin cəmi 7 dəqiqə olmasına imkan yaradır. Məntəqənin üstün cəhətlərindən biri də istifadə olunmuş suyun və ümumilikdə, ərazidə yağış sularının 85 faizinin separatorlarla ayrılaraq təkrar istifadə edilməsidir.*

*Deponun ərazisində sahəsi 6 hektar olan və müasir avadanlıqlarla təchiz edilmiş sürücü təlim mərkəzi yaradılıb, praktiki təlimlər üçün beynəlxalq standartlara cavab verən xüsusi yollar salınıb. Bu yollarda döngələr və maneələr yaradılıb, müxtəlif yol şəraitini imitasiya edən avadanlıq quraşdırılıb. Layihənin yüksək səviyyədə reallaşması məqsədilə bu sahədə Avstriyanın Avropada və dünyada böyük təcrübəsi olan «Test Training International» şirkəti ilə müqavilə imzalanıb. Avstriyada müvafiq treninqlərdə 2 menecer və 8 təlimçi-təlimatçı iştirak edib. Mərkəzdə minik və yük maşınları, avtobus və motosiklet sürücüləri üçün müvafiq peşəkar təlimlər nəzərdə tutulub. Yol hərəkəti təhlükəsizliyi üzrə təlim mərkəzi sürücülərin tədrisi üçün fərdi uyğunlaşdırılmış təlim proqramı təklif edir ki, burada iştirakçıların yolda hərəkət zamanı məsuliyyəti, diqqəti və bilikləri artırılır. Bu məqsədlərə çatmaq üçün tədris zamanı 5 təlim modulundan istifadə olunur.*

*Dövlətimizin başçısına buradakı yanacaqdoldurma stansiyası barədə də məlumat verildi. Bu, Azərbaycanda ilk sıxılmış təbii qaz stansiyasıdır. Burada qısamüddətli xüsusi rejimlə cəmi 4 saat ərzində 300 avtobus təqribən 50 min kubmetr yanacaqla təmin edilir. Stansiyada eyni vaxtda 15 avtobusa xidmət göstəriləcək. Burada bir avtobusun yanacaqla tam təmin edilməsinə cəmi 7 dəqiqə vaxt sərf olunur. Stansiyada dünyada mövcud olan ən müasir və təhlükəsiz iş rejiminə malik texnologiyalardan və avadanlıqlardan istifadə edilib. Ölkəmizdə yeni yanacaq növü olan sıxılmış təbii qazın istehsalını və satışını*

*həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin «SOCAR-CNG» MMC törəmə müəssisəsi yaradılıb. Stansiya kompressor hissəsindən, yanacaqdoldurma məntəqəsindən, elektrik yarımstansiyasından, yeraltı su çənindən, qaz boru kəmərindən, qaztənzimləyici məntəqədən və inzibati binadan ibarətdir. İnzibati binada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin neft strategiyasının həyata keçirilməsi ilə bağlı müxtəlif tədbirlərdə iştiraklarını əks etdirən fotolardan ibarət stendlər quraşdırılıb. Binada inzibati otaqlar, yeməkxana yaradılıb. Yaxın zamanlarda daha 6 stansiyanın istifadəyə verilməsi nəzərdə tutulur. Gələcəkdə bu stansiyaların sayının artırılaraq ölkə üzrə hər 120 kilometrdən bir quraşdırılacağı planlaşdırılır.*

*Prezident İlham Əliyev təlim mərkəzinin inzibati binasında yaradılan şəraitə baxdı. Binada treninq mərkəzinin sinifləri, yeməkxana və digər inzibati otaqlar var. Burada çalışacaq işçilər üçün avtobus istehsalçıları tərəfindən xüsusi treninqlər və peşəartırma kursları təşkil edilib. Ərazidə ehtiyat hissələri və yay-qış təkərlərinin saxlanılması üçün yerlər, eyni zamanda, növbəli iş rejimində işləyən usta və əməkdaşlar üçün istirahət və qalma yerləri var. Bundan əlavə, ətraf mühitin və işçi heyətin sağlamlığının qorunması üçün yağdəyişmə, digər qatqı və sürtkü materialları birbaşa təmas olmadan separatorlarda ayrılaraq xüsusi çənlərdə toplanılır. Burada yaradılan şərait avtobus parkının fəaliyyətini beynəlxalq təcrübəyə əsaslanaraq qurmağa geniş imkanlar açır. Sürücülərə xüsusi geyim formaları veriləcək, onların səhər işə çıxmazdan əvvəl «BakuBus» MMC-nin həkimləri tərəfindən yoxlanılması, avtobuslara gecə növbəsində həm texniki baxışın keçirilməsi, həm də nasazlığın aradan qaldırılması təmin olunacaq. Avtobuslar hər gün avtomatik yuyulacaq və mexaniki təmizlənib dezinfeksiya ediləcək. Avtobus sürücüləri ikinövbəli sistemdə işləyərək, davamlı attestasiya və təlimlərdə olacaqlar.*

## ATƏT-in BAKIDAKI LAYİHƏ ƏLAQƏLƏNDİRİCİSİ ALEKSİS ŞAHTAXTİNSKİ İLƏ GÖRÜŞ

*3 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də ATƏT-in Bakıdakı layihə əlaqələndiricisi Aleksis Şahtaxtinskini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı Aleksis Şahtaxtinskinin Azərbaycan–ATƏT əməkdaşlığının inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdi, ötən dövr ərzində həyata keçirilən layihələrin yaxşı nəticələr verdiyini vurğulayaraq ona gələcək fəaliyyətində uğurlar arzuladı.*

*ATƏT-in Bakıdakı layihə əlaqələndiricisi Aleksis Şahtaxtinski fəaliyyəti dövründə təmsil etdiyi qurum ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı və eləcə də ölkəmizin rifahı naminə səylərini əsirgəmədiyini vurğuladı.*

## MOLDOVA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ İQOR BODİU İLƏ GÖRÜŞ

*3 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Moldova Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri İqor Bodiunu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı səfir İqor Bodiunun diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan–Moldova əlaqələrinin bundan sonra daha da genişləndiriləcəyinə əminliyini ifadə edən prezident İlham Əliyev səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Fövqəladə və Səlahiyyətli səfir İqor Bodiu qeyd etdi ki, o, ölkəmizi Azərbaycanın əsl dostu kimi tərk edəcək. Moldovalı diplomat son illər Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu vurğuladı. O, bütün bu uğurların prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edildiyini xüsusi qeyd etdi. İqor Bodiu ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəmədiyini, fəaliyyəti dövründə müxtəlifsəviyyəli səfərlərin təşkil edildiyini, əlaqələrimizin sosial-mədəni sahələrdə fəal şəkildə inkişaf etdirildiyini vurğuladı.*

## BAKIYA GƏTİRİLƏN YENİ ELEKTRİK QATARI İLƏ TANIŞLIQ

*3 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Bakıya gətirilən yeni elektrik qatarı ilə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov və «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov əvvəlcə dövlətimizin başçısına Bakı–Sumqayıt–Bakı dairəvi dəmir yolunda həyata keçirilən yenidənqurma işləri barədə məlumat verdilər.*

*Qeyd edildi ki, uzunluğu 91 kilometr olan yolun ikixətli hissəsi 85, birxətli hissəsi isə 4,4 kilometrdir. Qalan 1,6 kilometrlik birxətli yolun tikintisi nəzərdə tutulur. Bakı–Sumqayıt–Bakı dairəvi dəmir yolu 2 hissəyə bölünməklə, yenidən qurulur. Birinci hissəyə daxil olan Bakı–Biləcəri–Sumqayıt xətti 42, ikinci – Bakı–Zabrat–Sumqayıt xətti isə 49 kilometrdir. Yolun 55 kilometrdən çox hissəsində yenidənqurma işləri artıq başa çatdırılıb. İndiyədək 95 min kubmetr torpaq işləri görülüb, 28 dəst yoldəyişən qurğular yeniləri ilə əvəzlənib. Bu yol üzərində 10 qatarın hərəkəti nəzərdə tutulur.*

*Dövlətimizin başçısına Bakı şəhəri–Heydər Əliyev Beynəlxalq Aeroportu dəmir yolu xəttinin layihəsi barədə də məlumat verildi. Uzunluğu 25 kilometr olacaq bu dəmir yolu xətti şəhərdə sərnişin sıxlığının aradan qaldırılmasında mühüm rol oynayacaq.*

*Sonra prezident İlham Əliyev yeni elektrik qatarında yaradılan şəraitlə tanış oldu.*

*«Stadler Rail Group» şirkətinin «Stadler Minsk» zavodunda istehsal olunmuş «KISS» markalı elektrik qatarlarının hər birində 4 vaqon var. Qatarlarda sərnişinlər üçün hər cür şərait yaradılıb. Ümumi sərnişin tutumu 919 nəfər olan hər bir qatarda*

396 oturacaq var ki, onlardan da 84-ü biznes-klassdır. İkimərtəbəli elektrik qatarları I Avropa oyunları zamanı Bakı sərnişin stansiyası ilə metronun Koroğlu stansiyası arasında fəaliyyət göstərəcək, sonralar isə Bakı–Xırdalan–Sumqayıt sərnişin sahəsində istifadəyə buraxılacaq. Yeni dəmir yolu xəttində dayanacaqlar nəzərə alınmaqla, qatarların orta sürəti saatda 63 kilometr təşkil edəcək.

Qeyd edildi ki, Bakı–Biləcəri–Sumqayıt xəttində elektrik qatarları əvvəllər mənzil başına 1 saat 22 dəqiqəyə çatırdısa, yenidənqurma işlərindən sonra bu vaxt 40 dəqiqə olacaq. Bakı–Zabrat–Sumqayıt xətti üzrə isə hazırda qatarlar mənzil başına 1 saat 29 dəqiqəyə çatır. Lakin yenidənqurmadan sonra vaxt fərqi 52 dəqiqəyə enəcək. Dairəvi dəmir yolu üzərində 23 stansiya və dayanacaq olacaq. Yenidənqurma işləri başa çatdıqdan sonra yolun Bakı–Biləcəri–Sumqayıt hissəsində 3 – Keşlə, Biləcəri, Xırdalan və Bakı–Zabrat–Sumqayıt hissəsində isə 5 – Koroğlu, Bakıxanov, Sabunçu, Zabrat, Pirşağı dayanacaqlarının olması nəzərdə tutulur.

Prezident İlham Əliyev qatarı idarə etdi.

Bildirildi ki, sutka ərzində bu dəmir yolu ilə 30–35 min sərnişinin daşınması proqnozlaşdırılır. Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, yeni növ texnikaların alınması prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf modelinin bəhrəsidir. Son illərdə Azərbaycanın nəqliyyat infrastrukturu dinamik inkişaf edərək, bu gün ölkəmizin regionda bu sahədə şəksiz liderliyini təmin edib. Odur ki, Azərbaycan hazırda Qərb ilə Şərq arasında ən mühüm nəqliyyat dəhlizi rolunu oynayır.

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RAYMONDS VEYONİSƏ**

Hörmətli cənab Veyonis!

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Latviya münasibətlərinə böyük əhəmiyyət veririk. Ümidvaram ki, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Latviya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2015-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Yantszı çayında səyahət gəmisinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2015-ci il*

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XUAN RODRİQO LABARDİNİ FLORES İLƏ GÖRÜŞ

*4 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Xuan Rodriqo Labardini Floresin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Xuan Rodriqo Labardini Flores Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xuan Rodriqo Labardini Flores etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Görüşdə Azərbaycan–Meksika əlaqələrinin hazırkı vəziyyəti və gələcəyi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ YAXINLIĞINDAKI YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 4-də paytaxtın Yasamal rayonunda Azərbaycan Milli Konservatoriyasının inzibati-tədris kompleksinin yaxınlığındakı yeni parkda yaradılan şəraitlə tanış olmuşlar.*

*Parkda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, dekorativ bəzək və gül kolları əkilib, oturacaqlar qoyulub, müasir fəvvarə quraşdırılıb. Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksinin yaxınlığında yerləşən bu müasir istirahət məkanının özəlliyini artıran məqamlardan biri də odur ki, burada klassik musiqilər səsləndiriləcək. Bu da parka gələnlər üçün əlavə mənəvi istirahət imkanı yaradacaq.*

*Son dövrlərdə prezident İlham Əliyevin tapşırığı ilə Bakı şəhərində parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeni istirahət guşələri yaradılır. Bütün bunlar sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün reallaşdırılan layihələrin bir hissəsidir. Bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi baxımından olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir.*

*Müasir üslubda, orijinal dizaynda yaradılan bu park ilə Bakının gəzməli yerlərinə daha bir ünvan əlavə edilib. Beləliklə, «Bakı–2015» I Avropa oyunları ərəfəsində açılan bu park ölkəmizə gələn qonaqlara paytaxtımızın daha bir istirahət mərkəzinin gözəlliyini nümayiş etdirəcək.*

# TOFİQ BƏHRAMOV ADINA RESPUBLİKA STADİONUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva iyunun 4-də Avropa oyunları çərçivəsində kamandan oxatma yarışlarının keçiriləcəyi Tofiq Bəhramov adına Respublika stadionunda yaradılan şəraitlə tanış olmuşlar.*

*Gənclər və İdman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Qeyd edək ki, «Bakı–2015» ilk Avropa oyunları zamanı bu stadionda keçiriləcək kamandan oxatma yarışlarında 39 ölkədən 64-ü qadın və 64-ü kişi olmaqla, 128 idmançı iştirak edəcək. Atletlər iyunun 16-dan 22-dək medallar uğrunda mübarizə aparacaqlar.*

*Prezident İlham Əliyev və I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva stadionun sxemi ilə tanış oldular. Oyunlar zamanı idmançılar, media işçiləri və avropalı qonaqlar üçün ayrıca istirahət otaqları, müsahibələr üçün xüsusi zona ayrılıb. Məşq meydanında idmançılar üçün 22 hədəf təyin olunub. Bir hədəf maksimum 3 idmançı üçün nəzərdə tutulub. Yarış meydanı üçün isə 2 hədəf təyin edilib. Hədəflə idmançı arasında məsafə 70 metrdir. Hədəfin diametri 122 santimetr təşkil edir. Kamandan oxatma yarışı Olimpiya oyunları arasında fiziki məhdudiyyətli şəxslər də daxil olmaqla, hər kəsə eyni imkanlar verən yeganə oyundur. Yarışlara gələn tamaşaçılar üçün burada xüsusi tibb məntəqəsi fəaliyyət göstərəcək. Burada çalışanlar üçün rahat iş mühiti yaratmaq məqsədilə xüsusi fasilə və istirahət otaqları ayrılıb.*

*Avropanın məşhur oxatan idmançıları 7 yarış günü müddətində Tofiq Bəhramov adına Respublika stadionunda qalibiyyət uğrunda mübarizə aparacaqlar. Avropa oyunlarında yarışlar fərdi və qrup halında, eyni zamanda, qarışıq qrup şəklində Olimpiya oyunları formatında keçiriləcək. Ümumilikdə 5 medal dəsti təqdim olunacaq. Kamandan oxatma yarışları, həmçinin 2016-cı il Rio Yay Olimpiya seçmə yarışları üçün yüksək xallar uğrunda mübarizəyə imkan yaradacaq.*

## AZƏRBAYCAN BOKS FEDERASİYASININ İNZİBATİ BİNASININ VƏ «QAFQAZ BAKU SPORT HOTEL»İN AÇILIŞI MƏRASİMİ

*5 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva iyunun 5-də Bakıda Azərbaycan Boks Federasiyasının yeni inzibati binasının açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan Boks Federasiyasının prezidenti Kəmaləddin Heydərov görülən işlərlə bağlı dövlətimizin başçısına və xanımına məlumat verdi.*

*Bildirildi ki, müasir memarlıq üslubunda və ən son texnologiyalar əsasında inşa olunan bina 25 min kvadratmetr sahəni əhatə edir. Boks Federasiyasının inzibati binasında boks mərkəzi də fəaliyyət göstərəcək. Beynəlxalq federasiyaların tələblərinə tam cavab verən bu kompleksdə məşq və yarışlar üçün hər cür şəraiti olan idman zalları var.*

*Dövlətimizin başçısı Federasiyanın inzibati binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılıb.*

*Prezident İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Federasiyanın muzeyi ilə tanış oldular.*

*Muzeydə Azərbaycanın boks tarixi haqqında ən geniş məlumatları əldə etmək mümkündür. Boks Azərbaycanda XX əsrin əvvəllərində təşəkkül tapıb. O dövrdə Bakıya işləməyə gələn əcnəbi fəhlələr və mühəndislər, neft sənayesi üzrə mütəxəssislər*

*idmanın bu növünü Azərbaycanda yaymağa başlayıblar. Ötən əsrin 20-ci illərində paytaxtımızda həvəskar boksçuların ilk döyüşləri keçirilməyə başlayıb. 1924-cü ildə Azərbaycan Boks Federasiyası təsis edilib. İdmançılarımızın beynəlxalq döyüşləri isə keçən əsrin 20-ci illərinin sonlarına təsadüf edir. Dəri əlcək ustalarımız sovet dövründə SSRİ çempionatlarında və spartakiadalarında mübarizə aparsalar da, boksdakı əsas uğurlarımız məhz müstəqillik illərinə təsadüf edir. Azərbaycan Boks Federasiyası AIBA-nın tamhüquqlu üzvü olduqdan sonra idmançılarımız Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında çıxış etməyə başlayıblar. 1993-cü ildə 17 yaşlı Rövşən Hüseynov Avropa çempionu tituluna yiyələnib. 2003-cü ildə isə Ağası Məmmədov dünya çempionatından Azərbaycana ilk qızıl medalı gətirib. 2000-ci ildən bu yana Azərbaycan boksçuları bütün Olimpiya oyunlarından vətənə medallarla dönüblər. Vüqar Ələkbərov, Fuad Aslanov, Ağası Məmmədov, Şahin İmranov, Məhəmmədrəsul Məcidov və Teymur Məmmədov Olimpiya oyunlarının mükafatçılarıdır.*

*Ölkəmiz indiyədək boks üzrə ən mötəbər yarışlara ev sahibliyi də edib. 2011-ci ildə böyüklər arasında dünya çempionatı ilk dəfə Bakıda keçirilib. Komandamız yarışda 1 qızıl və 1 gümüş medala layiq görülüb. AIBA həmin yarışı indiyədək keçirilmiş dünya çempionatları arasında ən yaxşılardan biri kimi qiymətləndirib. Son illərdə dünya və Avropa çempionatlarında dəri əlcək ustalarımız uğurla çıxış edirlər. 2013-cü ildə Avropa çempionatında Azərbaycan boksçuları 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. Həmin il Qazaxıstanın Almatı şəhərində keçirilən dünya çempionatında komandamız 2 qızıl və 1 bürünc medala layiq görülüb.*

*Prezident İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva kompleksdə yarışların keçiriləcəyi əsas boks zalı ilə tanış oldular.*

*Məlumat verildi ki, zalda tamaşaçılar üçün 1000 oturacaq quraşdırılıb. Boksçularımız I Avropa oyunlarına ciddi hazırlaşırlar. Komandamız həm kişilərin, həm də qadınların yarışında*

*tam heyətlə mübarizə aparacaq. Boksçularımız kişilərin yarışında 10 idmançı ilə təmsil olunacaq. Qadınların yarışında isə 5 boksçumuz çıxış edəcək. Meksikada təlim-məşq toplanışı keçən boksçularımız artıq Vətənə dönüblər və bir neçə gündür ki, Bakıda hazırlığı davam etdirirlər.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Federasiya rəsmiləri və I Avropa oyunlarında ölkəmizi təmsil edəcək boksçularla görüşdülər.*

**İ l h a m  Ə l i y e v:** Sizdən medallar gözləyirik. Əminəm ki, belə də olacaq. İndi belə gözəl şərait yaradılıb. Əlbəttə, bundan sonra nəticələr daha da yaxşı olmalıdır. Onsuz da boksçularımız son vaxtlar bizi sevindirir, çox gözəl nəticələr göstərirlər. Yadımdadır, London Olimpiya oyunlarında yüksək nəticələr göstərmişdilər. Mən o vaxt da demişdim ki, olimpiya çempionu adına layiq olan idmançılarımız hakimlərin ədalətsizliyi ucbatından bürünc medalla kifayətləndilər. Əslində bu oyunlar zamanı hər kəs gördü ki, biz birinci yerə layiq idik. Amma əminəm ki, Bakıda keçiriləcək yarışlarda boksçularımız ədaləti bərpa edəcəklər.

Həmçinin qadınlar da yüksək nəticələr göstərirlər. Avropa çempionu da Londonda idi. Mən yarışı izləyirdim. Həmin yarışda o, qalib oldu, amma qələbəni rəqibinə verdilər. Belə bir ədalətsizlik oldu. Bəzən idmanda belə hallar olur. Əsas odur ki, idmançı ruhdan düşməsin, rinqdə özünü təsdiqləməyə davam etsin. Tamaşaçılardan isə heç nəyi gizlətmək olmaz. Hər şey göz qabağındadır. Buna görə də sizə yarışlarda uğurlar və ölkəmizi layiqincə təmsil etməyi arzulayıram.

*Dövlətimizin başçısı və xanımı lazımi avadanlıqlarla təchiz olunan məşq zalında yeniyetmə və gənc boksçuların məşqini izlədilər. Bu qrupa 13–17 yaşlı boksçular cəlb edilir.*

*Binada eyni zamanda, VIP tamaşaçılar üçün də yer ayrılıb. İdman obyektinin yarış zalları, mətbuat işçilərinə ayrılan sahələr, yüksək səviyyəli qonaqlar üçün VIP otaqlar və yarışların gedişinin canlı teleyayımının təşkili mərkəzi ən müasir səviyyədə qurulub.*

*Bu gün Azərbaycanda idmana olan dövlət qayğısı, bunun nəticəsində idmançılarımızın olimpiadalarda, müxtəlifsəviyyəli beynəlxalq yarışlarda qazandıqları böyük nailiyyətlər, paytaxtla yanaşı, respublikanın hər yerində müasir idman infrastrukturunun yaradılması gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində mühüm rol oynayır. Bütün bu reallıqlar, yeni idman binalarında yaradılan şərait və ilk Avropa oyunları ilə bağlı ölkəmizdə görülən işlər Avropa Olimpiya Komitəsinin I Avropa oyunlarının məhz Bakıda keçirilməsi ilə bağlı qərarının düzgün olduğunu bir daha nümayiş etdirir.*

*Qeyd olundu ki, idman qurğusunda təhlükəsizliyin təmin edilməsi məqsədilə tədbirlər görülüb, genişzolaqlı internet şəbəkəsi qurulub, kafe yaradılıb. Kompleksin ərazisində geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Qafqaz Baku Sport Hotel»in açılışında iştirak etdilər. «Ağ şəhər»də yerləşən «Qafqaz Baku Sport Hotel» yüksək səviyyədə və müasir üslubda inşa olunub. 17 mərtəbəli hotelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkanlar yaradır. Xəzər dənizinə gözəl mənzərənin açıldığı hotel paytaxtın mərkəzindən 4 kilometr, Heydər Əliyev Beynəlxalq Aeroportundan isə 21 kilometr məsafədə yerləşir.*

*Azərbaycan Prezidenti «Qafqaz Baku Sport Hotel»in rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni turizm obyektinin interyeri müasirliyi ilə seçilir. Hoteldə qonaqların rahatlığı yüksək səviyyədə təmin olunacaq. Azərbaycanda iqtisadiyyat, idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırıb. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası da buna əlverişli zəmin yaradır. Bu baxımdan Azərbaycanda hotel*

biznesinin daha da inkişafı üçün kompleks tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Qafqaz Baku Sport Hotel»in 17-ci mərtəbəsindəki restoranda yaradılan şəraitlə tanış oldular.

Qeyd edildi ki, 110 nəfərlik restoranda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaq. Buradan, həmçinin Xəzər dənizinə və Bakı bulvarına açılan gözəl mənzərəni seyr etmək mümkündür. Hotelin 60 nəfərlik barında qonaqların zövqünə uyğun xidmət göstəriləcək.

Hotel nömrələrində yaradılan şəraitlə tanışlıq zamanı diqqətə çatdırıldı ki, burada 103 nömrə var. Müxtəlif kateqoriyadan olan nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Bütün bunlar sübut edir ki, ölkədə müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən yüksək diqqətin təsdiqidir. Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkədir. Bundan başqa, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi, turizmin inkişafı da başlıca prioritetlərdəndir.

Hazırda ölkəmizdə hotel biznesinin dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlər reallaşdırılır. «Qafqaz Baku Sport Hotel» də həmin istiqamətdə atılan addımlardan biridir. Belə müasir hotelin «Bakı–2015» ilk Avropa oyunları ərəfəsində istifadəyə verilməsi isə xüsusi əhəmiyyət daşıyır. Bu cür layihələr ilk Avropa oyunları ilə bağlı ölkəmizə gələn turistlərin rahatlığının təmin olunmasına və paytaxt Bakının turizm potensialının nümayiş etdirilməsinə imkan yaradır.

## İNDONEZİYA RESPUBLİKASININ ENERGETİKA VƏ MİNERAL EHTİYATLAR NAZİRİ SUDİRMAN SAİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də İndoneziya Respublikasının Energetika vəMineral Ehtiyatlar naziri Sudirman Saidin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə İndoneziya arasında ikitərəfli münasibətlərin siyasi sahədə yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləmələrinin önəmini qeyd etdi. Neft sektorunda əməkdaşlığı və eləcə də ölkələrimiz arasında böyük ticarət dövriyyəsinin mövcudluğunu münasibətlərimizin yaxşı göstəricisi kimi dəyərləndirən prezident İlham Əliyev ikitərəfli əlaqələrin iqtisadi, enerji, ticarət və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Nazir Sudirman Said İndoneziya prezidenti Coko Vidodonun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə İndoneziyanın Energetika və Mineral Ehtiyatlar naziri Sudirman Saidin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin iqtisadi, enerji, neft-qaz və digər sahələrdə əməkdaşlığın inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı bildirildi, ikitərəfli əlaqələrin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin rolu xüsusi qeyd olundu.*

*Dövlətimizin başçısı İlham Əliyev prezident Coko Vidodonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İndoneziya Prezidentinə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCANIN BÖLGƏLƏRİNƏ VƏ ƏFSANƏVİ NEFT DAŞLARINA SƏYAHƏTİNİ BAŞA ÇATDIRAN «BAKI–2015» MƏŞƏLİNİN DƏNİZKƏNARI MİLLİ PARKDAKI «SADKO» LİMANINDA QƏBUL EDİLMƏSİ MƏRASİMİ

*7 iyun 2015-ci il*

*Avropa idman tarixində yeni səhifə açacaq «Bakı–2015»in başlanmasına sayılı günlər qalır. I Avropa oyunlarının aprelin 26-da qədim od məbədi olan «Atəşgah»da start götürən məşəli Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq 60 rayonun sakinlərinə bu oyunların ruhunu çatdırdı.*

*Avropa oyunlarının yoluna işıq saçan məşəl bölgələrə və əfsanəvi Neft Daşlarına səyahətini başa çatdırdıqdan sonra iyunun 7-də paytaxt Bakıya gətirilmişdir.*

*Məşəli Bakının Dənizkənarı Milli Parkındakı «Sadko» limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbul etdi.*

*Prezident İlham Əliyev, Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri elektromobillə «Sadko» limanına gəldilər.*

*Burada şəhər ictimaiyyətinin nümayəndələri, Bakının qonaqları, idmançılar, Avropa oyunlarının könüllüləri dövlətimizin başçısını hərarətlə qarşıladılar. Məşəli Neft Daşlarından Bakıya gətirən kater limana yan aldı. Azərbaycan prezidenti İlham Əliyev neftçi Nahid Nuriyevdən məşəli qəbul etdi.*

*Dənizkənarı Milli Parka toplaşanlar məşəllə irəliləyən dövlətimizin başçısını «Yaşasın Azərbaycan!», «Prezident İlham Əliyevə eşq olsun!», «I Avropa oyunlarına uğurlar!» nidaları ilə alqışladılar.*

*Azərbaycan Prezidenti I Avropa oyunlarının məşəlini İkinci dünya müharibəsinin veteranı Fatma Səttarovaya təqdim etdi. Bununla da I Avropa oyunlarının məşəlinin Bakı estafeti başlandı.*

*Çoxsaylı idman yarışlarını özündə birləşdirən I Avropa oyunları məşəlinin Bakı marşrutunun növbəti məkanı möhtəşəm «Ağ şəhər» bulvarı oldu. Çoxsaylı məşəlçilərin bir-birinə ötürdükləri «Bakı–2015»in məşəli estafet boyunca böyük coşqu ilə qarşılandı. «Ağ şəhər» bulvarına səyahətini başa çatdıran məşəl yenidən paytaxtın mərkəzinə doğru irəlilədi.*

*Paytaxtın Neftçilər prospekti daha izdihamlı idi. «Bakı–2015»in məşəlçisi şərəfinə layiq görülmüş Xalq artisti Arif Babayev burada məşəli Azərbaycanın birinci xanımı, ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim etdi.*

*Süvarilərin müşayiəti, bu unudulmaz anların sevincini yaşayan çoxsaylı insanların sürəkli alqışları altında Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva məşəli Montröy Beynəlxalq caz festivalının qalibi, Əməkdar artist, «Zirvə» dövlət mükafatı laureatı, pianoçu və bəstəkar İsfar Sarabskiyə ötürdü.*

*Sonra məşəli Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva daşıdı.*

*Sərbəst güləş üzrə Avropa çempionu, Yeniyetmələrin II Yay Olimpiya oyunlarının qızıl medalçısı İqbal Hacızadədən «Bakı–2015»in məşəlini Arzu Əliyeva qəbul etdi.*

*Sərbəst güləş üzrə dünya və Avropa çempionatlarının qalibi Hacı Əliyev məşəli növbəti estafetçiyə – Heydər Əliyevə təqdim etdi.*

*«Bakı–2015»in məşəlini bir-birinə ötürən məşəlçilərin estafeti Dövlət Bayrağı Meydanından və «Baku Crystal Hall»dan keçərək, açılış mərasiminə qədər gecələr saxlanılacaq məkana – Qız qalasına gətirildi. Burada məşəli sonuncu estafetçi – Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, olimpiya çempionu Namiq Abdullayevdən qəbul etdilər.*

*Ümumilikdə şəhər boyunca məşəl 16 kilometr məsafədə 100 məşəlçi tərəfindən daşındı.*

*Məşəlçilərdən biri olan Azərbaycan Respublikasının Gənclər və İdman naziri, «Bakı–2015» Avropa oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov dedi: «Məşəl səyahəti ötən 6 həftə ərzində Azərbaycan ictimaiyyətinin Avropa oyunları barədə məlumatını artırıb. Bu axşam keçirilən şənliklərdə digər bölgələrin əhalisi kimi, Bakı sakinlərinin və şəhərimizin qonaqlarının da böyük maraqla iştirak etdiyini görmək möhtəşəm duyğular yaradır. Açılış mərasimi ərəfəsində paytaxt Bakıda məşəl səyahəti insanlarda maraq hissini gücləndirir. Əminəm ki, növbəti 4 gün ərzində Bakının bütün füsunkarlığını bu mərasimlərdə bir daha əyani görəcəyik».*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyun 2015-ci il*

## I AVROPA OYUNLARINDA İDMANIN BİR NEÇƏ NÖVÜ ÜZRƏ YARIŞLARIN KEÇİRİLƏCƏYİ «BAKU CRYSTAL HALL»DA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyunun 8-də I Avropa oyunları zamanı idmanın bir neçə növü üzrə yarışların keçiriləcəyi «Baku Crystal Hall»da yaradılan şəraitlə tanış olmuşlar.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdi.*

*«Baku Crystal Hall»da I Avropa oyunları zamanı idmanın voleybol, boks, qılıncoynatma, taekvondo və karate növləri üzrə yarışlar keçiriləcək.*

*Burada voleybol meydançası yüksək səviyyədə yaradılıb. 4 min tamaşaçı yerlik bu meydança beynəlxalq tələblərə cavab verən ən müasir texniki avadanlıqlarla təchiz edilib. Meydançada oyunlar zamanı həm kişi, həm də qadın idmançılar mübarizə aparacaqlar. Ümumilikdə, I Avropa oyunlarında Azərbaycan ilə yanaşı, Belçika, Bolqarıstan, Finlandiya, Almaniya, Fransa, İtaliya, Polşa, Rusiya, Serbiya, Slovakiya, Türkiyə, Xorvatiya, Rumıniya, Hollandiya komandaları iştirak edəcəklər.*

*«Baku Crystal Hall»un müasir səviyyədə qurulması həm də ölkədə idmanın inkişafına göstərilən diqqətin nəticəsidir. Azərbaycanda idmanın voleybol növünə maraq getdikcə artır. Ölkəmizdə idmanın digər növlərində olduğu kimi, voleybolda da mühüm nailiyyətlər əldə edilib. Azərbaycan Voleybol Federasiyası Beynəlxalq və Avropa Voleybol federasiyalarının, o cümlədən Şərqi Avropa Voleybol Zona Assosiasiyasının üzvüdür.*

*«Baku Crystal Hall»un boks meydançasında yaradılan şərait I Avropa oyunları zamanı idmanın bu növü üzrə də yarışların ən yüksək səviyyədə keçirilməsinə geniş imkan yaradır. Burada 2600 tamaşaçı yerlik tribuna qurulub. Zalın yaradılması zamanı beynəlxalq idman qurumları, o cümlədən «Bakı–2015» Avropa oyunlarının Əməliyyat Komitəsinin tələbləri yüksək səviyyədə yerinə yetirilib. Burada həm idmançıların, həm məşqçilərin, həm də tamaşaçıların rahatlığı üçün mühüm işlər görülüb. I Avropa oyunlarında boks üzrə kişilər 10 çəki dərəcəsində, qadınlar isə 5 çəki dərəcəsində qüvvələrini sınayacaqlar.*

*Voleybol və boks meydançalarının «Baku Crystal Hall»un əsas hissəsində yerləşməsi səbəbindən onların arasında xüsusi akustik divar qurulub. Bu isə öz növbəsində, yarışlar zamanı idmançılar, məşqçilər və tamaşaçıların rahatlığını təmin etməyə və bir-birinə mane olmamağa imkan verir. Bu cür akustik divarın qurulması beynəlxalq idman federasiyalarının tələblərinə daxildir.*

*Zalda yaradılan media mərkəzi də ən müasir səviyyədədir. Burada media nümayəndələrinin normal işləməsi üçün bütün şərait yaradılıb. «Baku Crystal Hall»da «Eurovision» mahnı müsabiqəsi zamanı şərhçilər üçün nəzərdə tutulan otaqlar genişləndirilərək, Avropa oyunları ailəsi üçün xüsusi istirahət zonalarına çevrilib. Bina yanğın əleyhinə, həmçinin mərkəzləşdirilmiş havalandırma sistemləri ilə təchiz olunub. Görülən işlər zamanı binanın intellektual idarəetmə sistemi də tamamilə yenilənib. «Baku Crystal Hall» ilə qılıncoynatma, taekvondo və karate növləri üzrə yarışların olacağı zalı birləşdirmək üçün burada funksional keçid zonası inşa olunub. İkimərtəbəli və 4500 kvadratmetr sahəsi olan bu zonada protokol, Avropa oyunları ailəsi, federasiyaların nümayəndə heyətlərinin üzvləri üçün otaqlar və istirahət zonaları yaradılıb. Dopinq yoxlama, tibbi xidmət, idmançıların soyunub-geyinmə, yarışlara hazırlıq və digər xidməti otaqlar da funksional keçiddə yerləşir.*

*I Avropa oyunları zamanı qılıncoynatma, taekvondo və karate növləri üzrə yarışların keçirilməsi məqsədilə yaradılan zalda*

*idmançıların rahatlığı üçün bütün zəruri şərait var. «Eurovision» mahnı müsabiqəsi zamanı mətbuat mərkəzi kimi istifadə edilən tikili indi yarışlar üçün tam hazır vəziyyətdədir. Zalın mühüm xüsusiyyətlərindən biri də meydançanın hər 3 idman növünə uyğun şəkildə yenidən qurulmasıdır. Burada taekvondo və karate yarışları zamanı tamaşaçı tutumu 1500, qılıncoynatma yarışlarında isə 1100 olacaq. Qılıncoynatma yarışları zamanı burada beynəlxalq idman qurumlarının tələblərinə uyğun 72 metr uzunluğunda meydança quraşdırılacaq.*

*Ümumilikdə, «Baku Crystal Hall»da I Avropa oyunları zamanı keçiriləcək yarışlar üçün yaradılan zalların hamısı Olimpiya oyunları standartlarına cavab verir. I Avropa oyunlarında dünyanın bir sıra qabaqcıl idmançıları mübarizə aparacaqlar. 59-u qızıl medal sahibi olmaqla, ümumilikdə, 150 olimpiya medalçısı «Bakı–2015» ilk Avropa oyunlarına qatılacaq. «Bakı–2015» I Avropa oyunları zamanı bütün dünyanın diqqəti çempion olmaq üçün mübarizə aparacaq qitə idmançılarına yönələcək. Belə tədbirlərdə ilk dəfə çıxış edəcək idmançıları isə I Avropa oyunlarının çempionu titulunu əldə etmək uğrunda böyük rəqabət gözləyir. Ümumilikdə, belə bir tarixi idman tədbirində iştirak etmək bütün idmançıların karyerasında yüksək dönüş nöqtəsi olacaq. İyunun 12-dən 28-dək davam edəcək oyunlarda mübarizə aparacaq 6 min idmançıdan 200-ə yaxını dünya çempionudur. Bütün bu faktlar Avropa oyunlarında güclü rəqabətin olacağının və dünya idman ictimaiyyətinin bu oyunlara böyük əhəmiyyət verməsinin təsdiqidir.*

*«Baku Crystal Hall»un ətrafında geniş abadlıq işləri aparılıb. Ərazidə 6 min kvadratmetr asfalt örtüyü yenilənib,o cümlədən 3500 kvadratmetr yeni asfalt örtüyü salınıb. Burada Avropa oyunları ailəsi, idmançılar, texniki işçilər və VIP qonaqlar üçün yeməkxanalar yaradılıb. Bundan başqa, ərazidə akkreditasiya, logistika, mühafizə zonaları, «Bakı–2015» Avropa oyunlarının Əməliyyat Komitəsinin əməkdaşlarının otaqları və digər müvəqqəti qurğular da quraşdırılıb.*

## DÖVLƏT BAYRAĞI MEYDANI ƏRAZİSİNDƏ «DAŞ SALNAMƏ» MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il*

*İlk Avropa oyunları ərəfəsində paytaxt sakinləri və şəhərimizin qonaqları üçün Bakıda Heydər Əliyev Fondunun layihəsi olan yeni mədəniyyət obyekti fəaliyyətə başlamışdır. Dövlət Bayrağı Meydanı ərazisində «Daş Salnamə» Muzeyinin açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva muzeylə tanış oldular və onlara muzey haqqında məlumat verildi. 1921-ci ildə inşa olunan və vaxtilə neft mədənlərinin enerji təminatı üçün nəzərdə tutulan elektrik stansiyasının binası bərpa işlərindən sonra muzey kimi fəaliyyət göstərəcək. Azərbaycanda mənəvi həyatın ən arxaik xüsusiyyətləri məhz daş plastika ənənələrində saxlanılıb.*

*«Daş Salnamə» sərgisinin ekspozisiyası daş plastikanın bir çox növlərini əhatə edir. Azərbaycanın daş plastikası tarixinə həsr edilmiş «Daş Salnamə» ekspozisiyasına «Qobustan» və «Qala» qoruqlarından gətirilmiş eksponatlarla yanaşı, heykəltəraş Hüseyn Haqverdinin əsərləri də daxildir. Bu əsərlərdə sanki ötən dövrlərin əks-sədası eşidilir. Azərbaycan torpağı ən qədim dövrlərdən daş plastikasının inkişafına imkan verən müxtəlif daş növlərinin zənginliyi ilə məşhurdur. Azərbaycanın müxtəlif guşələrində aşkar edilən çoxlu sayda daş plastikasının gözəl nümunələri ilə yanaşı, qədim eksponatların əhəmiyyətli hissəsini funksional məna daşıyan və heç bir bəzəyi olmayan müxtəlif məişət əşyaları təşkil edir. Minilliklər boyunca və bu günə qədər daş plastika həm incəsənətin bir növü, həm də maddi mədəniyyətin ayrılmaz hissəsi kimi ənənələrimizi,*

*Azərbaycan xalqının mənəvi dəyərlərini və dünyagörüşünü əsrdən-əsrə ötürərək öz sonsuz salnaməsini yazmaqda davam edir.*

*Epiqrafik abidələr də tarixin öyrənilməsində ən qiymətli mənbədir. Yazılı mənbələrdə nadir hallarda yer alan məlumatlar daşlar üzərindəki yazılarda saxlanılır. Ekspozisiyada müxtəlifməzmunlu epiqrafik yazılar qorunub saxlanılır, xatirə plastikasının qiymətli eksponatları təqdim edilir. Bütövlükdə, sənduqələr və başdaşılarında orta əsr dövrünün müxtəlif ictimai-siyasi, sosial, mədəni, ideoloji hadisələri haqqında orijinal informasiya verilir.*

*Muzeyi ziyarət edən qonaqlar sərgidə təqdim edilən eksponatlar vasitəsilə Azərbaycanda daş plastika ənənələrinin tarixi inkişaf və təkamül mərhələlərini əyani şəkildə izləyə biləcəklər.*

# DÖVLƏT BAYRAĞI MEYDANI ƏRAZİSİNDƏ YENİ FƏALİYYƏTƏ BAŞLAYACAQ «AZƏRBAYCAN EVİ»NDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də «Azərbaycan evi»ndə yaradılan şəraitlə tanış olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «Azərbaycan evi»ndə I Avropa oyunları zamanı hər axşam yarışların nəticələri, idmançıların uğurları müzakirə ediləcək, qaliblərin şərəfinə bayramlar təşkil olunacaq. Müasir üslubda qurulan bu məkan əslində hər bir Olimpiadanın ayrılmaz hissəsi hesab edilir. Burada idmançılara, şəhərimizin qonaqlarına əyləncəli proqramlar təqdim ediləcək.*

*«Azərbaycan evi»ndə qonaqların həm istirahəti, həm də onların öz sevimli komandaları və idmançılarının uğurlarının sevincini bölüşmək üçün hər cür şərait yaradılıb.*

# HEYDƏR ƏLİYEV FONDUNUN YENİ LAYİHƏSİ OLAN «XX–XXI ƏSR AZƏRBAYCAN RƏNGKARLIĞI» EKSPOZİSİYASININ AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il*

*Dövlət Bayrağı Meydanı ərazisində iyunun 8-də Heydər Əliyev Fondunun daha bir layihəsi olan yeni ekspozisiya açılmışdır. Bu, ölkəmizin təsviri incəsənətinin inkişafının yüzillik tarixini əhatə edən «XX–XXI əsr Azərbaycan rəngkarlığı» ekspozisiyasıdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva ekspozisiyanın açılışı mərasimində iştirak etmişlər.*

*Məlumat verildi ki, burada özündə dəzgah rəngkarlığının əsasını qoymuş ilk peşəkar rəssamlarla yanaşı, həm tanınmış korifeylərin, həm də qismən unudulan sənətkarların əsərləri sərgilənir.*

*Müasir Azərbaycanın təsviri incəsənət tarixi nisbətən gəncdir və XX yüzilliyin birinci yarısına təsadüf edir. Avropa incəsənət ənənələri Azərbaycana hələ XVIII əsrdən nüfuz etməyə başlayıb. Lakin müasir təsviri incəsənət məktəbinin formalaşmasında ciddi və əhəmiyyətli addım Bakıda 1920-ci ildə ilk Rəssamlıq məktəbinin açılışı ilə atılıb. Artıq Rəssamlıq məktəbinin ilk buraxılışı Azərbaycana əsl sənətkarları – Milli rəngkarlıq məktəbinin formalaşmasının əsasında duran çox müxtəlif və son dərəcə istedadlı rəssamları bəxş edib. Milli rəngkarlıq məktəbinin inkişafında növbəti mərhələdə rəssam-nonkonformistlər tamamilə başqa bədii – plastik məsələləri həll etməklə, Azərbaycanda avanqardizm üçün yol açıblar. Onların əsərləri müasir təsviri incəsənətin əsasını qo-*

*yub. Bu parlaq və bənzəri olmayan sənatkarların yaradıcılıq metodu «Abşeron rəngkarlıq məktəbi» adını alıb.*

*Bu gün Azərbaycanda incəsənətin inkişafı üçün bütün imkanlar mövcuddur. Yeni formasiya rəssamlarının yaradıcılığı əsl düşüncə oyunlarıdır.*

*Sərgi realizm, modernizm və postmodernizm kimi, bir-birindən fərqlənən bədii istiqamətlərdən bəhs edir və Azərbaycan təsviri incəsənətinin parlaq, sirli və dərkedilməz dünyası ilə tanış olmağa imkan yaradır.*

## YENİ İNŞA OLUNAN «ATELYE 61» RESTORANINDA MEKSİKA MƏTBƏXİNİN NÜMUNƏLƏRİ İLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Dövlət Bayrağı Meydanı ərazisində yeni inşa edilən «Atelye 61» restoranı ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Meksika mətbəxinin nümunələrinin təqdim olunacağı «Atelye 61»də qonaqlar həm də Latın Amerikası rəqslərini izləyə biləcəklər.*

*Son illərdə Dənizkənarı Milli Parkın genişləndirilməsi istiqamətində görülən işlər, Dövlət Bayrağı Meydanı, onun ətrafında həyata keçirilən abadlıq-quruculuq tədbirləri paytaxtımızın daha da gözəlləşməsinə, insanların rahatlığına xidmət edir və şəhər sakinlərində xoş təəssüratlar, dərin məmnunluq hissi yaradır. Yeni mədəniyyət və istirahət obyektlərinin açılışı isə şəhərimizi daha da gözəlləşdirir, ölkə sakinlərinin və paytaxtımıza gələn qonaqların istirahətini təmin etməklə yanaşı, respublikamızı turizm mərkəzi kimi də tanıdır.*

## YARAT MÜASİR İNCƏSƏNƏT MƏRKƏZİNİN İLK DAİMİ MƏKANI İLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva iyunun 8-də YARAT Müasir İncəsənət Mərkəzinin ilk daimi məkanı ilə tanış olmuşlar.*

*Diqqətə çatdırıldı ki, YARAT-ın yeni məkanı keçən əsrin 60-cı illərində dəniz gəmiləri üçün texniki baza kimi fəaliyyət göstərən, sonradan bərpa edilən binada yerləşir. Bərpa nəticəsində ikimərtəbəli dəbdəbəli sərgi məkanı yaradılıb. Yeni kitabxananın fəaliyyət göstərəcəyi bu məkanda YARAT-ın keçirdiyi sərgilər və il ərzində aparıcı beynəlxalq rəssamlar tərəfindən yeni yaranan hərəkatların 4 müvəqqəti sərgisi nümayiş olunacaq. Auditoriya nümayişlər, perfomanslar və YARAT-ın maarifləndirici tədbirləri üçün xüsusi məkan rolunu oynayır. Bu mərkəzin başlıca prinsipi təhsil proqramlarını daha da inkişaf etdirmək və beynəlxalq rəssamlar, auditoriya və institutlarla əməkdaşlığı gücləndirməkdir.*

## BAYIL BULVARININ AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Bayıl bulvarının açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Bayıl bulvarının inşasına 2013-cü ildə başlanılıb. Layihə çərçivəsində bulvarda işlər yüksək səviyyədə həyata keçirilib. Ümumi sahəsi 24 hektar olan yeni istirahət mərkəzinin uzunluğu 2,3 kilometrdir. Burada 16 hektar yaşıllıq zonası yaradılıb.*

*Dövlətimizin başçısı Bayıl bulvarının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni istirahət mərkəzində müasir işıqlandırma və suvarma sistemləri quraşdırılıb. Dövlət Bayrağı Meydanı istiqamətindən başlayan Bayıl bulvarında görülən işlər Dənizkənarı Milli Parkın simasını daha da gözəlləşdirir, paytaxta xüsusi yaraşıq verir. Bu cür istirahət mərkəzlərində yaradılan infrastrukturun ən müasir tələblər səviyyəsində olması sakinlərin rahatlığı baxımından mühüm əhəmiyyətə malikdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakının müasirləşmə-si istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illər-də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılması xüsusi əhəmiyyət daşıyır. Müasir istirahət mərkəzləri içərisində Bayıl bulvarının özünəməxsus yeri var.*

*Bir neçə gündən sonra paytaxtımızda əlamətdar və tarixi id-man bayramına – I Avropa oyunlarına start veriləcək. Bayıl bulvarının məhz dünyanın diqqət mərkəzində olan I Avropa oyunları ərəfəsində istifadəyə verilməsi çox önəmlidir. Ölkəmizə gələn turistlər Bakıda aparılan abadlıq-quruculuq və yeni-dənqurma işlərinin miqyası ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər.*

## AVROPA OYUNLARI PARKININ QARŞISINDA SALINAN YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Avropa oyunları parkının qarşısındakı parkda yaradılan şəraitlə tanış olmuşlar.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, ümumi sahəsi 15,5 hektar olan parkda müasir suvarma və işıqlandırma sistemləri quraşdırılıb, gəzinti yolları salınıb, geniş yaşıllaşdırma işləri görülüb. Burada quraşdırılan fəvvarələr istirahətə gələnlərin zövqünü oxşayacaq. Park füsunkarlığı və səliqə-sahmanı ilə diqqəti cəlb edir. Sakinlərin asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi ilə parkda 3 kafe yaradılıb.*

*Prezident İlham Əliyev «Park Land» kafesinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Müasir tələblər səviyyəsində yaradılan bu iaşə obyektində müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün bütün imkanlar var.*

*Bu istirahət ocağı da Azərbaycanda aparılan yenidənqurma tədbirlərinin miqyası və keyfiyyətinin əyani göstəricilərindəndir. Parkda milli memarlıq üslubu ilə beynəlxalq təcrübə böyük peşəkarlıqla uzlaşdırılıb.*

## BAKI–ƏLƏT YOLUNUN 4–6 KİLOMETRLİK HİSSƏSİNDƏ BAĞLANTI YOLLARI VƏ BAYIL BULVARINDA PİYADA KEÇİDİNİN AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Bakı–Ələt–Qazax–Gürcüstan ilə dövlət sərhədi yolunun 4–6 kilometrlik hissəsində bağlantı yollarının və Bayıl bulvarında inşa olunan piyada keçidinin açılışında iştirak etmişlər.*

*Yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, bağlantı yolları və piyada keçidi Nəqliyyat Nazirliyinin sifarişi ilə «Azvirt» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən inşa olunub. Yolların ümumi uzunluğu 6630 metrdir. Bəzi yollarda hərəkət zolaqlarının sayı 4, bəzilərində isə 5-dir. Hərəkət zolaqlarının eni isə 3,5 metrdir.*

*Yolların inşası zamanı 125 min kvadratmetr asfalt, 730 min kvadratmetr torpaq işləri görülüb. Yüksək səviyyədə və qısa müddətə yerinə yetirilən inşaat işləri zamanı müasir texnologiyalardan istifadə edilib. Yeni yol bu ərazidə nəqliyyatın təhlükəsiz və maneəsiz hərəkəti baxımından mühüm rol oynayır.*

*Beləliklə, bu yol paytaxtın yol-nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsinə töhfəsini verəcək.*

*Dövlətimizin başçısı burada yeni inşa olunan yeraltı piyada keçidinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə keçidin texniki göstəriciləri barədə məlumat verildi. Eni 8, hündürlüyü 4, uzunluğu 226 metr olan keçid əraziyə gələn insanların təhlükəsizliyini təmin edəcək. Burada əlillərin rahat hərəkət etmələri üçün xüsusi qurğu quraşdırılıb. Yeraltı piyada keçidinin 4 çıxışı var. Keçiddə 8 eska-*

*lator quraşdırılıb. Beləliklə, keçidin inşası sakinlərin Əhəd Yaqubov küçəsi, Dövlət Bayrağı Meydanı və Bibiheybət yolu istiqamətlərinə təhlükəsiz hərəkətini təmin edəcək.*

*Son dövrlərdə yeraltı və yerüstü piyada keçidlərinin inşası paytaxt Bakıda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərin tərkib hissəsinə çevrilib.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sizi və Rusiyanın dost xalqını dövlət bayramınız – Rusiya Günü münasibətilə ürəkdən təbrik edirəm.

Dost Rusiya bu gün cəmiyyətin modernləşdirilməsi, dinamik inkişaf və tərəqqi yolunda inamla irəliləyir. Rusiya Federasiyası qısa müddətdə sosial-iqtisadi inkişafda və beynəlxalq proseslərdə öz mövqeyinin və rolunun gücləndirilməsində sanballı uğurlar qazanıb.

Azərbaycan ilə Rusiyanı çoxəsrlik möhkəm dostluq və mehriban qonşuluq telləri bağlayır. Sevindiricidir ki, bu xoş münasibətlər hərtərəfli inkişaf edir və möhkəmlənir. Əminəm ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq və çoxplanlı qarşılıqlı fəaliyyət bizim birgə səylərimizlə xalqlarımızın tərəqqisi naminə, regionda sülh, sabitlik və həmrəylik naminə bundan sonra da hərtərəfli genişlənəcək.

Bu yaxınlarda Moskvada Sizinlə görüşümüzü səmimiyyətlə xatırlayıram.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı və uğurlar, bütün Rusiya xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2015-ci il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2015-ci il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB III BENİQNO AKİNOYA**

Hörmətli cənab Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Filippin arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, əlaqələrimizin genişlənməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2015-ci il*

# I AVROPA OYUNLARINDA İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ ATLETLƏR KƏNDİNDƏ GÖRÜŞ

*9 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri iyunun 9-da Atletlər Kəndində I Avropa oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüşmüşlər.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına Atletlər Kəndinin VIP qonaqların qəbul zonası barədə məlumat verdi. Binada yaradılan istirahət otağı, protokol zalı, qonaq vəsiqəsini gözləmə ərazisi və digər otaqlar müasir səviyyədədir. Burada yüksək səviyyədə fəaliyyət göstərmək üçün bütün imkanlar yaradılıb.*

*Sonra prezident İlham Əliyev I Avropa oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüşdü.*

**İlham Əliyev:** Əziz idmançılar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Bakıda keçiriləcək Avropa oyunlarında uğurlar arzulayıram.

3 gündən sonra bu tarixi hadisə başlanır. Azərbaycan Avropanı qəbul etməyə hazırdır. Əminəm ki, dünya miqyasında ən gözəl oyunları biz keçirəcəyik. Baxmayaraq ki, oyunların hazırlanması üçün cəmi 2 il yarım vaxtımız var idi. Ancaq xalqımız, dövlətimiz öz gücünü göstərdi. Biz qısa müddət ərzində dünya səviyyəli, Yay Olimpiya oyunları səviyyəsində oyunlar hazırladıq və bu oyunları uğurla da keçirəcəyik.

Komandamız oyunlarda böyük tərkibdə iştirak edəcək. Xatırlayıram, mən 2000-ci ildən bu günə qədər bütün Yay Olimpiya oyunlarında olmuşam və adətən, idmançılarla görüş-

müşəm. Biz idmançıları oyunlara təntənəli şəkildə yola salmışıq. Bu dəfə isə Avropa ölkələrindən idmançılar Azərbaycana gəlirlər. Deyə bilərəm ki, mən 2000-ci ildən bu günə qədər bütün olimpiya kəndlərində olmuşam. Bakıda yaradılan şərait heç bir başqa yerdə olmayıb. Bax, bu Atletlər Kəndi bir memarlıq əsəridir və bizim komandamız artıq burada yerləşib. Xarici qonaqlar da gəlirlər və xüsusi qeyd olunur ki, qısa müddət ərzində belə gözəl şəraitin yaradılması, əlbəttə, tarixi nailiyyətdir.

Burada, yaxında Media Kəndi də var. Heç bir Yay Olimpiya oyunlarında mətbuat işçiləri üçün Media Kəndi yaradılmayıb. İlk dəfə biz bunu tətbiq edirik. Bir sözlə, biz Avropa oyunlarının standartlarını Azərbaycanda müəyyən edirik və bu, ən yüksək standartlardır. Biz Avropa standartları haqqında, adətən, tez-tez eşidirik. Əlbəttə ki, bu, yüksək standartlardır. Artıq biz Azərbaycan standartlarını da tətbiq edirik. Bu oyunlar dövlətimizin gücünü, xalqımızın istedadını və idmançılarımızın peşəkarlığını göstərəcək. Əminəm ki, idmançılar bizi qələbələrlə sevindirəcəklər. Komandamızın tərkibində ölkəmizin ən güclü idmançıları var. Bütövlükdə, bütün xarici komandalarda da ən qabaqcıl idmançılar təmsil olunur.

Azərbaycan idman dövlətidir və bizim böyük uğurlarımız, nailiyyətlərimiz, qələbələrimiz var. Əminəm ki, bu oyunlarda da qələbələrimizin sayı çox olacaq və siz xalqımızı sevindirəcəksiniz.

Avropa oyunları Azərbaycanda artıq ümumxalq məsələsinə çevrilib. Qədim Atəşgah məbədindən alovlandırılan məşəl bütün ölkəmizi dolaşıb və Bakıya qayıdıb. Bizim bütün rayonlarımızda, o cümlədən Bakı şəhərində 2 milyona yaxın insan bu məşəli salamlayıb və bu bayramı qeyd edib. Doğrudan da böyük bayramdır, ölkəmiz üçün tarixi hadisədir. Avropa üçün tarixi hadisədir. Belə oyunlar 1-ci dəfə keçirilir. Əminəm ki, ən yüksək səviyyədə keçiriləcək.

Bir daha demək istəyirəm ki, komandamız çox güclüdür, güclülər sırasındadır. Biz idmançılarımızla fəxr edirik. Onlardan

yeni qələbələr gözləyirik. Əlbəttə ki, doğma Vətəndə sizə diqqət daha böyük olacaq. Əminəm ki, nəticələr də çox yaxşı olacaq.

Ona görə sizi bir daha ürəkdən salamlayıram, qələbələr arzulayıram. Siz bilirsiniz ki, Azərbaycan xalqı sizi sevir, sizi dəstəkləyir və bu dəstək sizə əlavə güc verəcək. Bir daha təbrik edirəm və 3 gündən sonra yeni tikilmiş Olimpiya stadionunda sizinlə bir daha görüşəcəyik.

* * *

*Dövlətimizin başçısı, xanımı və ailə üzvləri I Avropa oyunlarında Azərbaycanı ayrı-ayrı idman növlərində təmsil edəcək komandalarla xatirə şəkilləri çəkdirdilər.*

*Bu gün ölkəmizdə idmana göstərilən dövlət qayğısı yüksək səviyyədədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün istiqamətlərdə olduğu kimi, idman sahəsində də mühüm nailiyyətlər əldə edilib. Azərbaycan idmançıları dövlətimizin başçısının diqqət və qayğısını hər an hiss edirlər. Bunun nəticəsidir ki, idmançılarımızın müxtəlif olimpiadalar, dünya, qitə və regional əhəmiyyətli mühüm idman yarışlarında qazandıqları medalların sayı ilbəil artır. İlk Avropa oyunlarının Azərbaycanda keçirilməsinə qərar verilməsi təbii ki, ölkəmizin beynəlxalq nüfuzundan, dünyada formalaşdırdığı müsbət imicdən qaynaqlandı. Bundan başqa, bu məsələdə Azərbaycanda idmana göstərilən qayğı da mühüm rol oynadı. Avropa idman ailəsinin bu qərarı Azərbaycandakı ictimai-siyasi sabitlikdən, son illərdə əldə olunan yüksək iqtisadi nailiyyətlərdən irəli gəldi. Beynəlxalq yarışları keçirmək təcrübəsi Avropa Olimpiya Komitəsinin qərarını şərtləndirən mühüm amillər sırasında oldu. Ölkəmizin həyatında tarixi hadisə olan ilk Avropa oyunlarının keçirilməsi Azərbaycanın beynəlxalq idman aləminin aparıcı dövlətlərindən biri olduğunu bir daha göstərdi. Prezident İlham Əliyevin fəaliyyəti sayəsində Azərbaycan belə nüfuzlu idman tədbirini keçirmək iqtidarında olduğunu bir daha bütün dünyaya nümayiş etdirəcək. Avropa Olimpiya*

*Komitəsinin I Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı qəbul etdiyi qərardan sonra ölkəmizdə bu mühüm beynəlxalq tədbirə geniş hazırlıq işləri başlandı.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə yaranan I Avropa oyunlarının Təşkilat Komitəsi bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün səyləri birləşdirdi. Qısa müddətdə müasir yeni idman obyektləri inşa olundu, mövcudları əsaslı şəkildə yenidən qurularaq I Avropa oyunlarına hazırlıq vəziyyətinə gətirildi. Beləliklə, belə bir mühüm idman tədbirinə ev sahibi kimi, ölkəmiz üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirdi. I Avropa oyunlarına maraq çox böyükdür. Bu yarışlarda Azərbaycan da daxil olmaqla, Avropanın 50 ölkəsindən 6000-dən çox idmançı 20 idman növündə mübarizə aparacaq. Bu idman növlərindən 16-sı olimpiya, 4-ü isə qeyri-olimpiya növlərinə daxildir. İlk Avropa oyunlarının Bakıda 21 məkanda keçirilməsi müəyyən edildi və Azərbaycan 291 idmançı ilə Avropanın ən böyük idman yarışında birincilik uğrunda mübarizəyə qatılacaq. I Avropa oyunlarının əhəmiyyətini artıran mühüm amillərdən biri də onun 2016-cı ildə Rio-de-Janeyro – Yay Olimpiya oyunlarına lisenziya xarakteri daşımasıdır.*

*«Bakı–2015» I Avropa oyunlarında Azərbaycan nümayəndə heyətinin tərkibinə 291-i idmançı olmaqla, ümumilikdə 444 nəfər daxildir.*

*Sonda kollektiv şəkil çəkdirildi.*

## SAN-MARİNO RESPUBLİKASININ BAŞÇILARI ANDREA BELLUZZİ VƏ ROBERTO VENTURİNİ İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn San-Marino Respublikasının başçıları, San-Marino Regent kapitanları Andrea Belluzzini və Roberto Venturinini qəbul etmişdir.*

*Prezident İlham Əliyev iyunun 12-də Bakıda mötəbər beynəlxalq idman yarışının – I Avropa oyunlarının başlanmasının və Avropadan çoxlu sayda idmançının bu yarışlarda təmsil olunmasının önəmini qeyd etdi. Dövlətimizin başçısı yarışlarda iştirak edəcək San-Marino idmançılarına uğurlar arzuladı. Prezident İlham Əliyev San-Marinonu təmsil edən nümayəndələrin ölkəmizlə yaxından tanış olmaları üçün də tədbirin yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayan ali qonaqlar San-Marino nümayəndə heyətinin I Avropa oyunlarında iştirakından qürur duyduqlarını dedilər. Qonaqlar bildirdilər ki, onların bu mötəbər idman yarışlarında iştirak etmələri Azərbaycanın beynəlxalq səviyyədə həyata keçirdiyi işlərə göstərdikləri hörmətin ifadəsidir.*

*Görüşdə I Avropa oyunlarının xalqların bir-birini daha yaxından tanıması və xalqlar arasında humanitar və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi işinə töhfə verdiyi vurğulandı.*

*Söhbət zamanı ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu bildirildi, iqtisadi, sərmayə qoyuluşu, turizm və digər sahələrdə də əməkdaşlıq üçün yaxşı potensialın olduğu qeyd edildi.*

## GÜRCÜSTAN RESRUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Gürcüstan Respublikasının Baş naziri İrakli Qaribaşvilini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, I Avropa oyunlarının ölkəmizdə keçirilməsinin önəmi qeyd edildi və bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə xidmət edəcəyi bildirildi.*

*Dövlətimizin başçısı Gürcüstan idmançılarına yarışlarda uğurlar arzuladı.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ÇEX RESPUBLİKASI PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ YAN HAMAÇEK İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçeki qəbul etmişdir.*

*Deputatlar Palatasının sədri Yan Hamaçek Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Çex Respublikası Prezidentinin ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə böyük maraq göstərdiyini bildirdi. Çexiyanın böyük nümayəndə heyəti ilə I Avropa oyunlarında iştirak edəcəyini deyən Yan Hamaçek ölkəsinin Milli Olimpiya Komitəsinin bu oyunlara ciddi hazırlaşdığını vurğuladı.*

*Çex Respublikasının Prezidenti Miloş Zemanla görüşlərini məmnunluqla xatırladan dövlətimizin başçısı əlaqələrimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. I Avropa oyunlarının əhəmiyyətinə toxunan prezident İlham Əliyev yarışlarda böyük nümayəndə heyəti ilə iştirak edən çex idmançılarına uğurlar arzuladı.*

*Görüşdə ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün qarşılıqlı marağın və imkanların olduğu bildirildi.*

*Dövlətimizin başçısı prezident Miloş Zemanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çex Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovu qəbul etmişdir.*

*Bu yaxınlarda Bolqarıstan Respublikasına uğurlu səfərini və Baş nazir Boyko Borisovla Sofiyada keçirdiyi görüşü məmnunluqla xatırladan dövlətimizin başçısı onun ölkəmizə səfərinin və I Avropa oyunlarının açılışı mərasimində iştirakının önəmini qeyd etdi. I Avropa oyunlarının tarixi bir hadisə olduğunu vurğulayan prezident İlham Əliyev Bolqarıstan idmançılarına uğurlar arzuladı.*

*Bolqarıstanın Baş naziri Boyko Borisov ölkəsinin I Avropa oyunlarında böyük nümayəndə heyəti ilə təmsil olunduğunu dedi.*

*Görüşdə Azərbaycan–Bolqarıstan ikitərəfli münasibətlərinin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi, ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi və genişləndiyi bildirildi, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ MLADEN İVANİÇ İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniçi qəbul etmişdir.*

*Azərbaycan ilə Bosniya və Herseqovina arasında ikitərəfli əlaqələrin səviyyəsinin razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. I Avropa oyunlarına böyük marağın olduğunu vurğulayan prezident İlham Əliyev bu yarışlarda iştirak edən Bosniya və Herseqovina idmançılarına uğurlar arzuladı.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç bir neçə il bundan əvvəl Bosniya və Herseqovina Parlament Məclisinin Xalqlar Palatasında Ermənistanın Azərbaycana təcavüzü və Xocalı soyqırımına dair rəsmi sənəd – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün tanınması və hörmət olunmasına dair qətnamə qəbul olunduğunu vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV NİKOLİÇ İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçi qəbul etmişdir.*

*Görüşdən əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, xanımı Mehriban Əliyevanın, Serbiya Respublikasının Prezidenti Tomislav Nikoliçin, xanımı Draqitsa Nikoliçin iştirakı ilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Serbiya Respublikasının yüksək dövlət mükafatı – «Sreten» ordeni təqdim olundu.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın «Sreten» ordeni ilə təltif edilməsi haqqında Serbiya Respublikası Prezidentinin Fərmanı oxundu.*

*Serbiya prezidenti Tomislav Nikoliç «Sreten» ordenini Mehriban Əliyevaya təqdim etdi.*

**M e h r i b a n Ə l i y e v a:** Çox sağ olun, cənab Prezident. Bu mənim üçün böyük şərəfdir. Bu mükafata görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

**T o m i s l a v N i k o l i ç:** Bilirsiniz, Serbiyada belə bir deyim var: siz öz ailənizi seçə bilməzsiniz, lakin dostlarınızı seçə bilərsiniz. Bizi seçdiyinizə görə çox sağ olun.

**M e h r i b a n Ə l i y e v a:** Təşəkkür edirəm, mən bu mükafatı təkcə səylərimizin qiymətləndirilməsi kimi yox, həmçinin Serbiya ilə Azərbaycan arasında qarşılıqlı dostluq və hörmət rəmzi kimi dəyərləndirirəm. Çox sağ olun, Heydər Əliyev Fondu sizin gözəl ölkənizdə öz fəaliyyətini davam etdirəcək.

**T o m i s l a v N i k o l i ç:** Təşəkkür edirəm.

**M e h r i b a n  Ə l i y e v a:** Mən sizin komandanıza Avropa oyunlarında uğurlar arzu edirəm.

**İ l h a m  Ə l i y e v:** Mən də sizi dost ölkənin ən yüksək mükafatına layiq görülməyiniz münasibətilə təbrik edirəm.

**M e h r i b a n  Ə l i y e v a:** Təşəkkür edirəm, bu mənim üçün böyük şərəfdir.

*Azərbaycan prezidenti İlham Əliyevlə Serbiya prezidenti Tomislav Nikoliçin görüşündə ölkələrimiz arasındakı əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. I Avropa oyunlarının əhəmiyyəti vurğulandı, bu oyunların keçirilməsi üçün yaradılmış şərait yüksək qiymətləndirildi. Söhbət zamanı Azərbaycan ilə Serbiya arasındakı əlaqələrin daha da genişləndirilməsi ətrafında geniş fikir mübadiləsi aparıldı. Serbiya prezidenti Tomislav Nikoliç Azərbaycan prezidenti İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi.*

# MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviçi qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğu qeyd edildi, bu əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsi üçün maraq və imkanların mövcudluğu vurğulandı. I Avropa oyunlarının əhəmiyyəti qeyd olundu, bu oyunların keçirilməsi üçün yaradılmış şərait yüksək qiymətləndirildi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı. Dövlət başçıları TAP və TANAP layihələrinin həyata keçirilməsinin perspektivlərini müzakirə etdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də I Avropa oyunlarının rəsmi açılışı mərasimində iştirak etmək üçün ölkəmizə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı hakim Ədalət və İnkişaf Partiyasının parlament seçkilərində qələbəsi münasibətilə şəxsən təbrik etdi. Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Əlaqələrimizin bundan sonra da bütün sahələrdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı «Bakı–2015» I Avropa oyunlarının əhəmiyyəti vurğulandı. Prezident İlham Əliyev Türkiyə idmançılarına uğurlar arzuladı. Bu tədbirin ölkələr və xalqlar arasında əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyi qeyd edildi.*

*Dövlət başçıları ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovu qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Qurbanqulu Məlikquliyeviç! Sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Şadıq ki, bizim üçün çox önəmli gündə qonağımızsınız. Bu bir daha dostluğumuzu, qardaşlığımızı ifadə edir. Türkmənistan ilə Azərbaycan arasındakı əlaqələr məhz dostluq, qardaşlıq əsasında qurulub. Xalqlarımız da daim bir yerdə yaşayıb-yaratmışlar, bir-birinə arxa-dayaq olmuşlar. Bu gün 2 müstəqil dövlət kimi, Türkmənistan və Azərbaycan uğurla inkişaf edir. Biz sizin uğurlarınızı məmnunluqla qeyd etmək istəyirik. Bu bizi çox şad edir. Sizin rəhbərliyinizlə Türkmənistan inkişaf yolu ilə uğurla gedir. Əminəm ki, gələcəkdə bizim dostluğumuz, qardaşlığımız daha da möhkəmlənəcək. Sizin bu gün Bakıda olmağınız özlüyündə bir nümunədir, göstəricidir.

Bir daha Sizi ürəkdən salamlayıram. Xahiş edirəm ki, mənim ən xoş arzularımı qardaş türkmən xalqına çatdırasınız.

*Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov «Bakı–2015» I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün Azərbaycana dəvətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Türkmənistan Respublikasının Prezidenti I Avropa oyunlarının çox əhəmiyyətli və vacib idman tədbiri olduğunu qeyd etdi.*

*Ölkələrimizin siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə yüksək səviyyədə əməkdaşlıq etdiyini bildirən Türkmənistan dövlətinin başçısı ümumi tarix, dil və mənəvi dəyərlərin mövcudluğunun ikitərəfli əlaqələri daha da genişləndirməyə kömək etdiyini dedi. Qurbanqulu Berdıməhəmmədov Türkmənistanın bitərəfliyi ilə bağlı BMT-nin 2-ci qətnaməsinin qəbul edildiyini deyərək, Azərbaycanın bu sənədi dəstəkləyən ilk ölkələrdən olduğunu vurğuladı. Türkmənistan dövlətinin başçısı bu ilin dekabrında ölkəsinin bitərəfliyinin 20 illiyi ilə bağlı keçiriləcək konfransa Azərbaycan Prezidentini dəvət etdi.*

*Qurbanqulu Berdıməhəmmədov 2017-ci ildə Türkmənistanda qapalı məkanlarda döyüş növləri üzrə V Asiya oyunlarının keçiriləcəyini diqqətə çatdırdı.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Aleksandr Qriqoryeviç! Sizi yenidən görməyimə, bizim yeni görüşümüzə çox şadam. Biz çox tez-tez görüşürük – Bakıda da, Minskdə də, başqa yerlərdə də. Hər dəfə də ünsiyyətdə olmağa, fikir mübadiləsi aparmağa vaxt tapırıq. Bu görüşlər bizim münasibətlərimizə dinamizm əlavə edir. Belarus bizə dost, qardaş dövlətdir. Biz bu münasibətləri çox yüksək qiymətləndirir, qarşılıqlı siyasi əlaqələr, iqtisadi əməkdaşlıq məsələlərində nisbətən qısa müddətdə qazandığımız uğurlara görə fəxr edirik. Biz bütün istiqamətlərdə yalnız müsbət dinamika görürük.

Bizim münasibətlərimiz səmimi, etibarlı olması ilə fərqlənir. Bu münasibətlər bizim qarşıya qoyduğumuz vəzifələri müvəffəqiyyətlə gerçəkləşdirməyə yönəlib və tabeliyimizdə olanlar bu vəzifələrin öhdəsindən uğurla gəlirlər. Şadam ki, Siz I Avropa oyunlarının açılışı mərasiminə gəlməyə vaxt tapmısınız. Bu həm Azərbaycan, həm də Avropa üçün əlamətdar hadisədir. Bilirəm ki, Belarus oyunlarda güclü heyətlə təmsil olunub. Sizin komandanıza uğurlar və medallar arzulayıram. Azərbaycan və Belarus komandalarına birlikdə azarkeşlik edəcəyik.

Bir daha xoş gəlmisiniz!

**A l e k s a n d r L u k a ş e n k o:** Sağ olun, İlham Heydər oğlu.

Əvvələn, mən buraya gəlməyə bilməzdim. Çünki vaxtilə biz bu cür oyunları keçirmək barədə arzumuzu bildirmişdik. Axı Siz və mən həm də olimpiya komitələrinin rəhbərləriyik. Asiyada, Afrikada, Latın Amerikasında bu cür idman tədbirləri keçirilir, Avropada isə belə bir təşəbbüs yox idi. Ona görə səmimi sözümdür, Sizi təbrik edirəm və Sizə qibtə edirəm. Əvvələn, ona görə ki, I Avropa oyunları məhz Bakıda keçirilir. İkincisi, Sizi təbrik edirəm ki, Siz bu oyunlara ən qısa müddətdə – cəmi 2 il ərzində hazırlaşa bildiniz. Səmimi deyirəm, əgər siz əvvəldən heç nə etməsəydiniz, bu, mümkün olmazdı. Lakin bu Avropa oyunları Sizin bütün tədbirləri başa çatdırmağınıza təkan verdi. Bu sözlər Dənizkənarı bulvardan başlayaraq, idman obyektlərinə qədər bütün işlərə aiddir. Ümumiyyətlə, çox böyük iş görülüb. Afərin! Biz bu işin görüləcəyinə şübhə etmirdik. Lakin hər şeyin bu qədər gözəl olması bizi sadəcə olaraq, heyrətləndirdi. Mən bunu Sizə dünən də demişdim. Afərin! Bakı çox gözəl şəhərdir. Ən başlıcası, biz çoxlu obyektlərin tikildiyi çox şəhərlər tanıyırıq, lakin Sizin tikdiyiniz binaların bu dərəcədə düşünülmüş, şəraitə uyğunlaşdırılmış olması hörmətə layiqdir.

Buna görə Avropa oyunlarına qədər gördüyünüz işlər münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm. Əminəm ki, sizin idmançılar buna yüksək uğurlarla cavab verəcəklər. İnanın ki, hətta bizim qələbəyə ümid bəslədiyimiz bəzi idman növlərində bizə qalib gəlsəniz, buna görə qanımız qaralmayacaq. Çünki biz həqiqətən, bir-birimizə yaxınıq və bizim münasibətlərin yaxşı təməli var.

Dəvət üçün bir daha sağ olun.

## I AVROPA OYUNLARININ RƏSMİ AÇILIŞI MƏRASİMİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNAN RƏSMİ QƏBULDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*12 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından iyunun 12-də Heydər Əliyev Mərkəzində «Bakı–2015» I Avropa oyunlarının rəsmi açılışı mərasimi iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.*

*Rəsmi qəbulda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya prezidenti Tomislav Nikoliç, Monteneqro prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Belarus prezidenti Aleksandr Lukaşenko, Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov, Tacikistan prezidenti Emoməli Rəhmon, Lüksemburq Hersoqluğunun Böyük Hersoqu Anri, Monako Knyazlığının şahzadəsi II Albert, San-Marinonun dövlət başçıları – Kapitan regentləri Andrea Belluzzi və Roberto Venturini, Bolqarıstanın Baş naziri Boyko Borisov, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qırğız Baş nazirinin birinci müavini Tayrıbek Sarpaşov, Çex parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçek, Slovakiya parlamentinin Sədri Peter Pelleqrini, Avstriya parlamentinin ikinci prezidenti Karlhaynts Kopf, Latviya parlamentinin Sədr müavini Andrey Klementyev, Meksika Senatının xarici əlaqələr komitəsinin sədri Qabriela Kuevas Barron, Ukrayna Dövlət Fiskal Xidmətinin sədri, Ukrayna Ali Radasının Ukrayna–Azərbaycan parlamentlərarası əlaqələr üzrə qrupun başçısı Roman Nasirov, Qətərin Olimpiya Komitəsinin sədri şeyx Cənan bin Həməd əl-Tani, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah bin Mosaad,*

*Küveytin İnformasiya və Gənclər naziri şeyx Salman əl-Hamoud əs-Sabah, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, Xarici İşlər naziri Rəşid Meredov, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Oman Sultanlığının İdman İşləri naziri şeyx Səad bin Məhəmməd bin Səid əl-Mərduf əl-Sədi, İran İslam Respublikasının İdman və Gənclər naziri Mahmud Qudərzi, Türkiyənin Energetika naziri Tanər Yıldız, Böyük Britaniyanın Xarici İşlər nazirinin müavini və parlamentin üzvü Tobias Martin Elvud, Vatikanın Mədəniyyət nazirinin müavini Luis Marie Vilyam Sançez de Toca, İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri, Latviyanın sabiq prezidenti Valdes Zatlers və digər yüksəkvəzifəli qonaqlar iştirak edirdilər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ilk Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə gələn dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi və idman xadimləri ilə görüşdülər.*

*Dünyanın idman tarixində silinməz iz qoyacaq ilk Avropa oyunlarının rəsmi açılışı mərasimində yüksək səviyyəli qonaqların iştirakı bu oyunların əhəmiyyətini bir daha təsdiq edir. Avropa oyunlarına bütün dünyada böyük maraq var. Qitənin idman tarixində mühüm hadisə olan bu oyunların Azərbaycanda keçirilməsinə qərar verilməsi təbii ki, ölkəmizin beynəlxalq nüfuzundan və dünyada formalaşdırdığı müsbət imicdən irəli gəlir. Bu amil həm də Azərbaycanda idmana göstərilən qayğı, idman sahəsində əldə olunan uğurlarla da sıx bağlıdır. Avropa idman ailəsinin bu qərarı Azərbaycandakı ictimai-siyasi sabitliyə və son illərdə əldə olunan yüksək iqtisadi nailiyyətlərə inamın təsdiqidir. Prezident İlham Əliyevin hərtərəfli fəaliyyəti sayəsində Azərbaycan belə nüfuzlu idman tədbirini keçirmək iqtidarında olduğunu bir daha bütün dünyaya nümayiş etdirir.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi I Avropa oyunlarının Təşkilat Komitəsi bu tədbirin yüksək*

*səviyyədə keçirilməsi üçün bütün səyləri birləşdirdi. Qısa müddətdə yeni müasir idman obyektlərinin inşası, mövcud olanların isə əsaslı şəkildə yenidən qurulması beynəlxalq idman ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirildi. Ölkəmizdə bu oyunları yüksək səviyyədə keçirmək üçün yaradılan şərait, qısa müddətə görülən işlər və reallaşdırılan layihələr bir daha sübut edir ki, beynəlxalq idman ailəsinin üzvü olan Azərbaycanda başlanılan bütün işlər vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilir. Bu isə Avropa oyunlarının standartını yaradan Azərbaycanı yenidən dünyanın diqqət mərkəzinə çevirir. Azərbaycan da daxil olmaqla, Avropanın 50 ölkəsindən 6000-dən artıq idmançının qatıldığı I Avropa oyunları dünya idman tarixində mühüm hadisə kimi qalacaq.*

*Rəsmi qəbulda I Avropa oyunlarına dair qısa videoçarx nümayiş etdirildi.*

*Dövlətimizin başçısı İlham Əliyev rəsmi qəbulda çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar, əziz qonaqlar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Xaricdən gələn bütün qonaqlara «Azərbaycana xoş gəlmisiniz!» – deyirəm.

Bir neçə saatdan sonra Bakıda I Avropa oyunları başlanır. Bu hadisə münasibətilə ilk növbədə, bütün Azərbaycan xalqını, bütün Avropa xalqlarını təbrik edirəm. Əminəm ki, bu idman yarışı dostluq, mehribanlıq bayramına çevriləcəkdir.

Bu, ölkəmiz üçün tarixi hadisədir. Çünki bu günə qədər ölkəmizdə bu miqyasda idman yarışları keçirilməmişdir. Eyni zamanda, bu, Avropa üçün də tarixi hadisədir. Çünki başqa qitələrdən fərqli olaraq, Avropada heç vaxt qitə oyunları keçirilməmişdir. Baxmayaraq ki, olimpiya hərəkatının və olimpiya ideyalarının vətəni Avropadır. Bu tarixi qərar 2012-ci ilin dekabrında qəbul edilib. Bu qərarın qəbul edilməsinə görə Avropa Olimpiya Komitəsinə və şəxsən onun prezidenti cənab

Patrik Hikkiyə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu qərar gələcəkdə Avropa idmanının inkişafında müsbət rolunu oynayacaq.

Qərar qəbul olunandan sonra biz Azərbaycanda dərhal oyunların Təşkilat Komitəsini yaratdıq. Ondan sonra yerli və beynəlxalq nümayəndələrdən ibarət Əməliyyat Komitəsi yaradıldı. Təşkilat Komitəsi və Əməliyyat Komitəsi çox fəal işləyərək, qısa müddət ərzində belə mötəbər idman yarışını hazırlayıb.

Əlbəttə, bu oyunların hazırlanmasında könüllülər çox böyük rol oynayıblar. 20 minə yaxın yerli və xarici könüllü bu oyunların keçirilməsi üçün bu illər ərzində çox fəal işləyiblər. Mən onların rolunu xüsusilə qeyd etmək istəyirəm. Onların mütləq əksəriyyəti gənclərdir. Onlar bizim gələcəyimizdir. Əlbəttə, bu əvəzolunmaz təcrübə gələcək həyatda onlar üçün müsbət rol oynayacaq.

Azərbaycanda idmanın inkişafına çox böyük diqqət göstərilir. İdmanın, olimpiya hərəkatının inkişafı Azərbaycanda dövlət siyasətidir. İdmançılarımız da bizi böyük uğurlarla, qələbələrlə sevindirirlər. Deyə bilərəm ki, son Yay Olimpiya oyunlarında Azərbaycan idmançıları komanda hesabında 30-cu, Avropa ölkələri arasında isə 15-ci yerə layiq görülüblər.

Gənc idmançılarımız da bizi sevindirir. 2014-cü ildə keçirilmiş Yeniyetmələrin Yay Olimpiya oyunlarında Azərbaycan komandası 200-dən çox iştirakçı arasında 10-cu yerə layiq görülüb. Bu onu göstərir ki, gözəl gənc nəsil yetişir və idmanın ənənələri möhkəmlənir. Əlbəttə ki, bu, ölkəmizin inkişafına müsbət təsir göstərir.

İdman ictimaiyyəti həyatımızın ayrılmaz hissəsidir. Təsadüfi deyil ki, I Avropa oyunları Bakıda keçirilir. Hesab edirəm ki, burada idmançılarımızın uğurları ilə yanaşı, digər amillər də öz rolunu oynamışdır. Azərbaycanda çox inkişaf etmiş idman infrastrukturu yaradılıb. Bizim bölgələrimizdə 50-yə yaxın olimpiya idman mərkəzi yaradılıb. Bakıda isə bütün idman

qurğuları, idman obyektləri ən yüksək standartlara cavab verir. Oyunların iştirakçıları və qonaqlar özləri bunu təsdiq edəcəklər.

Şəhər infrastrukturu çox inkişaf edib. Xüsusilə oyunlara hazırlıq zamanı bu sahəyə daha böyük diqqət göstərilib. Nəqliyyat sistemimizin, xidmət sektorunun təkmilləşdirilməsi, yeni hotellərin açılışı, əlbəttə ki, gələcəkdə Azərbaycana gələn turistlərin sayını xeyli artıracaq. Eyni zamanda, Avropadan gələn minlərlə qonaq Azərbaycanı yaxından tanıyacaq. Əminəm ki, onların bir çoxu gələcəkdə Azərbaycana qayıtmaq istəyəcəklər.

Azərbaycanda siyasi sabitlik mövcuddur. Ölkənin uğurlu və dayanıqlı inkişafı təmin edilir. İqtisadi inkişafımız da xalqımızı sevindirir. Bu il iqtisadiyyat 5 faizdən çox artıb. Son 10 il ərzində isə dünya miqyasında Azərbaycan iqtisadiyyatı ən sürətli templərlə inkişaf edib və 3 dəfədən çox artıb. Bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, biz bu oyunları yüksək səviyyədə keçirək. Biz buna çalışmışıq və əminəm ki, qonaqlar oyunları böyük maraqla izləyəcəklər.

Bir önəmli amili də qeyd etmək istəyirəm. Bu da oyunlara ictimaiyyət tərəfindən verilən dəstəkdir. Azərbaycan xalqı I Avropa oyunlarının Bakıda keçirilməsini ürəkdən alqışlayır. Bu, son 2 il ərzində bir növ ümumxalq məsələsinə çevrilib. Oyunların məşəlini bütün bölgələrdə, o cümlədən Bakıda qarşılamaq üçün 2 milyona yaxın insan küçələrə, meydanlara çıxmışdır ki, məşəli salamlasın və oyunlara öz güclü ictimai dəstəyini versin.

Oyunlar bu gün başlanır. Bu günlər ərzində – iyunun 28-dək idmançılar öz güclərini göstərəcəklər. Oyunlardan sonra, əlbəttə ki, həyat davam edəcək. Azərbaycan digər böyük mötəbər idman yarışlarına ev sahibliyi edəcəkdir. 2016-cı ildə Ümumdünya Şahmat Olimpiadası və eyni zamanda, «Formula-1» yarışı, 2017-ci ildə İslam Həmrəyliyi oyunları Bakıda keçiriləcəkdir. 2020-ci ildə isə futbol üzrə Avropa çempionatının qrup mərhələsi və dörddəbir final yarışları keçiriləcəkdir. Yəni Azərbaycan artıq idmanın inkişafı istiqamətində öz rolunu dünyaya göstərib. Əminəm ki, Bakıya gələn və gələcək yarışlarda iştirak edəcək

idmançılar, qonaqlar ölkəmizdən ən xoş təəssüratlarla ayrılacaqlar.

Oyunlar başlanır. Bütün komandalar hazırdır. Azərbaycan xalqı oyunların başlanmasını səbirsizliklə gözləyir. Bizim üçün bu tarixi bir gündə bütün idmançılara, bütün qonaqlara bir daha «Xoş gəlmisiniz!» – deyirəm, idmançılara uğurlar arzulayıram. Qoy güclü qalib gəlsin. Sağ olun.

## «BAKI–2015» I AVROPA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*Bakı Olimpiya stadionu*

*12 iyun 2015-ci il*

*Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın – I Avropa oyunlarının açılışının həyəcan və sevincini yaşadı.*

*Tamaşaçılar açılış mərasiminin keçirildiyi Bakı Olimpiya stadionuna daxil olaraq yerlərini tutdular. «Bakı–2015» I Avropa oyunları Əməliyyat Komitəsinin məlumatına görə, açılış mərasimi üçün nəzərdə tutulan bütün biletlər satılmışdır.*

*Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən ilk Avropa oyunlarını tarixi hadisə adlandırırlar. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki iyunun 11-də AZƏRTAC-a müsahibəsində əminliklə vurğulayıb ki, Bakıda hər kəs gözəl, möhtəşəm və inanılmaz idman bayramının şahidi olacaq. Onun sözlərinə görə, «Bakı–2015» ilk Avropa oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri olacaq və 6 min atletin 20 idman növündə mübarizəyə qatılması həqiqətən, böyük göstəricidir.*

*Bakı Olimpiya stadionuna toplaşmış 68 min tamaşaçı, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı unudulmaz tarixi anın şahidi oldular.*

*Paytaxtın xəritəsinə yeni daxil olmuş Bakı Olimpiya stadionu öz möhtəşəmliyi, əsrarəngiz gözəlliyi ilə hər kəsin diqqətini çəkirdi. Burada dünyanın aparıcı bədii, yaradıcı və texniki heyətlərinin iştirakı ilə ərsəyə gələn kreativ şou nümayiş olundu. Stadion ən mürəkkəb tərtibata malik möhtəşəm səhnə mexanizmindən ibarət məkana çevrilmişdi. O, təbiətin 4 ünsüründən – su, od, torpaq və yel obrazlarından istifadə etməklə, heyrə-*

*tamiz bir mənzərə yaratmışdı. Səhnənin quraşdırılması 3 aya başa gəlib.*

*Mərasimin təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunub.*

*Açılış mərasimini hazırlayan bədii heyətin siyahısına qısa nəzər yetirək: bədii rəhbər 2004-cü ildə Afina Olimpiya oyunlarında mərasimlərin qurucusu kimi dünyada böyük şöhrət qazanan Dimitris Papaioannoudur. Musiqi rəhbəri Teodor Currentzis 2014-cü ildə «Operaların lentə alınması üzrə ECHO mükafatı» laureatıdır. Quruluşçu rəssamlar isə memarlıq, dizayn və səhnə quruculuğunun kreativ məkanı olan «Flux Ofis» şirkətinin memar və yaradıcıları – Thanassis Demiris və Eva Manikadakidir. Onların memarlıq, teatr, opera, rəqs və kino sahəsindəki işləri Venesiya Memarlıq Biennalesi (2014), Venesiya Film Festivalı (Miss Violence, 2013) və digər beynəlxalq səviyyəli tədbirlərdə nümayiş etdirilib, mükafatlar qazanıb.*

*Beləliklə, çoxdan səbirsizliklə gözlənilən, həyəcan və qürur doğuran tarixi an – Bakı Olimpiya stadionunda ilk Avropa oyunlarının açılışı mərasimi başlandı.*

*Mərasim «Bakı–2015» I Avropa oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin dediyi kimi, bir sıra maraqlı məqamlar və sürprizlərlə yadda qaldı.*

*Tamaşaçıların sürəkli alqışlarından sonra stadiona bir anlıq sükut çökdü. Bu sükutu dünya şöhrətli xanəndə Alim Qasımovun ifa etdiyi muğamın avazı pozdu. Sonra ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başladı. Bu, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini əks etdirirdi.*

*Rəqəmlər sıfıra yaxınlaşdıqca nağaraların səsi zilə qalxırdı. Stadion gur işığa qərq olur və minədək rəqqasə səhnənin əsas hissəsini ətəkləri ilə örtürdü. Onların ətəkləri Azərbaycanın dünyaca məşhur xalılarındakı həndəsi fiqurlarla, dekorativ naxışlarla işlənilib. Rəqqasələrin paltarlarının ətəkləri 16 min kvadratmetr parçadan tikilib. Bu, 13 olimpiya üzgüçülük hovu-*

*zu böyüklükdə parça deməkdir. Hər ətək məxsusi olaraq səhnədəki yerinə görə işlənib.*

*Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycanın Dövlət bayrağının obrazı yarandı. Səhnədən səmaya fişənglər atıldı. Şeypurçular Dmitri Şostakoviçin «Bayram uvertürası»ndan bir parça səsləndirdilər. Diqqət VIP lojalara yönəldi və salamlama başlandı. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, «Bakı–2015» ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini hərarətlə salamladılar.*

*Stadionun VIP tribunasında Azərbaycan prezidenti İlham Əliyev, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki əyləşmişdilər. Oyunların açılışı mərasimində iştirak etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya prezidenti Vladimir Putin, Belarus prezidenti Aleksandr Lukaşenko, Serbiya prezidenti Tomislav Nikoliç, Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov, Tacikistan prezidenti Emoməli Rəhmon, Monteneqro prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Monako şahzadəsi II Albert, Lüksemburqun Böyük Hersoqu Anri, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Rumıniyanın Baş naziri Viktor Ponta, Bolqarıstanın Baş naziri Boyko Borisov, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah bin Musaad bin Əbdüləziz, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad əl-Sabah, İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, eləcə də San-Marino, İsveçrə, Böyük Britaniya, Slovakiya, Çexiya, İran, Ukrayna, Oman, Küveyt, Qətər və digər ölkələrin yüksəkvəzifəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri vardı.*

*Simfonik orkestrin ifasında Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Azərbaycan Respublikasının Dövlət bayrağı stadiona gətirildi.*

*Stadionda quraşdırılan elektron tablolarda Azərbaycanı qarış-qarış dolaşmış məşəlin səyahət marşrutu nümayiş etdirildi. Uzunluğu 700 metr olan, arena boyu dövrələnən paneldə LED lampaları vasitəsilə alovun səyahət etdiyi məkanların adları bir-bir yazıldı.*

*Son məşəlçi – 2 dəfə paralimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun «V simfoniya»sının sədaları altında I Avropa oyunlarının məşəlini stadiona gətirdi. Gənclərin Olimpiya oyunlarında taekvondo üzrə qızıl medala layiq görülmüş Səid Quliyev onunla yanaşı addımlayırdı. Onlar mərkəzə doğru hərəkət etdikləri zaman ayaqları altında cadar-cadar olan torpaq görünürdü. Bu mənzərə palçıq vulkanları ətrafında Azərbaycan təbiətini göz önündə canlandırırdı.*

*Səid Quliyev stadionun mərkəzində qaya parçasını götürdü və onun yerində çökək yarandı. İlham Zəkiyev tərəfindən ora yaxınlaşdırılan məşəl söndü, çökək doldu. Torpaq üzərindəki çatlardan çıxan alov qığılcımlarının axını lavanı xatırladırdı.*

*Stadionun ortasından qaya parçası götürüldü və birinci məşəl gələcəkdə görüləcək işlərə işıq salmaq üçün torpağa basdırıldı.*

*Torpağın çatlarından çıxan alov səhnənin kənarında dayanmış adama tərəf irəlilədi, ruh və ya holoqram kimi, onu bürüyərək cana gətirib oyatdı. Həmin adam şair Nizamidir. Şairin əlində tutduğu tərəzinin bir gözündə qadın, digər gözündə kişi fiquru vardı. Nizami poeziyasının ruhundan doğan musiqi parçası tamaşaçıları şairin xəyal dünyasına apardı. Nəzərlər stadionun mərkəzində havadan asılmış iri tərəziyə yönəldi. Nizami əlindəki tərəzini fırlatdıqca iri tərəzi də fırlanırdı. Havadan asılmış iri tərəzinin gümüşü rəngli gözündə qadın (Ay), qızılı rəngli gözündə isə kişi (Günəş) rəqs edirdi. Niza-*

*minin qəhrəmanları Leyli və Məcnunun rəmzləri olan kişi və qadın dövrə vura-vura rəqs edir, qovuşmağa çalışır, lakin birləşə bilmirdilər.*

*Səhnə ətrafındakı halqada 300-dək ifaçı göründü. Qədim tarixə malik miniatür sənətinin yaratdığı obrazlar səhnədə göründükcə halqanın ətrafı rənglə dolurdu. Halqa fırlandıqca adamlar sanki miniatür rəsmlərdə təsvir olunan obrazları canlandırırdılar. Nizami tamaşaçını yaradıcılığının 9 mövzusu ətrafında səhnədən-səhnəyə aparırdı. Evlər, saray və məktəblər, şahzadələr, əjdahalar, atlar, digər real və əfsanəvi varlıqlar görünürdü.*

*Halqa tam dövrə vurduqdan sonra yerdən nar ağacı boy verib qalxdı. Nizami ağacdan bir nar dərdi. Qəflətən hər şey dondu.*

*Nizaminin ətrafındakı miniatürlər dünyası torpağa bataraq yoxa çıxdı, tərəzi uzaqlaşdı və ifaçılar səhnəni tərk etdilər.*

*Stadionun mərkəzinə doğru uçan bolluq, oyanış, sevgi, uğur mücəssəməsi olan və Azərbaycanı rəmzləşdirən nəhəng bir nar göründü. Nar paralandı və onun dənələri – qırmızı rəngli yüzlərlə şar tribunaların üzərində uçaraq ecazkar mənzərə yaratdı.*

*Sonra komandaların paradı başlandı. Bu mərasim 50 təbilçinin çaldığı gurultulu təbil sədaları ilə müşayiət olunurdu. İlk olaraq Olimpiya oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onun arxasınca əlifba sırası ilə gəlirdilər.*

*İdmançıların keçidini Albaniya, Andorra, Ermənistan, Avstriya, Belarus, Belçika, Bosniya və Herseqovina idmançıları davam etdirdilər.*

*Tribunaların önündən Bolqarıstan, Xorvatiya, Kipr, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Makedoniya komandaları keçdilər.*

*Növbə Fransa, Gürcüstan, Almaniya, Böyük Britaniya, Macarıstan komandalarına çatdı. Oyunlarda böyük nümayəndə heyəti ilə təmsil olunan ölkələrdən biri Almaniyadır. Bu ölkədən Bakıya 266 idmançı gəlib.*

Onların ardınca İslandiya, İrlandiya, İsrail, İtaliya, Kosovo, Latviya, Lixtenşteyn, Litva, Lüksemburq, Malta komandaları gəlib keçdilər. Əslən irlandiyalı olan Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki ölkəsinin komandasını sevinclə salamladı.

Mərasim Moldova, Monako, Monteneqro, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Rumıniya komandalarının keçidi ilə davam etdi.

Rusiya, San-Marino, Serbiya, Slovakiya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Türkiyə, Ukrayna komandaları tribunaların önündən keçdilər. Rusiya bu oyunlarda ən böyük nümayəndə heyəti – 359 idmançı ilə təmsil olunur. Rusiya prezidenti Vladimir Putin ayağa qalxaraq ölkəsinin nümayəndə heyətini salamladı.

Tamaşaçılar qardaş Türkiyə idmançılarını xüsusi coşqu ilə qarşıladılar. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Bakıya gəlmiş 190 idmançını salamladılar.

İdmançıların keçidini ev sahibi – Azərbaycan atletləri tamamladılar. Ölkəmiz oyunlarda 291 idmançı ilə təmsil olunur. Onların keçidi Mənsum İbrahimovun ifasında «Qarabağ şikəstəsi» muğamı ilə müşayiət olunurdu. Üçrəngli bayrağımızı cüdo üzrə Avropa çempionu Elmar Qasımov aparırdı. Azərbaycan prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamladılar.

İdmançılar mərkəzi səhnə ətrafında təntənəli şəkildə addımlayaraq parad zamanı 50 bayrağın yerləşdirildiyi platformaya aparan pillələrdə toplaşaraq tribunalarda yerlərini tutdular.

Daha sonra bayraqların rəqsi başlandı. Aaron Koplendin «Adi adam üçün şeypur» əsərindən musiqi parçası ilə başlanan 50 bayrağın rəqsi Natiq Şirinovla 50 nağaraçının ifasında zərb alətlərinin sədası altında davam etdi.

Dünya şöhrətli müğənni Leydi Qaqanın ifası açılış mərasiminin vəd edilən sürprizlərindən biri oldu. O, piano arxasında

*əyləşərək «Imagine» («Xəyal et») mahnısını ifa etdi. Müğənninin ifası hərarətlə qarşılandı və dəfələrlə alqışlandı.*

*Stadiona Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı gətirildi. Onu səhnəyə Avropanın müxtəlif ölkələrindən olan 8 olimpiya çempionu – Namiq Abdullayev (Azərbaycan), Lüsi Dekosse (Fransa), Sərvət Tazəgül (Türkiyə), Nikkolo Kampriani (İtaliya), Keti Teylor (İrlandiya), Tomas Bimis (Yunanıstan), Kristina Fazekas Zur (Macarıstan), Yelena Zamolodçikova (Rusiya) gətirdilər.*

*Stadionda Uilyam Uoltonun «İmperiya tacı» marşı səsləndirildi.*

*AOK-un bayrağı Azərbaycan bayrağı ilə yanaşı ucaldıldı.*

*Stadiondakı tablolarda Avropa Nüvə Tədqiqatları Təşkilatının və orada çalışmış alimlərin videogörüntüsü, həmçinin ixtiraları yayımlandı. Onların arasında məşhur həmyerlimiz, Nobel mükafatı laureatı Lev Landau da vardı.*

*Avropa Nüvə Tədqiqatları Təşkilatı 60 ildən çoxdur ki, xalqları elm ətrafında birləşdirərək, sülhə çağırır. Avropa oyunları beynəlxalq birliyin idmandan od alan yeni məşəlidir.*

*Böyük adron sürətləndiricisi 100-dən çox xalqı təmsil edən 10 mindən artıq fizik və mühəndisin cəmləşdiyi qurumun – Avropa Nüvə Tədqiqatları Təşkilatının əsas məhsuludur. O, dünyanın ən böyük maşınıdır və Avropanın mərkəzində, yerin dərinliklərində saxlanılır.*

*Yanıb-sönən LED lampalar, stadion boyu zərrəciklərin sürətlə dövrə vurması böyük adron sürətləndiricisi effektini yaratdı.*

*Stadionun üzərində iri ağ buğa və qız, onların arxasınca sayrışan ulduzlar kəhkəşanı göründü. Bu, Avropa qitəsinin gecə vaxtı kosmosdan görünən siluetidir. Uçub-keçən ulduzlar Bakı səmasında parlayır. Avropa qitəsinin xəritəsinin hazırlanması üçün 16 lazerdən istifadə olunub. İlk dəfə idi ki, 1 səhnədə irimiqyaslı animasiya yaratmaq üçün bu qədər lazerdən istifadə edilirdi.*

*Əfsanəyə görə, Avropa Finikiya şahzadəsi idi. Avropanın gözəlliyinə məftun olmuş yunan tanrısı Zevs çimərlikdə onun*

*qarşısında əzəmətli ağ buğa cildində peyda olur. Heyran qalmış Avropa buğanın tərkinə minir. Zevs dərhal onu oğurlayır və dənizdən keçirib Avropanın cənub sahillərində yerləşən yunan adası Kritə gətirir. Burada Avropanın Zevsdən 3 oğlu dünyaya gəlir. Oğullardan biri Avropanın ilk maarifçi sivilizasiyasının əfsanəvi banisi Minos idi. Avropa bu əfsanəvi Şərq şahzadəsinin şərəfinə adlandırılıb və onun buğanın belindəki təsviri qitənin rəmzidir.*

*Avropa və buğa stadionun üzərində uçduqda Leoş Yanaçekin «Ot basmış cığırlarla» əsəri Hokon Eustbönün ifasında səsləndi. Bu bölmə I Avropa oyunlarının rəsmi açılışını ifadə etdi.*

*Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Azərbaycanın birinci xanımı, «Bakı–2015» Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva səhnəyə gəldilər.*

*İlk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış etdi.*

## «Bakı–2015» Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki!

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax!

Zati-aliləri!

Avropa oyunlarının atletləri!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! İlk Avropa oyunlarına xoş gəlmisiniz!

Əziz həmvətənlər!

I Avropa oyunlarının açılışı münasibətilə bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir.

Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa olimpiya hərəkatının tarixində yeni səhifə yazılır.

Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır.

Qoy Tanrı Azərbaycanı hər zaman qorusun!

Əziz dostlar, bu axşam biz Avropanın idman tarixində yeni səhifə açırıq. Azərbaycan fəxr edir ki, ilk Avropa oyunları Bakıda keçirilir.

Avropa oyunlarının məşəli müqəddəs Atəşgah məbədində alovlandırıldı və yol boyunca hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə döyündürərək ölkəmizi dolaşdı. Məşəl bayram, ruhlandırma və birlik mesajını daşıdı. Məhz alovlanan ruh hamımızı bir araya gətirir.

Mən Avropa Olimpiya Komitəsinə və onun prezidenti Patrik Hikkiyə minnətdarlığımı bildirmək istəyirəm.

Bu minnətdarlıq onun həm ilk Avropa oyunlarının keçirilməsi üçün Bakının seçilməsinə, həm də yadda qalacaq belə bir tədbirin təşkilinə verdiyi dəstək və göstərdiyi yardım ilə bağlıdır.

Mən həmçinin Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və olimpiya ailəsinin üzvlərini salamlamaq istəyirəm. Azərbaycanda olimpiya hərəkatına verdikləri davamlı dəstəyə görə onlara minnətdaram.

Azərbaycan zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olan ölkədir. Multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir.

Bu il biz Avropa oyunlarını qəbul edirik. 2017-ci ildə biz İslam Həmrəyliyi oyunlarını qəbul edəcəyik. Bu, Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolu nümayiş etdirir.

Müstəqil dövlət kimi, biz gəncik. Cəmi 24 yaşımız var. Yaşımız bu axşamkı mərasimdə geriyə saymağın məhz həmin rəqəmdən başlanılması ilə üst-üstə düşür. Son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmə müşahidə

olunub. Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bizə belə böyük idman tədbirini keçirmək imkanı yaradır. İşə sadiqliyimiz və yorulmaz fəaliyyət sayəsində vaxtın məhdud olduğunu dəf edərək, bu oyunları cəmi 2 il yarım ərzində hazırladıq. Mən oyunları reallığa çevirmək üçün böyük səylə, sadiqliklə və istəklə çalışan şəxslərin hamısına təşəkkürümü bildirmək istəyirəm. Mən həmçinin bütün beynəlxalq tərəfdaşlarımıza, bir çox yerli və xarici könüllülərə minnətdarlığımı bildirmək istəyirəm.

Komandamız qarşılıqlı əməkdaşlığın, anlaşma və dostluğun bariz nümunəsidir. Bu axşam biz Avropanın 6 min ən yaxşı atletini ölkəmizdə salamlayırıq.

Hörmətli atletlər, bu oyunlar sizin üçündür. Siz ilk iştirakçılarsınız. Siz Avropa oyunlarının ilk çempionları olacaqsınız. Bütün Azərbaycan xalqı Sizə dəstək vermək üçün bir araya gəlib. Bakı 17 gün ərzində sizin ikinci doğma eviniz olacaq. Bu axşam mən xalqımızdan, əldə etdiyimiz bütün nailiyyətlərdən fərəh və iftixar hissi duyuram. Mən bu oyunlara qəlbən bağlandığınıza görə sizin hamınıza təşəkkürümü bildirirəm.

Onu da bildirirəm ki, gələn illərdə Avropa oyunlarının məşəli nə qədər uzaqlarda alovlansa da, Azərbaycanın və «Bakı–2015»in parlaq ruhunun atəşi orada olacaq.

Avropa oyunlarının atletləri!

Xanımlar və cənablar!

Əziz qonaqlar!

Sülhü, dostluğu və həmrəyliyi qeyd etmək üçün Bakıya, Azərbaycana xoş gəlmisiniz!

## Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin çıxışı

Axşamın xeyir, Bakı!

Axşamın xeyir, Azərbaycan!

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev!

«Bakı–2015»in Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva!

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax!

Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad əl-Sabah!

Zati-aliləri dünya liderləri!

Beynəlxalq Olimpiya Komitəsinin üzvləri!

Avropa olimpiya ailəsinin üzvləri!

Çox hörmətli qonaqlar!

Bakıdan və bütün Azərbaycandan olan əziz dostlar!

Qarşıdan gələn 17 günü canlandıracaq 12500 könüllü!

Çox sağ olun!

Bu, Avropa Olimpiya Komitəsinin tarixində ən fərəhləndirici məqamdır.

Bu axşam burada, Bakının yeni möhtəşəm Olimpiya stadionunda biz Avropa idmanında tarixi məqamın şahidiyik, onu yaradırıq: ilk Avropa oyunlarının açılışındayıq. Bu axşam biz dünyanın Qitə oyunlarına çatışmayan beşinci halqanı əlavə edirik. Avropanın ilk oyunları sayəsində biz olimpiya hərəkatının 5 qitəsini bir-birinə daha sıx bağlayacağıq.

Prezident Əliyev, sağ olun, birinci xanım Əliyeva, sağ olun! Azərbaycan, sağ ol! Avropa olimpiya ailəsini səmimi qəbul etdiyinizə görə sağ olun!

Birinci xanım Əliyeva, Sizin «Bakı–2015»in Təşkilat Komitəsinin sədri kimi, Avropa oyunlarında oynadığınız rola sözlə qiymət vermək çox çətindir. Bu sahədə yorulmaz fəaliyyətinizə, Avropada idmanın parlaq gələcəyinə verdiyiniz töhfəyə görə Sizə minnətdaram. Siz bir dövlət kimi, qürur doğuran

yoldasınız. Bu yolda Sizinlə addımlamaqdan şərəf duyduq. Beynəlxalq ictimaiyyətin üzvü, cəmiyyət və Avropanın yeni idman paytaxtı kimi, məqsədlərinizin həyata keçməsində iştirak etməkdən fərəh hissi duyduq.

İdman müsbət dəyişikliklər üçün nadir qüvvədir. Prezident Tomas Baxın idmanın universal qanunu hesab etdiyi dəyişikliyi qaçılmaz edən dəyərlərin yayılmasına çalışdıq. Qlobal etika, ədalət, hörmət və dostluq dəyərlərini yaydıq.

«Bakı–2015» uzun yolun ən vacib nöqtəsidir və çılğın arzudur. O, AOK-ın alovlanan iddiasıdır. Bu Sizin üçün, Bakı üçün, Azərbaycan xalqı üçün, indiki nəslə bir dəfə nəsib olan fürsətdir və sizlər onilliklər ərzində bu məkanların, bu sərmayənin və qlobal diqqətin bəhrəsini görəcəksiniz.

İdman və olimpiya hərəkatının gənc dövlətinizin sürətli inkişafının mərkəzində durmasına daim səy göstərən prezident Əliyevin və birinci xanım Əliyevanın qətiyyətli mövqeyi hazırlıq işlərimizin aparıcı qüvvəsi oldu.

Bu sizə – nazir Azad Rəhimovun rəhbərlik etdiyi «Bakı–2015» Avropa oyunlarının Əməliyyat Komitəsindəki 2000 əməkdaşa göstərilən etimaddır. Çünki onlar oyunları cəmi 30 ay ərzində həyata keçirmək məqsədilə bu cür qətiyyət və peşəkarlıqla çalışdılar.

Səylərinizə görə çox sağ olun.

İndi isə mən şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi «Bakı–2015» ilk Avropa oyunlarını açıq elan etməyə dəvət edirəm.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev I Avropa oyunlarını açıq elan etdi.*

*Stadionun ətrafında atəşfəşanlıq başlandı.*

*Stadionun işıqları söndürüldü. Qaranlıqda muğam avazı üstündə tənha bir səs eşidildi. Bu, mərasimin əvvəlində dinlədi-*

*yimiz Xalq artisti Alim Qasımovun səsi idi. Bu dəfə o, uçan xalça üzərində oxuyurdu.*

*Cadar-cadar olmuş torpaq üzərində bir qadın dolaşırdı. Onun əlində yazın gəlişini bildirən, Novruzun rəmzi olan səməni vardı. Ayaqları altında isə ot və bu yerlərdə bitən gül-çiçəklər cücərirdi. Xəfif meh qadının uzun, şəffaf duvağını yellədirdi. O, səhnənin ortasına çatdıqda qabı I Avropa oyunlarının məşəlinin basdırıldığı yerə qoydu. Yerdən su çıxmağa başladı, qadının qarşısında nəhəng su hövzəsi – Xəzər dənizinin rəmzi canlandı. O, suda ahəstə addımladı, sonra çevrilib arxasında yaranmış mənzərəyə baxdı.*

*Bu vaxt yerdən üst-başı toz-torpağa, palçığa batmış 100 kişi çıxdı. Onlar 50 nağaraçının səsləndirdiyi ahənglə ayaqlarını yerə vuraraq ritualı xatırladan Azərbaycan milli rəqsini ifa etdilər. Rəqsin ən qızğın anında sanki zəlzələ baş verirmiş kimi, yer yarılmağa və qabarmağa başladı. Yerdən iri qaya parçaları çıxdı və birləşərək nəhəng dağa çevrildi. Onun kənarlarında alovla yazılmış sadə insan və heyvan fiqurları, qayıqlar göründü. Bunlar Qobustanın qədim qayaüstü təsvirləri idi.*

*Torpağın yarığından çıxan kişi dağın zirvəsində göründü. Stadiona çökmüş sükutu balabanda ifa olunan Azərbaycan xalq mahnısı «Sarı gəlin»in sədaları pozdu. Kişi ayağı altında yanan daşı götürdü. Bu səhnələr Fikrət Əmirovun «Min bir gecə» baletinin uvertürası ilə müşayiət olunurdu. Kişi qarşıda – Xəzər dənizinin sahilində dayanmış qadına baxır və ona tərəf gedirdi. Qadının arxasındakı parıldayan dairəvi qara lövhə yavaş-yavaş suyun üzərindən qalxaraq, Ay kimi göyə ucaldı. Dağ yavaş-yavaş yerə endi və yerə batıb yoxa çıxdı. Onlar açılış mərasiminin əvvəlində təsvir olunan Leyli və Məcnunu xatırladırdı. Kişi yolda daşı daha 2 dəfə yerə qoydu. Onun arxasınca çatlardan çıxaraq yayılan alov dilimləri yerdə nəhəng insan fiqurunun təsvirinə çevrildi. Bu, nəhəng petroqlif formasına düşmüş lava axınlarına, Yanardağın heç vaxt sönməyən alovlarına bənzəyirdi. Petroqlif get-gedə daha dolğun insan forması aldı.*

*Kişi yaratdığı alov mənzərəsinə baxdı. Qadın ona yetişmək üçün sulardan üzüb keçdi. Yanan daşı qaldırdı, alov axınları nəhəng qan-damar sistemi təsvirindəki əl-ayaqlardan başa doğru sürətlə sovrulub yox oldu. Kişi və qadın yanan daşı əllərində birlikdə tutub göyə qalxan dairəvi lövhəyə tərəf qaçmağa başladılar. Onlar dayaz sulara atıldılar və daşı parıldayan qara dairəvi lövhəyə tərəf tulladılar. Yanan daş lövhənin ortasına dəyib, onu parçaladı. Lövhə alışaraq alov dairəsinə çevrildi. Bu, ilk Avropa oyunlarının məşəli idi.*

*Beləliklə, ən həyəcanlı an gəlib yetişdi və I Avropa oyunlarının məşəli alovlandı.*

*Yanan lövhə Yer, Günəş və Ayın bir araya gəldiyi möhtəşəm kosmik mənzərəni – tam Günəş tutulmasını xatırladırdı. Birlik və sülh rəmzi olan ilk Avropa oyunlarının məşəli stadiondan səmaya ucaldı.*

*Bundan sonra səhnədəki mənzərə tamaşaçını Bakı sahilinə apardı, qarşıda Xəzər dənizi üzərində tədricən yaranan şaquli alov dairəsi canlandı və atəşfəşanlıq başlandı.*

*Rəngbərəng fişənglər Xəzərin və Bakı Olimpiya stadionunun üzərində səmanı bəzədi və möhtəşəm bayram mənzərəsi yaratdı.*

*Məşəl oyunlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.*

*Atəşfəşanlığın qızğın vaxtında ifaçılar səhnə boyunca düzüldülər. Onlar əl-ələ verib Azərbaycanın milli rəqsi olan «Yallı» oynadılar. Nar dənəsi rəngində 20 min şar tamaşaçıların üzərinə səpələndi. Bu «nar dənələri» sevgi nişanəsi, uğurun mücəssəməsi və Azərbaycanın rəmzidir.*

*I Avropa oyunlarının möhtəşəm açılışı mərasimi başa çatdı.*

*Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bir mərasimlə Avropa oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.*

## I AVROPA OYUNLARININ AÇILIŞI MƏRASİMİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏT, HÖKUMƏT BAŞÇILARI VƏ YÜKSƏKVƏZİFƏLİ QONAQLAR İLƏ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*12 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva iyunun 12-də ilk Avropa oyunlarının açılışı mərasimində iştirak edən dövlət və hökumət başçıları, yüksəkvəzifəli qonaqlar ilə birgə şam yeməyində iştirak etmişlər.*

*Şam yeməyində dövlət və hökumət başçıları, yüksəkvəzifəli şəxslər prezident İlham Əliyevi və xanımı, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı açılış mərasiminin uğurla keçməsi münasibətilə təbrik etdilər.*

*Möhtəşəm açılış mərasimi müstəqillik dövründə ölkəmizin əldə etdiyi uğurları, möhkəmlənən beynəlxalq imicini, iqtisadi qüdrətini, dinamik sosial-iqtisadi inkişafını, beynəlxalq tədbirlərin təşkilində zəngin təcrübəsini, idmançılarımızın ən nüfuzlu beynəlxalq yarışlarda qazandıqları nailiyyətləri, Bakının planetin ən gözəl şəhərlərindən birinə çevrildiyini bir daha təsdiqlədi.*

# İTALİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ KLAUDİO DE VİNÇENTİ İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn İtaliya Respublikası Baş nazirinin birinci müavini Klaudio de Vinçentini qəbul etmişdir.*

*İtaliya Baş nazirinin birinci müavini Klaudio de Vinçenti «Bakı–2015» ilk Avropa oyunlarının açılışı mərasiminin onda dərin təəssürat yaratdığını dedi.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı, səfərin əməkdaşlığımızın müxtəlif istiqamətlərinin müzakirəsi baxımından önəmi qeyd olundu, əlaqələrin enerji, sərmayə qoyuluşu, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, qeyri-neft sektoru və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İSLAM HƏMRƏYLİYİ İDMAN FEDERASİYASININ PREZİDENTİ ABDULLAH BİN MOSAAD BİN ƏBDÜLƏZİZ AL SƏUD İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti, Səudiyyə Ərəbistanı Krallığının Gənclər və İdman naziri, Milli Olimpiya Komitəsinin prezidenti, şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Al Səudu qəbul etmişdir.*

*Şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Al Səud Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O, I Avropa oyunlarının açılışı mərasiminin yüksək səviyyədə təşkil olunması münasibətilə prezident İlham Əliyevi təbrik etdi. Ölkələrimizin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının uğurla inkişaf etdiyini vurğulayan Abdullah bin Mosaad bin Əbdüləziz Al Səud Səudiyyə Ərəbistanının Azərbaycan ilə əlaqələrin daha da genişləndirilməsinə böyük önəm verdiyini dedi.*

*«Bakı–2015» I Avropa oyunlarının açılışı mərasiminə toxunan dövlətimizin başçısı mərasimdə nümayiş etdirilən kompozisiyanın Azərbaycanın tarixinin, mədəniyyətinin və müasirliyinin ifadəsi olduğunu vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Dövlətimizin başçısı kral Salman bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də I Avropa oyunlarının açılışı mərasimində iştirak edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putini qəbul etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Rusiya dövlətinin başçısı Vladimir Putini qarşıladı.*

**İlham Əliyev:** Hörmətli Vladimir Vladimiroviç!

İcazə verin, Sizi yenidən Azərbaycana gəlməyiniz münasibətilə ürəkdən salamlayım. Ölkəmizə xoş gəlmisiniz!

Dünən Rusiya milli bayramını qeyd edirdi. Bununla əlaqədar icazə verin, bir daha Sizi və bütün Rusiya xalqını səmimiqəlbdən təbrik edim. Qeyd edim ki, belə bir bayram günündə Sizin buraya gəlməyinizə Azərbaycanda böyük əhəmiyyət veririk. Biz bunu dövlətlərimiz arasında dostluğun və yüksək səviyyəli əməkdaşlığın təcəssümü kimi qiymətləndiririk. Ölkələrimiz arasında münasibətlər çox müsbət və dinamik inkişaf edir. Bu əlaqələr ildən-ilə daha da yüksəlir. Biz Sizinlə müntəzəm olaraq Moskvada, Bakıda və digər yerlərdə görüşürük. Həmçinin bizim nazirlər müxtəlif səviyyədə görüşlər keçirir və müzakirələr aparırlar. Bütün istiqamətlərdə fəal dialoq aparılır, parlamentlərarası əlaqələr möhkəmlənir, iqtisadi sahədə yaxşı nəticələr var. Dünyada iqtisadiyyatın çətinliklərinə baxmayaraq, biz iqtisadi sahədə də qarşılıqlı əməkdaşlıq potensialımızı artırırıq. Deyərdim ki, humanitar sahədə də bizim əlaqələrimiz nümunəvidir və biz öz uğurlarımızı inkişaf etdiririk. Başqa sözlə, ölkələrimiz arasında münasibətlərin mümkün səviyyəsi əlaqələrimizi daha da inkişaf etdirməyə və

gələcəyə nikbin baxmağa imkan verir. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Vladimir Putin:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Mən də öz tərəfimdən Sizi dünən reallaşan tarixi hadisə – ilk Avropa oyunlarının açılışı münasibətilə təbrik edirəm. Bu həqiqətən də beynəlxalq idman hadisəsinə layiq, möhtəşəm, təəssüratoyadıcı bir hadisə, eyni zamanda, istedadla, ləyaqətlə çox gözəl təşkil olunmuş təqdimat idi. Deməliyəm ki, bunu hazırlayanlar əbəs yerə zəhmət sərf etməyiblər, bu tədbir həqiqətən, çox gözəl alınıb.

Mən Sizin ölkələrimiz arasındakı münasibətlərin səviyyəsi, dövlətlərarası əlaqələr barədə fikirlərinizlə tam razıyam. Sevindirici haldır ki, ölkələrimiz arasında ticarət dövriyyəsi artır. Keçən il artım 12 faizdən çox olub və bu ilin birinci yarısında təxminən 6 faiz təşkil edib. Bütövlükdə bu onu göstərir ki, azərbaycanlı sahibkarlar bizim mövcud bazarlardakı, o cümlədən ərzaq bazarındakı imkanlardan mümkün qədər daha səmərəli istifadə edirlər. Bu da bizi çox sevindirir. Fikrimcə, əgər bu əməkdaşlıq genişlənərsə, vəziyyət daha yaxşı olacaq. Bu bizim maraqlarımıza uyğundur. Zənnimcə, biz münasibətlərimizi daha da şaxələndirməliyik. Bunun üçün bütün imkanlar var. Əminəm ki, bu tədbirlər öz müsbət nəticələrini verəcək. Dəvətə görə təşəkkürümü bildirirəm.

# I AVROPA OYUNLARININ İLK ÇEMPİONU FİRDOVSİ FƏRZƏLİYEVƏ QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*«Baku Crystal Hall»*

*13 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri iyunun 13-də ilk Avropa oyunları çərçivəsində «Baku Crystal Hall»da keçirilən karate yarışlarının gedişini izləmişlər.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri əvvəlcə karatenin kumite növü üzrə yarışları izlədilər.*

*60 kiloqram çəki dərəcəsində yarışlar gərgin və maraqlı mübarizə şəraitində keçdi. Bu çəki dərəcəsində yarışan Azərbaycan karateçisi Firdovsi Fərzəliyevin finalda rəqibi İtaliya idmançısı Luka Maresku idi. Görüşü tam üstünlüklə keçirən həmyerlimiz mübarizənin başa çatmasına təqribən 2 dəqiqə qalmış 2:0 hesabı ilə irəli çıxdı. Firdovsi Fərzəliyev görüşün qalan 1 dəqiqəsində daha 2 dəfə fərqləndi və 4:0 hesabı ilə qələbə qazanaraq çempion adına layiq görüldü. Xatırladaq ki, idmançımız ilk görüşdə ispaniyalı Matias Qomes Qarsiyanı 2:0 hesabı ilə məğlub etmişdi. O, 2-ci görüşündə sonradan finalda rəqibi olacaq İtaliya idmançısı Luka Mareskudan 4:2 hesabı ilə üstün olub. Karateçimiz növbəti görüşündə albaniyalı Halil Marqeşə 6:0 hesabı ilə tam üstünlüklə qalib gəlib. Digər qrupda ikinci yer tutan makedoniyalı Emin Pavlovla görüşün gedişində 2:4 hesabı ilə geridə olan idmançımız sonra daha inamla yarışıb və mübarizəni təmiz qələbə ilə başa çatdıraraq finala vəsiqə qazanıb. Həlledici görüşdə yenidən İtaliya idmançısı Luka Mareskuya qalib gələn Firdovsi Fərzəliyev karate*

üzrə 60 kiloqram çəki dərəcəsində I Avropa oyunlarının çempionu adını qazanıb.

Sonra mükafatlandırılma mərasimi oldu. I Avropa oyunlarının medallarını Azərbaycan prezidenti İlham Əliyev təqdim etdi.

Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağımız qaldırıldı. Daha bir idmançımız Rafael Ağayev 75 kiloqram çəki dərəcəsində karatenin kumite növü üzrə yarışlarda final görüşünü İtaliya idmançısı Luici Busa ilə keçirdi. Həmyerlimiz görüşün son saniyələrində fərqlənərək, I Avropa oyunlarının çempionu adını qazandı.

Rafael Ağayev ilk görüşdə ukraynalı İlya Nikulinə 3:0 hesabı ilə qalib gəlib. İdmançımız ikinci görüşdə türkiyəli Ərman Əltəmura 3:5 hesabı ilə məğlub olub. Qrupun son görüşündə latviyalı Ruslan Sadıqova 3:1 hesabı ilə qalib gələn Rafael Ağayev yarımfinala yüksəlib. O, yarımfinalda Almaniya idmançısı Noahı 1:0 hesabı ilə məğlub edib. Final görüşünü də uğurla keçirən karateçimiz qızıl medal qazanıb.

Sonra bu çəki dərəcəsində də mükafatlandırılma mərasimi oldu. Qaliblərə medalları «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva təqdim etdi.

Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağımız qaldırıldı. 67 kiloqram çəki dərəcəsində yarışan karateçimiz Niyazi Əliyev isə 3-cü yer uğrunda mübarizədə almaniyalı Rikardo Qiqlerlə qarşılaşdı. Atletimizin üstünlüyü ilə keçən görüşdə Azərbaycan karateçisi 3:1 hesabı ilə qalib gələrək, bürünc medalın sahibi oldu. Bu çəki dərəcəsində mükafatlandırılma mərasimi keçirildi.

Karate yarışlarında daha bir medalı qadın idmançımız İlahə Qasımova qazanıb. O, 55 kiloqram çəki dərəcəsində 3-cü yer uğrunda mübarizədə ispaniyalı Kristina Ferrer Qarsianı 5:2 hesabı ilə məğlub edərək, bürünc medala layiq görülüb.

İlahə Qasımova Azərbaycan milli komandasının I Avropa oyunlarında ilk medal qazanan qadın karateçisidir.

# I AVROPA OYUNLARINDA YUNAN-ROMA GÜLƏŞÇİSİ RƏSUL ÇUNAYEVƏ QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*Heydər Əliyev adına İdman Sarayı*

*13 iyun 2015-ci il*

*I Avropa oyunlarında Azərbaycanın aktivinə iyunun 13-də daha bir qızıl medal yazılmışdır.*

*Heydər Əliyev adına İdman Sarayında Yunan-Roma güləşçilərinin mübarizəsində Azərbaycan pəhləvanı Rəsul Çunayev fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.*

*Onun inamlı mübarizəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva da izləmişlər.*

*Azərbaycanın və Macarıstanın 71 kiloqram çəki dərəcəsində güləşçiləri finalda üz-üzə gəldilər.*

*Yunan-Roma güləşçimiz, dünya və Avropa çempionatlarının mükafatçısı Rəsul Çunayev ilk görüşdə moldovalı Daniel Kataraqanı, növbəti mərhələdə isə Xorvatiya idmançısı Dominik Etlingeri məğlub etdi. Yarımfinalda Bolqarıstan təmsilçisi Svilen Kostadinova 10:0 hesabı ilə qalib gələn Rəsul Çunayev finalda macarıstanlı Balint Korpasi ilə qarşılaşdı.*

*Rəqibini 4:2 hesabı ilə məğlubiyyətə uğradan Rəsul Çunayev I Avropa oyunlarının çempionu oldu. Azarkeşləri sevindirən idmançımız öz parlaq qələbəsi ilə xalqımıza böyük sevinc yaşatdı.*

*Digər güləşçimiz Rafiq Hüseynov 80 kiloqram çəki dərəcəsində final qarşılaşmasında iştirak etdi. İlk mərhələdən azad olan Rafiq Hüseynov birinci görüşünü 1/8 finalda keçirdi. Təmiz qələbə ilə Avstriya idmançısına qalib gələn Rafiq Hüseynov ikinci qarşılaşmasında bolqarıstanlı Daniel Aleksandrovu*

*məğlub etdi. Yarımfinalda Türkiyə idmançısı Səlçuq Cəbiyə qalib gələn həmyerlimiz finalda Rusiya təmsilçisi Yevgeni Saleyevlə görüşdü və gərgin mübarizə şəraitində keçən qarşılaşmada Rafiq Hüseynov ikinci oldu.*

*71 kiloqram çəki dərəcəsində qaliblərin mükafatlandırılması mərasimində iştirak edən prezident İlham Əliyev hər 3 yerin sahibinə medalları təqdim etdi.*

*Dövlətimizin başçısı İlham Əliyev I Avropa oyunlarının çempionu Rəsul Çunayevi təbrik etdi.*

*Qalib idmançımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, üçrəngli bayrağımız qaldırıldı.*

*Daha sonra 80 kiloqram çəki dərəcəsində aralarında Avropa oyunlarının gümüş mükafatçısı Rafiq Hüseynov da olan qaliblər mükafatlandırıldılar.*

*İyunun 13-də 59 kiloqram çəki dərəcəsində güləşçimiz Elman Muxtarov üçüncü yer uğrunda mübarizə apardı. Bu qarşılaşmada Ermənistan təmsilçisi Roman Amoyan üzərində 4:1 hesabı ilə qalib gələrək, I Avropa oyunlarının bürünc medalını qazandı. İlk yarış günündə 59, 71, 80 və 98 kiloqram çəki dərəcələrində idmançılar öz güclərini sınadılar. Azərbaycan millisi bütün çəki dərəcələrində təmsil olunmuşdur.*

# BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ TOMAS BAX İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı qəbul etmişdir.*

*Görüşdə I Avropa oyunları barədə ətraflı fikir mübadiləsi aparıldı. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax I Avropa oyunlarının ilk günlərində maraqlı yarışların olduğunu dedi. O, «Bakı–2015» I Avropa oyunlarının açılışı mərasiminin çox təntənəli keçdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın I Avropa oyunlarına hərtərəfli dəstəyini xüsusi qeyd edərək, bu amilin oyunların əhəmiyyətini daha da artırdığını dedi. Dövlətimizin başçısı I Avropa oyunlarının ilk günündə Azərbaycan idmançılarının bir neçə medal qazanmasının önəmini qeyd etdi. Azərbaycan Milli Olimpiya Komitəsi ilə Beynəlxalq Olimpiya Komitəsi arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığa mühüm töhfələr verdiyi qeyd olundu. Mötəbər beynəlxalq idman yarışlarının Azərbaycanda keçirilməsinin yaxşı nümunə olduğu vurğulandı.*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Tbilisi şəhərində baş vermiş təbii fəlakət nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Gürcüstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyun 2015-ci il*

## OLİMPİYA AİLƏSİNİN ÜZVLƏRİ ÜÇÜN TƏŞKİL EDİLƏN QƏBULDA İŞTİRAK

*14 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın adından iyunun 14-də I Avropa oyunları ilə bağlı olimpiya ailəsinin üzvləri üçün qəbul təşkil edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri qəbulda iştirak etmişlər.*

*Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Komitənin yüksək səviyyəli nümayəndələrini prezident İlham Əliyevə təqdim etdi.*

*Qəbulda iştirak edən qonaqların hər biri ilk Avropa oyunlarının möhtəşəm açılışı mərasiminin xoş təəssüratları ilə yaşayır. Ümumilikdə, «Bakı–2015» I Avropa oyunları ilə bağlı ölkəmizdə görülən işlər beynəlxalq idman qurumları, tanınmış idman ekspertləri və nüfuzlu kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. I Avropa oyunlarında beynəlxalq idman ictimaiyyətinin tanınmış simalarının iştirakı bu oyunlara dünyada olan marağı bir daha aydın göstərir. Qitənin mötəbər idman tədbirini keçirməklə Azərbaycan həm də növbəti Avropa oyunlarının standartlarını müəyyən etmək kimi şərəfli bir missiyanı yerinə yetirir.*

*Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından olimpiya ailəsinin üzvləri üçün təşkil edilən qəbul I Avropa oyunlarının açılışından bəhs edən videoçarxın nümayişi ilə başlandı.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki!

Beynəlxalq və Avropa olimpiya ailəsinin üzvləri!

Xanımlar və cənablar!

Azərbaycana bir daha xoş gəlmisiniz! Bu gün sizi burada, bu gözəl hoteldə görməkdən şadam və ümid edirəm ki, Azərbaycanda xoş vaxt keçirirsiniz.

2 gün əvvəl biz ilk Avropa oyunlarının açılışının şahidi olduq. Hamımız təqdimatdan çox dərin təəssürat aldıq. Bu, qonaqlarımız üçün Azərbaycan, onun mədəniyyəti, musiqisi, ənənələri haqqında daha ətraflı məlumat əldə etmək, bizim tamaşaçılar üçün isə Avropanın aparıcı idmançılarını, bütün beynəlxalq və Avropa olimpiya ailəsinin nümayəndələrini görmək və ölkəmizlə fəxr etmək imkanı idi. Təsəvvür edə bilərsiniz ki, açılışdan sonra mənə olunan çoxsaylı müraciətlərin hər birində insanlarımız birmənalı olaraq ölkəsi ilə fəxr etdiklərini bildirirlər.

Azərbaycanda I Avropa oyunlarının təşkil edilməsi ilə bağlı Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkiyə Avropa Olimpiya Komitəsi tərəfindən dəstəklənən böyük dövlət xadiminə xas olan baxışlarından irəli gələn qərarına görə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. 2012-ci il dekabrın 12-də qəbul edilən qərar tarixi qərar idi. Biz miqyasına görə Yay Olimpiya oyunlarından sonra ən böyük beynəlxalq idman tədbirini təşkil etmək imkanı əldə etdik. Avropa idmanı üçün isə bu, ədaləti bərpa edən qərar oldu. Çünki bildiyimiz kimi, digər qitələr uzun illərdir ki, öz oyunlarını keçirirlər və yalnız Avropanın belə bir oyunları yox idi. Buna görə də düşünürəm ki, bu, ədalətin təzahürü oldu. Çünki olimpiya hərəkatının, olimpiya ideyalarının, olimpiyanın vətəni Avropadır. Bu, qədim Yunanıstanda başlanıb və daha sonra Baron de Kuberten onu bərpa etmişdir. İndi isə ədalət bərpa edildi və gördüyümüz işdən fərəhlənə bilərik.

Biz gərgin çalışdıq, vətəndaşlarımızın, qonaqlarımızın və bütün Avropanın yaddaşında qalacaq səviyyədə oyunları təşkil etdik. Bu fürsətdən istifadə edərək, Azərbaycan xalqını, eyni zamanda, Avropa xalqlarını bu möhtəşəm hadisə ilə bağlı bir daha təbrik etmək istərdim. Bütün idmançılara uğur və qələbə arzulayıram.

Bizim artıq qalib və çempionlarımız var. Fəxr edirik ki, Azərbaycan idmançıları 3-ü qızıl olmaqla, bir neçə medal qazanıblar. Bu gün də bir neçə idmançımızın finalda olduğunu nəzərə alsaq, əlavə medallar qazanmaq şansımız olacaq. 24 ildən bir qədər az müddətdə müstəqil olan gənc ölkə Azərbaycan üçün bu möhtəşəm idman tədbirinin nə dərəcədə əhəmiyyətli olduğunu anlaya bilərsiniz. Bu, idman, dostluq tədbiridir. Bizim üçün isə bu, avropalılara tariximizi, ənənələrimizi, ədəbiyyatımızı, musiqimizi nümayiş etdirmək fürsəti verir. Əminəm ki, oyunlardan sonra Avropadan Azərbaycana daha çox qonaq və turistlər təşrif buyuracaq və avropalılar Azərbaycan haqqında daha dolğun məlumat alacaqlar.

Bizim ölkənin qədim ənənələri, böyük tarixi və tarixi şəxsiyyətləri var. Lakin müstəqil ölkə kimi, biz yalnız 24 ildir ki, mövcuduq. 1991-ci ildə biz müstəqilliyimizi bərpa etdik, lakin ilk müstəqil, demokratik respublika Rusiya imperiyasının süqutundan sonra, 1918-ci ildə yaradılıb. Bu isə bütün müsəlman dünyasının ilk demokratik respublikası idi. Azərbaycanda məhz respublika idarəçilik sisteminin tətbiq olunması o zaman respublikanı yaradanların seçimi olmuşdur. Dərhal qadınlara səsvermə hüququ verildi ki, bu bir çox Avropa ölkələrindən əvvəl olmuşdur. Müsəlman dünyasının ilk operası, ilk baleti, ilk teatrı Azərbaycanda yaradılıb və biz bununla fəxr edirik. Azərbaycan hər zaman dinlərarası birgəyaşayış, multikulturalizm, etnik və dini müxtəliflik məkanı olub. Bu hər zaman özünəməxsusluğumuzun tərkib hissəsi olub. Müstəqillik illərində isə dünyanın ehtiyac duyduğu bu müsbət trendlər daha da güclənib və mən bununla fəxr edirəm.

Azərbaycan cəmiyyəti multikultural cəmiyyətdir. Bu yaxınlarda mən Azərbaycanda Multikulturalizm Mərkəzinin təsis edilməsi ilə bağlı sərəncam imzaladım və Bakının ən gözəl yerlərindən birində – Bayraq Meydanının yaxınlığında Tolerantlıq abidəsinin açılışı oldu. Bunlar hamısı bizim həyatımızın və siyasətimizin tərkib hissəsidir.

Azərbaycan həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu hər 2 təşkilatın 100-dən artıq üzvü var. Biz isə Avropa və Asiya arasında təbii körpü rolunu oynayırıq. Bu, yalnız coğrafi deyil, mədəni, iqtisadi və siyasi körpüdür. Beləliklə, müstəqillik illərimiz islahatlar dövrü oldu. Biz təkcə dövləti yaratmalı deyildik, eyni zamanda, bir sistemdən digərinə transformasiya etməli idik. İslahatların həyata keçirilməsi bu gün ölkəmizin uğuruna və firavanlığına gətirib çıxarmışdır. Bu gün Azərbaycan Avropa oyunları kimi belə böyükmiqyaslı tədbiri keçirmək imkanına malikdir. Bu, ötən illər ərzində əldə etdiyimiz nailiyyətlərin göstəricisidir.

Siyasi islahatlar iqtisadi islahatlarla tamamlanırdı. Demokratikləşmə siyasəti, qanunun aliliyi, fundamental azadlıqların və insan hüquqlarının qorunması bizim siyasətimizin prioritetləri olub. Azərbaycanda bütün azadlıqlar – media azadlığı, senzurasız azad internet təmin edilir, əhalimizin 70 faizi internet istifadəçisidir. Siyasi fəaliyyət azadlığı, toplaşma azadlığı, din və vicdan azadlığı mövcuddur. Eyni zamanda, biz iqtisadi islahatlar nəticəsində müstəqil xarici siyasət yürüdürük. Çünki bu gün iqtisadi cəhətdən zəif olanda beynəlxalq arenada öz mövqeyini müdafiə etmək çətin olur. Bu gün Azərbaycan dünyada çox yaxşı nüfuza malik olan dövlətdir. Bunun ən bariz nümunəsi bir neçə il əvvəl Azərbaycanın dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüklə bağlı namizədliyini irəli sürəndə 155 ölkənin dəstəyini qazanması oldu. İlk dəfə Azərbaycan BMT Təhlükəsizlik Şurasında təmsil edilmişdir. Bu bizim siyasi və diplomatik fəaliyyətimizin zirvəsi oldu. İqtisadi islahatlar olmasaydı, yəqin ki, biz buna nail ola bilməzdik.

Bu gün böhranlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı sabitdir, dayanıqlıdır və inkişaf edir. Son 10 il bizim iqtisadiyyatımızın görünməmiş inkişafı illəri olub. İqtisadiyyatımız 3 dəfə artıb. Biz yoxsulluğu 49 faizdən 5 faizə endirə bildik. İşsizlik 5 faizdən aşağıdır. Xarici borcumuz ümumi daxili məhsulun 10 faizindən azdır. Bu ilin yanvarında prezident Patrik Hikki ilə birlikdə Avropa oyunlarının təqdimatını etdiyimiz Davos İqtisadi Forumu Azərbaycanı qlobal iqtisadi rəqabətlilik baxımından 38-ci yerə layiq görmüşdür. Məhz bu islahatlar bizə gələcəyə nikbinliklə baxmağa imkan verir.

Əlbəttə, son 10 ildə idmanın və olimpiya hərəkatının inkişafı ilə bağlı gördüyümüz işlərin müsbət nəticələri var. Xatirimdədir ki, 2007-ci ildə biz prezident Hikki ilə bərabər, regionların birində Olimpiya Mərkəzinin açılışını etdik. Avropa Olimpiya Komitəsinin prezidentinin Masallıya səfəri və regional idman mərkəzinin açılışında iştirak etməsi region idmançıları və gənc nəsil üçün yaxşı göstərici idi. Bundan sonra biz onlarla belə mərkəz inşa etdik və bu gün Bakı regionun və bəlkə də dünyanın ən inkişaf etmiş idman infrastrukturuna malik şəhərlərindən biridir.

Əziz dostlar! Bu günlərdə bizimlə bir yerdə olduğunuza görə sizə bir daha təşəkkür edirəm. Mən Azərbaycan, gördüyümüz işlər və gələcək planlar haqqında çox danışa bilərəm. Çünki bununla bağlı qısa bir təqdimatda dolğun məlumat vermək mümkün deyil. Yalnız onu əlavə edə bilərəm ki, biz inkişafı davam etdirməyə sadiqik. Biz gələcək hədəflərimizi bilirik, Azərbaycanı dünyanın inkişaf etmiş ölkəsinə çevirmək istəyirik və Azərbaycan meyarlarını ən yüksək beynəlxalq meyarlara çatdırmaq niyyətindəyik. Necə ki, biz ilk Avropa oyunlarının standartlarını ən yüksəyə qaldırmağa çalışmışıq. Səmimi deyə bilərəm ki, bu standartları Avropa Olimpiya Komitəsi və Təşkilat Komitəsi müəyyən edib. Bu standartlar aşağı da ola bilərdi, lakin Avropa Olimpiya Komitəsi və Təşkilat Komitəsi qərara gəldi ki, elə standartlar tətbiq olunsun ki, Azərbaycanın dinamikliyini özündə əks etdirsin.

Bu oyunlar Avropa üçün olmalıdır. Açılış mərasimi zamanı Mehriban xanımın da dediyi kimi, bu oyunlar idmançılar, qonaqlar və Azərbaycana gəlmiş minlərlə insan üçün keçirilir. Mən əminəm ki, bu insanlar yenidən Azərbaycana gəlmək istəyəcəklər. Çünki onlar burada qonaqpərvərlik və hörmətin şahidi olurlar. Azərbaycan bununla fəxr edir və əminəm ki, idmançılar özlərini sanki evlərində hiss edir və hər birimiz həyatımızın yadda qalan günlərindən həzz alırıq.

Mən bir daha ölkəmizi Avropa və dünyaya təqdim etmək fürsətinə görə, Avropa olimpiya ailəsinə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

## Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin çıxışı

Cənab prezident İlham Əliyev!

Xanım Mehriban Əliyeva!

Gənclər və İdman naziri Azad Rəhimov!

Olimpiya hərəkatından olan həmkarlarım!

Bu axşam burada olmağımdan çox məmnunam. Cənab Prezident, Sizə bu qəbulu təşkil etdiyinizə görə təşəkkür edirəm. Əvvəlcə, qazanılmış medallar və Azərbaycan komandasının uğuru münasibətilə Sizi təbrik edirəm. Əhsən!

Beynəlxalq Olimpiya Komitəsinin bir çox prezidentləri, o cümlədən Samaranç, Roq və Bax hər zaman qeyd ediblər ki, oyunların uğurlu keçməsinin ən vacib hissəsi ev sahibliyi edən ölkənin oyunlara uğurla başlamasıdır və həqiqətən də dünən siz medal sayına görə çox uğurlu çıxış etdiniz. Mən uzun günün sonunda mehmanxanaya qayıdandan sonra Azərbaycan Televiziyasına baxdım. Sizin və birinci xanımın karate yarışında medalların verilməsində iştirak etməyiniz məni fərəhləndirdi.

Azərbaycanın uğuru ilə bağlı digər bir məsələyə toxunmaq istərdim – bu gün heyrətamiz bir hadisə baş verib. Azərbaycan triatlon idman növündə bürünc medal qazanıb. Bu salonda

toplaşanların diqqətinə çatdırmaq istərdim ki, 1 il öncə belə bir idman növü Azərbaycanda mövcud deyildi. 1 il ərzində medal qazanacaq idmançıların hazırlanması məharət, tərəqqi və təlim üçün şəraitin yüksək olmasının göstəricisidir.

Cənab Prezident, bu həqiqətən də böyük nailiyyətdir. Sonda Sizə və birinci xanıma, ölkənizin bütün vətəndaşlarına, bu işlərə cəlb edilən bütün insanlara bizə göstərilən qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Həqiqətən, qonaqpərvərlik inanılmazdır. Son bir neçə gündür ki, həmkarlarımı dinləyirəm və onlardan eşidirəm ki, getdikləri bütün idman məkanları valehedicidir.

Cənab Prezident, Sizə və birinci xanıma bu tarixi Avropa oyunları münasibətilə xatirə hədiyyəsi təqdim etmək istəyirəm. Düşünürəm, bu o qədər əlamətdar məqamı əks etdirir ki, Siz onu gələcəkdə muzeyə verməli olacaqsınız. İcazənizlə, cənab Prezident, ilk hədiyyəni Sizə təqdim etmək istəyirəm.

* * *

*Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Avropa oyunlarının yüksək səviyyədə keçirilməsindəki xidmətlərinə görə Azərbaycan prezidenti İlham Əliyevə və I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim etdi.*

*Mərasimdə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Avropa Olimpiya Komitəsinin vitse-prezidenti Janez Kocijançiç, Avropa Olimpiya Komitəsinin baş katibi Rafael Paqnozzi, Avropa Olimpiya Komitəsinin xəzinədarı Kikis Lazarides, «Bakı–2015» I Avropa oyunlarının Əlaqələndirmə Komitəsinin sədri Spiros Kapralos, həmin komitənin sədr müavini Zlatko Matesa, Milli Olimpiya Komitələri Assosiasiyasının baş katibi Qunilla Lindberq, Avropa Olimpiya Komitəsinin Atletlər Komissiyasının sədri Jan Mişel Saive, Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin Türkiyə, Rusiya, Böyük Britaniya, İspaniya, Litva, Slovakiya, Polşa, Danimarka, Lüksemburq, Almaniya və İsraildən olan üzvləri, həmçinin*

*idman ictimaiyyətinin digər tanınmış nümayəndələri, nüfuzlu idman xadimləri və dünya səviyyəli idmançılar iştirak edirdilər.*

*«Bakı–2015» I Avropa oyunları bütün dünyanın diqqət mərkəzindədir. Belə bir mühüm tədbirə yüksək səviyyədə ev sahibliyi etməklə, Azərbaycan bütün dünyaya bir daha sübut edir ki, son illərdə iqtisadi inkişafı ilə diqqət mərkəzində olan ölkəmiz həm də idman sahəsində mühüm nailiyyətlər qazanıb. Bu gün prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə idmana göstərilən dövlət qayğısının nəticəsidir ki, bütün istiqamətlərdə olduğu kimi, idman sahəsində də tarixi uğurlar qazanılıb. Hər an Azərbaycan dövlətinin qayğısını hiss edən idmançılarımız müxtəlif olimpiadalarda, dünya, qitə və regional əhəmiyyətli mühüm idman yarışlarında qazandıqları medalların sayını ilbəil artırırlar. Bütün bunlar Avropanın idman tarixində ilk olan I Avropa oyunlarının keçirilməsinin məhz Azərbaycana etibar edilməsində mühüm rol oynayıb. Ölkəmizin beynəlxalq nüfuzu, dünyada formalaşdırdığı müsbət imic, beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil etmək təcrübəsi, Azərbaycandakı ictimai-siyasi sabitlik, son illərdə əldə olunan iqtisadi nailiyyətlər bu mötəbər idman tədbirinin Azərbaycanda keçirilməsinə qərar verilməsində həlledici amillər sırasında oldu.*

*Ölkəmizin həyatında tarixi hadisə olan ilk Avropa oyunlarının keçirilməsi bir daha sübut edir ki, Azərbaycan beynəlxalq idman aləminin aparıcı dövlətlərindən biri kimi, dünyadakı mövqeyini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin fəaliyyəti sayəsində Azərbaycan belə nüfuzlu idman tədbirini keçirmək iqtidarında olduğunu bir daha bütün dünyaya nümayiş etdirəcək.*

*Avropa Olimpiya Komitəsinin I Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı qəbul etdiyi qərardan sonra ölkəmizdə bu əhəmiyyətli beynəlxalq tədbirə geniş hazırlıq işləri başlandı. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə I Avropa oyunlarının Təşkilat Komitəsi bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün mühüm işlər gördü. Qısa müddətdə yeni idman obyektləri inşa olundu, mövcudları isə əsaslı şəkildə*

*müasir formada yenidən qurularaq I Avropa oyunlarına hazırlıq vəziyyətinə gətirildi. Beləliklə, belə bir mühüm idman tədbirinə ev sahibi kimi, ölkəmiz üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirdi.*

*«Bakı–2015» ilk Avropa oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər bir idman yarışıdır. I Avropa oyunlarında iştirak edən ölkələr buraya ən tanınmış və ən güclü idmançılarını göndərib. Bu yarışlarda Azərbaycan da daxil olmaqla, Avropanın 50 ölkəsindən 6 mindən artıq atlet idmanın 20 növündə mübarizəyə başlayıb. Bu idman növlərindən 16-sı olimpiya, 4-ü isə qeyri-olimpiya növlərinə daxildir.*

## YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ QALİBLƏRƏ MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*Heydər Əliyev adına İdman Sarayı*

*14 iyun 2015-ci il*

*I Avropa oyunlarının üçüncü günündə Yunan-Roma güləşçilərimiz 1 qızıl, 1 gümüş, 1 bürünc medal qazanmışlar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final qarşılaşmalarını izləmişlər.*

*Yunan-Roma güləşi üzrə seçmə komandamızın aparıcı üzvlərindən biri olan Elvin Mürsəliyev 75 kiloqram çəki dərəcəsində mübarizəyə qoşuldu. İlk mərhələdə slovakiyalı Riçard Riqoya 8:0 hesabı ilə qalib gələn güləşçimiz səkkizdəbir finala yüksəldi. Həmin mərhələdə rumıniyalı İonel Puskasu ilə gərgin mübarizədən də soydaşımız qalib çıxdı.*

*Dörddəbir finalda Elvin Mürsəliyev Rusiya təmsilçisi, adlısanlı güləşçi Çingiz Labazanovla qarşılaşdı. Həmin görüşdə həmyerlimiz 4:2 hesabı ilə qələbə qazandı.*

*Yarımfinalda gürcüstanlı Zurabi Datunaşvili ilə qarşılaşan Elvin Mürsəliyev əzmkarlıq nümayiş etdirərək, hesabda geri düşməsinə baxmayaraq, bu görüşdə 3:2 hesabı ilə qalib gəldi.*

*Finalda Elvin Mürsəliyevin rəqibi Serbiya idmançısı Viktor Nemes oldu. Gərgin mübarizə şəraitində keçən qarşılaşmada rəqibini 5:1 hesabı ilə məğlub edən Azərbaycan idmançısı xalqımıza növbəti qələbə sevincini yaşatdı.*

*Sonra Yunan-Roma güləşi üzrə 75 kiloqram çəki dərəcəsində mükafatlandırma mərasimi oldu.*

*Medalları qaliblərə prezident İlham Əliyev təqdim etdi.*

*Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Bundan əlavə, daha bir pəhləvanımız – 130 kiloqram çəki dərəcəsində Sabah Şəriəti də öz gücünü sınadı. Səkkizdəbir finalda Ukrayna idmançısı Mikola Kuçmini 8:0 hesabı ilə məğlub edən idmançımız dörddəbir finalda Gürcüstan təmsilçisi Yakobi Kajayaya 5:2 hesabı ilə qalib gəldi.*

*Yarımfinalda isə Sabah Şəriəti Belarus təmsilçisi İosif Çuqoşvilini 5:0 hesabı ilə məğlubiyyətə uğratdı.*

*Finalda Sabah Şəriətinin rəqibi məşhur türkiyəli güləşçi Rza Kayaalp oldu. Gərgin keçən qarşılaşma Rza Kayaalpın qələbəsi ilə nəticələndi. Beləliklə, Sabah Şəriəti gümüş medalla kifayətlənməli oldu.*

*Yunan-Roma güləşi üzrə daha bir idmançımız – 66 kiloqram çəki dərəcəsində çıxış edən Həsən Əliyev bürünc medal uğrunda görüşdə serbiyalı Aleksandr Maksimoviçi məğlub edərək, I Avropa oyunlarının bürünc medalını qazandı.*

## QADINLAR ARASINDA SƏRBƏST GÜLƏŞ YARIŞLARININ QALİBLƏRİNƏ MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*Heydər Əliyev adına İdman Sarayı*

*15 iyun 2015-ci il*

*Heydər Əliyev adına İdman Sarayında iyunun 15-də «Bakı–2015» I Avropa oyunları çərçivəsində qadınlar arasında sərbəst güləş yarışları keçirilmişdir.*

*Millimizin üzvü Mariya Stadnik bütün rəqiblərini məğlub edərək, qızıl medal qazanmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva final qarşılaşmasını izləmişlər.*

*Xanım idmançılar 4 çəki dərəcəsində mükafatlar uğrunda mübarizə apardılar. 48 kiloqram çəki dərəcəsində yığmamızın liderlərindən olan Mariya Stadnik təsnifat mərhələsindən azad edildi. Dünya və dördqat Avropa çempionu mübarizəyə səkkizdəbir finaldan başladı. Mariya Stadnikin ilk görüşdə rəqibi portuqaliyalı Liliana Kosta dos Santos oldu. İdmançımız rəqibinə böyük hesabla qalib gəldi – 12:2. Olimpiya mükafatçımız dörddəbir finalda fransalı Julye Sabatyedən də üstün oldu. Mariya bu dəfə döyüşü 11:0 hesablı qələbə ilə başa çatdırdı. Təmsilçimiz finala gedən yolda polşalı İvona Matkovska ilə gücünü sınadı. Mariya bu döyüşdən də 8:2 hesabı ilə qalib ayrıldı.*

*Mariya Stadnikin final görüşü də maraqlı və gərgin mübarizə şəraitində keçdi. Bolqarıstanlı Elitsa Yankova ilə üz-üzə gələn Stadnik rəqibini 12:1 hesabı ilə məğlub etdi və I Avropa oyunlarının çempionu adını qazandı. Beləliklə, Azərbaycan öz aktivinə daha bir qızıl medal yazdı.*

*Sonra qaliblərin mükafatlandırılması mərasimi oldu.*

*Azərbaycanın birinci xanımı, «Bakı–2015» I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva medalları qalib idmançılara təqdim etdi.*

*Qalib idmançımızın şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, üçrəngli bayrağımız qaldırıldı.*

*55 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan güləşçisi Natalya Sinişin də yarışa səkkizdəbir finaldan başladı. Yalnız yarımfinalda uduzan Natalya Sinişin bununla bürünc medal uğrunda mübarizə aparmaq hüququ qazandı. Üçüncü yer uğrunda görüşdə Ukrayna idmançısı Tatyana Kitlə qarşılaşan Natalya Sinişin rəqibini 10:0 hesabı ilə məğlub edərək, bürünc mükafata sahib oldu.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Görkəmli dövlət xadimi və ictimai-siyasi xadim, Türkiyə Respublikasının 9-cu prezidenti Süleyman Dəmirəlin vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Süleyman Dəmirəl bütün həyat və fəaliyyətini doğma Türkiyənin rifahına həsr etmişdi. O, türkdilli xalqlar və dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsinə böyük töhfələr vermişdir. Süleyman Dəmirəl eyni zamanda, Azərbaycan xalqının əsl dostu idi. Azərbaycana qəlbən bağlılığı onun müstəqilliyimizə dəstəyində, Azərbaycan–Türkiyə qardaşlığının möhkəmlənməsi sahəsində xidmətlərində öz ifadəsini tapmışdır.

Bu ağır itki ilə əlaqədar Sizə, qardaş Türkiyə xalqına, eləcə də mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və kədərinizi bölüşürük.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2015-ci il*

## CƏNAB ŞƏVKƏT DƏMİRƏLƏ

Hörmətli Şəvkət Dəmirəl!

Sizin böyük qardaşınız, Azərbaycan xalqının əsl dostu Süleyman Dəmirəlin vəfat etməsi xəbəri məni sarsıtdı.

Dünyada böyük hörmət və nüfuz qazanmış görkəmli dövlət xadimi, bütün gücünü qardaş Türkiyəyə fədakarcasına xidmətə həsr etmiş gözəl insan dünyasını dəyişmişdir.

Xalqlarımızın iki dahi oğlunun – Heydər Əliyevin və Süleyman Dəmirəlin böyük dostluğu bizim xatirəmizdə həmişəlik qalacaqdır.

Sizə və bütün ailənizə bu ağır itki ilə əlaqədar öz adımdan və bütün ailəmiz adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2015-ci il*

## AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKKİYƏ «ŞƏRƏF» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*17 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki «Şərəf» ordeni ilə təltif edilmişdir.*

*Dövlətimizin başçısı iyunun 17-də yüksək mükafatı Patrik Hikkiyə təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Cənab prezident, ilk növbədə, Sizi yubileyiniz münasibətilə təbrik etmək istəyirəm. Çox şadam ki, Siz ad gününüzü Bakıda, əminəm, Sizə çox yaxın olan bir ölkənin paytaxtında qeyd edirsiniz. Fürsətdən istifadə edərək, Avropada idmanın, olimpiya hərəkatının inkişafı naminə həyata keçirdiyiniz işlərə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

20 ilə yaxındır Avropa olimpiya ailəsinin üzvü olaraq, mən Sizin qitəmizdə idmanın inkişafına sadiqliyinizə, fəaliyyətinizə və fədakarlığınıza çox yaxşı bələdəm. Mən Avropa Olimpiya Komitəsinin iclaslarında bizim birgə iştirak etdiyimiz vaxtları xatırlayıram. Təəssüf ki, hazırda mən işimlə əlaqədar iclaslarda iştirak edə bilmirəm, lakin Sizin fəaliyyətinizi yaxından izləyirəm. Mən Sizi dünyada Avropa idmanının təbliği ilə bağlı əldə etdiyiniz böyük nailiyyətlər münasibətilə təbrik etmək istəyirəm.

Əlbəttə ki, ilk Avropa oyunlarının təşkili ilə bağlı Avropa olimpiya ailəsinin dəstəklədiyi qərar tarixi qərar idi. Biz ilk oyunları Bakıda keçirməkdən qürur duyuruq. Bu bizə ölkəmizi təqdim etmək, imkanlarımızı nümayiş etdirmək və möhtəşəm tədbiri təşkil etmək imkanı verir. Biz ictimaiyyətin bu tədbirə böyük maraq göstərdiyini görürük. Əminəm ki, oyunlar sona

çatandan sonra biz minlərlə insanın, xüsusilə uşaqların idmana marağının artmasının, çempion olmağa çalışmasının şahidi olacağıq. Bu, Azərbaycanda idmanın gələcək inkişafında olduqca müsbət rol oynayacaq.

Avropada, Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafındakı böyük nailiyyətləri nəzərə alaraq mən Sizin Azərbaycanın ən ali mükafatlarından biri olan «Şərəf» ordeni ilə təltif edilməyinizlə bağlı sərəncam imzalamışam və onu Sizə təqdim etmək istəyirəm.

*Prezident İlham Əliyev «Şərəf» ordenini Patrik Hikkiyə təqdim etdi.*

**P a t r i k  H i k k i:** Cənab Prezident, bu mənim üçün şərəfdir. Bu yüksək mükafata görə Sizə təşəkkür edirəm. Biz birlikdə uzun yol qət etmişik. Mən Sizi şəxsən uzun illərdir tanıyıram. İndi mən Azərbaycanı və Azərbaycan vətəndaşlarını yaxından tanımaq imkanını əldə etmişəm. Bura mənim ikinci evim kimidir. Mən burada özümü çox rahat hiss edirəm, hər kəsdən ehtiram görürəm. Bütün Avropadan mənə oyunların təşkili, keçirildiyi yerlər, buradakı rəqabətlilik, qonaqpərvərliklə bağlı fikirlər bildirirlər. İndiyədək mən heç bir şikayət almamışam – nə nəqliyyat, nə qida, nə də başqa məsələlərlə bağlı.

*Patrik Hikki I Avropa oyunlarının ilk günlərində Azərbaycan idmançılarının qazandıqları böyük uğurlar münasibətilə prezident İlham Əliyevi və xalqımızı təbrik etdi.*

## MACARISTAN RESPUBLİKASININ MİLLİ ASSAMBLEYASININ SƏDRİ LASZLO KÖVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Macarıstan Respublikası Milli Assambleyasının sədri Laszlo Köverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev Macarıstana sonuncu səfərini məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın da fəal şəkildə inkişaf etdiyini bildirən dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin müxtəlif istiqamətlərdə daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.*

*Prezident İlham Əliyev Macarıstan Respublikasının Milli Assambleyasının sədri Laszlo Köverin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin parlamentlərarası əlaqələrimizin inkişafı işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı səfərin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına əminliyini ifadə etdi.*

*Azərbaycan prezidenti İlham Əliyevin Macarıstana son səfərinə toxunan Laszlo Köver səfərin mühüm əhəmiyyət daşıdığını və səfər çərçivəsində imzalanan sənədlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi. Macarıstanlı qonaq I Avropa oyunlarının ölkəmizdə yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin enerji, təhsil, səhiyyə və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# I AVROPA OYUNLARININ ÇEMPİONU TOĞRUL ƏSGƏROVA QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*Heydər Əliyev adına İdman Sarayı*

*17 iyun 2015-ci il*

*I Avropa oyunlarında Azərbaycanın aktivinə daha bir qızıl medal yazılmışdır. İyunun 17-də Heydər Əliyev adına İdman Sarayında Azərbaycan idmançısı Toğrul Əsgərov bütün rəqiblərini məğlub edərək, I Avropa oyunlarının çempionu olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final qarşılaşmasını izləmişlər.*

*Olimpiya çempionu Toğrul Əsgərov 65 kiloqram çəki dərəcəsində səkkizdəbir finala yüksəlmək üçün əvvəlcə rusiyalı İlyas Bekbulatovu 8:7 hesabı ilə məğlub etdi. O, səkkizdəbir finalda moldovalı Mixail Sava ilə qarşılaşdı və 10:0 hesabı ilə qalib gəldi. Yarışın dörddəbir finalında isə idmançımızın rəqibi fransalı Maksim Fiquen oldu və bu qarşılaşmadan da Toğrul 10:0 hesabı ilə qalib ayrıldı. Yarımfinalda Belarus idmançısı Azamat Nurikovu 7:2 hesabı ilə məğlub edən olimpiya çempionumuz finalda İtaliya təmsilçisi Frank Markez Kamizo ilə üz-üzə gəldi. Toğrul Əsgərov bu görüşü təmiz qələbə ilə başa vurdu və I Avropa oyunlarının çempionu oldu, xalqımıza növbəti qələbə sevinci yaşatdı. Toğrul Əsgərovun bu qələbəsi ilə Azərbaycanın aktivinə yazılan qızıl medalların sayı 9-a çatdı. Sonra mükafatların təqdimetmə mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi. Bu qələbə münasibətilə Azərbaycanın Dövlət himni səsləndirildi, üçrəngli bayrağımız ucaldıldı.*

## 10-cu QIZIL MEDALIN XETAQ QAZYUMOVA TƏQDİMETMƏ MƏRASİMİ

*Heydər Əliyev adına İdman Sarayı*

*17 iyun 2015-ci il*

*Heydər Əliyev adına İdman Sarayında iyunun 17-də keçirilən sərbəst güləş üzrə yarışlarda Azərbaycan güləşçisi, Olimpiya oyunlarının ikiqat bürünc mükafatçısı, dünya və Avropa çempionu Xetaq Qazyumov I Avropa oyunlarının qızıl medalını qazanmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final görüşlərini izləmişlər.*

*Sərbəst güləşçilərin 97 kiloqram çəki dərəcəsində mübarizə aparan Xetaq Qazyumov ilk görüşündə Polşa güləşçisi Radoslav Baranı 10:0 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə moldovalı Nikolay Çebanı 4:0 hesabı ilə məğlub edən Xetaq Qazyumov daha sonra belaruslu İbrahim Saidov ilə qarşılaşdı. Rəqibinə 2:1 hesabı ilə qalib gələn güləşçimiz yarımfinalda rusiyalı Abdusalam Qadisovu da 4:2 hesabı ilə məğlubiyyətə uğradaraq finala vəsiqə qazandı. Finalda gürcüstanlı Elizbar Odikadze ilə güləşən Xetaq Qazyumov 3:1 hesabı ilə qalib gələrək, I Avropa oyunlarının çempionu oldu. Bununla da Azərbaycanın sahib olduğu qızıl medalların sayı 10-a çatdı.*

*Sonra mükafatların təqdimetmə mərasimi keçirildi.*

*Azərbaycan prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*Qələbə şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

## TAEKVONDO YARIŞLARINDA AYXAN TAĞIZADƏNİN FİNAL UĞRUNDA MÜBARİZƏSİNƏ BAXIŞ

*«Baku Crystal Hall»*

*17 iyun 2015-ci il*

*«Baku Crystal Hall»da iyunun 17-də I Avropa oyunları çərçivəsində taekvondo üzrə daha 2 çəki dərəcəsində yarışlar keçirilmişdir. Kişilər arasında 68 kiloqram çəkidə Azərbaycanı təmsil edən Ayxan Tağızadə yarımfinalda qalib gələrək, finala vəsiqə qazanmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva gənc idmançımızın finala çıxmaq uğrunda mübarizəsini izləmişlər.*

*Ayxan Tağızadə yarışa ilkin mərhələdən başladı. Sloveniyalı Yure Pantarla döyüşən həmyerlimiz 11:3 hesabı ilə qalib gələrək, dörddəbir finalda London Olimpiya oyunlarının qalibi, ikiqat dünya və ikiqat Avropa çempionu ispaniyalı Xoel Qonzales Bonilla ilə qarşılaşdı. 19 yaşlı idmançımız təcrübəli rəqibini 7:5 hesabı ilə məğlub edərək, yarımfinalda iştirak hüququ qazandı. Bu mərhələdə Rusiya idmançısı Aleksey Denisenkonu 7:5 hesabı ilə məğlub edən Ayxan Tağızadə finala çıxdı. Final görüşündə polşalı Karol Robak ilə qarşılaşdı. Rəqib üzərində inamlı qələbə qazanan idmançımız I Avropa oyunlarının çempionu oldu.*

*Sonra qaliblərin mükafatlandırılması mərasimi oldu.*

*Qalib idmançımızın şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağımız ucaldıldı. Beləliklə, Azərbaycan I Avropa oyunlarında qazandığı qızıl medalların sayını 11-ə çatdırdı.*

## QADIN VOLEYBOLÇULARIMIZIN İTALİYA MİLLİSİ İLƏ OYUNUNA BAXIŞ

*17 iyun 2015-ci il*

*Azərbaycanın ev sahibliyi etdiyi I Avropa oyunlarında qadınlar arasında voleybol yarışlarının növbəti oyunları iyunun 17-də keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva qadınlardan ibarət Azərbaycan yığmasının İtaliya millisi ilə keçirdiyi görüşü izləmişlər.*

*«A» qrupunda yer alan Azərbaycan yığması İtaliya millisi ilə keçirdiyi görüşün birinci setində 25:22 hesabı ilə qalib gəldi. İkinci setdə 25:20 hesabı ilə rəqiblərindən üstün olan voleybolçularımız üçüncü setdə italiyalılara 22:25 hesabı ilə məğlub oldular. Görüşün taleyi dördüncü setdə həll olundu. Bu seti Azərbaycan yığması 25:22 hesabı ilə qalib başa vurdu.*

*Xatırladaq ki, ilk qarşılaşmasını Rumıniya yığmasına qarşı keçirən millimiz bu görüşdən qalib ayrılıb. İyunun 15-də isə qadın voleybolçularımız Polşa millisini 3:0 hesabı ilə məğlub ediblər.*

## 12-ci QIZIL MEDALIN SAHİBİNƏ TƏQDİMETMƏ MƏRASİMİ

*«Baku Crystal Hall»*

*18 iyun 2015-ci il*

*«Baku Crystal Hall»da iyunun 18-də keçirilən taekvondo yarışlarında 2 idmançımız fərqlənmişdir. Milad Beiqi Harçeqani qızıl, Fəridə Əzizova isə gümüş medalın sahibi olmuşlar. Bununla da I Avropa oyunlarında Azərbaycanın aktivinə yazılan qızıl medalların sayı 12-yə çatmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri «Baku Crystal Hall»da keçirilən yarışlarda idmançılarımızın final qarşılaşmalarını izləmişlər.*

*Kişilər arasında 80 kiloqram çəki dərəcəsində Azərbaycanı təmsil edən Milad Beiqi Harçeqani ilkin mərhələdən yarışa qoşuldu. İlk cəhdində serbiyalı Damir Feyziçlə üz-üzə gələn və bu görüşdən qələbə ilə ayrılan Harçeqani dörddəbir finalda Böyük Britaniya idmançısı Məhəmməd Lutalonu 17:5 hesabı ilə məğlub etdi. Azərbaycan idmançısı yarımfinalda portuqaliyalı Julio Ferreyra ilə döyüşdü və 6:2 hesabı ilə qalib gələrək, finala çıxdı. Finalda rəqibi Rusiya idmançısı Albert Quanı 9:4 hesabı ilə məğlub edən Milad Beiqi Harçeqani I Avropa oyunlarının növbəti çempionu oldu.*

*Sonra mükafatlandırma mərasimi keçirildi.*

*Prezident İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*Qalib idmançının şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Qadınlar arasında 67 kiloqram çəkidə dünya çempionumuz Fəridə Əzizova isə I Avropa oyunlarında ilk döyüşünü Yoyse*

*Van Baarinə qarşı keçirdi. Bu qarşılaşma idmançımızın qələbəsi ilə yekunlaşdı – 2:0. Taekvondoçumuz dörddəbir finalda türkiyəli Nur Tatarı 6:2 hesabı ilə məğlub etdi. Fəridə Əzizova finala gedən yolda isveçli Elin Yohanssonla qarşılaşdı və rəqibinə 4:2 hesabı ilə qalib gəldi. Finalda Rusiya idmançısı Anastasiya Barışnikovaya məğlub olan Fəridə Əzizova I Avropa oyunlarının gümüş mükafatını qazandı.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU**
**ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Böyük Hersoqun Təvəllüd Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Lüksemburq xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2015-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*19 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olmuşdur.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının IX prezidenti Süleyman Dəmirəlin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.*

*Prezident İlham Əliyev səfirlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Türkiyənin IX prezidenti Süleyman Dəmirəl ilə müxtəlif vaxtlarda keçirdiyi görüşləri əks etdirən fotolardan ibarət stendə baxdı.*

*Sonra dövlətimizin başçısı matəm kitabına ürək sözlərini yazdı.*

## AZƏRBAYCANIN AKTİVİNƏ YAZILAN 13-cü QIZIL MEDALIN RADİK İSAYEVƏ TƏQDİMETMƏ MƏRASİMİ

*«Baku Crystal Hall»*

*19 iyun 2015-ci il*

*I Avropa oyunlarında taekvondo yarışlarının sonuncu günündə – iyunun 19-da bütün rəqiblərinə qalib gələn Azərbaycan idmançısı Radik İsayev qızıl medalın sahibi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri taekvondoçumuzun final qarşılaşmasını izləmişlər.*

*I Avropa oyunlarının «Baku Crystal Hall»da keçirilən taekvondo yarışlarının son günü ağır çəkili idmançılar yarışıblar. Kişilər arasında 80 kiloqram çəki dərəcəsində Azərbaycan yığmasının lideri Radik İsayev dörddəbir finalda Hollandiya təmsilçisi Yeroen Vanroiyunu 8:6 hesabı ilə məğlub etdi. İkidəbir finalda sloveniyalı İvan Konrad Trajkoviç ilə qarşılaşan təmsilçimiz yenə də çətinlik çəkmədən qələbə qazandı. Radik İsayev ikinci hissənin gedişində 15 xal fərqi ilə önə keçdiyindən döyüş yarımçıq dayandırıldı və dünya çempionumuz finala vəsiqə qazandı. Finalda taekvondoçumuzun rəqibi Rusiya idmançısı Vladislav Larin oldu. Rəqibini 4:3 hesabı ilə məğlub edən Radik İsayev I Avropa oyunlarının çempionu oldu. Bununla da Azərbaycanın aktivindəki qızıl medalların sayı 13-ə çatdı.*

*Sonra mükafatlandırma mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*I Avropa oyunlarının çempionu Radik İsayevin şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Xatırladaq ki, taekvondo yarışlarında Ayxan Tağızadə və Milad Beiqi Harçeqani qızıl, Fəridə Əzizova gümüş, Patimat Abakarova isə bürünc medal qazanıblar. I Avropa oyunlarında ölkələrin medal sayına nəzər salsaq görərik ki, Azərbaycanın aktivində 13-ü qızıl, 5-i gümüş, 12-si bürünc olmaqla, 30 medal var.*

## AZƏRBAYCAN GİMNASTI OLEQ STEPKOYA QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*Milli Gimnastika Arenası*

*20 iyun 2015-ci il*

*Milli Gimnastika Arenasında iyunun 20-də idman gimnastikası yarışlarının final mərhələsi keçirilmişdir..*

*Azərbaycan idmançısı Oleq Stepko kişilərin gimnastika atı üzrə yarışlarında gümüş, dayaqla tullanma yarışlarında bürünc və paralel qollarda hərəkətlər üzrə yarışda qızıl medal qazanmışdır. Beləliklə, Azərbaycan milli komandasının hesabında 14 qızıl, 6 gümüş və 13 bürünc medal var.*

*İdman gimnastikası üzrə mübarizənin gedişini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva izləmişlər.*

*Komanda və fərdi çoxnövçülük yarışlarından sonra gimnastlar ayrı-ayrı hərəkətlər üzrə mübarizəyə qoşuldular. İlk Avropa oyunlarının 9-cu gününə təsadüf edən bu yarışlarda gimnastlar 10 dəst medal uğrunda mübarizə apardılar. Qadınlar 4, kişilər isə 6 hərəkətdə çıxış etdilər. Hər bir yarış üzrə 6 idmançı qüvvəsini sınadı. Yarışlarda ilkin olaraq kişilər sərbəst hərəkətlər üzrə, qadınlar isə dayaqla tullanma üzrə final mərhələsində mübarizə apardılar. Azərbaycan gimnastı Oleq Stepko da mükafatlar uğrunda yarışdı. O, əvvəlcə kişilərin gimnastika atı üzrə hərəkətlərlə yarışına qoşuldu. İdmançımız 14600 xalla ikinci yeri tutaraq, gümüş medal qazandı. Bu, Azərbaycan milli komandasının I Avropa oyunlarında 6-cı gümüş medalı oldu.*

*Xatırladaq ki, Oleq Stepko gimnastika üzrə komanda yarışlarında bürünc, fərdi çoxnövçülükdə isə gümüş medal qazanıb.*

*Qalib idmançılara mükafatları «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva təqdim etdi.*

*Sonra qalib idmançının şərəfinə Dövlət himni səsləndirildi.*

*Halqalarla hərəkətlərdə qüvvəsini sınayan Oleq Stepko 4-cü nəticə göstərdi. Kişilərin dayaqla tullanma yarışlarında isə Oleq Stepko uğurla yarışaraq, komandamıza növbəti bürünc medal qazandırdı. Sonra dayaqla tullanma yarışlarında fərqlənən idmançıların mükafatlandırılması mərasimi oldu.*

*Bu növdə I Avropa oyunlarının çempionu adını qazanan Oleq Verniayevin şərəfinə Ukraynanın Dövlət himni səsləndirildi.*

*Daha sonra Azərbaycan idmançısı Oleq Stepko paralel qollarda hərəkətlər üzrə yarışlarda mübarizəyə qoşuldu. Gimnastımız bu idman növündə ən yüksək nəticə göstərərək, qızıl medalın sahibi oldu.*

*Sonra paralel qollarda hərəkətlər üzrə yarışlarda qalib gələn idmançıların mükafatlandırılması mərasimi keçirildi.*

*Paralel qollarda hərəkətlər üzrə yarışlarda I Avropa oyunlarının çempionu adını qazanan Oleq Stepkonun şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Sloveniya arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2015-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ**

Hörmətli xanım Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Xorvatiya dostluğu və əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Xorvatiya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2015-ci il*

## LATVİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ GÖRÜŞ

*22 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Latviya Respublikasının yeni seçilmiş prezidenti Raymonds Veyonisi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Raymonds Veyonisi Latviya Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik etdi, ona ali dövləti fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Latviya Respublikasının yeni seçilmiş prezidenti Raymonds Veyonis Latviya–Azərbaycan əməkdaşlığının yaxşı səviyyədə olduğunu bildirdi, ölkələrimizin iş adamları, müxtəlif nazirliklər və qurumlar arasında əlaqələrin genişləndirilməsi üçün böyük imkanların mövcudluğunu qeyd etdi.*

# I AVROPA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN SAMBO YARIŞLARINA BAXIŞ

*Heydər Əliyev adına İdman Sarayı*

*22 iyun 2015-ci il*

*I Avropa oyunlarının 11-cü günü də idmançılarımız üçün uğurlu olmuşdur. İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri yarışların gedişini izləmişlər.*

*Heydər Əliyev adına İdman Sarayında keçirilən sambo yarışlarında 8 dəst medal uğrunda mübarizə aparıldı. Həm kişilər, həm də qadınlar 4 çəki dərəcəsində qüvvələrini sınadılar. Azərbaycan bu yarışlara 8 samboçu ilə qatılıb. Samboçularımız müvəffəqiyyətlə çıxış etdilər. Azərbaycan samboçuları Nəzakət Xəlilova, İslam Qasımov, Amil Qasımov və Vasif Səfərbəyov gümüş medalların sahibi oldular.*

*Qadınların yarışında 52 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Nəzakət Xəlilova dörddəbir finalda rumıniyalı Kodrina İoneskunu 4:1 hesabı ilə məğlub etdi. O, yarımfinalda litvalı Ruta Aksionovaya heç bir şans verməyərək, 8:0 hesabı ilə qalib gəldi. Qızıl medal uğrunda həmyerlimizin rəqibi Rusiya idmançısı Anna Xaritonova oldu. Görüşdə 5:0 hesabı ilə qalib gələn Rusiyanın təcrübəli idmançısı I Avropa oyunlarının çempionu adını qazandı. Nəzakət Xəlilova isə oyunların gümüş medalını əldə etdi.*

*57 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan idmançısı İslam Qasımov mübarizəyə dörddəbir final mərhələsindən başladı. Həmin mərhələdə soydaşımız asan qələbə qa-*

*zandı. O, Rumıniya təmsilçisi Orlando Qruianı 9:0 hesabı ilə məğlub etdi. Yarımfinal görüşündə gürcüstanlı Vaxtangi Çidraşviliyə 3:1 hesabı ilə qalib gəldi. Avropa və dünya çempionu İslam Qasımov finalda rusiyalı Aymergen Atkunova məğlub olaraq I Avropa oyunlarının gümüş mükafatı ilə kifayətləndi.*

*Yarışda 74 kiloqram çəki dərəcəsində çıxış edən Amil Qasımov ilk görüşdə gürcüstanlı Kaxa Mamulaşvilini 10:0 hesabı ilə məğlub edərək, yarımfinala yüksəldi. Bu mərhələdə o, bolqarıstanlı Martin İvanovdan 4:3 hesabı ilə üstün oldu. Finalda Belarus idmançısı Stepan Popova uduzan Amil Qasımov yarışı ikinci pillədə başa vurdu.*

*100 kiloqramdan yuxarı çəki dərəcəsində ölkəmizi təmsil edən Vasif Səfərbəyov də yarışa uğurla başladı. O, dörddəbir final mərhələsində makedoniyalı Bayro Maşoviç üzərində 8:0 hesabı ilə qələbə qazandı. İdmançımız yarımfinalda ukraynalı Razmik Tonoyana qalib gələrək, həlledici mərhələyə yüksəldi. Samboçumuz finalda rusiyalı rəqibi Artyom Osipenkodan üstün ola bilmədi və «Bakı–2015»i ikinci yerdə başa vurdu.*

*Qaliblərə mükafatlar təqdim olundu.*

## BEYNƏLXALQ SAMBO FEDERASİYASI İCRAİYYƏ KOMİTƏSİNİN QƏRARI İLƏ SAMBO ÇEMPİON KƏMƏRİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*22 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Beynəlxalq Sambo Federasiyasının prezidenti Vasili Şestakovu qəbul etmişdir.*

*Qonaq Beynəlxalq Sambo Federasiyası İcraiyyə Komitəsinin qərarı ilə sambo Çempion kəmərini dövlətimizin başçısına təqdim etdi.*

**V a s i l i Ş e s t a k o v** *(Beynəlxalq Sambo Federasiyasının prezidenti):* İcazə verin, belə bir bayramı təşkil etdiyinizə görə təşəkkürümü bildirim. Mən Bakıda hələ 1974-cü ildə olmuşdum. İndi isə gözlərimə inana bilmirəm.

**İ l h a m Ə l i y e v**: O vaxtdan Bakıda olmamısınız?

**V a s i l i Ş e s t a k o v**: Xeyr, olmuşam. Amma indi bir daha baxdım. Çox gözəl şəhərdir.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun. Şadam ki, gəlmisiniz və belə bir möhtəşəm tədbiri – idman yarışını, sambonu izləyirsiniz.

**V a s i l i Ş e s t a k o v**: Dəstəyinizə görə Sizə təşəkkür edirəm. Çox sağ olun. Çünki məhz Sizin sayənizdə sambo yarışları belə böyük idman tədbirinin proqramına daxil edilib. Hələ Soçidə sambodan söhbət düşəndə bu idman növünün Avropa oyunlarına daxil edilməsinə görə Sizə təşəkkür bildirildi. Biz də Sizi təbrik etmək və Çempion kəmərini təqdim etmək istərdik.

*Vasili Şestakov sambo Çempion kəmərini dövlətimizin başçısına təqdim etdi.*

**İ l h a m Ə l i y e v**: Çox sağ olun.

**V a s i l i Ş e s t a k o v**: Belə bir kəmər Fəxri prezident kimi, Vladimir Vladimiroviçə təqdim edilib. Sambonun Azərbay-

canda və bütün dünyada inkişafına göstərdiyiniz böyük xidmətlərə görə Beynəlxalq Sambo Federasiyası İcraiyyə Komitəsinin qərarı ilə Sizə sambo Çempion kəmərini təqdim edirik. Bu ikinci belə kəmərdir. Birincisi Vladimir Vladimiroviç Putinə təqdim olunub.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun. Mən işimə verilən qiymətə görə minnətdarlığımı bildirirəm. Siz qeyd etdiyiniz kimi, sambo I Avropa oyunlarının proqramına daxil edilib. Bu, prezident Putinlə mənim birgə təşəbbüsüm idi. Biz bu barədə hələ ötən ilin yazında müzakirə aparmışdıq. Biz Avropa Olimpiya Komitəsinə müraciət etdik ki, sambo ilk Avropa oyunlarının proqramına daxil edilsin. Deməliyəm ki, oyunların proqramına daha 7 idman növü üzrə yarışların daxil edilməsi planlaşdırılırdı. 19-u artıq müəyyənləşdirilmişdi və yalnız 1 idman növü qalırdı. Əlbəttə, biz Avropa Olimpiya Komitəsinə xahişimizi təmin etdiklərinə görə minnətdarıq. Beləliklə, belə bir gün gəlib çatdı. Həqiqətən də idmanın bu növü bizi birləşdirir.

*Beynəlxalq Sambo Federasiyasının prezidenti Vasili Şestakov Azərbaycanda güclü sambo məktəbinin olduğunu və bunun maraqla izlənildiyini vurğuladı.*

**İ l h a m  Ə l i y e v**: Bu, sambonun gələcəkdə Olimpiya oyunlarının proqramına daxil edilməsinə aparan yoldur. Bu idman növü bizdə çox sevilir. Bu yarışlardan sonra fikrimcə, sambo bölməsinə axın daha da artacaq. Çünki hamı gözəl bilir ki, cüdo olimpiya idman növü olduğuna görə gəncləri və uşaqları özünə daha çox cəlb edir. Hamı olimpiya çempionu olmaq istəyir. Biz sambonu da bu cür dəstəkləyirik və dəstəkləyəcəyik.

**V a s i l i  Ş e s t a k o v**: Ümid edirəm ki, Sizin dəstəyinizlə sambo Olimpiya oyunlarına yol tapacaq. Sizin çox məşhur – 7 dəfə dünya çempionunuz Ceyhun Məmmədov var. O, sambonun əfsanəsidir. Buna görə də o, Beynəlxalq Federasiyanın ən yüksək mükafatına – «Qızıl nişan»a layiq görülüb. Tarixdə cəmi bir idmançı bu nişanla mükafatlandırılıb. O, ən yaxşı samboçular onluğuna daxil olub.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun.

# RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*22 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram!

Bizim görüşlərimiz Ramazan ayında ənənəvi xarakter daşıyır və sizi görməyimə çox şadam.

Xahiş edirəm ki, mənim səmimi salamlarımı və xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri var. Biz ikitərəfli formatda gözəl əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Biz maraqlıyıq ki, müsəlman ölkələri ilə siyasi, iqtisadi əlaqələrimiz, mədəniyyət sahəsində əlaqələr daha da inkişaf etsin. Eyni zamanda, biz beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Xüsusilə BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bizim əməkdaşlığımız çox yüksək səviyyədədir.

Son vaxtlar İslam Əməkdaşlıq Təşkilatı ilə bizim əlaqələrimiz daha da inkişaf edir. Aprel və may aylarında Ciddədə və Bakıda təşkilatın baş katibi ilə mənim görüşlərim olmuşdur. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın uğurlu inkişafını qeyd edir, Azərbaycanda gedən işlərə çox yüksək qiymət verir. Biz də təşkilatın fəal üzvü kimi, çalışırıq ki, ölkələr arasındakı həmrəyliyi daha da gücləndirək. Ümumiyyətlə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, islam həmrəyliyi daha da möhkəmlənməli və müsəlman ölkələri bir-birini daha da

dəstəkləməlidir. Ölkələrimizi narahat edən məsələlərdə bu dəstəyə daha böyük ehtiyac var. Biz bu dəstəyi görürük, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın mövqeyi müsəlman ölkələri tərəfindən dəstəklənir. BMT-də müsəlman ölkələrinin mütləq əksəriyyəti bizim mövqemizi dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı isə dəfələrlə münaqişə ilə bağlı reallığı, ədaləti, beynəlxalq hüququ və Azərbaycanın mövqeyini əks etdirən qətnamələr qəbul edib. Bu dəstəyə görə təşkilatın üzvü olan ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması region üçün ən böyük təhlükə mənbəyidir. Bildiyiniz kimi, uzun illərdir ki, ölkəmizin ərazi bütövlüyü Ermənistan tərəfindən pozulub, 1 milyondan çox azərbaycanlı öz doğma torpağından qaçqın və köçkün vəziyyətinə düşüb, xalqımıza qarşı Xocalı soyqırımı törədilib. İşğal edilmiş torpaqlarda bütün binalar dağıdılıb, yerlə yeksan edilib. Erməni vəhşiləri məscidlərimizi də dağıdıb, yerlə yeksan ediblər. Amma biz o torpaqlara qayıdandan sonra bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Ermənistan isə beynəlxalq hüquq normalarını kobudcasına pozur və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir. Ancaq haqq-ədalət, o cümlədən tarixi ədalət və beynəlxalq hüquq bizim mövqemizi dəstəkləyir. Ədalət bərpa olunacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

Keçən bayramdan ötən dövr ərzində ölkəmizin həyatında çox əlamətdar hadisə baş verdi. Bakıda ölkəmizin ən böyük məscidi – Heydər məscidi tikilib istifadəyə verildi. Azərbaycan dövləti öz tarixi keçmişinə, tarixi abidələrinə çox böyük diqqətlə yanaşır. Bizim bütün tarixi məscidlərimiz əsaslı şəkildə təmir olunub, bərpa edilib. Bizim qədim və müasir dini abidələrimiz bütün müsəlman aləminin sərvətidir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı məscidi Azərbaycanda

yerləşir, 743-cü ildə tikilmişdir. O bir memarlıq əsəridir. Dünyanın ən yeni məscidlərindən biri olan Heydər məscidi 2014-cü ildə Bakıda tikilib. Bu məscid də gözəl memarlığa malik olan bir sənət əsəridir. Yəni bu bir daha ölkəmizin öz keçmişinə, xalqımızın öz dininə olan hörmətini əks etdirir.

Biz bundan sonra da çalışacağıq ki, müsəlman ölkələri arasındakı həmrəyliyi gücləndirək. Bakıda 2 ildən sonra İslam Həmrəyliyi oyunları keçiriləcək. Əminəm ki, bu oyunlar bütün müsəlman ölkələrini bir-biri ilə daha da sıx birləşdirəcək.

Hörmətli səfirlər, sizi bir daha salamlayır və sizə fəaliyyətinizdə uğurlar arzu edirəm.

**Heydər Şiyə Qubeyşi əl-Barrak** *(İraqın Azərbaycandakı səfiri):* Cənab Prezident, bu gün bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu bizim üçün artıq ənənəyə çevrilib. Bu görüş bizi çox sevindirir. İlk növbədə, icazə verin, həmkarlarım – İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin səfirləri adından Sizə müqəddəs Ramazan ayı münasibətilə təbriklərimi çatdırım.

Ulu Tanrıdan bu ayın Sizə, Azərbaycana və bütün islam dünyası ölkələrinə sülh, firavanlıq və inkişaf gətirməsi üçün dualar edirik. Həmçinin fürsətdən istifadə edərək, Sizi I Avropa oyunları və 2 ildən sonra keçiriləcək İslam Həmrəyliyi oyunları münasibətilə təbrik etmək istəyirəm.

İcazə verin, qeyd edim ki, bu möhtəşəm oyunlara ev sahibliyi etməklə, Azərbaycan dünyaya özünü sülhsevər ölkə kimi təqdim etdi. Bu şərafətli ayda biz müqəddəs Ramazanın mənəvi dəyərlərini nümayiş etdiririk. Sizin qeyd etdiyiniz kimi, biz islam həmrəyliyinə və birliyinə töhfələr veririk. Çünki bizim – İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin çox böyük yeraltı, yerüstü təbii sərvətləri və əhalisi var. Təbii ki, bu müqəddəs Ramazan ayında biz əsas məsələmiz olan Fələstinin timsalında islam faciəsini xatırlayırıq. Ölkələr arasında birliyin olmaması səbəbindən Fələstin hələ də işğaldan əziyyət çəkir. Bu müqəddəs ayda biz, həmçinin Dağlıq Qarabağ faciəsini, Azərbaycanın bu mühüm hissəsinin onun əlindən necə

alındığını xatırlayırıq. Sizin də qeyd etdiyiniz kimi, bu, bütün regionda sülh və təhlükəsizlik üçün real təhdidə çevrilib. Bu ayda biz, həmçinin əksər müsəlman ölkələrində əziyyət çəkən qaçqın və məcburi köçkünləri xatırlayırıq. Bu ayda biz Tanrıya onların probleminin həlli və evlərinə qayıtmaları üçün dualar edirik.

Bu müqəddəs ayda biz, həmçinin İƏT səfirləri olaraq Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda sülh yolu ilə həll edilməsini, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını və məcburi köçkünlərin evlərinə qayıtmalarını və bununla bağlı müvafiq beynəlxalq qətnamələrin yerinə yetirilməsini istəyirik.

Cənab Prezident, mən və həmkarlarım Sizinlə eyni hissləri paylaşırıq. Avropa oyunlarının möhtəşəm açılışı bizi heyrətləndirdi. Oyunlar hərtərəfli və mükəmməl təşkil olunub. Biz Azərbaycanın 2017-ci ildə İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etməsini səbirsizliklə gözləyirik. Biz, İƏT-in üzvləri kimi, bu oyunlarda iştirak etmək həvəsindəyik. Bu oyunlara ev sahibliyi etməklə, Azərbaycan bir daha özünü Şərq ilə Qərb arasında körpü kimi təqdim etdi. Azərbaycan, həmçinin özünü Şərq ilə Qərbin sevgi və sülh körpüsü, tolerantlıq, başqalarını qəbul etmək, terrorizmlə və terrorçularla mübarizə nümunəsi kimi təqdim etdi. İnşallah, haqq-ədalət Azərbaycanın tərəfində olacaq.

Cənab Prezident, bu müqəddəs ayda Azərbaycan xalqına və hökumətinə səmimi salamlarımızı və hörmətimizi çatdırmaq istərdik. Təşəkkür edirik.

## QARADAĞ RAYONUNDA HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN YENİ BAZASININ VƏ «N» SAYLI HƏRBİ HİSSƏNİN AÇILIŞI MƏRASİMİ

*25 iyun 2015-ci il*

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, prezident İlham Əliyev iyunun 25-də Bakının Qaradağ rayonunun Puta qəsəbəsində Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və «N» saylı hərbi hissənin açılışı mərasimində iştirak etmişdir.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoydu.*

*Müdafiə naziri Zakir Həsənov Ali Baş Komandan, prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Xəzər dənizi hövzəsində ən böyük və müasir hərbi obyekt olan Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və «N» saylı hərbi hissənin inzibati, xidməti binalarının və qurğuların inşasına 2010-cu ilin oktyabrından başlanılıb. Burada şəxsi heyətin xidməti vəzifələrini layiqincə yerinə yetirməsi və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün geniş işlər görülüb.*

*Azərbaycan Prezidenti rəmzi açılışı bildirən lenti kəsdi.*

*Hərbi Dəniz Qüvvələrinin qərargahının binasında ulu öndər Heydər Əliyevin ordu quruculuğuna diqqətini əks etdirən fotolardan ibarət stend yaradılıb. Qərargah binasında növbətçi, tədris, vətəndaşların qəbulu, qonaq otaqları, konfrans zalı, komplektləşdirmə, dəniz müşahidə və digər şöbələr, həmçinin «feldyeger» poçt-rabitə stansiyası, bufet yaradılıb.*

*Prezident İlham Əliyevə Hərbi Dəniz Qüvvələrinin komanda məntəqəsi barədə məlumat verildi. Bu məntəqə Hərbi Dəniz*

*Qüvvələrinin idarə olunmasını həyata keçirir, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda suüstü şəraitə nəzarət etməyə hərtərəfli imkan verir. Məntəqədə suüstü şərait haqqında operativ məlumatlar Hərbi Dəniz Qüvvələrinə məxsus sahil və ada radio-texniki postlarda yerləşən radiolokasiya stansiyaları vasitəsilə alınır. Aşkar edilən bütün hədəflər real vaxt rejimində monitorlarda əks olunur. Xəzər dənizinin Azərbaycana məxsus sektorunda suüstü şəraitlə bağlı Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsindən və Dövlət Dəniz Administrasiyasından alınan məlumatlar da Hərbi Dəniz Qüvvələrinin komanda məntəqəsində toplanır, təhlil olunur və müvafiq qərar qəbul edilir. Burada ən müasir texnoloji yeniliklərə əsaslanan avadanlığın quraşdırılması məntəqənin işini yüksək səviyyədə qurmağa imkan verir.*

*Sonra dövlətimizin başçısı hərbçilərlə görüşdü.*

*Hərbi Dəniz Qüvvələrinin qərargah rəisi Şahin Məmmədov dövlətimizin başçısına raport verdi. Prezident İlham Əliyev əsgərləri salamladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz hərbçilər!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar arzulayıram.

Bu gözəl bayram ərəfəsində ölkəmizin həyatında çox əlamətdar hadisə baş verir. Biz bu gün Hərbi Dəniz Qüvvələrinin bazasının açılışına toplaşmışıq. Bu hadisə ölkəmizin gücünü, qüdrətini göstərir. Bu baza ən yüksək dünya standartlarına cavab verir, son illər ərzində Azərbaycanda, həmçinin Xəzər hövzəsində yaradılmış ən böyük hərbi obyektlərdən biridir. Bir neçə il bundan əvvəl mənim qərarımla biz bu bazanın tikintisinə başladıq və artıq baza açılır. Əminəm ki, ölkəmizin hərbi poten-

sialının gücləndirilməsi üçün bu bazanın çox böyük əhəmiyyəti olacaqdır.

Bu gün burada köhnə bazanın fotoşəkilləri ilə tanış oldum. Bir daha gördüm ki, o baza bizim tələblərimizə cavab vermirdi, köhnəlmişdi. Bu gün dünya miqyasında iqtisadi və maliyyə böhranının davam etməsinə baxmayaraq, Azərbaycan dövləti güclüdür və ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi üçün bütün lazımi tədbirləri görür. Hərbi Dəniz Qüvvələrinin inkişafına diqqət göstərilir, gəmilər əsaslı təmir edilir, müasir infrastruktur, belə gözəl, möhtəşəm hərbi bazalar yaradılır. Hərbi Dəniz Qüvvələri Silahlı Qüvvələrimizin tərkib hissəsidir. Hərbi Dəniz Qüvvələrinin inkişafı gələcəkdə də diqqət mərkəzində olacaqdır.

Qeyd etməliyəm ki, Xəzər sülh, əməkdaşlıq dənizidir. Azərbaycan dövlətinin mövqeyi bundan ibarətdir. Biz çalışırıq ki, Xəzər dənizində sülhün, əməkdaşlığın dərinləşməsi üçün öz təşəbbüslərimizi irəli sürək. Şadam ki, bütün qonşu dövlətlər də bu mövqeni bölüşür. Xəzəryanı ölkələr arasında mövcud olan dostluq, əməkdaşlıq münasibətləri Xəzərdə sülhün, təhlükəsizliyin qarantıdır. Bir çox hallarda Azərbaycan regional əməkdaşlıq təşəbbüslərini irəli sürür, o cümlədən Xəzəryanı ölkələri birləşdirən təşəbbüslər də Azərbaycan tərəfindən irəli sürülür. Gələcəkdə qonşu dövlətlərlə bizim dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında qurulan münasibətlərimiz inkişaf edəcək və bu, regionda, Xəzər regionunda sülhün təminatıdır.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla gedir. Bu bizim üçün prioritet məsələdir. Ordumuz inkişaf edir, güclənir. Orduda nizam-intizam artır, aparılan islahatlar öz bəhrəsini verir. Ordumuzun döyüş qabiliyyəti artır, maddi-texniki təminat yaxşılaşır. Bildiyiniz kimi, Azərbaycanın dövlət büdcəsinin əsas xərcləri hərbi xərclərdir. Biz bundan sonra da hərbi xərclərimizi ən yüksək səviyyədə saxlayacağıq və ordunun bütün tələbatlarını ödəyəcəyik. Son illər ərzində ordumuzun maddi-texniki bazası xeyli artıb. Sadəcə olaraq, hərbi məqsədlərə

ayrılan vəsaitin həcminə baxmaq kifayətdir ki, bunu hər kəs görsün. 10 il bundan əvvəl bizim hərbi xərclərimiz heç 200 milyon dollara çatmırdısa, bu gün bu xərclər 3 milyard dollardan artıqdır. Müqayisə üçün deyə bilərəm ki, Azərbaycanda hərbi xərclər Ermənistanın dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Bu, əlbəttə ki, ölkəmizin gücünü göstərir, eyni zamanda, orduya göstərilən diqqətin təzahürüdür.

Hərbçilərin məişət problemləri də həllini tapır, maaşlar artırılır və 20 il orduda qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən mənzillər verilir. Hərbi infrastruktur yaradılır. Mənim göstərişimlə bu gün ölkəmizin bütün bölgələrində yeni bazalar, hərbi hissələr, şəhərciklər tikilir. Eyni zamanda, hərbçilərin məişət və xidmət problemləri də yüksək səviyyədə həll olunur. Hərbi infrastrukturun yaradılması prosesi bundan sonra da davam etdiriləcək, hələ görüləsi işlər çoxdur. Ancaq deyə bilərəm ki, qısa müddət ərzində çox böyük işlər görülüb. Hərbçilər də bunu yaxşı bilirlər, mən də mütəmadi surətdə hərbi hissələrdə olarkən bunu öz gözlərimlə görürəm və bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Bir sözlə, ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik ruhu yüksək səviyyədədir, maddi-texniki təchizat ən yüksək səviyyədədir. Hərbçilərin məişət problemləri həll olunur, hərbi infrastruktur yaradılır.

Qeyd etməliyəm ki, son illər ərzində Azərbaycan hərbi potensialını xeyli artırıbdır. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıqlar gətirilir. Bu gün maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu gün əldə etdiyimiz silah və texnika bizə imkan verir ki, istənilən vəzifəni şərəflə yerinə yetirək. Bununla bərabər, təxminən 10 il bundan əvvəl mənim qərarımla Azərbaycanda hərbi sənaye kompleksi yaradılmağa başlandı. Bu gün Azərbaycanda 1000-ə yaxın adda hərbi təyinatlı məhsul istehsal edilir və bu da ordumuzun təchizatı üçün əvəzolunmaz haldır. Beləliklə, biz idxaldan asılılığımızı xeyli azaltdıq. Ancaq yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan müasir silah-sursat, döyüş helikopterləri, döyüş təyyarələri

alınır. Ordumuz üçün lazım olan qalan bütün ləvazimat, avadanlıq, texnika, mərmilər, patronlar Azərbaycanda istehsal edilir. Biz hətta hərbi məhsullarımızı ixrac etməyə başlamışıq. Azərbaycan dünyanın aparıcı beynəlxalq hərbi sərgilərində öz məhsullarını nümayiş etdirir. Artıq Bakıda da beynəlxalq sərgi keçirilmişdir ki, bu da ölkəmizin hərbi potensialının göstəricisidir.

Qeyd etdiyim kimi, ordu quruculuğu bizim üçün prioritet məsələdir və bu, gələcəkdə də belə olacaq. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, əlbəttə, bu belə də olmalıdır. Ancaq müasir dünyada gedən proseslər, qanlı toqquşmalar, müxtəlif regionlarda yaranan hərbi münaqişələr diktə edir ki, hətta müharibə şəraitində olmayan ölkələr də hərbi və ordu quruculuğunu prioritet kimi qəbul etsinlər. Bizim ən böyük problemimiz torpaqlarımızın işğal altında qalmasıdır. Uzun illərdir ki, bu ədalətsizlik davam edir. Ötən əsrin 90-cı illərinin əvvəllərində ovaxtkı Azərbaycan rəhbərliyinin səriştəsizliyi, xəyanəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Əfsuslar olsun ki, bütün beynəlxalq təşkilatların qərarlarına rəğmən, bu işğal davam edir. Beynəlxalq hüquq normaları kobudcasına pozulur, ancaq dünya ictimaiyyəti buna biganə qalır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Orada da göstərilir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. 20 ildən çox vaxt keçib, ancaq bu qətnamələr icra edilmir. Bu bizə, dövlətimizə, xalqımıza qarşı böyük ədalətsizlikdir. Ancaq bugünkü dünya, əfsuslar olsun ki, ədalətsizlik üzərində qurulur. Beynəlxalq hüquq pozulur, işğalçı dövlətə heç bir təzyiq, işğala məruz qalan ölkəyə isə heç bir dəstək göstərilmir.

Belə olan halda, əlbəttə ki, ancaq və ancaq öz gücümüzə güvənməliyik və biz bunu edirik. Əlbəttə, beynəlxalq təşkilatların sənədləri, qətnamələri, qərarları bizim siyasi, diplomatik imkanlarımızı artırır. Bu gün heç bir ölkə Dağlıq Qarabağı bir qurum kimi tanımır. Bu bizim böyük siyasi və diplomatik uğurumuzdur. Beynəlxalq təşkilatların qərarları münaqişənin həlli üçün hüquqi baza yaradır. Bu hüquqi baza eyni zamanda,

tarixi ədalət üzərində qurulubdur. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb yaratmışdır. O torpaqlarda yaradılan tarixi abidələrimiz bir daha onu göstərir ki, bu bizim tarixi, əzəli torpağımızdır. Nəinki Dağlıq Qarabağ bizimdir, hətta bugünkü Ermənistan tarixi Azərbaycan torpaqları üzərində qurulubdur. Biz hamımız bunu yaxşı bilirik. Dünya da bunu artıq bilir. İrəvan xanlığı, Göyçə, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır və biz azərbaycanlılar o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq.

Bugünkü dünyada güc amili əsas rol oynayır. «Kim güclüdür, o da haqlıdır» prinsipi əsas prinsipdir. Bu reallıqdır. Biz real dünyada yaşayırıq. Əlbəttə, beynəlxalq davranış qaydaları, beynəlxalq hüquq normaları var və beynəlxalq təşkilatlar fəaliyyət göstərir. Ancaq biz bu fəaliyyətin konkret nəticələrini görmürük. Bir daha qeyd etmək istəyirəm ki, bir çox hallarda dövlətimizə, xalqımıza qarşı ədalətsizlik görürük. Necə olur ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrı bəzi hallarda saatlar içində icra edilir, bizə gəldikdə isə 20 il keçibdir, bu qətnamələr kağız üzərində qalır?! Bu ədalətsizlikdir, ikili standartlardır. Ancaq yenə də demək istəyirəm, biz real vəziyyəti çox düzgün təhlil edərək, bir daha qərara gəlirik ki, yalnız iqtisadi gücümüzə, hərbi gücümüzə, Azərbaycan xalqının istedadına arxalanmalıyıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur, nə Azərbaycan xalqı, nə də Azərbaycan dövləti heç bir başqa varianta razı ola bilməz. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Baxmayaraq ki, qeyd etdiyim kimi, bugünkü Ermənistan ərazisi bizim tarixi torpağımızdır. Ancaq biz öz torpağımızı heç kimə verməyəcəyik və heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz münaqişəni tezliklə, ədalətli və öz xeyrimizə həll etmək üçün daha da güclü olmalıyıq. Biz güclü dövlət qururuq. Bu gün Azərbaycan dünya miqyasında qüdrətli dövlət kimi tanınır.

Baxın, bütün bölgələrdə, bütün regionlarda qanlı toqquşmalar, münaqişələr, vətəndaş müharibələri, siyasi və iqtisadi böhranlar hökm sürür. Azərbaycan isə inkişaf, sanki bir sabitlik adasıdır. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və müstəqil siyasətimiz bizim bütün uğurlarımızın əsas şərtidir. Biz güclü iqtisadiyyat qurmuşuq və bu gün iqtisadi inkişaf baxımından heç bir ölkə Azərbaycan ilə müqayisə oluna bilməz. Son 10 il ərzində bizdə olan iqtisadi inkişaf templəri heç bir başqa ölkədə olmamışdır. Bu gün Azərbaycan uğurlu iqtisadi inkişafını davam etdirir. Bu bizə imkan verir ki, müstəqil siyasət aparaq. Əgər bizim iqtisadiyyatımız başqa ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə institutlarından asılı olsaydı, əlbəttə, başqa ölkələrin iradəsini bizə diktə edə bilərdilər. Bu gün heç bir kənar qüvvə bizə öz iradəsini diktə edə bilməz. Əgər belə cəhdlər olursa, biz bu cəhdlərin qarşısını qətiyyətlə alırıq. Azərbaycan dövləti öz yolu ilə gedir. Bu yol müstəqillik və inkişaf yoludur. Azərbaycan xalqı öz taleyinin sahibidir. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz, bizi inkişaf yolundan döndərə bilməz. Ona görə ki, iqtisadi inkişaf bizim uğurlu inkişafımızın, müstəqilliyimizin əsas təminatçısıdır.

Təmas xəttindəki vəziyyətlə hərbçilər yaxından tanışdırlar. Azərbaycan ictimaiyyəti də bunu bilir. Deyə bilərəm ki, son 1 il ərzində Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü əldə edibdir. Keçən ilin yayında Ermənistan təmas xəttində təxribat törətməyə cəhd göstərdi. Ancaq bu təxribatın qarşısı layiqincə alındı, düşmən yerinə oturduldu. Bizdə olan məlumata görə, keçən ilin iyul–avqust aylarından bu günə qədər 100-dən çox işğalçı məhv edilib. Bəzi hallarda bizə irad tutulur ki, təmas xəttində gərginlik yaranır, Ermənistan tərəfində çoxsaylı itkilər var. Bizim isə buna cavabımız çox sadədir. Rədd olsunlar bizim torpaqlarımızdan! O zaman münaqişə öz həllini tapar, sülh yarana bilər. Ermənistan tərəfinə bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm – əgər ölmək istəmirsinizsə, bizim torpaqlarımızdan rədd olun. Bizdə olan məlumata görə, düşmən indi təlaş içindədir. Təmas xəttindəki məğlubiyyətindən sonra bizdən qisas

almağa çalışıb, ancaq o cəhdlər də uğursuz olub. Nə qədər çox təxribat törədəcəklərsə, o qədər də çox itki verəcəklər. Bir daha demək istəyirəm ki, bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.

Əziz hərbçilər, biz 24 ilə yaxındır ki, müstəqillik şəraitində yaşayırıq. Müstəqillik bizim ən böyük sərvətimiz, ən böyük dəyərimizdir. Əsrlərboyu Azərbaycan xalqı, bizim əcdadlarımız müstəqillik eşqi ilə yaşamışlar. Ancaq bu xoşbəxtlik bizə nəsib olub.

Bu gün müstəqil Azərbaycan dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Azərbaycanda xalqla iqtidar arasındakı birlik ən yüksək səviyyədədir. Azərbaycanda bütün azadlıqlar təmin edilir, demokratik inkişaf sürətlə gedir, iqtisadi potensial, hərbi qüdrətimiz güclənir, gözəl ictimai ab-hava var. Azərbaycan doğrudan da nümunəvi bir ölkədir və bütün bu uğurların başlıca səbəbi müstəqillikdir.

Bizim əvvəllər də enerji resurslarımız var idi. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan nefti dünya neftinin 50 faizini təşkil edirdi. Ancaq o sərvət, o nəticələr harada idi?! Çünki o resurslar bizə məxsus deyildi. Ancaq müstəqillik illərində biz böyük nəticələrə nail ola bilmişik.

Bizim xalqımız azaddır, müstəqildir. Biz öz həyatımızı özümüz qururuq, heç kimdən asılı deyilik. Bizim müstəqilliyimiz sadəcə olaraq, dövlət atributları ilə ölçülmür. Biz müstəqil siyasət aparırıq, bütün beynəlxalq tribunalardan sözümüzü deyirik, bütün beynəlxalq məsələlərlə bağlı qətiyyətli mövqemizi ifadə edirik. Bəzi hallarda bu bizi istəməyən xarici qüvvələri, dairələri qıcıqlandırır. Ancaq mənim üçün bunun heç bir əhəmiyyəti yoxdur. Əsas məsələ Azərbaycan xalqının təhlükəsizliyi, rifahı, Azərbaycan dövlətinin inkişafı və güclənməsidir.

Bu gün müstəqil Azərbaycan uğurla, inamla inkişaf edir. Biz böyük uğurlara imza atmışıq. Ancaq bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdən ibarətdir. Mən əminəm ki, güclənən Azərbaycan buna da nail olacaq və bizim milli bayrağımız Şuşada, Xankəndidə qaldırılacaqdır. Hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə yaxınlaşdırmalıdır.

Əziz hərbçilər, sizi qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

* * *

*Sonra dövlətimizin başçısı «N» saylı hərbi hissənin əsgər yataqxanasında olmuşdur. Hərbi hissənin şəxsi heyəti üçün yataqxanalar inşa olunub. Üçmərtəbəli binalarda əsgər və zabitlərin qalması, onların istirahəti, asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün bütün zəruri şərait yaradılıb. Əsgər yataqxanalarında, həmçinin lazımi hərbi-texniki vəsaitlərlə təchiz edilmiş sinif otaqları vardır. Buradakı şərait bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca, hərbi sahənin daha da müasirləşdirilməsi, əsgər və zabitlərin xidmət şəraitlərinin daha da yaxşılaşdırılması, onların hərbin sirlərinə daha dərindən yiyələnməsi istiqamətində mühüm layihələr yerinə yetirilir.*

*Ali Baş Komandana «Bəbir-2» zirehli nəqliyyat vasitəsi barədə məlumat verildi. Avtomatik sürətlər qutusu, hidravlik sükan mexanizmi ilə təchiz edilən bu zirehli maşın Azərbaycan istehsalıdır. İstənilən döyüş tapşırığını yerinə yetirə bilən bu zirehli nəqliyyat vasitəsi döyüş zamanı təbii və süni maneələri asanlıqla dəf edə bilir.*

*Dövlətimizin başçısı Hərbi Dəniz Qüvvələrinin poliklinikasındakı şəraitə baxdı. Poliklinika binasının foyesində ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin əsgər və zabitlərlə görüşlərini əks etdirən fotolar sərgilənir. Burada əsgər və zabitlərin həm müayinəsini, həm də müalicəsini həyata keçirmək mümkündür. Poliklinikada 11 funksional bölmə və 4*

*funksional kabinet yaradılıb. Buradakı oftalmoloq, fizioterapiya, nevropatoloq, LOR, stomatoloq, cərrah, terapevt, ultrasəslə müayinə, dermatoloq və rentgen otaqları tibbin müasir texniki avadanlığı ilə təchiz edilib. Poliklinikada, həmçinin biokimyəvi, kimyəvi və seroloji müayinələrin aparılacağı laboratoriya, prosedur otaqları, əczaxana, yeməkxana yaradılıb. Bu tibb müəssisəsində 32 çarpayılıq 7 palata da var. Palatalardakı şərait hərbçilərin müalicə proseslərini yüksək səviyyədə aparmağa geniş imkan verir.*

*Qaradağ rayonunun Puta qəsəbəsində ayrılan 254,5 hektar torpaq sahəsində Hərbi Dəniz Qüvvələri və «N» saylı hərbi hissə üçün qərargah binaları, 2 xidməti yaşayış binası, 10 sahilyanı matros yataqxanası, əsgər yeməkxanaları, nəzarət-buraxılış məntəqələri, qazanxana-camaşırxana-hamam kompleksi, gəmilərin yan alması üçün körpülər, anqar tipli avtomobil dayanacaqları yaradılıb.*

*Gəmilərin yanalma körpüsünə gələn prezident İlham Əliyev Hərbi Dəniz Qüvvələrinin idarəetmə gəmisinə baxdı. Gəmidə şəxsi heyətin yaşaması, istirahət və xidmət etməsi üçün zəruri şərait yaradılıb. Gəmidəki qurğular şəxsi heyətin qarşısına qoyulmuş döyüş və əməliyyat tapşırıqlarının yerinə yetirilməsində yüksək nəticələrə nail olmaq imkanı yaradır.*

*Dövlətimizin başçısına gəminin baş komanda məntəqəsi haqqında məlumat verildi.*

*Bildirildi ki, baş komanda məntəqəsi gəminin idarə edilməsini, dənizdə üzmə zamanı naviqasiya və məhdud görünmə şəraitində təhlükəsizliyini təmin edir. Bütün silah və texniki vasitələrin idarə edilməsi, döyüş və atəş tapşırıqlarının yerinə yetirilməsi də buradan həyata keçirilir. Gəminin hərəkətə gətirilməsi və istiqamətinin tənzimlənməsi üçün baş mühərriklərin və sükanın idarə edilməsi məqsədilə burada ən son texnoloji avadanlıqlar quraşdırılıb. Bütün cihazların təyin etdiyi göstəricilər elektron xəritədə əks olunur.*

*Hərbi hissədə tikintinin ikinci mərhələsində gəmilərə və avtomobillərə texniki qulluq və təmir sahələri, əlavə yanalma*

*körpüləri, anbar sahələri, zabitlər evi, uşaq bağçası və məktəb binaları, klub və idman şəhərciyinin inşası nəzərdə tutulub.*

*Sonra Ali Baş Komandan Hərbi Dəniz Qüvvələrinin «N» saylı hərbi hissəsinin qərargahı və matros yataqxanasında yaradılan şəraitlə tanış oldu. Bu bina hərbi hissə qərargahının fəaliyyəti və matrosların yaşaması üçün nəzərdə tutulub. Burada hər biri 8 nəfərlik olmaqla, 4 otaq var. Otaqlarda hərbçilərin yatması, istirahət etməsi və asudə vaxtlarını səmərəli keçirməsi üçün bütün imkanlar yaradılıb. Məişət xidməti və sinif otaqları, kompüter zalı əsgərlərin ixtiyarına veriləcək.*

*Prezident İlham Əliyevə Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti üçün inşa edilən yaşayış binaları barədə də məlumat verildi. Ərazidə beşmərtəbəli 2 bina inşa olunub. 5 blokdan ibarət binaların hər birində üçotaqlı 50 mənzil var. Bütün zəruri avadanlıqlarla təchiz olunan mənzillərin hər birinin ümumi sahəsi 110 kvadratmetrdən artıqdır. Binaların ikisi də mərkəzləşdirilmiş havalandırma sistemi ilə təmin olunub. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, istirahət guşələri yaradılıb.*

*Daha sonra dövlətimizin başçısı «N» saylı hərbi hissənin qazanxana-camaşırxana-hamam kompleksindəki şəraitlə tanış oldu. Bu kompleks də müasir səviyyədə yaradılıb.*

*«N» saylı hərbi hissənin yeməkxanası ilə tanışlıq zamanı Ali Baş Komandana səhra şəraitində yemək hazırlamaq məqsədilə soba, şəxsi heyət üçün səhra şəraitində suyun qaynadılması, yeməklərin və çörəyin hazırlanması, hazır yeməklərin daşınması üçün xüsusi qablar və soyuducular, həmçinin son dövrlərdə əsgərlərin yemək rasionuna edilən əlavələr barədə də məlumat verildi. Bildirildi ki, yeməkxanada eyni vaxtda 3 min nəfər qidalana bilər.*

*Prezident İlham Əliyev çörək sexinə də baxdı. Məlumat verildi ki, bu sex hərbi hissənin şəxsi heyətinin çörəyə olan tələbatını tam ödəyir.*

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*25 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Latviya Respublikasının sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri xanım Vayra Vike-Freyberqanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi, göstərdiyi fəaliyyəti ilə bağlı Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqanın Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeninə layiq görüldüyünü dedi və ona ordeni təqdim etdi.*

*Latviyanın sabiq prezidenti xanım Vayra Vike-Freyberqa Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeninə layiq görülməsinə görə minnətdarlığını bildirdi və bundan şərəf hissi keçirdiyini vurğuladı. Vayra Vike-Freyberqa bundan sonra da Azərbaycanın ədalətli mövqeyini müdafiə edəcəyini dedi. Latviyanın sabiq prezidenti ölkəmizdə həyata keçirilən abadlıq və quruculuq işlərinə toxunaraq paytaxtımızda qədim və müasir arxitektura ənənələrinin çox gözəl ahəngdarlıq təşkil etdiyini bildirdi.*

*Görüşdə Azərbaycana qarşı bəzi beynəlxalq təşkilatlar tərəfindən qeyri-obyektiv mövqenin nümayiş etdirilməsinin yolverilməz olduğu qeyd edildi.*

*Söhbət zamanı I Avropa oyunlarının yüksək səviyyədə təşkil olunduğu vurğulandı, Azərbaycanın beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə verdiyi töhfə yüksək qiymətləndirildi, ölkəmizdə gedən böyük inkişaf proseslərinin önəmi qeyd olundu, Azərbaycan–Latviya ikitərəfli münasibətlərinin inkişafından məmnunluq ifadə edildi.*

## BOKSÇU TEYMUR MƏMMƏDOVA QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*«Baku Crystal Hall»*

*25 iyun 2015-ci il*

*I Avropa oyunları çərçivəsində boks üzrə yarışlar keçirilmişdir. Azərbaycan boksçularının uğurla çıxış etdiyi yarışlarda Teymur Məmmədov iyunun 25-də ölkəmizin aktivinə daha bir qızıl medal yazmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri idmançımızın final qarşılaşmasını izləmişlər.*

*Final mərhələsində kişilər arasında 81 kiloqram çəki dərəcəsində italiyalı Valentino Manfredonia ilə qarşılaşan Teymur Məmmədov rəqibinə 3:0 hesabı ilə qalib gələrək, I Avropa oyunlarının çempionu oldu. Buna qədər görüşdüyü rəqiblərinə heç bir şans verməyən London Olimpiya oyunlarının bürünc mükafatçısı, Avropa çempionu və dünya ikincisi olan Teymur Məmmədov yarımfinalda rusiyalı Pavel Silyagini 3:0 hesabı ilə məğlub etdi.*

*Final görüşündən sonra mükafatlandırma mərasimi oldu, dövlətimizin başçısı İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Beləliklə, bu görüşdən sonra Azərbaycanın hesabında 15 qızıl, 11 gümüş və 17 bürünc medal vardır.*

## I AVROPA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏ QADIN VOLEYBOLÇULARININ YARIMFİNAL OYUNUNA BAXIŞ

*25 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri iyunun 25-də qadın voleybolçuların yarımfinal oyunlarını izləmişlər.*

*Azərbaycan yığması yarımfinalda Türkiyə millisi ilə qarşılaşmışdır.*

*Qarşılaşmanın birinci setində Türkiyə yığması qalib gəldi: 25:21. İkinci setdə 25:23 hesabı ilə üstün olan yığmamızın üzvləri üçüncü setdə qələbəni Türkiyə voleybolçularına verdilər: 25:19. Dördüncü setdə yenidən 25:23 hesabı ilə qalib gələn voleybolçularımız taybrekdə 11:15 hesabı ilə məğlub oldular. Beləliklə, Azərbaycan millisi Avropa oyunlarında qadın voleybolçuların yarışında 3-cü yer uğrunda mübarizə aparacaq.*

*Xatırladaq ki, ilk qarşılaşmada Rumıniya millisini 3:0 hesabı ilə məğlub edən voleybolçularımız İtaliya komandasından da 3:1 hesabı ilə üstün oldular. Sonra Belçika voleybolçularını 3:2 hesabı ilə məğlubiyyətə uğradan Azərbaycan yığması dörddəbir finalda Hollandiya millisini də 3:0 hesabı ilə məğlub edə bildi.*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ İSMAİL SERAGELDİN İLƏ GÖRÜŞ

*26 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, İsgəndəriyyə kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi, göstərdiyi fəaliyyəti ilə bağlı İsgəndəriyyə kitabxanasının direktoru İsmail Serageldinin Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeninə layiq görüldüyünü dedi və ordeni ona təqdim etdi.*

*İsgəndəriyyə kitabxanasının direktoru İsmail Serageldin «Dostluq» ordeninə layiq görülməsinə görə minnətdarlığını ifadə etdi və bundan böyük şərəf hissi duyduğunu dedi. Nizami Gəncəvini Azərbaycanın bəşəriyyətə töhfəsi kimi dəyərləndirən qonaq İsgəndəriyyə kitabxanasının Nizami Gəncəvi ilə bağlı ərəb dilində mükəmməl bir kitab hazırladığını dedi və kitabın ilk nüsxəsini prezident İlham Əliyevə təqdim etdi. İsmail Serageldin bildirdi ki, mərkəzin məqsədi təkcə böyük siyasətçilərin görüşlərini təşkil etməkdən ibarət deyil. Əsas məqsəd həm də istənilən şəxsin dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi haqqında biliklər əldə etməsinə imkan yaratmaqdan ibarətdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi, İsmail Serageldinin fəaliyyətini yüksək qiymətləndirdi, mərkəzin artıq böyük beynəlxalq instituta çevrilməsinin önəmini qeyd etdi.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin gələcək fəaliyyəti ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DAHA İKİ BOKSÇUMUZA QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*«Baku Crystal Hall»*

*26 iyun 2015-ci il*

*I Avropa oyunlarının boks yarışlarında Azərbaycanın aktivinə daha 2 qızıl medal yazılıb. İyunun 26-da boksçularımız Elvin Məmişzadə və Kollazo Sotomayor I Avropa oyunlarının çempionları olmuşlar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri idmançılarımızın final qarşılaşmasını izləmişlər.*

*I Avropa oyunlarının 15-ci günündə «Baku Crystal Hall»da 10 çəki dərəcəsində boks döyüşləri keçirildi. Yarışlarda 52 kiloqram çəki dərəcəsində Azərbaycanı təmsil edən Elvin Məmişzadə uğurlu çıxışı ilə yadda qaldı. Əvvəlcə yarımfinalda Almaniya idmançısına 3:0 hesabı ilə qalib gələrək, finala vəsiqə qazanan Elvin Məmişzadə həlledici görüşdə çempionluq adı uğrunda italiyalı Vinçenzo Pikardi ilə döyüşdü. Elvin Məmişzadə bu qarşılaşmada 3:0 hesabı ilə qalib gələrək, I Avropa oyunlarının çempionu oldu.*

*Sonra mükafatlandırma mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*İlk Avropa oyunlarının çempionu Elvin Məmişzadənin şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Həmin gün kişilər arasında 64 kiloqram çəki dərəcəsində Azərbaycan təmsilçisi Kollazo Sotomayor da fərqləndi. Bundan*

*əvvəlki bütün görüşlərində qalib gələn idmançımız finalda İtaliya təmsilçisi Vinçenzo Mangiakapre ilə qarşılaşdı. Kollazo Sotomayor bu görüşü 3:0 hesabı ilə qalib olaraq başa vurdu və I Avropa oyunlarının çempionu oldu.*

*Sonra mükafatlandırma mərasimi oldu. Azərbaycan prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*Qalib idmançının şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

## PARALİMPİYAÇI CÜDOÇU İLHAM ZƏKİYEVƏ QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*26 iyun 2015-ci il*

*I Avropa oyunlarında paralimpiyaçı cüdoçular mübarizəyə qoşulmuşlar. Yarışların favoriti İlham Zəkiyev iyunun 26-da yenə də xalqımıza qələbə sevinci yaşatmış, Azərbaycana daha bir qızıl medal qazandırmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri idmançımızın final oyununu izləmişlər.*

*I Avropa oyunlarında paralimpiyaçı cüdoçuların mübarizəsində Azərbaycan 3 idmançı ilə təmsil olunurdu. 90 kiloqram çəki dərəcəsində yığmamızın lideri İlham Zəkiyev I Avropa oyunlarında mübarizəyə yarımfinaldan başladı. Paralimpiya oyunlarının qalibi, «Bakı–2015»in məşəlçisi finala gedən yolda yunanıstanlı Klimis Papaçristosla üz-üzə gəldi. İlham Zəkiyev bu mərhələni «ipponla» qalib gələrək, cəmi 27 saniyəyə adladı və finala çıxdı. Qızıl medal uğrunda Ukrayna idmançısı Aleksandr Pominovla mübarizə aparan İlham Zəkiyev bu qarşılaşmadan da qalib ayrıldı və I Avropa oyunlarının çempionu adını qazandı.*

*Sonra mükafatlandırma mərasimi oldu. Azərbaycan prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*İlk Avropa oyunlarının çempionu İlham Zəkiyevin şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

## AZƏRBAYCAN PREZİDENTİNƏ ALİ PARALİMPİYA MÜKAFATI VƏ BEYNƏLXALQ PARALİMPİYA KOMİTƏSİNİN XÜSUSİ HƏDİYYƏSİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*26 iyun 2015-ci il*

*Beynəlxalq Paralimpiya Komitəsinin vitse-prezidenti, Braziliya Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons iyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ali paralimpiya mükafatını və Beynəlxalq Paralimpiya Komitəsinin xüsusi hədiyyəsini təqdim etmişdir.*

*Ali paralimpiya mükafatı ancaq beynəlxalq səviyyədə olimpiya hərəkatının və idmanın inkişafında xüsusi xidmətləri olan dövlət başçılarına verilir. Bu baxımdan həmin mükafat böyük önəm daşıyır. İndiyədək yalnız 12 dövlət başçısının ali paralimpiya mükafatına layiq görülməsi bunun əyani təsdiqidir.*

**Endrü Parsons:** Cənab Prezident, Azərbaycanda paralimpiya hərəkatına dəstək göstərdiyiniz üçün Beynəlxalq Paralimpiya Komitəsi adından Sizə «Şərəf» medalını təqdim etmək istəyirəm. Bizim prezident şəxsən özü bu medalı Sizə təqdim etmək istəyirdi. Lakin əfsuslar olsun ki, səhhəti ilə bağlı kiçik problemlər yaşandığından bunu edə bilmədi. «Şərəf» medalı paralimpiya hərəkatına dəstək göstərdiklərini qiymətləndirmək üçün yalnız dövlət başçılarına verilir və bu hərəkata göstərdiyiniz dəstəyə görə Sizə təqdim olunur.

*Endrü Parsons «Şərəf» medalını Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

**İlham Əliyev:** Çox sağ olun! Təşəkkür edirəm!

**Endrü Parsons:** Mən Sizə, həmçinin kitab təqdim etmək istəyirəm. Biz bu yaxınlarda Beynəlxalq Paralimpiya Ko-

mitəsinin 25 illiyini qeyd etmişik. Bu kitabda ən önəmli 25 məqam əks olunub və prezidentimizin də Sizə xüsusi müraciəti var. O burada Sizinlə bir yerdə ola bilmədiyindən təəssüf hissi keçirdiyini bildirib və məndən bu kitabı şəxsən Sizə təqdim etməyi xahiş edib.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Cənab prezidentə kitab və mükafata görə mənim minnətdarlığımı çatdırın. Belə bir medala layiq görülmək mənim üçün böyük şərəfdir. Bizim paralimpiya hərəkatına göstərdiyiniz dəstək üçün sizə təşəkkürümü bildirirəm. Biz öz paralimpiyaçılarımıza ən yaxşı şəraiti yaratmaq üçün əlimizdən gələni edirik. Elə indicə məşhur, əfsanəvi paralimpiyaçımız İlham Zəkiyev qızıl medal qazandı.

**E n d r ü P a r s o n s:** Təbriklər!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Yəqin siz də bilirsiniz ki, məşəli stadiona o gətirdi. Minlərlə idmançı və məşhur insanlar bütün Azərbaycanı məşəllə dolaşdılar. Məşəli stadiona gətirəcək şəxs olaraq onu seçdilər. Bu da onun idmana sadiqliyinin və dövlətimizin, insanlarımızın paralimpiya hərəkatına verdiyi qiymətin təzahürüdür.

*Yeddinci dəfədir Azərbaycanda səfərdə olduğunu bildirən Endrü Parsons ölkəmizdə paralimpiyanın inkişafının xüsusi diqqət mərkəzində olduğunu vurğuladı. Həmçinin Azərbaycanın Braziliya Paralimpiya Komitəsi ilə də uğurlu əməkdaşlıq etdiyini və bu sahədə əlaqələrin genişləndirilməsi üçün yeni müvafiq sənədlər imzalandığını qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda idman infrastrukturunun inkişafı üçün kompleks işlər aparıldığını və bir neçə il əvvəl Sumqayıtda paralimpiyaçılar üçün təlim mərkəzinin də istifadəyə verildiyini dedi. Dövlətimizin başçısı Azərbaycan paralimpiyaçılarının mütəmadi uğurlar qazandıqlarını qeyd etdi.*

*Endrü Parsons Azərbaycan prezidenti İlham Əliyevi Rio-de-Janeyroda həm Olimpiya, həm də paralimpiya oyunlarında görmək arzusunu çatdırdı.*

## LİXTENŞTEYN PARLAMENTİNİN SƏDRİ ALBERT FRİK İLƏ GÖRÜŞ

*27 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Lixtenşteyn parlamentinin Sədri Albert Friki qəbul etmişdir.*

*I Avropa oyunlarının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısını təbrik edən Lixtenşteyn parlamentinin Sədri Albert Frik bütün iştirakçılara, o cümlədən Lixtenşteyn idmançılarına yaradılan şəraitə görə minnətdarlığını ifadə etdi. Albert Frik ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrin genişləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğuladı. Azərbaycanda və Lixtenşteyndə mövcud olan siyasi və iqtisadi sabitliyin önəmini qeyd edən qonaq iqtisadi və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu dedi.*

*I Avropa oyunlarının əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu oyunları Avropanın idman tarixində böyük hadisə kimi dəyərləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, beynəlxalq Olimpiya Komitəsinin üzvləri və bütün qonaqlar I Avropa oyunlarının yüksək səviyyədə təşkil edildiyini və bu oyunların Yay Olimpiya oyunları səviyyəsində olduğunu bildirirlər.*

*Dövlətimizin başçısı Azərbaycanın Lixtenşteyn ilə ikitərəfli münasibətləri genişləndirməkdə maraqlı olduğunu dedi. Ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, sərmayə qoyuluşu, parlamentlərarası əlaqələr və digər sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayan prezident İlham Əliyev əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi və nəzərdən keçirilməsinin önəmini qeyd etdi.*

## AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinin tərkibinə Avropa Olimpiya Komitəsinin vitse-prezidenti Janez Kosijançiç, Avropa Olimpiya Komitəsinin baş katibi Raffaele Pagnozzi, Avropa Olimpiya Komitəsinin koordinasiya komissiyasının sədri Spiros Kapralos daxildir.*

*Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki I Avropa oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsinə görə dövlətimizin başçısına təşəkkürlərini çatdırdı. O dedi: «Dünən Sizin paralimpiyaçı cüdoçu İlham Zəkiyevə qızıl medalı təqdim etməyiniz və onunla birlikdə fəxri kürsüdə durmağınız möhtəşəm və həyəcanlı anlar idi. Bu görüntülər bütün dünyada çox böyük maraqla izlənildi».*

*Xoş sözlərə görə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkiyə dərin minnətdarlığını bildirən dövlətimizin başçısı həqiqətən də İlham Zəkiyevə qızıl medalın təqdim edilməsi mərasiminin bütün Azərbaycan xalqı və eləcə də idmançılar üçün çox təsirli məqam olduğunu vurğuladı. İlham Zəkiyevin cəsurluq, ləyaqət simvolu olduğunu qeyd edən dövlətimizin başçısı ona medalın məhz Azərbaycanın Silahlı Qüvvələr Günündə təqdim edilməsinin çox rəmzi və əlamətdar xarakter daşıdığını bildirdi. «O məni fəxri kürsüyə dəvət etdi və mən böyük məmnunluqla bunu etdim» – deyən prezident İlham Əliyev həmin anların unudulmaz olduğunu bildirdi.*

*Prezident İlham Əliyev nümayəndə heyətinin üzvlərinə Azərbaycanda idmanın inkişafına, I Avropa oyunlarının təşkilində*

göstərdiyi xidmətlərə görə və şəxsən Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkiyə bu işlərdə böyük əməyinə görə səmimi-qəlbdən minnətdarlığını bildirdi. Avropa oyunlarının Azərbaycanda keçirilməsini Avropa olimpiya ailəsinin və şəxsən Patrik Hikkinin Azərbaycana olan inamının ifadəsi kimi dəyərləndirən prezident İlham Əliyev ölkəmizin bu etimadı layiqli şəkildə doğrultmaq üçün səylərini əsirgəmədiyini qeyd etdi.

Prezident İlham Əliyev Avropa Olimpiya Komitəsinin koordinasiya komissiyasının sədri Spiros Kapralosun və Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin bütün üzvlərinin möhtəşəm, unudulmaz ilk Avropa oyunlarının keçirilməsi işindəki xidmətlərini yüksək qiymətləndirdi.

Avropa Olimpiya Komitəsinin vitse-prezidenti Janez Kosijançiç dedi: «Çox sağ olun, cənab Prezident! Avropa oyunlarının təşkilindəki xidmətlərinizə görə çox minnətdarıq. Xalqınızın əməyini, xüsusilə də gənclərin fəaliyyətini yüksək qiymətləndiririk. Biz hamımız bilirik ki, Azərbaycan «odlar ölkəsi», Bakı «küləklər şəhəri»dir. Lakin mən buraya «gülərüzlü insanlar ölkəsi» ifadəsini də əlavə etmək istərdim. Bütün həyatım boyu bu qədər gülərüzlü gənc insan görməmişdim. Onların dostcasına münasibətinin və ruh yüksəkliyinin şahidi olduq. Dünən İlham Zəkiyevə medalın təqdimetmə mərasimində onun Azərbaycanın Dövlət himninin sözlərini oxuması bizi çox təsirləndirdi. O, əsl vətənpərvərdir. Biz insanlarınızın və şəxsən Sizin I Avropa oyunlarının təşkili işinə verdiyiniz dəstəkdən şərəf hissi duyuruq».

Dövlətimizin başçısı həqiqətən də bu oyunların təşkili və keçirilməsində xalqımızın əməyinin, xüsusilə də gənc könüllülərin peşəkarlığının və yüksək əhval-ruhiyyəsinin onda da böyük təəssürat yaratdığını dedi. Prezident İlham Əliyev bir daha Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkiyə və nümayəndə heyətinin üzvlərinə xoş sözlərə görə minnətdarlığını bildirdi.

## SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALA İLƏ GÖRÜŞ

*27 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Sosialist İnternasionalının baş katibi Luis Ayalanı qəbul etmişdir.*

*Sosialist İnternasionalının baş katibi Luis Ayala ölkəmizdə I Avropa oyunlarının yüksək səviyyədə təşkil olunduğunu və yarışların dünyada maraqla izlənildiyini vurğuladı. O, Azərbaycan idmançılarının çoxlu medal qazanmalarının önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı bu mötəbər idman yarışında Avropanın 50 olimpiya komitəsinin, 6 minə yaxın idmançının və xeyli sayda qonaqların iştirakının əhəmiyyətini vurğuladı.*

*Görüşdə I Avropa oyunlarının xalqlar arasında əlaqələrin genişləndirilməsi işinə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu, Azərbaycan–Sosialist İnternasionalı əməkdaşlığının perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## I AVROPA OYUNLARININ BOKS YARIŞLARINDA QALİB GƏLƏN İDMANÇILARIMIZA QIZIL MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*«Baku Crystal Hall»*

*27 iyun 2015-ci il*

*I Avropa oyunlarının kişilər arasında boks yarışlarında iyunun 27-də Azərbaycanın aktivinə daha 3 qızıl medal yazıldı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri idmançılarımızın final qarşılaşmalarını izləmişlər.*

*«Baku Crystal Hall»da 60 kiloqram çəki dərəcəsində Azərbaycan boksçusu Albert Səlimov final qarşılaşmasına çıxdı. Bundan əvvəl yarımfinalda qalib gələrək, Rio Olimpiadasına lisenziyanı təmin edən Albert Səlimov həlledici görüşdə Fransa təmsilçisi ilə qüvvəsini sınadı. Gərgin keçən mübarizədə qalib gələn Albert Səlimov I Avropa oyunlarının çempionu oldu, öz uğurlu qələbəsi ilə ölkəmizin aktivinə daha bir qızıl medal yazdı.*

*Sonra mükafatlandırma mərasimi oldu, qalib idmançılara medalları prezident İlham Əliyev təqdim etdi.*

*«Bakı–2015» ilk Avropa oyunlarının çempionu Albert Səlimovun şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Sonra 69 kiloqram çəkidə Pərviz Bağırov həlledici görüşə çıxdı. İdmançımız bundan əvvəl yarımfinalda britaniyalı rəqibinə 3:0 hesabı ilə qalib gəldi. Finalda rusiyalı Aleksandr Besputinlə üz-üzə gələn Pərviz Bağırov bu qarşılaşmadan da qalib ayrıldı və I Avropa oyunlarını qələbə ilə başa vurdu.*

*Sonra mükafatlandırma mərasimi oldu.*

*Prezident İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.*

*Qalib idmançımızın şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Azərbaycan boksçusu Abdulqadir Abdullayev isə 91 kiloqram çəki dərəcəsində finala vəsiqə qazandı. Onun rəqibi zədəli olduğundan final görüşünə çıxmadı, buna görə də Abdulqadir Abdullayev avtomatik qalib elan olundu və I Avropa oyunlarını çempion kimi başa vurdu.*

*Mükafatlandırma mərasimində prezident İlham Əliyev medalları qalib idmançılara təqdim etdi.*

*Azərbaycan idmançısının şərəfinə Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.*

*Azərbaycan yığmasının daha bir üzvü – Xaybula Musalov isə 75 kiloqram çəki dərəcəsində finalda iştirak etmək hüququ qazandı. Lakin İrlandiya boksçusuna qalib gələ bilmədi və I Avropa oyunlarının gümüş mükafatçısı oldu.*

*Beləliklə, I Avropa oyunlarının boks yarışlarının son günündə Azərbaycan idmançıları 3 qızıl, 1 gümüş medal qazandılar.*

# BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEVİN AZƏRBAYCANA SƏFƏRİ

*28 iyun 2015-ci il*

*Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev I Avropa oyunlarının bağlanışı mərasimində iştirak etmək üçün iyunun 28-də Azərbaycana səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda prezident Rosen Plevnelievi Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.*

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*28 iyun 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də I Avropa oyunlarının bağlanışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevnelievi qəbul etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Bolqarıstan prezidenti Rosen Plevnelievi qarşıladı.*

*Görüşdə Bakıda keçirilən I Avropa oyunlarının əhəmiyyəti qeyd olundu. Bolqarıstan prezidenti Rosen Plevneliev tarixdə ilk dəfə baş tutan I Avropa oyunlarının uğurla keçirilməsi münasibətilə prezident İlham Əliyevi təbrik etdi, oyunların yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına bolqar xalqının təşəkkürünü çatdırdı. Rosen Plevneliev onilliklər ərzində ideya kimi qalan ilk Avropa oyunlarının keçirilməsi ilə bağlı Azərbaycanın tarix yazdığını dedi. Bolqar idmançılarının Bakıda onlar üçün yaradılan şəraitdən heyran olduqlarını, bu şəraiti heç bir yerdə görmədiklərini deyən Bolqarıstan dövlətinin başçısı idmançıların yaşayış yerlərinin, idman infrastrukturunun çox yüksək səviyyədə olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev bir vaxtlar Avropa oyunları ideyasına pessimist yanaşıldığını, standartları mövcud olmayan belə oyunların lazımsızlığı barədə düşünənlərin olduğunu bildirdi. «Biz qərara gəldik ki, bu oyunların standartı mümkün qədər yüksək olsun. İndi isə hər kəs görür ki, bu standartlar Yay Olimpiya standartlarıdır» – deyən dövlətimizin başçısı I Avropa oyunlarının bəzi parametrlərə görə hətta Yay Olimpiya oyunlarından daha da yüksəkdə dayandığını diqqətə çatdırdı. Azər-*

*baycan Prezidenti digər ölkələrin nümayəndə heyətlərinin də I Avropa oyunlarının yüksək səviyyədə təşkil edildiyini bildirdiklərini vurğuladı.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olundu. Əlaqələrimizin siyasi, iqtisadi, energetika, səhiyyə və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

## «BAKI–2015» I AVROPA OYUNLARININ MÖHTƏŞƏM BAĞLANIŞI MƏRASİMİ

*Bakı Olimpiya stadionu*

*28 iyun 2015-ci il*

*Son 17 gün ərzində dünya idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 17 gündə tarixdə ilk dəfə keçirilən Avropa oyunlarına layiqincə ev sahibliyi etmişdir. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə idmançını, nümayəndə heyətlərinin üzvlərini, bu oyunları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirmişdir.*

*Möhtəşəm idman bayramı təntənəli bağlanış mərasimi ilə sona çatdı. Mərasimin keçirildiyi Bakı Olimpiya stadionu isə yenə də izdihamlı idi. Bağlanış mərasiminə olan hədsiz maraq oyunların böyük uğurundan xəbər verirdi. İdman mütəxəssisləri, analitiklər hesab edirlər ki, «Bakı–2015» gözlənildiyindən, təsəvvür edildiyindən də möhtəşəm alındı. «Bir çox ev sahibliyi edən şəhərlər bu cür tədbirlərə hazırlıq üçün 5–7 il sərf edir. Bakı isə cəmi 30 aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə, Avropa olimpiya hərəkatını şərəfləndirdi» – deyən Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin bu sözləri həqiqətən, qürurvericidir. Onun qeyd etdiyi kimi, iyunun 17 günü möhtəşəm idman bayramı və I Avropa oyunlarına layiq tədbir kimi yadda qaldı.*

*Stadionda hamı öz yerini tutub: mərasimin təşkilatçıları və iştirakçıları da, idmançılar və tamaşaçılar da. Sonuncuların simasından, əhval-ruhiyyəsindən belə məlum olurdu ki, 17 oyun günü, maraqlı və gərgin keçən yarışlar, idmançılarımızın parlaq çıxışı onların ürəyincə olub. Azərbaycan ötən 17 gündə 21 qızıl medal sevinci yaşayıb. Biz bu göstəriciyə görə yalnız*

Rusiyadan geri qalaraq 2-ci yerə çıxmışıq. Avropanın 49 ölkəsindən 48-ni geridə qoyaraq qitə 2-cisi olmaq doğrudan da böyük şərəfdir. İdman həvəskarlarını, Bakı sakinlərini bağlanış mərasiminə gətirən əsas amillərdən biri də bu idi: qələbədən doğan sevinc və iftixar hissləri. Bu hissləri stadiona toplaşan on minlərlə insanın hər birinin simasından oxumaq olardı.

Bakı Olimpiya stadionunda qurulan əsas səhnə açılış mərasimində olduğu kimi, bu dəfə də bənzərsizliyi, genişliyi ilə diqqəti çəkirdi. Əsas və yardımçı səhnələr buta formasında işlənilib və LED diodları ilə işıqlandırılıb. Stadion üzərində ümumi uzunluğu 250 metr, yükgötürmə qabiliyyəti 7,5 ton olan xətlər çəkilib. Mərasimin təşkili üçün 20 ölkədən avadanlıqlar gətirilib, stadionda 800 səsgücləndirici quraşdırılıb. Bir sözlə, təşkilatçılar maraqlı və yaddaqalan bağlanış şousu hazırlayıblar. Bədii rəhbər Ceyms Hedli bağlanış mərasiminin ideya və məzmununu belə ifadə edib: «Mərasim ənənəvi və müasir Azərbaycan mədəniyyətinin vəhdətini nümayiş etdirərək, diqqəti gələcəyə yönəldir. Biz keçmişin müasir dövrü necə formalaşdırdığının və gələcəyə necə təsir göstərdiyinin şahidi oluruq. Müasir dövrün musiqisi, rəqsi, memarlığı milli ənənələrdən qaynaqlanır və yaranan ahəngdarlıq bizi ilhamlandırır. İlk dəfə olaraq Avropa oyunları 50 ölkəni yarış meydanlarında bir araya gətirdi. Bu axşam oyunların uğurunu və idmançıların zəfərini qeyd edirik. Odlar Yurdu Azərbaycan öz alovunu dünya ilə bölüşdü. Onun işığı hamımızın qəlbində yaşayır».

Şounun təşkilində iştirak edən 1600-dən çox könüllünün əksəriyyəti azərbaycanlıdır. Həmçinin 17 müxtəlif ölkədən də könüllülər cəlb olunub. Onlar 400 dəfədən çox məşq ediblər. Mərasimin təşkilinə 28 ölkədən 300 nəfərdən çox yaradıcı heyət və 34 ölkədən müxtəlif sahələrdə ixtisaslaşmış 1000-dək mütəxəssis cəlb olunub.

Bağlanış mərasimi stadionda şeypurların səsləndirilməsi ilə başlandı. Nəzərlər Prezident lojasına yönəldi. Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı,

*Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini, Bolqarıstan prezidenti Rosen Plevnelievi, Rusiya Dövlət Dumasının Sədri Sergey Narışkini, Lixtenşteyn parlamentinin Sədri Albert Friki, Avropa Olimpiya Komitəsinin, Beynəlxalq Olimpiya Komitəsinin nümayəndələrini, Avropa olimpiya ailəsinin üzvlərini hərarətli alqışlarla salamladılar.*

*Azərbaycan müxtəlif rənglərin, insanların, ənənələrin vəhdətindən ibarət zəngin xalça təsiri bağışlayır. Xalçanın ilmələri və naxışları kimi, onların da hər biri fərqlidir. Buna baxmayaraq, fərqlilik onları gözəl bir əsər yaratmaq məramı ətrafında birləşdirir. Yaradıcı heyət «Oyanış» adlandırılan mərasimi məhz bu ideya əsasında qurub. Stadiondakı ekranlarda rəngbərəng xalça ilmələri canlanır. Görkəmli rəssam Faiq Əhmədin bənzərsiz xalçalarının naxışı 10-dan 0-dək rəqəmlərə çevrilir və geriyə sayım başlanır. Sıfır göründüyü an işıq əsas səhnədəki 2 müğənninin üzərinə düşür. Xor onlara qoşularaq Azərbaycanın Dövlət himnini yeni simfonik aranjimanda ifa edir.*

*Azərbaycanın Dövlət bayrağı stadiona gətirilir və Avropa Olimpiya Komitəsinin bayrağının yanında ucaldılır. Bu məqamda idmançılarımızın ilk Avropa oyunlarında qazandıqları qələbələrin şərəfinə Dövlət bayrağımızın 21 dəfə yüksəyə ucaldığını, Dövlət himnimizin səsləndiyini bir daha qürur hissi ilə xatırlayırıq.*

*Mərasimin «Transformasiya» adlanan başlanğıc hissəsi Azərbaycan musiqisi, rəqsi və memarlığının müasirliyin enerjisi və gücü ilə zənginləşdirilmiş ənənələrini tərənnüm edir. Ətrafa xalq musiqisinin sədaları yayılır və ona müasir müğənnilər səs verir. Xalq rəqslərinin və müasir rəqslərin ifaçıları bir-birilərinin ritm və enerjisinə cavab verirlər. Rəqqasələr əsas səhnədə dövrə vurduqca, paltarları ətrafa şəfəq saçaraq gözəl naxışlar yaradır.*

*Səhnədəki 3 nəhəng heykəl fırlandıqca, musiqinin ritmi dəyişir. Açılan hər bir ətəyin uclarından 24 ifaçı tutur. Musiqi rok sintezinə çevrildikdə isə ənənəvi ətəklər müasir parlaq na-*

*xışlara dönür. Bunun ardınca heykəlləri hərəkətə gətirən 128 ifaçı görünür. Səhnədə dövrə vuran yüzlərlə rəqqasə mozaika formasında naxışlar yaradır. Stadionda qurulan «Qız qalası»nın divarları aralanır və tamaşaçının gözü qarşısında Bakının yeni rəmzi olan «Alov qüllələri» canlanır. Bu səhnə müasirliyin keçmişdən qaynaqlandığını əyani şəkildə təcəssüm etdirir.*

*Stadionun ekranlarında qısa film nümayiş olunur. Bu film öz enerjisi, ruh yüksəkliyi və fədakarlıqları ilə ilk Avropa oyunlarının uğurla keçməsinə töhfə verən 12 500 alov qoruyan könüllüyə minnətdarlığın ifadəsidir.*

*Arenada «Çal-oyna» xalq mahnısının melodiyası eşidilir. Azərbaycan Dövlət Uşaq Filarmoniyası xorunun ifa etdiyi bu mahnı 17 gün ərzində qəlbimizi idman ustalığı və cəsarəti ilə fəth edən 6 min atletin şərəfinə səslənən bayram havası təsiri bağışlayır. Mahnının sədaları altında stadiona bayraqdaşıyanlar daxil olurlar. Onlar 2 cərgədə qarşı-qarşıya hərəkət edirlər. Bir cərgənin önündə Olimpiya oyunlarının vətəni Yunanıstanın, digərinin önündə ilk Avropa oyunlarının ev sahibi Azərbaycanın bayraqları dalğalanır. Uşaq xorunun üzvləri sülh və birlik rəmzi olan su zanbaqlarını komandaların bayraqdarlarına verirlər. İdmançılar tribunaların önündən keçirlər. Tamaşaçılar «Bakı–2015»in iştirakçı ölkələrinin nümayəndələrini alqışlayırlar.*

*Təbii ki, Azərbaycan idmançılarının payına daha çox alqış düşür. Bu da təsadüfi deyil. İdmançılarımız I Avropa oyunlarında, sözün əsl mənasında, tarix yazmağa nail oldular. Onlar yarışların 21 qızıl, 15 gümüş və 20 bürünc medalını qazandılar. Bununla da Azərbaycan qitə üzrə 2-ci yeri tutmaqla, idman ölkəsi olduğunu bir daha sübuta yetirdi.*

*İdmançıların birlik və dostluq rəmzinə çevrilən nümayişi başa çatdı. Onlar stadionda dövrə vurub tribunalarda yerlərini tutdular.*

*Azərbaycanın birinci xanımı, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış etdi.*

## «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev!

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki!

Avropa oyunlarının atletləri!

Xanımlar və cənablar!

İlk Avropa oyunlarının bağlanışı mərasiminə xoş gəlmisiniz!

Hörmətli həmvətənlər!

I Avropa oyunlarının uğurla başa çatması münasibətilə sizi ürəkdən təbrik edirəm. Oyunlar zamanı Azərbaycan yığma komandasına, Avropa atletlərinə və çoxsaylı qonaqlarımıza göstərdiyiniz dostluq, qonaqpərvərlik və dəstəyə görə sizə dərin minnətdarlığımı bildirirəm. Müstəqil Azərbaycana yeni qələbələr, Azərbaycan xalqına xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Əziz dostlar!

İlk Avropa oyunları başa çatır. Ötən 17 gün Azərbaycanın tarixində əlamətdar və yaddan çıxmaz günlər oldu.

Biz ilk Avropa oyunlarının ölkəmizdə keçirilməsindən fərəhlənirik. Qürur hissi duyuruq ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliyi cəmi 2 il yarım ərzində reallığa çevirdi və ən yüksək standartlara uyğun idman tədbirini keçirdi. Son 17 gün ərzində biz Avropa dövlətləri arasında birliyin, həmrəyliyin və dostluğun şahidi olduq.

Mən oyunlara və atletlərə verdiyi böyük dəstəyə görə Azərbaycan xalqına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bütün xalq öz atletləri ilə qürur duyur. Onlar 21-i qızıl olmaqla, bütövlükdə 56 medal qazanmış, ümumi medallar cədvəlində isə 2-ci yeri tutmuşlar. Azərbaycan atletləri, sizin uğurunuz gələcək nəsillər üçün bariz nümunədir.

Mən bu oyunlarda iştirak etmiş bütün atletlərə təşəkkürümü bildirmək istəyirəm. İlk Avropa oyunlarını belə bir yaddaqalan

idman festivalına çevirdiyinizə görə minnətdaram. Siz möhtəşəm çıxışlarınızı həvəslə, cəsarətlə və incəliklə bizə bəxş etdiniz. Bu oyunlar sizin oyunlardır və nailiyyətləriniz bizi həqiqətən ilhamlandırır. Hamınızı təbrik edirəm!

Mən mövqeyi və qətiyyəti sayəsində Avropa oyunları ideyasını reallığa çevirən Avropa Olimpiya Komitəsinə və onun prezidenti cənab Patrik Hikkiyə dərin təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm. Mən həmçinin hazırlıq zamanı dəyərli tövsiyələrinə görə Əlaqələndirmə Komissiyasının sədri Spiros Kapralosa təşəkkürümü bildirmək istəyirəm.

Oyunların Təşkilat Komitəsinin üzvlərinə və bütün beynəlxalq tərəfdaşlarımıza nümayiş etdirdikləri sadiqliyə və fəaliyyətə görə minnətdaram. Avropadan öz komandalarına dəstək vermək məqsədilə gəlmiş çoxsaylı sədaqətli azarkeşlərə təşəkkür edirəm. Siz qələbələri qeyd etdiniz. Siz məğlubiyyət zamanı təsəlli verdiniz. Siz oyunlar üçün istək, coşqu və dostluq mühitini yaratdınız.

Mən gözəl könüllülərimizə minnətdarlığımı bildirmək istəyirəm. Siz olmadan biz bu tədbiri keçirə bilməzdik. Sizin həvəsiniz və peşəkarlığınız «Bakı–2015» ruhunu canlandırmaqda bizə yardımçı oldu. Ölkəmizin böyük gələcəyi olan bu cür istedadlı gəncləri var.

Xarici könüllülərimizə də «çox sağ ol» – deyirik. Siz bütün Avropadan Azərbaycana gəldiniz ki, bu tarixi tədbiri təşkil etməkdə bizə kömək edəsiniz və idman, dostluq festivalının bir hissəsi olasınız. Biz sizsiz darıxacağıq və ümid edirəm ki, yenidən gələcəksiniz.

Azərbaycan öz qollarını və ürəyini Avropaya açdı. Biz köhnə dostlarımızı salamladıq və yenilərini qazandıq.

Bu axşam biz hamınızla sağollaşırıq. Lakin sizi Azərbaycanda gələcək tədbirlərdə yenidən görməyə ümid edirik. Gələn il Bakıda 42-ci Şahmat Olimpiadası və «Formula-1» Avropa Qran-pri yarışları keçiriləcək. 2017-ci ildə biz IV İslam Həmrəyliyi

oyunlarını qəbul edəcəyik. Nəhayət, 2020-ci ildə futbol üzrə Avropa çempionatının matçları şəhərimizdə təşkil olunacaq.

Bu axşam biz məşəli söndürəcəyik və ilk Avropa oyunları başa çatacaq. Belə bir idman və dostluq bayramı başa çatdığı zaman mən ölkəmizdən və xalqımızdan böyük qürur duyduğumu bəyan edirəm.

Son 17 gün hər zaman xatirimizdə qalacaq. O, nəsillərə qalacaq, tariximizin yaddaqalan məqamı olacaq.

Atletlər, sağ olun!

Dostlar, sağ olun!

Azərbaycan, sağ ol!

*«Bakı–2015» Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı sürəkli alqışlarla qarşılandı.*

## Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev!

Birinci xanım, «Bakı–2015»in Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Nəhayət, 17 günlük möhtəşəm idman bayramını bizimlə bölüşən hər bir insan! Sağ olun!

Avropa oyunlarını alovlandıran qığılcım məhz Odlar Yurdundan gəldi. Azərbaycan, sən bizim səmimi və qonaqpərvər ev sahibimiz oldun.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə «Bakı–2015» ilk Avropa oyunlarının Əməliyyat Komitəsi Avropada ən yaxşı kişi və qadın idmançılar üçün çox gözəl arenaları hazırladı. İş fəaliyyətinin dəqiqliyi qızıl medallar standartına uyğun oldu. Yeni gənc qəhrəmanlardan ibarət komandanı sizin gözəl könüllüləriniz formalaşdırdı. Bütün bunlar cəmi 30 ay ərzində təmin edildi.

Burada yaratdığınız idman obyektləri gələcək illərdə atletlərinizə, xalqınıza və gənclərə xidmət edəcək.

Belə bir böyük layihənin reallaşdırılmasında nümayiş etdirdiyiniz yekdilliyə görə hamınıza minnətdarıq. Siz komandalarınızı idman arenalarında ən yüksək nəticələri əldə etmək üçün ilhamlandırdınız.

Beynəlxalq və Avropa federasiyalarına minnətdarıq. Siz bu oyunlara, innovasiyaya açıq fikirlə yanaşdınız. Biz birlikdə nümayiş etdirdik ki, müasir dövrün bu çoxnövlü idman tədbirləri hər bir şəhərin tələbat və istəklərinə cavab verə bilər.

Avropa atletlərinə minnətdarlığımızı bildiririk. Siz ölkələrinizi və qitənizi şərəf və ləyaqətlə təmsil etdiniz. Oyunların böyüklüyünü yüksək idman nəticələri müəyyən edir. Siz bizə möhtəşəm idman bayramı bəxş etdiniz. Ümid edirəm ki, siz bu oyunları həmişə xatırlayacaqsınız. Qələbəyə sevindiniz. Məğlubiyyətdən dərs götürdünüz. Siz Avropanın ən yaxşı idmançıları ilə yaşadıqdan, məşq etdikdən və yarışdıqdan sonra artıq «Rio–2016» Olimpiya oyunlarında bütün dünya qarşısında çıxışa hazırsınız.

Avropa fərqliliklər və böyük rəqabət, müxtəliflik, idman və yarışma qitəsidir. Lakin burada, Avropa oyunlarında biz ümumi inamla, ümumi bayraq altında toplaşdıq: idman və olimpiya ideallarına doğru addımlamaq bizi ayıran yox, daha çox birləşdirən məkana aparır. Bu inam ondan ibarətdir ki, biz – Avropanın 50 ölkəsi hər 4 ildən bir 2 möhtəşəm həftə ərzində birgə ola bilərik. Bu, bütün gələcək Avropa oyunlarının əsaslanacağı oyunlar oldu. Bu cür tədbirin sarsılmaz və ilhamlandırıcı əsası qoyuldu.

Avropa olimpiya ailəsinə və dünyadakı dostlarımıza tam əminliklə deyirəm:

Azərbaycanın gələcəyi parlaqdır!

Avropa oyunlarının gələcəyi parlaqdır!

Avropanın gözəl atletləri üçün gələcək parlaqdır!

Beləliklə, indi mən minnətdarlıq, qürur və böyük nikbinlik hissi ilə «Bakı–2015» ilk Avropa oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!

* * *

*Çıxışlar zamanı fonda gözəl musiqi səslənir. Onu Avropanın istedadlı musiqiçisi Kristian Ştaynhauzer bağlanış mərasimi üçün məxsusi bəstələyib.*

*Stadionun monitorlarında daha bir qısa film nümayiş olunur. Film Azərbaycanın yaxın illərdə ev sahibliyi edəcəyi böyük tədbirlərdən – 2016-cı il «Formula-1» Avropa Qran-pri yarışlarından, 2017-ci il İslam Həmrəyliyi oyunlarından, 2020-ci il futbol üzrə Avropa çempionatının final mərhələsi matçlarından və Bakının görməli yerlərindən bəhs edir.*

*Biz hər gün yeniləşən texnologiyalar əsrində yaşayırıq. Bu texnologiyalar sayəsində ölkələr və ayrı-ayrı fərdlər – onların ideyaları, mənsub olduqları xalqın mədəniyyəti və daşıdıqları enerjini bir-birinə ötürmək baxımından əvəzolunmaz mübadilə imkanları yaranır.*

*Səhnədə dünyamızın gələcəyi təsvir olunur. Bu, gəncliyin enerjisidir. Rəqqas səhnədə bir enerji qığılcımı yaradır. Güclü enerji bədənindən keçərək, onu hərəkətə gətirir. Rəqqas bu enerjini rəqqasəyə, daha sonra isə başqalarına ötürür. Onların urban və atletik tərzdə hərəkətləri yüksək enerjili hip-hop rəqsinə çevrilir. 500-dən çox ifaçı diod lampalarla bəzədilmiş altıbucaqlı lövhələri başları üzərində tutaraq səhnəyə daxil olur. Onlar hərəkət etdikcə lövhələr əvvəlcə qrafik ekvalayzer, daha sonra şanagülü formasına düşərək, müxtəlif heyrətamiz obrazlar yaradır.*

*Musiqi getdikcə həzinləşir və tamaşaçıların diqqəti səmaya yönəlir. İfaçılar üzərində altıbucaq formalı işıq zolaqları olan sirk halqalarında akrobatik hərəkətlər edirlər. Onlar tədricən yerə enir və bu zaman səhnədə çıxış edən ifaçılar şouya qoşulurlar. Əllərində əlvan rəngli bayraqlar olan 75 ifaçı səhnə boyunca hərəkət edir. Ahəngdar şəkildə hərəkət edən altıbucaqlı lövhələr birləşərək, buta formalı 3 səhnəni təcəssüm etdirən obraza çevrilir. Sonda «Bakı–2015» I Avropa oyunlarının rəmzi olan nar ağacının qrafik obrazı yaranır.*

*Stadionun monitorlarında 17 günlük yarışların əsas məqamları nümayiş etdirilir. Tamaşaçılar ruh yüksəkliyi və sevincin, qələbə və məğlubiyyətin doğurduğu hisslərin, idman arenalarında yaranmış dostluğun şahidi olurlar.*

*Stadiona Azərbaycan muğamını tərənnüm edən həzin kamança səsi yayılır. Əsas səhnədə Atəşgah məbədi ucalmağa başlayır. Məbədin damında dayanmış qum rəssamı Simurq quşu əfsanəsindəki «həyat ağacı»nı çəkir. Onun çəkdikləri səhnədə heyrətamiz şəkildə canlanır. 76 rəqqas qum üzərində çəkilən təsvirlərə mütənasib xoreoqrafik hərəkətlər nümayiş etdirir. Rəssam yaxınlaşan tufanı təsvir etdikdə, rəqqaslar külək və dalğaları canlandırırlar. Daha sonra o, qum üzərində quş fiqurları çəkir və səhnədə oyunların iştirakçısı olmuş 50 ölkəni təcəssüm etdirən 50 quş görünür. Quşlar bir yerə toplaşaraq əfsanəvi Simurq quşuna çevrilir. Musiqi getdikcə daha təntənəli xarakter alır. Qum rəssamı indi alov rəsmləri çəkir və səhnəyə alov dilimlərinə bənzər qanadları olan rəqqaslar çıxır. Musiqi güclənir, rəqqaslar daha çevik hərəkətlər edir və səhnə sanki od-alova bürünür. İfa kulminasiya məqamına çatdıqda, Simurq quşu heyrətamiz şəkildə alovlanır və stadionun mərkəzində şölə saçaraq yanmağa başlayır.*

*Bu möhtəşəm səhnə məşhur əfsanənin motivləri əsasında qurulub. Əfsanəyə görə, bir dəstə quş xoşbəxtliyin, sağlamlığın və müdrikliyin müjdəçisi olan sehrli Simurq quşunun axtarışına çıxır. Bir araya gəldikdə Simurq quşunun ruhunun qəlblərində yaşadığını və birləşəcəkləri təqdirdə vahid sirli varlığa çevriləcəklərini anlayırlar. Belə də olur. Onların birliyindən yaranan Simurq quşu alovların əhatəsində pərvazlanıb səmaya qalxır və qanad çaldıqca yanaraq minlərlə işıq zərrəciyi arasında görünməz olur. Onun közü yerə yeni həyat toxumları kimi səpələnir, torpağa düşdükcə oyanış, dirçəliş baş verir.*

*Mərasim üçün yaradılan Simurq quşunun çəkisi 2 tona yaxın, ölçüləri 18x18 metrdir. Onun 50 qanadının hər birinin uzunluğu gərildikdə 1–3,4 metrə çatır. Səmadan tamaşaçıların üzərinə Simurq quşu əfsanəsindəki oyanış və dirçəliş toxumlarını*

*əks etdirən yanar köz – işıq diodları səpələnir. Beləliklə, 17 günün kulminasiya nöqtəsi yaxınlaşır, I Avropa oyunlarının alovu sönməyə başlayır. Yavaş-yavaş sönməkdə olan bu alovun ətrafında 50 iştirakçı dövləti təmsil edən 50 uşaq dayanır. Onlardan biri oyunların alovu ilə çırağını yandıraraq onu digər uşaqlarla bölüşür. Çıraqlar bir-bir yanır.*

*Sonra səhnənin mərkəzinə yaxınlaşan alov ifaçıların yanından keçir və onların da çıraqları yanmağa başlayır. Bu çıraqların asıldığı nəhəng çilçıraq səmaya yüksəlir. Stadion möhtəşəm işıq selinə qərq olur. Buradan belə bir məna çıxır: Avropa oyunları alovunun zərrəciklərini qəlbimizdə daşıyıb dünya ilə paylaşsaq, o da Simurq quşu kimi ölməz olacaq.*

*Bu təsirli səhnələr Martin Rozenqarten və Kristian Ştaynhauzerin Azərbaycan xalq mahnısı «Sarı gəlin»in motivləri əsasında aranjiman etdikləri «Lanterns» musiqisi ilə müşayiət olunur. Musiqi Şirzad Fətəliyevin ifasında balabanda səslənir.*

*Stadionda müasir rəqslər və mahnılar, ecazkar görüntülər bir-birini əvəz edir. Məşhur musiqi qruplarının və xarici estrada ulduzlarının ifaları əsl bayram ovqatı yaradır.*

*İdmançılar tribunalardan meydançaya axışır, rəqs edənlərə qoşulurlar. Bu səhnə birlik və dostluğun daha bir parlaq nümayişinə çevrilir.*

*Möhtəşəm atəşfəşanlıq başlanır. Bakı səmasını nura boyayan al-əlvan fişənglər ilk Avropa oyunlarının başa çatmasından xəbər verir. Beləliklə, «Bakı–2015» Azərbaycana başucalığı gətirən tarixə çevrilir.*

**KANADANIN GENEREL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DEVİD CONSTONA**

Hörmətli cənab General-qubernator!

Ölkənizin milli bayramı – Kanada Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Kanada münasibətlərinin genişlənməsi, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımızın dərinləşməsi istiqamətində bundan sonra da səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyun 2015-ci il*

# I AVROPA OYUNLARINDA QALİB GƏLMİŞ İDMANÇILAR, ONLARIN MƏŞQÇİLƏRİ, İDMAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ XARİCİ TƏRƏFDAŞLARLA GÖRÜŞ

*29 iyun 2015-ci il*

*I Avropa oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və oyunların təşkilində xidmətləri olan xarici tərəfdaşlarla iyunun 29-da görüş keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etmişlər.*

*Əvvəlcə I Avropa oyunlarının möhtəşəm açılışı və bağlanışı mərasimlərini, yarışlarda ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olundu.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikki!

Hörmətli xanımlar və cənablar!

Əziz idmançılar!

Bakıda I Avropa oyunları uğurla başa çatdı. Bu münasibətlə mən sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

I Avropa oyunları ölkəmiz və Avropa üçün tarixi hadisədir. Ölkəmiz üçün ona görə tarixi hadisədir ki, bu günə qədər Azərbaycanda bu səviyyədə beynəlxalq idman yarışı ke-

çirilməmişdir. Avropa üçün isə ona görə ki, Avropada başqa qitələrdən fərqli olaraq heç vaxt qitə oyunları keçirilməmişdir.

2012-ci ilin dekabrında Avropa Olimpiya Komitəsi birinci oyunların keçirilməsi barədə qərar qəbul etdi və bu şərəfli missiya bizim üzərimizə düşdü. Bu qərarın qəbul edilməsində iştirak etmiş bütün insanlara və ilk növbədə, Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikkiyə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm. Məhz cənab Patrik Hikkinin təşəbbüsü ilə bu oyunlar baş tutdu. Bu oyunların keçirilməsində iştirak etmiş bütün insanlara bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu qərardan sonra Azərbaycanda gərgin iş başlandı. Təşkilat Komitəsi, Beynəlxalq Əməliyyat Komitəsi yaradıldı. Hamımız yaxşı dərk edirdik ki, bu oyunları yüksək səviyyədə keçirmək üçün gərək bütün ictimaiyyət, bütün Azərbaycan vətəndaşları buna fəal dəstək olsunlar. Belə də oldu. Məşəlin qarşılanması mərasimlərində 2 milyona yaxın Azərbaycan vətəndaşı iştirak etdi. Bu böyük ictimai dəstək bizə güc və inam verdi ki, biz bu oyunları ən yüksək səviyyədə keçirək.

Yadımdadır, qərar qəbul olunandan sonra mən xalqa müraciət etdim və xalqı təbrik etdim. Eyni zamanda, dedim ki, biz çalışacağıq bu oyunları ən yüksək səviyyədə keçirək. Şadam ki, bu belə də oldu. Doğrudan da I Avropa oyunları tarixdə həm də ona görə qalacaq ki, bu oyunlar ən yüksək dünya səviyyəsində keçirildi.

Bu oyunların keçirilməsi üçün cəmi 2 il yarım vaxtımız var idi. Təsəvvür etmək çətin deyil ki, biz nə qədər gərgin iş gördük. Əlbəttə, bu böyük məsuliyyət bizim üzərimizdə idi. Avropa oyunlarının standartları o vaxt mövcud deyildi. Əslində oyunların standartlarını biz birlikdə Azərbaycanda yaratdıq və bu, ən yüksək standartlardır.

Məşəlin alovlandırılması mərasimi də çox yaddaqalan oldu. Mən bir daha Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikkiyə minnətdaram ki, onun və Avropa Olimpiya Ko-

mitəsinin qərarı ilə gələcək oyunların məşəli məhz Azərbaycanda, Atəşgah məbədində yandırılacaqdır.

Oyunların hazırlanmasında Beynəlxalq Əməliyyat Komitəsinin – BEGOC-un rolunu yüksək qiymətləndirirəm. Orada işləyən peşəkar insanlar, əlbəttə ki, öz təcrübələrini, biliklərini Azərbaycana gətirdilər, bizimlə bölüşdülər. Onlarsız bu oyunları bu səviyyədə keçirmək mümkün olmayacaqdı.

Bilirəm ki, onlar da bu aylar, illər ərzində Azərbaycanı ürəkdən sevmişlər. Azərbaycanın bütün imkanlarını, xalqın əhval-ruhiyyəsini və ölkəmizdə gedən müsbət prosesləri görərək, bizim xalqımıza, dövlətimizə çox bağlı olublar. Əminəm ki, bu xatirələr onların qəlbindən heç vaxt silinməyəcək. Çünki onların həyatlarının bir hissəsi Azərbaycanda keçibdir. Əminəm ki, biz gələcəkdə də onlarla tez-tez görüşəcəyik.

Könüllülərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Oyunların keçirilməsinin yükünün böyük hissəsi onların üzərinə düşdü. Konüllülər bir daha onu göstərdilər ki, ölkəmizin çox böyük potensialı, insan kapitalı var. Mən 2003-cü ildə prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, «qara qızıl»ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər – müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. 20 minə yaxın könüllü – onların böyük əksəriyyəti yerli uşaqlardır, insanlardır, gənclərdir – gecə-gündüz çalışdı. Onlar gecə-gündüz peşəkarlıqla, ustalıqla, məharətlə çalışaraq idmançılara, qonaqlara böyük mədəniyyət, hörmət, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və mehribanlıq göstərdilər. Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında könüllülər haqqında daim bu xoş sözləri eşidirəm. Doğrudan da bizim gələcəyimiz etibarlı əllərdədir. Könüllülər bu oyunlardan sonra əminəm ki, cəmiyyətdə öz layiqli yerlərini tutacaqlar. Onlar bizim gələcəyimizdir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar. Necə ki, bizim könüllülərimiz peşəkar, bilikli və vətənpərvərdirlər.

Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olub. Təbii ki, ictimaiyyət tam şəkildə bu fəaliyyətin nədən ibarət olduğunu bilə bilməz. Çünki Təşkilat Komitəsinin tədbirləri mütəmadi qaydada keçirilirdi. Ancaq ictimaiyyətə o qədər də geniş məlumat verilmirdi. Hər bir xırda məsələ üzrə bütün işlər ən yüksək səviyyədə görülmüşdü və məhz buna görə oyunların keçirilməsində heç bir problem yaşanmadı.

Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O bu oyunların keçirilməsinə çox böyük töhfə verdi. Deyə bilərəm ki, bu oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə, ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir. Bəzən məndən soruşurlar ki, Azərbaycan sürətlə inkişaf edir – baxmayaraq bölgədə, dünyada, bizim qitədə yaşanan proseslər o qədər də ürəkaçan deyil – nədir bunun sirri?

Bu barədə çox danışmaq olar. Ancaq mən hesab edirəm əsas məsələ ondan ibarətdir ki, biz dövlətimizi, xalqımızı hər şeydən çox sevirik. Bu məhəbbət, bu vətənpərvərlik, bu peşəkarlıq və işimizə sədaqət, əlbəttə, imkan verir ki, Azərbaycan sürətlə inkişaf etsin və bizim gələcəkdə də çox böyük qələbələrimiz olacaqdır.

Əlbəttə, bu gün mən idmançıların uğurlarını, qələbələrini xüsusilə qeyd etmək istəyirəm. Təbii ki, biz bu oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu bir daha ölkəmizin potensialını, gücünü göstərdi. Biz bu potensialı, əlbəttə ki, bilirdik. Bu potensialı biz yaratmışıq. Cəmi 24 il ərzində Azərbaycan elə zirvələrə qalxıb ki, bəzi ölkələrə bu səviyyəyə qalxmaq üçün bəlkə yüzilliklər lazımdır. Bu oyunlar sadəcə olaraq, bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də

öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insan potensialı, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik – məhz budur bizim uğurlarımızın əsas şərtləri.

Bu oyunlar imkan verdi ki, biz özümüzü göstərək. Bizi istəməyən qüvvələr bəzi hallarda bunu bizə irad tuturdular ki, Azərbaycan oyunları keçirməklə özünü göstərmək istəyir. Bu da təbiidir. Əlbəttə, hər bir ölkə özünü göstərmək istəyir. İnkişaf etmiş ölkələr, hansılar ki, dəfələrlə bu səviyyəli tədbirləri keçiriblər, onlar da özlərini göstərmək istəyiblər. Burada heç bir qəbahət yoxdur. Bəli, bizim göstərə biləcəyimiz nümunələr həddən artıq çoxdur. Biz Azərbaycanı dünyaya müasir, dinamik, demokratik, inkişaf edən, öz mədəniyyətinə, tarixinə bağlı olan xalq kimi, dövlət kimi göstərdik. Bu oyunlar cəmiyyətdə nadir bir əhval-ruhiyyə yaratdı. Bu, əvvəllər də var idi. Cəmiyyətimiz milli ideyalar, milli maraqlar uğrunda çox fəal hərəkət edir. Ancaq bu oyunlar xalqımızı bir daha birləşdirdi. Bir daha bizi qürurlandırdı ki, görün biz nəyə qadirik.

İdmançıların uğurlarına qayıdarkən bu xüsusilə böyük əhəmiyyət daşıyır. Çünki onların qələbələri bu oyunları daha da böyük zirvəyə qaldırdı. Mən tam əminəm ki, burada oturanlar və ümumiyyətlə, ictimaiyyət arasında yəqin müxtəlif fərziyyələr var idi ki, bizim komandamız neçənci yeri tutacaq. Bəlkə heç kim inanmırdı ki, bu, ikinci yer olacaqdır. Bu, tarixi qələbədir. Azərbaycan idmanının, Azərbaycan dövlətinin qələbəsidir. Əziz idmançılar, mən sizi öpürəm, bağrıma basıram.

Bu günlər ərzində hamımız yəqin ki, bir neçə dəfə kövrəldik. Hamımızın elə unudulmaz anları oldu ki, bunu sözlə təsvir etmək çətindir. Qələbə sevinci, qürur hissi, idmançılarımızın rəşadəti, gücü, xalqımızın birliyi – bütün bunlar heç vaxt yadımızdan çıxmayacaq.

Azərbaycan bu gün zirvədədir. Azərbaycan bu gün müstəqil, inkişafda olan güclü dövlət kimi uğurla irəli gedir. Bizim siyasi,

iqtisadi sahələrdə, diplomatik arenalarda, idman yarışlarında böyük qələbələrimiz var. Biz haqlı olaraq, bununla fəxr edirik. Fəxr edirik ki, biz Azərbaycan vətəndaşıyıq. Fəxr edirik ki, cəmi 24 il ərzində Azərbaycan xalqının istedadı, zəhməti hesabına, düşünülmüş siyasət hesabına güclü dövlət qurmuşuq.

İdman hər bir ölkənin ümumi inkişafını göstərir. Əgər idmanda böyük nəticələri əldə edən ölkələrin siyahısına baxsanız – bu oyunlar da bunun bariz nümunəsidir – görərsiniz ki, birinci sıralarda ancaq hərtərəfli inkişaf etmiş ölkələrdir. Çünki kasıb, inkişaf etməyən, geridə qalmış ölkələrdə çox nadir hallarda böyük idman nəticələri olur.

İdmanda əldə edilən uğurlar müəyyən bir baza əsasında yaranır. Bu bazanı biz yaratmışıq. Artıq neçə ildir ki, biz idmanın inkişafı ilə çox ciddi məşğul oluruq. İdmançılar, klublar, federasiyalar, idman cəmiyyətləri, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, biz hamımız birlikdə idmanı inkişaf etdiririk. Təsadüfi deyil ki, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında bizim idmançılarımız ən yüksək kürsülərə qalxırlar. Bu dəfə isə bu oyunlar Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir.

Biz gələcəkdə də uğurla inkişaf edəcəyik və buna heç bir şübhəmiz yoxdur. Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim böyük uğurlarımız və qələbələrimiz olacaq. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram.

* * *

*Sonra mükafatlandırma mərasimi keçirildi.*

*«Bakı–2015» I Avropa oyunlarının keçirilməsində xüsusi xidmətləri olan şəxslərin, həmçinin Avropa oyunlarında uğurla çıxış edən idmançıların, onların məşqçilərinin, idman federasiyaları sədrlərinin «Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu», «Şöhrət», «Dostluq», 2-ci dərəcəli «Vətənə xidmətə görə» ordenləri və «Tərəqqi» medalı ilə təltif edilmələri*

*barədə dövlət başçısının 2015-ci il 29 iyun tarixli sərəncamları oxundu.*

*Azərbaycan prezidenti İlham Əliyev mükafatları təqdim etdi.*

*«Dostluq» ordeni ilə təltif olunan I Avropa oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleq mükafatlandırılanlar adından çıxış etdi.*

**Saymon Kleq:** Cənab Prezident!

Birinci xanım Mehriban Əliyeva!

Avropa Olimpiya Komitəsinin prezidenti!

Nazirlər, hörmətli qonaqlar, idmançılar!

Xanımlar və cənablar!

İcazə verin, iştirakçılar adından ilk növbədə, cənab Prezident, Sizə bir neçə kəlmə ilə təşəkkürümü bildirim.

Uzaqgörənliyinizə, Avropa Olimpiya Komitəsinin uzun illər arzusu olan Avropa oyunlarının reallığa çevrilməsini təmin etmək üçün üzərinizə götürdüyünüz maddi və siyasi öhdəliyə görə Sizə təşəkkür edirəm. Bu bizim hamımız üçün heyrətamiz təcrübə oldu. Mən bunu zarafatla «ömrü qısaldan təcrübə» adlandırıram və həyatımın bu çağında özümə daha çox ömür qısaldan təcrübə imkanı verə bilmərəm. Bütün bunların 30 aya həyata keçirilməsi təkcə BEGOC-un deyil, Sizin bütün nazirlikləriniz və qurumlarınızın böyük nailiyyətidir.

Bu salondakı hər kəs «Bakı–2015» ilk Avropa oyunlarının bir parçası oldu. Bu salondakı hər kəs oyunların uğuruna öz fərdi və kollektiv töhfəsini verdi. Mən xüsusilə Azərbaycan xalqını oyunların təkcə birinci günü deyil, bütün 17 günü ərzində ruhlandıran atletlərinizi təbrik edirəm. Biz gündən-günə daha çox adamın sizin atletləri dəstəkləməyə gəlməsinin və onların uğurundan zövq almasının şahidi olduq.

Mən beynəlxalq həmkarlarım adından bizə bu möhtəşəm təcrübəni yaşatdığınıza görə Sizə təşəkkürümü bildirirəm. Bu həqiqətən də bizim hamımız üçün zəngin həyat təcrübəsi oldu. Biz Sizin ölkənizin bir parçası olmaq və inkişafına töhfə vermək imkanı əldə etdik. Biz buradan xoş xatirələrlə ayrılırıq. Ümid edirəm ki, gələcəkdə yolumuzun haraya düşməsindən

asılı olmayaraq, Azərbaycanın bir parçası bizim ürəyimizdə qalacaq və bizim yollarımız kəsişəcək.

*«Şöhrət» ordeni ilə təltif olunduğuna görə Gənclər və İdman naziri dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

**A z a d  R ə h i m o v:** Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Cənab prezident Patrik Hikki!

Mərasim iştirakçıları!

İcazə verin, ilk növbədə, burada, səhnədə dayanan idmançılarımızın adından sizə ürəkdən gələn minnətdarlığımı bildirim. Siz 17 gün ərzində onlarla bir yerdə olmusunuz, 17 gün siz onlara dəstək vermisiniz. İlk dəfə olaraq Azərbaycanın tarixində qazanılan bu yüksək nailiyyət məhz sizin diqqətinizin, qayğınızın, idmançılarla daim bir yerdə olmağınızın nəticəsidir. Biz bütün idmançıların adından sizə bir daha dərin minnətdarlığımızı bildiririk.

Mən xüsusilə qeyd etmək istəyirəm ki, bu yüksək mükafat təkcə mənim mükafatım deyil. Bu bizimlə birgə işləyən bütün insanların əməyinə verilən mükafatdır. Sizə 17 min könüllünün adından da dərin minnətdarlığımızı bildiririk ki, bu fürsəti onlara Siz yaratdınız. Onlar dövlətimiz, ölkəmiz üçün bu yüksək idman yarışını təşkil edə bildilər, bizimlə bərabər işlədilər. Sizə bütün idmansevərlərin adından bir daha dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

*Mərasimdə Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Əliyevanın «Heydər Əliyev» ordeni ilə təltif edilməsi barədə prezident İlham Əliyevin 2015-ci il 29 iyun tarixli Sərəncamı oxundu.*

*Dövlətimizin başçısı «Heydər Əliyev» ordenini Mehriban Əliyevaya təqdim etdi.*

*Əməyinə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış etdi.*

## «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı

Hörmətli cənab Prezident!
Hörmətli prezident Patrik Hikki!
Əziz idmançılar!
Əziz dostlar!
Xanımlar və cənablar!

İlk Avropa oyunlarının uğurla başa çatması və idmançılarımızın nailiyyətləri münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Azərbaycan öz qüdrətini, əzəmətini və birliyini dünyaya bir daha nümayiş etdirdi.

Əziz idmançılar, bizə qələbə sevincini bəxş etdiyinizə görə sizə öz dərin hörmətimi və məhəbbətimi ifadə edirəm.

Hörmətli cənab Prezident, bizim əməyimizi belə yüksək qiymətləndirib Azərbaycanın ali orden və medalları ilə təltif etdiyinizə görə hər birimizin adından Sizə öz dərin minnətdarlığımı bildirirəm. Müstəqil Azərbaycanın hər bir qələbəsinin arxasında Sizin əməyiniz, biliyiniz, iradəniz durur. Çox sağ olun ki, biz bu gün qüdrətli, sabit, öz sözünü deyən və öz maraqlarını qoruyan dövlətin vətəndaşıyıq. Çox sağ olun ki, Sizin və Azərbaycan xalqının birliyi nəticəsində ölkəmiz belə inanılmaz nailiyyətlərə imza atıb. Oyunlara hazırlıq zamanı bizə göstərdiyiniz dəstəyə görə çox sağ olun. Ən çətin məqamlarda, ən dramatik anlarda Siz bizə arxa oldunuz. Sizin ölkəmizə, xalqımıza olan inamınız heç bir şübhə qoymurdu ki, hər şey əla olacaq və biz yenə də qələbə çalacağıq. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, heç bir qara qüvvə bizi hədəf seçib qorxuda bilməz və ədalət, xoş niyyət, xalqla birlik hər zaman zəfər çalacaq.

Bu 17 gün ərzində yaşadığımız xoş anlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Mən idman leksikasından istifadə etsəm deyə bilərəm ki, bu 17 gün ərzində Azərbaycan xalqı bir komanda idi və Siz bu komandanın şərəfli kapitanı idiniz. Belə olan halda, əlbəttə, qalib gəlməmək mümkün deyildi. Vətənimizə, doğma Azərbaycanımıza xidmət etmək ən böyük şərəfdir və xidmətimizin nəticələrini görüb yaşamaq ən böyük xoşbəxtlikdir.

Cənab Prezident, biz hər birimiz ölkəmizin əsgəriyik və Azərbaycanın gələcəyi naminə daha da tam gücümüzlə xidmət etməyə hazırıq.

Çox sağ olun, bir daha çox sağ olun ki, Azərbaycanı belə yüksək zirvələrə qaldırmısınız. Qoy Tanrı Sizi və Azərbaycanı hər zaman qorusun! Çox sağ olun.

* * *

**A z a d  R ə h i m o v:** Cənab Prezident, Siz daim bizi sevindirirsiniz, bizim nailiyyətlərimizi yüksək qiymətləndirirsiniz. Biz də, idmançılar da, bu salonda əyləşənlər də düşündük ki, Sizi nə ilə sevindirə bilərik. Qərara gəldik ki, Sizin də qeyd etdiyiniz kimi, oyunlarda bizi sevindirən, kövrəldən gözəl anları bir videoçarx şəklində hazırlayıb burada nümayiş etdirək. Bu bizim hamımızın adından Sizə hədiyyəmizdir. Çox sağ olun.

*Sonra videoçarx nümayiş olundu.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatları ilə münasibətlərə böyük əhəmiyyət verir. Ölkələrimiz arasındakı əlaqələr hərtərəfli və dinamik inkişaf yolu keçərək, bir çox sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Avropanın və bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə töhfəmiz, beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığımız, eləcə də dünyanın ən qaynar nöqtələrində beynəlxalq birliyin sülhyaratma missiyasında iştirakımız bu münasibətlərin bariz nümunələridir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, işğal olunmuş ərazilərimizin azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın öz doğma torpaqlarına qayıtması üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizin tezliklə nəticə verəcəyinə bizim böyük ümidlərimiz var.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Amerika xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2015-ci il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sevindirici haldır ki, qardaş Belarus sosial-iqtisadi inkişaf, ölkədə asayişin və qanunçuluğun bərqərar edilməsi sahəsində sanballı uğurlar qazanıb.

Əminəm ki, Azərbaycan ilə Belarus arasında ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə, xalqlarımızın və ölkələrimizin tərəqqisi naminə hərtərəfli əməkdaşlığımızın və çoxşaxəli qarşılıqlı fəaliyyətimizin dinamik və konstruktiv inkişafına yönələn birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Belarus xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2015-ci il*

**MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Monqolustan əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyul 2015-ci il*

# İTALİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*8 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Milan Expo 2015» Beynəlxalq sərgisində Azərbaycan pavilyonunun açılışında iştirak etmək üçün iyulun 8-də İtaliya Respublikasına işgüzar səfərə gəlmişlər.*

*Dövlətimizin başçısını və xanımını İtaliyanın yüksəkvəzifəli şəxsləri qarşıladılar.*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Böyük qardaşınız Kalıybek Şarşenovun qəflətən vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2015-ci il*

## «MİLAN EXPO 2015» ÜMUMDÜNYA SƏRGİSİNDƏ İŞTİRAK

*Milan*

*9 iyul 2015-ci il*

*Milanda keçirilən «Milan Expo 2015» Ümumdünya sərgisindəki Azərbaycan pavilyonunda iyulun 9-da «Milli gün» təşkil olunmuşdur. «Milli gün» çərçivəsində Azərbaycan pavilyonunun rəsmi təqdimat mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Tədbirə, həmçinin İtaliya hökumətinin nümayəndələri, ictimai xadimlər, bu ölkədəki diplomatik korpusun təmsilçiləri və digər nüfuzlu qonaqlar da qatılıblar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva «Milan Expo 2015» sərgisinin ərazisinə gəldilər.*

*«Milan Expo 2015»də Azərbaycan milli pavilyonunun təməli 2014-cü ilin iyulunda qoyulub. Ümumilikdə pavilyonda hazırlıq və tikinti işləri 18 ay ərzində davam edib. Azərbaycan milli pavilyonu üzrə təşkilati işlər Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzi tərəfindən aparılıb. Ümumi sahəsi 1800 kvadratmetr olan dördmərtəbəli milli pavilyon sərginin builki devizinə uyğun olaraq Azərbaycanın tarixi və mədəni irsini, zəngin ekoloji potensialını, flora və faunasının zənginliyini, nadir biomüxtəlifliyini tərənnüm edir. Bu layihənin hazırlanması üçün 300-dək yerli və xarici mütəxəssisin cəlb olunduğu işçi qrup yaradılmışdı.*

*Milli pavilyonumuzda iştirakçı ölkələr arasında yeniliyə imza atılaraq «Mirroring Baku» – Bakı ilə birbaşa əlaqə yaradılıb. Belə*

*ki, milli pavilyonun girişində güzgü formasında, insan ölçüsündə dalğavarı oturacaqla tamamlanmış monitor quraşdırılıb. Belə bir monitor Bakıda – Heydər Əliyev Mərkəzinin qarşısında da var. Bu monitorların hər ikisi vəhdət təşkil edərək, bir-biri ilə əlaqədə olur. Pavilyonla tanış olan şəxslər monitorun qarşısında durmaqla, Bakıda monitor quraşdırılan məkanı görür, buradakı insanlarla əlaqə saxlayırlar. Həmçinin paytaxt Bakının sakinləri, şəhərimizin qonaqları da Azərbaycan pavilyonu və onun ziyarətçiləri ilə tanış olmaq imkanı qazanırlar. «Mirroring Baku» adlı bu layihə Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın paytaxtı Bakı ilə sərginin minlərlə iştirakçısının əlaqəsinə şərait yaradır.*

*Azərbaycan pavilyonunda əvvəlcə Bakı ilə videoəlaqə yaradıldı. Heydər Əliyev Mərkəzinin əməkdaşı Məhəbbət Mehdiyeva prezident İlham Əliyevi salamladı.*

*Xüsusi konsepsiyada dizayn edilmiş pavilyonda 6 ay ərzində müxtəlif təqdimatların keçirilməsi nəzərdə tutulur. «Milan Expo 2015» başa çatdıqdan sonra Azərbaycan pavilyonunun sökülərək yenidən Bakıda qurulması və ziyarətçilərin istifadəsinə verilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Azərbaycan milli pavilyonunun konsepsiyası barədə məlumat verildi.*

*Pavilyonda qurulmuş 3 biosfer ətraf mühitini və qədim mədəniyyətini daim harmoniyada saxlamağı və qorumağı bacaran Azərbaycanı təcəssüm etdirir. Pavilyonun dalğavarı taxta divarları Azərbaycana xas olan küləyin, həmişə burada dövr edən mədəni və yaradıcı axının rəmzidir. «Milan Expo 2015» üçün yaradılmış «Azərbaycan. Biomüxtəliflik xəzinəsi» pavilyonu Şimal və Cənub, Şərq və Qərb arasında körpü rolunu oynayan bu diyarın bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirir. «Mədəniyyətlərin kəsişməsi» biosferi ziyarətçiləri ölkənin ən mühüm tarixi və mədəni məkanlarına səyahətə aparır. İkinci biosfer – «Biomüxtəliflik» ölkənin təbii biomüxtəlifliyinə və mədəni irsinə həsr olunub. Bu biosferin mərkəzindəki konstruksiya Azərbaycanın zənginlik rəmzi olan nar ağacını*

*təcəssüm etdirir. Növbəti biosfer «İnnovasiya və ənənə» adlanır. Burada kökləri səmaya istiqamətlənmiş ağac fiquru var. Bu, rəmzi olaraq Azərbaycan xalqının ənənəyə sadiqliyini, eyni zamanda, gələcəyə yönələn innovativ ölkə olduğunu göstərir.*

*Pavilyonun birinci mərtəbəsi «Səslər simfoniyası» adlanır. Burada Azərbaycanın tarixi, mədəniyyəti, coğrafiyası barədə məlumatlar təqdim olunur. İkinci mərtəbədə – «Rənglər simfoniyası»nda iqlim, landşaft və bioloji müxtəliflik məlumatları çatdırılır. «Dadlar simfoniyası» adlanan üçüncü mərtəbədə milli mətbəx və orqanik qida məhsulları barədə məlumat və nümunələr təqdim edilir. Bu mərtəbədə, həmçinin «Bakını kəşf et» və «Azərbaycan simaları» bölmələrində fotolar, xəritələr, müxtəlif sahələri təmsil edən azərbaycanlıların portretləri vasitəsilə ölkəmiz və insanlarımızla interaktiv tanış olmaq mümkündür. Eyni zamanda, Azərbaycanda 9 iqlim qurşağının mövcud olması, ölkəmizin beynəlxalq qurumlar tərəfindən dünyanın 25 biomüxtəliflik məkanından biri kimi göstərilməsi də milli pavilyonumuzda əksini tapıb. Bundan əlavə, pavilyondakı monitorlarda Azərbaycanın musiqi və kinematoqrafiya inciləri, adət və ənənələrinə, incəsənətinə dair müxtəlif materiallar nümayiş etdirilir. Pavilyonun 4-cü mərtəbəsində – terrasda restoran fəaliyyət göstərir. Burada milli mətbəx və müxtəlif konsert proqramları təqdim olunur.*

*Milli pavilyonun həyətində yaradılan IDEA – Biomüxtəliflik parkında IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin fəaliyyətinə dair məlumatlar, müxtəlif ekoloji layihələr təqdim olunur və əyləncəli proqramlar təşkil edilir.*

*Azərbaycanda biomüxtəlifliyin qorunması və ekoloji problemlərin həlli, milli təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, yerli və beynəlxalq ekoloji layihələrin həyata keçirilməsi istiqamətlərində görülmüş işlər də pavilyonumuzun daxili tərtibatında əks olunub. Qeyd olunan istiqamətlər üzrə qısametrajlı videoçarxların çəkilməsi üçün bu günədək müxtəlif ssenarilər hazırlanıb. Ssenarilər əsasən qida, kənd təsərrüfatı,*

*ekoloji resurslar, təbii landşaft, sosial inkişaf, ixrac və infrastruktur, mədəniyyət, incəsənət, ətraf mühitin qorunması və geni modifikasiya olunmuş (GMO) məhsulların yayılmasının qarşısının alınması istiqamətlərində aparılan işləri əhatə edir. Bu videomateriallar sərgi davam etdiyi müddətdə milli pavilyonumuzda təqdim olunacaq və ziyarətçilərin ölkəmizlə vizual tanışlığını təmin edəcək.*

*«Milan Expo 2015»ə hazırlıq ərəfəsində Azərbaycanın müxtəlif regionlarında mövcud olan zəngin biomüxtəlifliyin, nadir landşaftların, təbii ehtiyatların və fərqli bölgələrdə yerləşən tarixi abidələrin foto və video çəkilişləri aparılıb. Bu məqsədlə 2014-cü ilin aprelindən bu ilin fevralınadək Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Yardımlı, Şəmkir, Şəki, Qəbələ, Şabran, Quba, Xızı, Siyəzən, Şirvan, Abşeron və digər şəhər və rayonlara dəfələrlə səfərlər təşkil edilib.*

*Sonra xatirə şəkli çəkdirildi.*

*«Milan Expo 2015» Təşkilat Komitəsinin rəyinə görə, Azərbaycan hazırlıq və quraşdırma prosesində ilkin mərhələdə iştirakçı dövlətlər qarşısında qoyulan tələbləri, pavilyonun məzmun və tərtibatı ilə bağlı təqdimatları ən tez yerinə yetirən ölkələr sırasındadır. Eyni zamanda, xarici mətbuat və İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonumuzun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu bildiriblər. Müxtəlif ölkələrin rəsmi nümayəndə heyətləri və sərginin rəhbərliyi Azərbaycan pavilyonunun dizaynına görə digərlərindən çox fərqləndiyini, seçilmiş mövzuya tam uyğun olduğunu qeyd ediblər. Ölkəmizin bu uğurları səbəbindən Ermənistan «Milan Expo 2015»də iştirakdan imtina edib.*

*Daha sonra prezident İlham Əliyev «Milan Expo 2015» Beynəlxalq sərgisində dövlət bayraqlarının qaldırılması mərasimində iştirak etdi.*

*İtaliyanın və Azərbaycanın dövlət himnləri səsləndirildi və dövlət bayraqları qaldırıldı.*

**B r u n o  A n t o n i o  P a s q u i n o** *(«Milan Expo 2015» sərgisinin baş direktoru):* Cənab Prezident, Sizin burada olmağınız nəinki Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığa verdiyi dəyəri, o cümlədən ölkələrimizi bağlayan qarşılıqlı hörmət və böyük ehtirama əsaslanan münasibətləri nümayiş etdirir.

Milana, burada müzakirə olunan mövzulara verdiyiniz əhəmiyyətlə yanaşı, xatırlatmaq kifayətdir ki, Azərbaycan «Expo»ya üçüncü olaraq qoşulmuş ilk ölkələr sırasındadır və sərgiyə hazırlıq mərhələsində ən fəal iştirakçılardan biri olub.

«Milan Expo 2015»in çoxsaylı qonaqları Sizin pavilyon sayəsində Azərbaycanı tanımaq imkanı əldə etdilər. Onlar gələcəyə açıq və inanan, zəngin tarixə, mədəniyyətə, sürətli inkişafa, beynəlxalq aləmdə yüksək nüfuza malik, ənənə və texnoloji innovasiyaya bağlı olan bir ölkəni və xalqı tanıdılar.

Cənab Prezident, Sizin pavilyon qonaqları öz görünüşü ilə də cəlb edir. Həmçinin ölkələrimiz arasında yaxınlığın, Sizin məhz Milandakı bu sərgidə iştirakınızın rəmzi olacaq, unudulmaz xatirəyə çevriləcək pavilyonunuz 6 aydan sonra Bakıya köçürülərək, orada onu seyr etmək imkanı yaradacaq.

Pavilyonda Azərbaycanın iqlimi, təbiəti, gözəl adət-ənənələri, mətbəxinizin ləziz yeməkləri əks olunur. Bununla yanaşı, Azərbaycan xalqının çox səmimi və ənənəvi qonaqpərvərliyi hərtərəfli şəkildə nümayiş etdirilir. Öz quruluşu və mənasına görə yüksək dəyərləndirilən pavilyonunuz iştirakınız üçün əvvəlcədən seçilmiş «Azərbaycan biomüxtəliflik xəzinəsi» mövzusu ilə tamamlanır. Bu mövzu məhz «Expo»nun dərin mənasını, ərzaq təhlükəsizliyi məsələlərinin həllinin vacibliyini xüsusi olaraq qeyd edir.

Cənab Prezident, «Milan Expo 2015» kənd təsərrüfatı sahəsində davamlı inkişaf, aclığa qarşı mübarizə, insanlar, dinlər və mədəniyyətlər arasında dialoqun rolu kimi vacib mövzulara diqqəti cəlb etmək üçün xüsusi fürsətdir. Beləliklə, buraya gələn hər kəs fərdi seçimlərlə qlobal proseslər arasında böyük əlaqəni görə biləcək. Həmçinin sərginin «Planetimizi qidalandıraq,

həyat üçün enerji qazanaq» devizi ölkəniz üçün sadə deviz deyil. Çünki ölkənizin gələcək inkişaf istiqaməti məhz ondan ibarətdir. Məhz Sizin iqtisadi və siyasi inkişafınız böyük vüsət almışdır.

Cənab Prezident, çıxışımın sonunda bildirmək istəyirəm ki, «Bakı–2015» ilk Avropa oyunları uğurla keçmişdir. Bu münasibətlə Sizi təbrik edirik. Hesab edirik ki, «Milan Expo 2015» sərgisi, həmçinin ölkələrimiz üçün münasibətlərini daha da dərinləşdirmək və idman sahəsində bölüşdüyümüz dəyərləri nümayiş etdirmək fürsətidir.

Cənab Prezident, biz bilirik ki, bir neçə dəqiqədən sonra Siz buradan növbəti vacib siyasi səfərə – Romaya gedəcəksiniz. Bu da ikitərəfli münasibətlərimiz baxımından çox vacibdir.

Cənab Prezident!

Hörmətli iştirakçılar!

Xanımlar və cənablar!

Bu mərasimdə iştirak etdiyinizə görə təşəkkürümüzü bildiririk. Hesab edirik ki, burada iştirakınız bizim hamımızı bir-birimizə bağlayan əlaqələrin bir daha gözəl təcəssümü oldu. Bir daha minnətdaram.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram!

Bu gün «Milan Expo»da Azərbaycan milli günüdür. Bu gün bizimlə bərabər olduğunuza görə sizə minnətdaram. Fürsətdən istifadə edərək, İtaliya hökumətini «Milan Expo»nu yüksək səviyyədə təşkil etdiyinə görə ürəkdən təbrik edirəm.

Qeyd etməliyəm ki, Azərbaycan bu sərgidə 2000-ci ildən iştirak edir. Ancaq bu il ilk dəfədir ki, biz sərgidə milli pavilyonumuzla təmsil olunuruq. Bir qədər bundan əvvəl pavilyonla tanış oldum. Burada deyildiyi kimi, pavilyon həm memarlıq, daxili dizayn, tərtibat baxımından zövq oxşayır, yüksək

səviyyədədir, həm də ölkəmizlə tanış olmaq üçün çox gözəl imkanlar yaradır.

Pavilyonda Azərbaycanın zəngin tarixi, mədəniyyəti, incəsənəti, musiqisi, xalçaçılıq sənəti, ölkəmizə dair kitablar nümayiş etdirilir və bunlar qonaqlarda Azərbaycan haqqında dolğun təsəvvür yaradır.

Azərbaycan qədim diyardır. Çox zəngin mədəniyyətə, tarixə, memarlıq abidələrinə malikdir. Ancaq müstəqil ölkə kimi, bizim cəmi 24 yaşımız var. Ona görə ölkəmizi dünyada, Avropada tanıtmaq üçün müxtəlif tədbirlər keçirilir. Onların içərisində «Milan Expo 2015», əlbəttə ki, xüsusi yer tutur. Eyni zamanda, bizim pavilyonumuzda bugünkü Azərbaycan reallıqları da əksini tapıb.

Azərbaycan dinamik sürətlə inkişaf edən, dünyaya açıq olan ölkədir, Şərq ilə Qərb arasında yerləşir. Həm coğrafi, həm siyasi, həm mədəni baxımdan Şərq ilə Qərb arasındakı bir körpüdür. Əsrlərboyu Azərbaycanda müxtəlif dinlərin, millətlərin nümayəndələri bir ailə kimi, sülh, əmin-amanlıq şəraitində yaşamışlar. Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir. «Milan Expo»nun mövzularından biri də məhz multikulturalizmdir.

Digər mövzular da böyük əhəmiyyət daşıyır. Onların içərisində ərzaq təhlükəsizliyi bu gün dünya gündəliyinin əsas məsələlərindən biridir. Deyə bilərəm ki, Azərbaycan bu istiqamətdə çox önəmli addımlar atmışdır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesabatında Azərbaycanın əldə etdiyi uğurlar qiymətləndirilir. Azərbaycan o ölkələrdəndir ki, artıq aclıq tamamilə aradan qaldırılıb. FAO-nun hesabatına görə, dünyada 29 ölkədən biri də Azərbaycandır ki, aclığın səviyyəsi 2 dəfədən çox aşağı düşüb. Bu böyük bəla Azərbaycanda aradan qaldırılıb.

Bizim beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir. Bir neçə il bundan əvvəl biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bu bizim ölkəmizin beynəlxalq nüfuzunu göstərir. Ölkəmizdə aparılan iqtisadi islahatlar

bu gün imkan verir ki, biz çoxşaxəli iqtisadiyyata malik olaq. Son illər ərzində aparılan işlər nəticəsində işsizliyin, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşüb. Bu gün işsizlik və yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 10 il ərzində 1 milyondan çox yeni iş yeri açılıb. Maliyyə vəziyyətimiz kifayət qədər möhkəmdir. Dövlət xarici borcumuz ümumi daxili məhsulun cəmi 10 faizini təşkil edir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən ölkələrin iqtisadi cəhətdən rəqabətqabliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 38-ci yerdədir. Yəni bu, gənc müstəqil dövlət üçün böyük göstəricidir.

Əlbəttə ki, ölkə qarşısında duran məsələlər var. Biz onları həll edirik. Ancaq son illərdə atdığımız addımlar və əldə edilən nailiyyətlər deməyə əsas verir ki, qarşıda duran məsələlər də uğurla icra ediləcək. Bir sözlə, bu gün Azərbaycan dünyaya açıq, müasir, dinamik inkişaf edən, iqtisadi cəhətdən möhkəm dayaqları olan bir ölkədir.

Bu gün İtaliyada olmuşkən İtaliya–Azərbaycan əlaqələri haqqında bir neçə kəlmə demək istəyirəm. Bu əlaqələr bu gün ən yüksək səviyyədədir. İtaliya bizim üçün yaxın dost, tərəfdaş ölkədir. İtaliya–Azərbaycan əlaqələrinin müxtəlif aspektləri inkişaf edir, ilk növbədə, siyasi əlaqələr. Düz 1 il bundan əvvəl iyul ayında mən İtaliyada rəsmi səfərdə olarkən iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul edildi. Yəni strateji tərəfdaşlıq iki ölkə arasındakı əlaqələrin ən yüksək zirvəsidir. Bu gün biz bu əlaqələri belə görürük və siyasi əlaqələr möhkəmlənir.

Mən bu gün buradan Romaya yola düşürəm. Romada İtaliya rəhbərləri ilə mənim görüşlərim olacaq. Siyasi əlaqələr, əlbəttə ki, bütün başqa sahələrə də müsbət təsir göstərir. Onu da qeyd etməliyəm ki, İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Bu da çox əlamətdar haldır. Bu bizi sevindirir. Çünki İtaliya bizim üçün çox yaxın ölkədir və Azərbaycan əhalisi İtaliyaya çox böyük sevgi ilə, rəğbətlə yanaşır.

Azərbaycanda işləyən, yaxud da turist kimi gələn italyanlar, əlbəttə ki, bunu hiss edirlər.

Bizim iqtisadi əməkdaşlığımız dərinləşir. Bu gün Azərbaycanda 60-dan çox İtaliya şirkəti fəaliyyət göstərir. Əlbəttə, bizim iqtisadi əlaqələrimizin böyük hissəsi enerji siyasəti ilə bağlıdır. Bu gün Azərbaycan və İtaliya ölkələrimiz, bölgələrimiz və Avropa üçün çox önəmli olan «Cənub Qaz Dəhlizi»nin icrası ilə birgə məşğuldur. «Cənub Qaz Dəhlizi» Bakıdan, Azərbaycandan başlayır və İtaliyada başa çatır. 3 min kilometrdən çox uzunluğu olan bu qaz kəməri gələcəkdə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında öz müsbət rolunu oynayacaq. Bu gün İtaliya ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olması bizə «Cənub Qaz Dəhlizi»ni vaxtında icra etməyə imkan verir. Beləliklə, bundan sonra uzun illər, onilliklər ərzində İtaliya və Azərbaycan, o cümlədən enerji siyasəti ilə bir-birinə daha da sıx bağlı olacaq. Bir sözlə, bizim ikitərəfli əlaqələrimiz sürətlə inkişaf edir. Bu əlaqələrin inkişafı üçün çox gözəl imkanlar var.

2 ay ərzində artıq 1 milyondan çox qonaq Azərbaycan pavilyonunda ölkəmizlə tanış olmuşdur. Bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, ölkəmizə çox böyük maraq var və bu maraq qarşılıqlıdır.

Burada qeyd edildi ki, Azərbaycanda keçirilən ilk Avropa oyunları bir neçə gün bundan əvvəl başa çatmışdır. Başqa qitələrdən fərqli olaraq, Avropa oyunları heç vaxt keçirilməmişdi. Onu da qeyd etməliyəm ki, bu oyunların keçirilməsi haqqında qərar məhz İtaliyada verilmişdir. 2012-ci ilin dekabr ayında Romada Avropa Olimpiya Komitəsi bu qərarı verdi və bu şərəfli missiya bizim üzərimizə düşdü. Azərbaycan bu oyunları ən yüksək səviyyədə təşkil etdi və keçirdi. Bu doğrudan da böyük idman və dostluq bayramı oldu. İtaliya komandası yarışlarda çox böyük nəticələr əldə etmişdir. Mən bu qələbələr münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm.

Onu da qeyd etməliyəm ki, 2 ildən sonra Bakıda İslam Həmrəyliyi oyunları keçiriləcək və bu bir daha mənim sözümü

təsdiqləyir. Çünki Azərbaycan həm Avropaya yaxın olan bir ölkədir, Avropa təşkilatlarının üzvüdür və bu təşkilatlarda çalışır, eyni zamanda, müsəlman aləminin tərkib hissəsidir. Biz öz siyasətimizlə çalışırıq ki, sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoqu gücləndirək. Hesab edirəm ki, İtaliyanın və Azərbaycanın bu sahədə gördüyü işlər təqdirəlayiqdir və biz öz səylərimizi bundan sonra da gücləndirəcəyik.

Bu sərgidə Azərbaycan çalışdı ki, öz imkanlarını ortaya qoysun. Dediyim kimi, 1 milyondan çox insan artıq pavilyonumuzla tanış olmuşdur. Amma ən yaxşı tanışlıq, əlbəttə ki, Azərbaycanı görməkdir. Mən sizi, bizim dostlarımızı Azərbaycana dəvət edirəm. Ölkəmizə gəlin və siz görəcəksiniz ki, Azərbaycanda italiyalılara çox böyük rəğbət var.

Əziz dostlar, bizimlə bərabər olduğunuza görə sizə bir daha minnətdaram. İtaliya xalqına yeni uğurlar, qələbələr və xoşbəxtlik arzu edirəm. Sağ olun.

* * *

*Çıxışlardan sonra dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgidəki İtaliya milli pavilyonu ilə tanış olmuşlar.*

*İtaliyanın milli pavilyonunun əsas konsepsiyası cəmiyyətin rifahının yüksəldilməsi, torpağın münbitliyinin artırılması üçün insanların istedadından səmərəli istifadəni, ətraf mühitin mühafizəsini ehtiva edir. Burada ziyarətçilər ölkənin zəngin mədəni irsi ilə tanışlıq və incəsənətinə daha yaxından bələd olmaq imkanı əldə edirlər. Pavilyonda, həmçinin İtaliyanın füsunkar təbiəti və möhtəşəm memarlıq abidələri ziyarətçilərin marağına səbəb olur.*

*«Milan Expo 2015» Beynəlxalq sərgisi mayın 1-dən fəaliyyət göstərir. «Planetimizi qidalandıraq, həyat üçün enerji qazanaq» (Feeding the Planet, Energy for Life) devizi ilə keçirilən builki sərgidə 145 ölkə iştirak edir. Bu ölkələrdən yalnız 54-ü, o*

*cümlədən Azərbaycan milli pavilyonla təmsil olunur. Digər ölkələr isə sərgidə yalnız stendlərlə iştirak edir. Sərgi oktyabrın 31-dək davam edəcək.*

*«Expo» Ümumdünya sərgisi, həmçinin izləyici sayına, miqyasına görə məşhurdur. Bu il Milanda təşkil olunan sərgi hələ fəaliyyətə başlayana qədər – mayın 1-dək 11 milyondan çox bilet satılıb. Azərbaycan milli pavilyonuna mayın 1-dən etibarən 1 milyondan çox ziyarətçi gəlib.*

*Prezident İlham Əliyev İtaliya milli pavilyonunun Xatirə kitabına ürək sözlərini yazdı.*

*Xatırladaq ki, «Expo» Ümumdünya sərgisi 1851-ci ildən etibarən keçirilir. Bu sərgi dünyanın müxtəlif ölkələrindən gələn ziyarətçi sayına görə Olimpiya oyunları və futbol üzrə dünya çempionatlarından sonra 3-cü böyük beynəlxalq tədbir hesab olunur.*

*** * ***

*İtaliya Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Milandan paytaxt Romaya gəlmişdir.*

## İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MATTEO RENZİ İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Roma*

*9 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 9-da İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Əvvəlcə Azərbaycan Prezidentinin rəsmi qarşılanma mərasimi oldu.*

*«Kici» sarayında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Baş nazir Matteo Renzi qarşıladı.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Baş nazir Matteo Renzi Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İtaliyanın hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti Baş nazir Matteo Renziyə təqdim olundu.*

*Geniş tərkibdə görüşdə Baş nazir Matteo Renzi ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini bildirdi, qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Ölkələrimiz arasındakı ikitərəfli münasibətləri dostluq və tərəfdaşlıq əlaqələri kimi dəyərləndirən Baş nazir ölkəsinin Azərbaycan–İtaliya əməkdaşlığının bundan sonra da dərinləşdirilməsi əzmində olduğunu bildirdi.*

*I Avropa oyunlarının yüksək səviyyədə keçirilməsinə görə prezident İlham Əliyevə təbriklərini çatdıran İtaliyanın Baş naziri*

*«Milan Expo 2015» Beynəlxalq sərgisində Azərbaycan pavilyonunun çox gözəl təşkil olunduğunu vurğuladı. O, sərgidə iştirakına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.*

*Baş nazir Matteo Renzi TAP layihəsinin həyata keçirilməsi istiqamətində əməkdaşlığın bundan sonra da davam etdirilməsinin önəmini vurğuladı. Azərbaycanda tolerantlığın yüksək səviyyədə təmin edilməsi istiqamətində prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin nümunə olduğunu dedi.*

*Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında dostluq münasibətlərinin mövcud olduğunu, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğuladı.*

*Prezident İlham Əliyev I Avropa oyunlarının Azərbaycanda keçirilməsi ilə bağlı qərarın məhz İtaliyada qəbul olunmasının rəmzi xarakter daşıdığını qeyd etdi. Dövlətimizin başçısı «Bakı–2015» I Avropa oyunlarında İtaliyanın geniş nümayəndə heyəti ilə təmsil olunmasını yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti «Milan Expo 2015» sərgisinin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırdı.*

*Söhbət zamanı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, mədəniyyət və digər sahələrdə uğurlu inkişafından məmnunluq bildirildi. İnfrastruktur, kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat, səhiyyə və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi. Energetika sahəsində əlaqələrin uğurla inkişaf etdiyi diqqətə çatdırıldı, qeyri-energetika sektorunda əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin Azərbaycan–Avropa İttifaqı əlaqələri baxımından önəmi qeyd edildi, regional, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İTALİYA RESPUBLİKASININ PREZİDENTİ SERCİO MATTARELLA İLƏ GÖRÜŞ

*Roma*

*9 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirən İtaliya Prezidenti Azərbaycanın bölgədə, regionda və ümumiyyətlə, dünyada gedən proseslərdə önəmli rolunu qeyd etdi.*

*Prezident Sercio Mattarella «Milan Expo 2015» sərgisində iştirakına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. İtaliya dövlətinin başçısı Heydər Əliyev Fondunun ikitərəfli münasibətlərimizin mədəni sahədə əlaqələrin inkişafında mühüm rolunu vurğuladı. Milan sərgisində Azərbaycan pavilyonunun yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Azərbaycanın beynəlxalq münasibətlər sistemində, antiterror fəaliyyətində, ekstremizmə və radikalizmə qarşı beynəlxalq səviyyədə mübarizədə rolunu yüksək qiymətləndirdi.*

*İtaliya Prezidenti ölkələrimiz arasında güclü dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdıraraq dedi ki, bu, xalqlarımızı daha da yaxınlaşdırır. O, Azərbaycanın yalnız regionda deyil, ümumiyyətlə, beynəlxalq dialoqun həyata keçirilməsi işində rolunu yüksək qiymətləndirdi.*

*Prezident Sercio Mattarella I Avropa oyunlarının yüksək səviyyədə təşkil olunmasına və keçirilməsinə görə Azərbaycan Prezidentini təbrik etdi.*

*Prezident İlham Əliyev İtaliyanın Azərbaycan üçün mühüm tərəfdaş ölkə olduğunu vurğuladı və ötən il İtaliyaya səfəri*

*zamanı qəbul edilən strateji tərəfdaşlıq haqqında sənədin əhəmiyyətini xüsusi qeyd etdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi. İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri kimi önəmini qeyd edən dövlətimizin başçısı siyasi, iqtisadi, mədəni, o cümlədən enerji, tikinti, sənaye, nəqliyyat sahələrində əlaqələrimizin uğurla inkişaf etdiyini vurğuladı. «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyətinə toxunan prezident İlham Əliyev dedi ki, bu layihə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, Azərbaycan ilə İtaliya arasında sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə öz töhfəsini verir. Bildirdi ki, «Cənub Qaz Dəhlizi» ölkələrimiz arasındakı uğurlu əməkdaşlığın bariz nümunəsidir.*

*Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində İtaliya şirkətlərinin fəal iştirak etdiyini xüsusi vurğuladı.*

*Söhbət zamanı iqtisadi, siyasi, mədəni əlaqələrimizin daha da genişləndirilməsi, ikitərəfli münasibətlərimizin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çərçivəsində möhkəmləndirilməsi baxımından önəmi vurğulandı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına işgüzar səfəri iyulun 10-da başa çatmışdır.*

**MONTENEQRO RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Monteneqro əlaqələri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız dost xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2015-ci il*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün Fransa xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Fransa münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Yüksək səviyyəli siyasi təmaslarımız, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığımız, davamlı mədəni və humanitar əlaqələrimiz ölkələrimizin və xalqlarımızın dostluğunu nümayiş etdirən mühüm amillərdir.

İnanıram ki, bu yaxınlarda Azərbaycana səfəriniz, apardığımız danışıqlar və imzalanmış Azərbaycan–Fransız Universitetinə dair «niyyət məktubu» ikitərəfli münasibətlərimizin inkişafına mühüm təkan verəcəkdir.

Fransanın Cənubi Qafqaz regionunda sülhün və sabitliyin bərqərar olmasında marağı bizim üçün dəyərlidir. Biz Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın işğalına son qoyulması, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın öz doğma yurd-yuvasına qayıtması üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2015-ci il*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XÜSUSİ ELÇİSİ VƏ ƏLAQƏLƏNDİRİCİSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də ABŞ Dövlət Departamentinin Beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanın I Avropa oyunlarını yüksək səviyyədə təşkil etməsinin və oyunlar zamanı gözəl əhval-ruhiyyənin mövcud olmasının önəmini qeyd edən Amos Hokstayn bunun həm ölkəmiz, həm də dünya üçün əhəmiyyətli hadisə olduğunu dedi.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafının hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, ölkələrimizin enerji sahəsində əməkdaşlığından məmnunluq ifadə olundu və bu əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulandı.*

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*11 iyul 2015-ci il*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə iyulun 11-də Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir.*

*İftar mərasimi Qurani-Kərimdən ayələrin və Ramazan duasının oxunması ilə başlandı.*

**Ş e y x ü l i s l a m A l l a h ş ü k ü r P a ş a z a d ə** (*Qafqaz Müsəlmanları İdarəsinin sədri):* Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri möhtərəm Prezident!

Hörmətli qonaqlar, əziz din qardaşlarım!

Mənim dəvətimi qəbul etdiyinizə və bu mərasimdə iştirakınıza görə sizə minnətdarlığımı bildirir və hamınıza «Xoş gəlmisiniz!» – deyirəm. Ramazan ayında – Qurani-Şərifin nazil olduğu bu müqəddəs ayda Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri ilə birlikdə iftar süfrəsi arxasında dövlət başçısı ilə bir yerdə olmaq bizim üçün həm böyük şərəfdir, həm də bu bir ənənə halı almışdır. Bu ənənənin bünövrəsini qoyan, milli-mənəvi dəyərlərimizə həyat verən ulu öndər Heydər Əliyev həzrətləri olmuşdu. Allah-Taala Heydər Əliyev həzrətlərinə, onun ömür-gün yoldaşı Zərifə xanıma rəhmət eləsin.

Zati-aliləri, dindarlarımız həmişə Sizinlədir və Sizin müzəffər olmağınız üçün həmişə Allah-Taalaya dualar edirlər. Peyğəmbər əleyhissəlamın hədisi var, buyurur ki, əgər Allah bir xalqı istəsə, ona müdrik rəhbər göndərər, o, xalqı zülmətdən nura tərəf aparacaq. Bu həqiqətən, belə oldu. Azərbaycan dağılmaqda, xəritədən silinmək ərəfəsində ikən Allahın

mərhəməti, xalqın dəstəyi və çağırışı ilə ulu öndər Heydər Əliyev həzrətləri Azərbaycana gəldi, dövlətçiliyin bünövrəsini bərpa etdi və müstəqilliyi bizə əmanət qoyub getdi. Heydər Əliyev həzrətlərinin Azərbaycan xalqına ən böyük əmanəti isə onun siyasi kursunun və məktəbinin davamçısı İlham Əliyev həzrətləridir. Mən deyərdim ki, bu həm də Allah-Taalanın Azərbaycan xalqına böyük lütfü və kərəmidir.

Zati-aliləri, bu ilin aprel ayında Sizin Səudiyyə Ərəbistanına səfəriniz və İki Müqəddəs Ocağın Xadimi Kral həzrətlərinin hava limanına gələrək, Sizi qarşılama mərasimində iştirak etməsi və Sizə olan münasibəti məndə qürur hissi oyatdı, mən bununla fəxr etdim. Çünki Kral həzrətləri çox az dövlət rəhbərlərinin pişvazına çıxır. Bu, yalnız Səudiyyə Ərəbistanının Azərbaycana və onun rəhbərinə olan münasibəti deyildi. Bəlkə də bütün islam dünyasının Azərbaycana və onun rəhbərinə olan münasibəti idi.

Xüsusən də, zati-aliləri, müqəddəs Kəbə evinin qapılarının Sizin üzünüzə açılması. Kəbə evinin daxilində ibadət zamanı Siz xalqımıza, Vətənimizə, torpağımıza, şəhidlərə, ulu öndərə dua etdiniz. Mən orada bir daha əmin oldum ki, Allah-Taalanın yandırdığı Heydər çırağını söndürmək olmaz. Xüsusən mən bir şeyi demək istərdim. Bu 35 il ərzində mən heç bir dövlət rəhbəri üçün, ya da bir şəxsiyyət üçün peyğəmbər zərihinin qapısının açılmasının şahidi olmamışam, nə də eşitməmişəm. Zati-aliləri, bu qapılar Sizin üzünüzə açıldı. Siz Heydər qapısından peyğəmbərin sevimli övladı Fatimeyi-Zəhra əleyhissalamın otağına daxil oldunuz, ziyarət etdiniz. Oradan Peyğəmbər məscidinə daxil oldunuz və peyğəmbər mehrabını ziyarət etdiniz, əl sürtdünüz. Oradan isə peyğəmbər əleyhissalamın qəbrinin üstünə gəlib dualar etdiniz. Bu ancaq Allahı istəyən və Allahın istədiyi insanlara nəsib ola bilər. Mən arzu edərdim ki, Allah-Taala bütün müsəlmanlara, arzu edənlərə həm Məkkəni, həm də peyğəmbər zərihini ziyarət etməyi nəsib etsin, inşallah. Əlbəttə, Allah-Taala buyurur ki, sən mənə tərəf bir addım at, mən sənə tərəf on addım ataram.

Azərbaycan inkişaf etmiş bir dövlətə çevrilib. Müstəqil Azərbaycan regionda lider dövlətdir. Müstəqilliyimizə heç kim xələl gətirə bilməz. Zati-aliləri, Sizin siyasətinizin nəticəsində Azərbaycan güclü, qüvvətli, beynəlxalq müstəvidə öz sözünü deyən, haqqını tələb edən bir dövlətə çevrilib.

Azərbaycan öz iqtisadiyyatını, siyasi potensialını möhkəmləndirməklə bərabər, həm də ilklərə imza atan bir dövlətə çevrilib. Buna I Avropa oyunlarının Azərbaycanda keçirilməsi misal ola bilər. Bəli, zati-aliləri, Siz demişdiniz ki, Avropa oyunları yaxınlaşdıqca, bizə iftira atanlar, şayiə yayanlar çox olacaq, çünki bizi gözü götürməyən bəzi qüvvələr var. Amma onların heç biri istəklərinə nail ola bilmədi. Çünki söylədikləri yalan, şayiə idi. Avropa oyunlarının açılışı mərasimində dövlət rəhbərlərinin, zati-aliləri, Sizin ətrafınızda olması və minlərlə insanın dünyanın müxtəlif nöqtələrindən Azərbaycana axışıb gəlməsi, xalqımızla təmasda, ünsiyyətdə olması, Azərbaycanın tarixi, mədəniyyəti, multikulturalizm dəyərləri, tolerantlıq ənənələri, zəngin mənəviyyatı, iqtisadiyyatı ilə tanış olması bizim qələbəmizdir. Ən böyük qələbəmiz isə o idi ki, hər dəfə bizim himnimiz çalınanda, bayrağımız ucalanda bununla bərabər, həm Azərbaycan ucalırdı, həm də onun siyasəti. Mən idmançıları da bu qələbə münasibətilə təbrik edirəm. İnanıram ki, bu bizim böyük mənəvi qələbəmizdir.

Zati-aliləri, mən inanıram ki, inşallah, əzəli Azərbaycan əraziləri olan Dağlıq Qarabağ torpaqlarında tezliklə bayrağımız ucalacaq, himnimiz çalınacaq. Ali Baş Komandan kimi, Sizin rəhbərliyinizlə biz o torpaqları azad edərik, inşallah. Şəhidlərimizin qanı yerdə qalmayacaq. Allah onlara rəhmət eləsin.

Mən Heydər Əliyev Fondunun prezidenti, «Bakı–2015» ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım haqqında bir neçə söz demək istərdim. Mehriban xanımı arenaya dəvət etdilər. O, tribunaya yaxınlaşaraq çıxışını «Qoy Tanrı Azərbaycanı hər zaman qorusun!» sözləri ilə başladı. Budur yüksək mənəviyyatın təntənəsi. Mən Mehriban xanımı

Azərbaycanın ən yüksək mükafatı, ulu öndərin adını daşıyan «Heydər Əliyev» ordeni ilə təltif olunması münasibətilə milyonlarla dindarlar adından təbrik edirəm.

Zati-aliləri, Siz Azərbaycanın adını bəşəriyyətin tarixinə qızıl hərflərlə yazdınız. Azərbaycan boyda böyük bir məşəl Avropa qitəsi üzərindən bütün dünyaya, inşallah, öz nurunu saçacaq. Bu, qardaşlıq, dostluq, tolerantlıq, multikultural, mədəniyyət nuru olmaqla bərabər, həm də Azərbaycanı tərənnüm edəcək. Bu da bizim üçün böyük fəxrdir, böyük fəxarətdir.

Azərbaycanda milli-mənəvi dəyərlərimiz inkişaf edir. Məscidlər, ziyarətgahlar, sinaqoqlar, kilsələr tikilir, ya da bərpa olunur, dindarların istifadəsinə verilir. Azərbaycan dindarlarına ən böyük töhfəniz isə paytaxtımızın mərkəzində əzəmətlə ucalan Heydər məscidi oldu. Qafqazda analoqu olmayan bu məscidin arxitektura baxımından, deyərdim, bəlkə də dünyada analoqu yoxdur. Heydər məscidinin 95 metrlik minarələri Azərbaycanda milli-mənəvi dəyərlərin ucalığını göstərir.

Mən bir şeyi də deməyə bilmərəm. Bu gün dünyada baş verən hadisələrə nəzər yetirəndə görürük ki, əksər ölkələr təəssüflər olsun, mənəvi uçuruma, tənəzzülə doğru gedir. Çox təhlükələr var – müsəlman müsəlmanın qanını tökür, məscidlər, sinaqoqlar, kilsələr dağıdılır, insan qanı axıdılır, Avropada xristian-müsəlman qarşıdurması, dinlər, məzhəblər arasında qarşıdurma, islamofobiya. Bu nə Musa, nə İsa, nə də peyğəmbər əleyhissalamın dinində yoxdur.

Zati-aliləri, Siz bir dəfə burada, iftar süfrəsində çıxış edərkən dediniz ki, Azərbaycanda olan tolerantlıq, dostluq, münasibətlər, dinlər arasında münasibət, qardaşlıq başqa dövlətlər üçün nümunə ola bilər. Bu Sizin Azərbaycan xalqına olan böyük mükafatınızdır.

Allah-Taala Sizi qorusun, ailənizi qorusun!

Allah-Taala bizim ibadətlərimizi, dualarımızı, oruc və namazlarımızı qəbul etsin. Bir daha Sizin hamınıza «Xoş gəlmisiniz!» – deyirəm. Əssalamu aleykum və rəhmətullahi və bərəkətuhu!

**A l e k s a n d r a t a** *(Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri):* Möhtərəm cənab Prezident!

Hörmətli şeyx həzrətləri!

Hörmətli dini liderlər, səfirlər!

Xanımlar və cənablar!

Mən ilk növbədə, bütün dindarları səmimi-qəlbdən Ramazan ayı münasibətilə təbrik edirəm. Oruc dindarların həyatında xüsusi yer tutur. Bu dövrdə biz heç vaxt olmadığı qədər dərk edirik ki, bu hökm Tanrı tərəfindən verilib. Biz dərk edirik ki, yalnız öz dünyəvi varlığımızın qayğısına qalmamalıyıq, həm də Allah-Taala tərəfindən bizə göndərilən hökm və nəsihətləri yerinə yetirməliyik.

Əlbəttə ki, mən bu ayın uğurla başa çatmasını və Ramazan bayramının layiqincə qeyd olunmasını arzulayıram. Ən başlıcası isə yaddaşımızda qalan Bakıda keçirilmiş I Avropa oyunlarının bizdə yaratdığı təəssüratlardır. Lakin tolerantlığın və multikulturalizmin dini fəaliyyətin, dini həyatın bir hissəsi olduğunu düşünmək bir o qədər düzgün deyil. Çünki multikulturalizm özünü hər sahədə təzahür etdirir. Elə I Avropa oyunlarının Bakıda keçirilməsi də Azərbaycanda həyata keçirilən daxili siyasətin parlaq ifadəsi, mən deyərdim, apofeozudur.

Multikulturalizm özünü tam şəkildə büruzə verdi, nə demək olduğunu və nə kimi bəhrələr verdiyini göstərdi. Ötən əsrin 90-cı illərinin sonlarını, ümummilli liderimiz Heydər Əliyevin Zuğulbada idman kompleksini bərpa etdiyi vaxtları xatırlayıram. Bəziləri çaşqınlıq içərisində düşünürdülər ki, ölkədə çətinliklərin olduğu bir dövrdə idman komplekslərinin bərpasına ehtiyac varmı? Mən deyərdim ki, istənilən ölkənin gələcəyi gənclərdən asılıdır. O zaman Azərbaycanın bütün çətinliklərinə, dövlətin üzləşdiyi sınaqlara baxmayaraq, dövlət böyüməkdə olan nəslin qayğısına qalırdı.

Cənab Prezident, Bakıda ilk Avropa oyunlarının keçirilməsinin təşkilinə verdiyiniz böyük töhfəyə görə Sizə xüsusilə təşəkkür etmək istəyirəm. Bu bizim üçün əsl bayram idi. Başa düşürəm ki, bu oyunların keçirilməsinin təşkili o qədər də asan

məsələ deyildi, lakin buna baxmayaraq, Azərbaycan özünün layiqli dövlət, dünya birliyinin layiqli ölkəsi olduğunu, dövlətlərarası siyasətdə, iqtisadiyyatda və mədəni münasibətlərdə, həyata keçirilməli olan xeyirxah işlərdə hər hansı dövlətin tərəfdaşı ola biləcəyini tam şəkildə göstərdi. Buna görə Sizə ürəkdən təşəkkür edirəm.

**Milix Yevdayev** *(Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri):* Möhtərəm Prezident!

Şeyx həzrətləri!

Əziz və hörmətli qonaqlar!

Şeyx həzrətləri çıxışında bütün məqamlara toxundu. Mən belə fikirləşirəm ki, o məqamlara bir daha toxunmaq lazım deyil. Mən yalnız bir məsələni qeyd etmək istərdim – Azərbaycanın xoşbəxtliyi ondadır ki, onun Heydər Əliyev kimi ulu öndəri, İlham Əliyev kimi prezidenti var. Allah-Taala onları Azərbaycan xalqına əziz və əvəzsiz bir nemət olaraq bəxş etmişdir.

Möhtərəm Prezident, Sizin bugünkü arzularınız bizim sabahkı günlərimizdir.

Möhtərəm Prezident, Siz sevinci nəinki bizimlə, bütün dünya ilə bölüşdünüz. Biz böyük qürur hissi ilə Sizin Atəşgahda Avropa oyunlarının məşəlini yandırmağınızı izləyirdik. Bu məşəl Azərbaycan xalqının ürəyinin məşəlidir. Həmçinin o məşəl Sizin qəlbinizin, ürəyinizin odu, atəşidir. Çox müdrik bir addımla o məşəli Siz Azərbaycanın bütün guşələrinə göndərdiniz. Bununla da Siz Azərbaycanı öz ürəyinizin odu ilə qızdırıb, işığı ilə nura qərq etdiniz.

Möhtərəm Prezident, biz yəhudilər də Azərbaycanda, bu məmləkətdə bu xalqın, bu dövlətin bütün qələbələrinə sevinir və Sizinlə çiyin-çiyinə addımlayırıq. Bizim xalqımıza qəriblik qisməti yazılıb və biz də onu qəbul etmişik. Amma bizim harada olmağımızdan, harada yaşamağımızdan asılı olmayaraq, biz Azərbaycanı doğma bilib, onu qəlbimizdə, ürəyimizdə, gözümüzdə, ruhumuzda, şüurumuzda yaşadırıq.

Ona görə də, ayın 23–24-də Amerika Birləşmiş Ştatlarından 150 nəfərə yaxın azərbaycanlı yəhudi Azərbaycanın bu cahanşümul qələbələrini təbrik etmək, gözaydınlığı vermək üçün Bakıya gələcəklər.

Möhtərəm Prezident!

Şeyx həzrətləri!

Siz bu dəqiqə qeyd etdiniz ki, bütün şəhidlərimizə Allah-Taaladan rəhmət diləyək. Allah-Taala bizə qismət etsin ki, Qarabağ torpaqları azad olunsun, bizim uca bayrağımız Qarabağ səmasında dalğalansın. Xudavəndi-Aləm bütün oruclarınızı, dualarınızı qəbul edib, əvəzində hamınıza İbrahim peyğəmbər ömrü, böyük ailə səadəti nəsib etsin. Allah elə etsin ki, yollarınız uğurlu, işləriniz avand, çörəyiniz isti, suyunuz sərin, gözünüz işıqlı, diziniz taqətli olsun. Allah amanında!

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Hörmətli mərasim iştirakçıları!

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər bir Azərbaycan ailəsinə sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Bizim mübarək Ramazan ayında görüşlərimiz ənənəvi xarakter daşıyır. Bu ənənəni ulu öndər Heydər Əliyev və şeyx həzrətləri qoymuşlar. Bu ənənə yaşayır və yaşayacaqdır. Əslində bu, dövlət–din münasibətlərinin çox gözəl təzahürüdür. Azərbaycanda dövlət–din münasibətləri sağlam təməl üzərində formalaşıb və inkişaf edir. Bu hər bir ölkə üçün önəmli məsələdir. Bizim amalımız birdir. Bizim amalımız Azərbaycanı inkişaf etdirmək, Azərbaycan xalqının maraqlarını müdafiə etmək və Azərbaycanı daha da güclü dövlətə çevirməkdir. Biz bu məqsədə doğru inamla, uğurla irəliləyirik.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri vardır. Əgər 1993-cü ildə Azərbaycan xalqı

onu hakimiyyətə dəvət etməsəydi, Azərbaycanın taleyi çox ağır ola bilərdi. Əslində müstəqilliyimizin ilk illəri bunu əyani şəkildə göstərmişdir. Məhz onun qətiyyəti, siyasəti, cəsarəti, müdrikliyi nəticəsində Azərbaycan ağır sınaqlardan üzüağ çıxmış, inkişaf yoluna qədəm qoymuş və bugünkü Azərbaycan reallıqları məhz o illərdə başlanmışdır.

Şeyx həzrətləri nəinki Azərbaycanda, Qafqazda, dünya miqyasında din xadimi kimi, böyük rəğbətə malik bir şəxsiyyətdir. Əlbəttə ki, ulu öndər Heydər Əliyevin siyasi bacarığı, şeyx həzrətlərinin din aləmində bacarığı, dünyagörüşü, müasirliyi bugünkü Azərbaycanın reallıqlarını keçən əsrin 90-cı illərinin ortalarında mümkün etmişdir. Bu gün dövlət–din münasibətləri, o cümlədən mənimlə şeyx həzrətləri arasındakı münasibətlər dostluğa söykənir. Bir daha demək istəyirəm ki, Azərbaycanın inamlı, uğurlu inkişafı çox möhkəm təməl üzərində qurulubdur.

Əlbəttə ki, iqtisadi inkişafımız bizi sevindirir. Bu da düşünülmüş siyasətin nəticəsidir. Beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir. Bu gün Azərbaycan dünya miqyasında böyük dəstəyə və hörmətə malik olan bir ölkədir. Ancaq möhkəm təməl olmasaydı, biz bu nailiyyətlərə çata bilməzdik. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik, dövlət–din münasibətlərinin möhkəm təməl üzərində qurulması bizim uğurlarımızın əsas şərtidir.

Bu gün Azərbaycan müstəqil dövlət kimi, ən yüksək zirvələrə çatıb. Əgər tarixə nəzər salsaq görərik ki, Azərbaycan xalqı heç vaxt indiki kimi yaxşı yaşamamışdır, Azərbaycan heç vaxt indiki kimi güclü olmamışdır. Bu uğurlar cəmi 24 il ərzində qazanılıb. Özü də müstəqilliyin ilk illəri acınacaqlı və fəlakətli illər idi. Dünyada 200-dən çox ölkə var. Onların hamısı müstəqildir. Ancaq bir çox hallarda bu müstəqillik ya yarımçıqdır, ya da şərti xarakter daşıyır. Biz isə, sözün əsl mənasında, müstəqil dövlətik, bununla fəxr edirik, hər bir vətənpərvər Azərbaycan vətəndaşı bununla fəxr edir.

Dövlət eyni zamanda, Azərbaycanda dinlərarası münasibətlərin tənzimlənməsində də öz rolunu oynayır. Azərbaycanda

keçirilən çoxsaylı beynəlxalq forumlar, konfranslar, dinlərarası dialoqla, multikulturalizmlə, humanitar məsələlərlə bağlı forumlar, əlbəttə ki, ölkəmizi dünyaya nümunəvi ölkə kimi təqdim edir, eyni zamanda, Azərbaycanda dinlərarası münasibətlərin gələcəkdə də sağlam şəkildə inkişaf etməsinə şərait yaradır. Azərbaycanda islam dini ilə bağlı çoxsaylı tədbirlər keçirilir. Bu tədbirlərdə həm bizim qonşu dövlətlərdən nümayəndələr iştirak edir, eyni zamanda, uzaq ölkələrdən qonaqlar gəlir. Yəni budur bugünkü Azərbaycanın reallıqları. Dövlət bu istiqamətdə öz səylərini göstərir və göstərəcək.

Azərbaycanda bütün tarixi məscidlərimiz dövlət hesabına əsaslı şəkildə bərpa edilibdir. Bibiheybət, Təzəpir, Əjdərbəy məscidləri, 743-cü ildə tikilmiş, müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı məscidi, İmamzadə Dini Kompleksində indi əsaslı təmir-bərpa işləri aparılır. Əlbəttə ki, keçən ilin sonlarında Heydər məscidinin tikilib istifadəyə verilməsi tarixi hadisə idi.

Bir neçə il bundan əvvəl mən Məkkə ziyarətində müqəddəs Kəbənin içində dualar edərək, niyyət etmişdim ki, Azərbaycanda böyük, möhtəşəm məscid tikiləcək və bu məscidin adı Heydər məscidi olacaq. Bu ilin aprel ayında mənə yenidən Kəbənin içində dualar etmək xoşbəxtliyi nəsib oldu. Şeyx həzrətlərinin dediyi kimi, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralının şəxsi göstərişi ilə müqəddəs Kəbənin qapıları mənim, şeyx həzrətlərinin, ailə üzvlərimin üzünə açılmışdır və yenidən müqəddəs Kəbənin içində dualar edərək, ürəyimdə dedim ki, Heydər məscidi tikildi. Bir müsəlman kimi, mənim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Bu, atamın ruhu qarşısında mənim borcumdur. Bir müsəlman kimi, mən xoşbəxt adamam ki, buna nail ola bilmişəm və eyni zamanda, xoşbəxt adamam ki, müqəddəs Kəbənin içində 3 dəfə dualar etmişəm.

Səudiyyə Ərəbistanında səfərdə olarkən mən İslam Əməkdaşlıq Təşkilatında da oldum. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Təşkilatın baş katibi ilə görüşüm, çox

məqamlar ətrafında apardığım fikir mübadiləsi bir daha göstərir ki, Azərbaycan bu təşkilatın fəal və dəyərli üzvüdür. May ayında isə İslam Əməkdaşlıq Təşkilatının baş katibi cənab İyad bin Amin Mədəni Mədəni Azərbaycanda səfərdə idi və Bakıda keçirilmiş Sivilizasiyalararası Dialoq Forumundakı çıxışında Azərbaycanda dini məsələlərin nə qədər yüksək səviyyədə həll olunduğunu xüsusilə qeyd etmişdir. Ümumiyyətlə, bütün müsəlmanları birləşdirən təşkilatın rəhbərinin Azərbaycan, ölkəmizin reallıqları haqqında sözləri, əlbəttə ki, yüksək qiymətə malikdir. Qeyd etməliyəm ki, may ayında keçirilmiş tədbirdə YUNESKO-nun, İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun baş katibləri və digər qonaqlar iştirak etmişlər. Onların iştirakı əslində Azərbaycanda bu sahədə görülən işlərə verdikləri yüksək qiymətdir. Bizim üçün bu, adi hala çevrilib. Azərbaycanda hökm sürən ab-hava, dinlərarası, millətlərarası münasibətlər, multikulturalizm dəyərləri – bunlar bizim üçün həyat tərzidir. Ancaq biz bəzi başqa ölkələrə nəzər yetirsək görərik ki, bu heç də hər yerdə belə deyil. Əksinə, milli, dini zəmində qarşıdurmalar, müharibələr, toqquşmalar baş verir, məzhəb zəminində qan tökülür. Bu dözülməzdir və mən də şeyx həzrətlərinin sözləri ilə razıyam ki, bugünkü dünyada proseslər daha çox mənfi istiqamətdə gedir. Biz 1 il bundan əvvəl bu salonda toplaşmışdıq. Görün, bu 1 il ərzində dünyada nə qədər böyük təhlükələr yaranıb, hansı ki, 1 il bundan əvvəl onlar haqqında heç söhbət belə, aparılmırdı.

Dinlərarası münasibətlərdə böhran yaşanır. İslamofobiya, ksenofobiya, antisemitizm meyilləri güclənir. Multikulturalizm dəyərləri haqqında hətta yüksək vəzifə sahibləri tərəfindən çox təhlükəli ifadələr səslənir ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizm işləmir və onun gələcəyi yoxdur. Gəlsinlər Azərbaycana baxsınlar. Azərbaycanda multikulturalizm yaşayır, möhkəmlənir. Heydər məscidinin açılışında mən, şeyx həsrətləri, Aleksandr ata, Milix Yevdayev çıxış etmişik. Budur bizim reallıqlarımız. Bu bizim üçün adi qaydadır. Ancaq eyni zamanda, bizim xristian, yəhudi qardaşlarımızın orada çıxışı bir

mesaj, siqnal idi, həm Azərbaycan cəmiyyətinə, həm bölgəyə, həm də dünyaya. Bax, belə olmalıdır. Budur normal həyat tərzi, budur normal siyasət.

Bir daha demək istəyirəm ki, Azərbaycanın gələcək uğurlu inkişafı məhz bu istiqamətdə ola bilər. Biz heç vaxt imkan verə bilmərik ki, hansısa kənar bir qüvvə Azərbaycanda dini, yaxud da ki, milli zəmində nifaq toxumlarını səpsin. Azərbaycan dövləti buna heç vaxt imkan verməyəcək və Azərbaycan reallıqları bunu əyani şəkildə göstərir.

Biz Azərbaycanda, əlbəttə ki, bu işləri ən yüksək səviyyədə tənzimləmişik. Bizim gələcək inkişafımız uğurla davam etdiriləcək. Ancaq biz istəyirik ki, hər yerdə belə olsun. Əgər hər yerdə belə olarsa, o zaman dini zəmində qarşıdurmalar da olmayacaq, qan tökülməyəcək və insanlar yaradıcılıqla məşğul olacaq, öz həyatlarını quracaq, ailələrinə diqqət yetirəcəklər. Ona görə Azərbaycanda multikulturalizmlə, dinlərarası dialoqla bağlı keçirilən tədbirlərin çox böyük mənası var.

Azərbaycan nümunəvi bir ölkədir. Bunu Azərbaycana gələn hər bir qərəzsiz qonaq görür və etiraf edir. İstənilən sahədə – şəhərimizin gözəlliyi, təhlükəsizlik, iqtisadi inkişaf, sosial ədalət, dövlət–din münasibətləri, dinlərarası dialoq, imkanlarımız və Avropa oyunlarının keçirilməsi bizim potensialımızı bütün dünyaya göstərdi. Biz bu potensialı bilirdik. Biz bilirdik ki, nəyə qadirik. Ancaq bəziləri bunu bilmək, görmək istəmirlər, ağa qara deyirlər, bizə şər, böhtan atırlar. Bizim heç kimlə işimiz yoxdur, öz həyatımızı qurmuşuq, heç kimə də heç bir məsələni diktə etmirik. Ancaq heç vaxt imkan verməri̇k ki, hansısa bir kənar qüvvə bizə diktə etsin. Biz müstəqil ölkəyik, ləyaqətli ölkəyik. Azərbaycan xalqının taleyi onun öz əlindədir. Ona görə Azərbaycana gələn qərəzsiz, xoşniyyətli insanlar bu reallıqları görürlər. Biz ölkə daxilində bütün əsas məsələləri həll etmişik. Əlbəttə ki, sosial problemlər var, torpaqlarımız işğal altındadır, qaçqınların bir hissəsi hələ ki,  çox ağır vəziyyətdə yaşayır, ancaq onların problemləri həll olunur. Bu, qarşımızda duran problemlərdir, biz onları həll edəcəyik, o cümlədən

Dağlıq Qarabağ məsələsi də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq. Bunun başqa yolu yoxdur. Azərbaycan heç bir başqa variantla heç vaxt razılaşmayacaq.

Ancaq biz digər sahələrdə – sosial ədalət, iqtisadi inkişaf, dinlərarası dialoq – artıq bütün lazımi tədbirləri görmüşük ki, bax, bu möhkəm təməl qurulub. Biz istəyirik ki, dünyada da belə olsun. Biz istəyirik ki, ölkələr arasındakı əlaqələr əməkdaşlıq üzərində qurulsun. Rəqabət üzərində qurulmasın, xoş niyyət üzərində qurulsun. Biz öz işlərimizi bu istiqamətdə davam etdirəcəyik.

Bir məsələni də vurğulamaq istəyirəm, milli, dini dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz çalışmalıyıq və çalışırıq ki, bizim gənclərimiz də milli ruhda böyüsünlər, tərbiyə alsınlar. Milli ruhda, eyni zamanda, multikulturalizm ruhunda. Burada heç bir ziddiyyət yoxdur. Hər bir vətənpərvər insan, öz Vətənini, millətini sevən insan böyük hörmətə layiqdir. Başqa dinlərə hörmət edən, başqa millətdən olan insanlara hörmətlə yanaşan insan da böyük hörmətə layiqdir. Ona görə bizim gənclərimiz, bax, bu ruhda tərbiyə olunmalıdır. Biz gənclərimizi kənar təsirlərdən qorumalıyıq. Kənar təsir cəhdləri var, biz hamımız bunu yaxşı bilirik. Nə qədər gücüm varsa, mən bu kənar təsirin qarşısında duracağam və heç kimə imkan verməyəcəyəm ki, kimsə öz iradəsini Azərbaycana diktə etsin.

Azərbaycan gəncləri vətənpərvərdir, biliklidir, savadlıdır. I Avropa oyunları bunu bir daha göstərdi. Bu oyunlarda 20 minə yaxın könüllü iştirak edirdi. Onlar təmənnasız iştirak edirdi, gecə-gündüz, səhərdən axşama qədər çalışırdılar. Azərbaycan gəncliyi budur. Bilikli, xarici dili bilən, savadlı, peşəkar, mədəni, gözəl gənclərdir. Onların hər birinə artıq mənim adımdan və Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın adından təşəkkürnamə sertifikatı verilməyə başlanılıb. Onlar buna layiqdirlər. Bizim gənclər milli ruhda, vətənpərvərlik ruhunda böyüməli, eyni zamanda, savadlı, bilikli olmalıdırlar.

Bu gün dünyada terrorizm, ekstremizm, radikalizm meyilləri hər yerdə – Yaxın Şərqdə, Avropanın özündə, müxtəlif yerlərdə baş alıb gedir. Bunun təzahürləri fərqli ola bilər. Ancaq mahiyyət etibarilə bu, necə deyərlər, bir anlayışdır. Buna qarşı ən gözəl sığorta, ən gözəl sədd təhsildir. Bilikli, savadlı insan çox nadir hallarda yolunu aza bilər. Savadsız insanların beynini zəhərləmək asandır. Ona görə bizim gənclər savadlı, biliklidirlər. Biz bunu təqdirlə qeyd edirik və bizim siyasətimiz bundan sonra bu istiqamətdə davam etdiriləcək. Burada həm dövlət qurumları, həm dini qurumlar yenə də bir yerdə olmalıdır. Azərbaycanda həm ali, həm orta məktəblərdə eyni zamanda, dini təhsil də yüksək səviyyədə olmalıdır. Azərbaycan dövləti bu istiqamətdə bütün lazımi tədbirləri görür və görəcəkdir.

Bir sözlə, əziz dostlar, bugünkü iftar məclisində biz bir daha ürək sözlərimizi ifadə etdik. Ölkəmizin gələcəyi ilə bağlı fikirlərimizi bildirdik. Qeyd etməliyəm ki, mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Çünki biz haqq yolundayıq, ədalət yolundayıq. Azərbaycanda ictimai-siyasi vəziyyət çox sabitdir. Xalqla iqtidar arasındakı birlik bizi daha da gücləndirir. Heç bir qüvvə bizim uğurlu yolumuza təsir edə bilməz.

Bütün dünya müsəlmanlarını qarşıdan gələn mübarək bayram münasibətilə bir daha təbrik edirəm.

**Şeyxülislam Allahşükür Paşazadə:** Cənab Prezident, bizə və dinə olan münasibətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Məni yenə də o Kəbə evinin içərisinə apardınız, kövrəltdiniz. Allah-Taaladan arzu edirəm ki, burada olanların hamısına bir daha Kəbə evində olmağı və dua etməyi nəsib etsin, inşallah.

Sizin hamınıza mərasimimizə gəldiyiniz üçün minnətdaram.

## NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASINDA İŞTİRAK *

*13 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyulun 13-də Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz ənənəvi olaraq ilin 6 ayının yekunlarını müzakirə edəcəyik. Bəri başdan demək istəyirəm ki, yekunlar çox müsbətdir. Azərbaycan uğurla inkişaf edir. İnkişaf dinamik xarakter daşıyır və deyə bilərəm ki, 6 ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır. Ona görə ki, bu gün biz dünyanın müxtəlif yerlərində çox xoşagəlməz prosesləri müşahidə edirik. Yaxın Şərqdə vəziyyət həddindən artıq çox gərginləşib. Qanlı toqquşmalar dayanmır, qan tökülür və yeni müharibə ocaqları yaranır. Avropa dərin iqtisadi böhran içindədir və bu böhrandan hələ ki, çıxış yollarını tapa bilməyib. Eyni zamanda, biz mənəvi böhranın təzahürlərini də görürük və bu bizi çox narahat edir.

---

* Назирляр Кабинетинин 2015-си илин биринси йарысынын сосиал-иqтисади инкишаfынын йекунларына вя qаршыда дуран вязиfяляря щяср олунан исласында Малиййя назири Самир Шяриfов, Рабитя вя Yцксяк Технолоgийалар назири Яли Аббасов və Ямяк вя Ǝщалинин Sосиал Мцдаfияси назири Сялим Мцслцмов çıxış etmişlər.

Azərbaycan artıq uzun illərdir çalışır ki, bölgədə multikulturalizm dəyərləri üstünlük təşkil etsin. Bölgədə sülh, əmin-amanlıq, mehriban qonşuluq meyilləri güclənsin və bildiyiniz kimi, Azərbaycan tərəfindən bu istiqamətdə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə çox önəmli addımlar atılır. Ancaq bununla bərabər, biz bəzi Avropa ölkələrində tam başqa mənzərəni görürük ki, bu da bizi narahat edir.

Mənəvi böhran, iqtisadi böhran bu gün artıq Avropada reallıqdır və əlbəttə ki, bu bizi düşünməyə vadar edir və bu amilləri gələcək fəaliyyətimizdə mütləq nəzərə alacağıq. Azərbaycan Avropa qurumlarına nə dərəcədə inteqrasiya etməlidir? İnteqrasiya etməlidir, yoxsa etməməlidir? Yoxsa biz əməkdaşlıq formatına üstünlük verməliyik? Bu barədə mən şəxsən artıq neçə vaxtdır düşünürəm və hesab edirəm ki, gələcək aylarda yeni əməkdaşlıq mexanizmi, formatı və konsepsiyası hazırlanmalıdır.

Əslində bu barədə biz artıq önəmli addımlar atmışıq. Bildiyiniz kimi, Azərbaycan Avropa İttifaqı ilə Assosiasiya Sazişinə qoşulmamışdır. Ona görə ki, bu saziş bizim maraqlarımıza uyğun gəlmir. Orada sadəcə olaraq, bir mexanizm təklif olunurdu ki, bu, ikitərəfli əməkdaşlıqdan çox, birtərəfli əməkdaşlığa bənzəyirdi və elə bil ki, o saziş bir göstəriş vərəqəsi idi. Bizə isə bu, əlbəttə ki, yaramır. Çünki Azərbaycan bütün ölkələrlə, bütün beynəlxalq təşkilatlarla bərabərhüquqlu münasibətlər qurur və biz fəaliyyətimizi bu prinsip üzərində davam etdiririk.

Digər məqamlar var idi ki, bizi qane etmirdi. Ona görə biz Avropa İttifaqına əməkdaşlıq təkliflərini irəli sürmüşük. Bu, tərəfdaşlıq müqaviləsi, strateji tərəfdaşlıq müqaviləsi ola bilər. Sadəcə olaraq, əməkdaşlıq, yaxud da ki, tərəfdaşlıq müqaviləsi ola bilər. Ancaq bu bərabərhüquqludur və Azərbaycanın milli maraqları o sazişdə maksimum dərəcədə təmin olunmalıdır və dəyərlərimiz də, əlbəttə ki, bizim üçün ən önəmli yerdədir.

Hesab edirəm ki, bu gün müasir dünyada mənəvi dəyərlər haqqında daha çox danışmaq lazımdır. Çünki həm Yaxın Şərq-

də, həm Avropada, həm də MDB məkanında yaşanan böhranlı vəziyyət, o cümlədən mənəvi dəyərlər üzərində yaranıb. Münaqişələr bir çox hallarda bu səbəbdən qaynaqlanır. Ona görə biz Azərbaycanda, əlbəttə ki, bütün məsələləri dərindən təhlil edərək, ölkəmiz üçün, xalqımız üçün ən məqbul, ən yaxşı variantı seçirik və seçəcəyik.

MDB məkanında vəziyyət gördüyünüz kimi, o qədər də ürəkaçan deyil. Bir çox ölkələr böhranla bacara bilmirlər. Ukraynada böhran davam edir. Ermənistan, demək olar ki, çöküb, iqtisadiyyatı çöküb. Ermənistanın kriminal diktatura rejimi artıq öz xalqını o qədər əzib ki, xalq buna dözə bilmir. Onu da qeyd etməliyəm ki, Ermənistan xuntası xalq hesabına varlanır. Bəlkə bir çoxları bunu bilmir. Ancaq Ermənistan dünya miqyasında bəlkə də xaricdən ən aşağı qiymətə qaz alan ölkədir. Ancaq öz əhalisinə bunu 3 dəfə baha satır. Elektrik enerjisi də, yanacaq da həmçinin. Yəni bu kriminal rejim xalqın qanını sovurur. Əlbəttə ki, xalq buna dözə bilmir.

Belə bir mənzərə yaranıb. Yunanıstan böhranı hələ ki, davam edir. Hələ ki, heç bir nəticə əldə edilməyib. Əlbəttə, biz bilirik ki, vaxtilə Yunanıstanda müəyyən səhvlər buraxılmışdı və həddindən artıq borclanma getmişdi. Bunun da səbəbi yəqin ondan ibarətdir ki, siyasətçilər öz işlərinə o qədər də məsuliyyətlə yanaşmırdılar. Mən həmişə demişəm və bu gün də deyirəm, Azərbaycanda xarici dövlət borcumuz minimum səviyyədə olmalıdır, hazırda təqribən 10-11 faiz civarındadır. Biz onu daha da aşağı salmalıyıq. Biz borc götürə bilərik. Ancaq bu bizə lazım deyil və sabah bizə problem yarada bilər.

Ona görə Yunanıstanla bağlı vəziyyət, əlbəttə ki, bu səbəblərdən qaynaqlanır. Eyni zamanda, biz görürük ki, Avropanın bəzi ölkələri, xüsusilə özləri üçün xüsusi yer əldə etmək istəyən ölkələr Yunanıstanı sadəcə olaraq, alçaldırlar. Xalqı, dövləti alçaldırlar. Bax, budur bugünkü reallıqlar.

Mən bəzi hallarda dövlət məmurlarından, deputatlardan, ictimai xadimlərdən eşidirəm ki, biz Avropaya inteqrasiya etməliyik. Siz bunu deyəndə bir düşünün. Birincisi, Prezidentin

mövqeyini bilməlisiniz. İkincisi, siz necə inteqrasiya edəcəksiniz, hansı formada inteqrasiya edəcəksiniz? Bu inteqrasiya sizə lazımdırmı, yoxsa yox? Hansı simada Azərbaycanı orada qəbul etmək istəyirlər? İkinci dərəcəli üzv kimi, assosiativ üzv kimi, yaxud da kənardan sanki yapışan bir ölkə kimi? Bu format bizə lazım deyil. Biz hara lazımdırsa, inteqrasiya etmişik. O illərdə etmişik ki, o vaxt Avropada vəziyyət fərqli idi. Mən hesab edirəm ki, əgər bu gün biz bu vəziyyəti nəzərə alaraq seçim etməli olsaydıq, bəlkə də Avropa Şurasına da üzv olmazdıq. Azərbaycanı nə qədər təhqir etmək olar?! Bizi nə qədər alçaltmaq cəhdləri göstərilə bilər?! Artıq bizim hövsələmiz tükənib. Biz Avropa Şurası olmadan da yaxşı yaşaya bilərik, yaşamışıq da. 2001-ci ilə qədər yaşamışıq. O vaxt Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi, erməni işğalı, siyasi böhran, iqtisadi tənəzzül yaşanırdı. Yaşamışıq, ölməmişik.

Biz oraya üzv olmuşuq ki, ilk növbədə, Qarabağ problemi həll edilsin. Məsələ bunda idi. Biz bilirdik ki, Ermənistan Avropa Şurasına üzv olmağa can atır. Biz istəyirdik ki, biz də orada olaq və bu məsələ ədalətli şəkildə həll edilsin. Ancaq biz nəyi görürük: ədalətsizlik, ikili standartlar, islamofobiya, paxıllıq, bədniyyət. Bax, bu yaxınlarda Avropa oyunları zamanı qətnamə qəbul ediblər. Qətnamənin məruzəçilər tərəfindən təklif edilmiş mətnində yazılmışdır ki, assambleya nəzərə alır ki, Azərbaycan torpaqları işğal altındadır. Götürüb o cümləni dəyişirlər, yazırlar ki, Assambleya nəzərə alır ki, Dağlıq Qarabağ münaqişəsi mövcuddur. Yəni bu nə deməkdir?! Bu, açıq-aydın antiazərbaycan mövqeyidir. Ona görə yenə də bu mövzuya qayıdıram. Biz heç yerə inteqrasiya olmuruq. Hara olmuşuq, kifayətdir. Lazım olarsa, yenə də başqa birliklərə üzv olarıq, ancaq bərabərhüquqlu tərəfdaş kimi, ləyaqətli ölkə kimi.

Bax, dediyim bu mənzərənin fonunda bizim uğurlarımız doğrudan da tarixi xarakter daşıyır. 6 ay ərzində iqtisadiyyatımız inkişaf edib, baxmayaraq ki, neftin qiyməti aşağı səviyyədədir. Qonşuluqda iqtisadi vəziyyət hələ ki, o qədər də müsbətə doğru dəyişməyib, amma Azərbaycan iqtisadiyyatı inkişaf edir. Bax, indi

gətirəcəyim rəqəmlər bunu göstərəcək və sübut edəcək ki, bu doğrudan da tarixi nailiyyətdir. Beləliklə, 6 ayda iqtisadiyyat 5,7 faiz artıb. Bu çox gözəl göstəricidir, ölkəmizin dinamik inkişafını sübut edir. Bundan da gözəl göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da biz 9,2 faiz artımı görürük. Yəni bundan yuxarı nəticə ola bilməz. Sənaye istehsalı təxminən 4 faiz artıb. Qeyri-neft sənayesi 14 faizdən çox artıb. Bu da son illərdə sənayeləşmə, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülmüş işlərin, tədbirlərin nəticəsidir.

Azərbaycanda inflyasiya aşağı səviyyədədir – 3,5 faiz. Əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyir və 6,2 faiz artıb. Kənd təsərrüfatı 7 faizdən çox artıb, daha doğrusu, 7,3 faiz. Bu da son illər ərzində ən yüksək artım tempidir və görülən işlərin nəticəsində mümkün olmuşdur.

Ölkəmizə 6 ayda 12,7 milyard manat sərmayə qoyulub. Bu da çox böyük rəqəmdir və birinci 6 ayda xarici investisiyalar üstünlük təşkil edir. Son illərdə biz görürdük ki, daxili investisiyalar üstünlük təşkil edir. Bu ilin 6 ayında isə xarici sərmayə üstünlük təşkil edir. Bu da müsbət haldır, çünki yenə də göstərir ki, Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir və xarici sərmayə burada lazımi səviyyədə qorunur.

Birinci 6 ayda ölkəmizdə 60 minə yaxın yeni iş yeri açılıb ki, onlardan 48 mini daimi iş yeridir. Ancaq biz bu statistikaya fikir verəndə mütləq bağlanan iş yerlərini də diqqətdən qaçırmamalıyıq. Bilirəm ki, bəzi yerlərdə iş yerləri bağlanıb. Ona görə ilk növbədə, bunun səbəbləri araşdırılmalıdır. Digər tərəfdən, bu statistika açılan iş yerləri ilə bərabər verilməlidir ki, biz təhlili düzgün aparaq. Bu əslində hər bir ölkədə olan bir vəziyyətdir. İş yerləri açılır, bağlanır. Burada əsas balans məsələsidir, nə qədər açılıb, nə qədər bağlanıb.

Azərbaycanda, ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimi iş yeridir. Bunun hesabına Azərbaycanda işsizlik keçən ilin yekunlarına görə 5 faiz səviyyəsində olub. Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsulluqla bağlı

mübarizəni çox yüksək qiymətləndirir. Biz və Azərbaycan xalqı bunu gündəlik həyatda görürük. Hesab edirəm ki, iş yerlərinin açılması daimi proses olmalıdır, çünki əhali artır və potensial kifayət qədər böyükdür.

Sosial sahədə bütün proqramlar icra edilir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, bu təbiidir. Biz büdcəni qəbul edəndə neftin qiymətini 90 dollardan hesablamışıq, əslində indi 60 dollar səviyyəsindədir. Bir neçə ay bundan əvvəl daha da aşağı səviyyədə idi, 50 dollardan aşağı düşmüşdü. Ancaq bütün sosial proqramlar vaxtında icra edilir və bu da siyasətimizin əlamətidir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik.

Ünvanlı sosial yardım proqramında çox müsbət dəyişikliklər baş vermişdir. Şəffaflıq təmin olunur, normal qayda-qanun yaradılır, xoşagəlməz hallara son qoyulur, korrupsiya ilə mübarizə ciddi aparılır və bunun hesabına artıq bu sahədə daha da sağlam vəziyyət yaranır. Yerlərdən gələn məlumatlar məni çox sevindirir, insanlar da bu müsbət dəyişiklikləri görürlər.

Beləliklə, məndə olan məlumata görə, ünvanlı sosial yardım alan insanların sayı təxminən 20 faiz azalıb. Nəyin hesabına? Ona görə yox ki, kiminsə yardımı kəsilib. Ona görə ki, yardıma ehtiyacı olmayan artıq bunu almır. 112 min ailə, 490 min insan bu yardımı alır və hər ailəyə orta hesabla təxminən hər ay 150 manat pul verilir. Bax, budur bizim sosial siyasətimiz və yanaşmamız.

Sosial infrastruktur yaradılır. Məktəblər, xəstəxanalar tikilir. İndi təxminən 20-dən çox məktəb, 30-dan çox tibb müəssisəsi təmir olunur, tikilir. Yəni bu proses də gedir. Demək olar ki, biz bu sahədə əsaslı dönüş yarada bildik. Növbəti illərdə çalışmalıyıq ki, bir dənə də təmirsiz məktəb olmasın və hər bir yerdə, hər bir kənddə insanlar normal tibbi xidmətə malik olsunlar.

Yəni sosial və iqtisadi vəziyyət bundan ibarətdir. Bu bir daha onu göstərir ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilər. Çünki bizim düşünülmüş siyasətimiz var. Bizim proq-

ramlarımız reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var – regionların inkişafı, işsizliyin aradan qaldırılması, sənayeləşmə, kənd təsərrüfatının inkişafı. Deyə bilərəm ki, kənd təsərrüfatının inkişafı üçün bu il çox önəmli addımlar atılıb. Bir neçə fərman imzalanıb ki, bu da kənd təsərrüfatının inkişafına xidmət göstərir. Məsələn, taxılçılıqda məhsuldarlıq xeyli – təxminən 20 faiz artıb. Əvvəllər hektardan 22 sentner götürürdüksə, mənə verilən məlumata görə, indi 30 sentner götürmüşük. Dövlətin dəstəyi ilə iri fermer təsərrüfatları yaradılır, meliorasiya tədbirləri, bütün aqrotexniki tədbirlər görülür, strukturlaşma prosesi gedir və şəffaflıq təmin edilir. Əlbəttə, gələcəkdə daha da ciddi işlər aparılacaq ki, həm məhsuldarlıq artsın, həm də biz torpaq fondumuzdan maksimum dərəcədə istifadə edək. Mən bu barədə fikirlərimi bir qədər sonra deyəcəyəm.

Ordu quruculuğu bizim üçün daim prioritetdir və Xəzər sahilində ən böyük hərbi obyektlərdən biri bu il Azərbaycanda istifadəyə verilibdir. Hərbi dəniz qüvvələri bazası yaradılıb. Bütün digər lazımi tədbirlər görülür, hərbi şəhərciklər, bazalar tikilir, təmir olunur, əsgərlər, zabitlər üçün gözəl şərait yaradılır. Təbii ki, silah-sursat, maddi-texniki təminat daim diqqət mərkəzindədir. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu, dediyim kimi, dünya miqyasında güclü ordular sırasındadır.

Bugünkü beynəlxalq vəziyyət bir daha onu göstərir ki, biz vaxtilə nə qədər düzgün addımlar atmışıq. Çünki biz görürük ki, beynəlxalq hüquq normaları işləmir. Kimin gücü varsa, o da haqlıdır və bu reallıqdır. Bu, xoşagəlməyən reallıqdır, ancaq biz real dünyada yaşayırıq, biz virtual dünyada yaşamırıq. Ona görə hərbi güc gələcəkdə hər bir ölkənin maraqlarını ilk növbədə təmin edən amil olacaqdır. Çünki beynəlxalq hüquq normaları sadəcə olaraq, belə çıxır ki, o qədər də böyük olmayan ölkələr üçün yazılıb. Beynəlxalq davranış qaydaları dəyişilir, kim necə istəyir, beynəlxalq hüquq normalarını elə də yozur və nəticə etibarilə biz görürük ki, güc amili bir çox məsələləri həll edir. Biz də buna hazır olmalıyıq və hazırıq. Ona görə gələcəkdə də ordu quruculuğu,

hərbi potensialın gücləndirilməsi bir nömrəli vəzifə olacaqdır. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, əlbəttə, bu daha da böyük diqqət tələb etməlidir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində heç bir irəliləyiş yoxdur. Ermənistan sadəcə olaraq, danışıqlar prosesini boykot edir və çalışır ki, bu məsələni maksimum dərəcədə uzatsın. Ancaq məsələ uzandıqca, Ermənistan daha da çox tənəzzülə uğrayır. Qeyd etdiyim kimi, ölkə dərin siyasi, mənəvi, psixoloji və maliyyə böhranı içindədir. Ölkənin inkişafı üçün heç bir resurs yoxdur. İqtisadiyyat çöküb, sənaye ölüb, insanlar ölkəni tərk edir, yəni insan resursları da yoxdur. Belə getsə gələcəkdə Ermənistan kimi ölkə bəlkə dünya xəritəsində heç olmayacaq da. Əgər belə olarsa, bunun günahkarı ancaq bugünkü kriminal diktatura rejimidir.

Biz isə güclənirik, öz tədbirlərimizi görürük, iqtisadi, siyasi, hərbi güc toplayırıq. Əlbəttə ki, Ermənistan və Azərbaycan müqayisəedilməz səviyyədədir. Sadəcə olaraq, xarici maliyyə, hərbi və siyasi dəstək hesabına Ermənistan hələ ki, bizim torpaqlarımızı işğal altında saxlayır. Mən bu auditoriyada bir dəfə demişəm ki, bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamofob siyasətçilər, antiazərbaycan qüvvələrdir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? 1 həftə ərzində orada daş daş üstündə qalmaz. Bu da reallıqdır və yenə də deyirəm, biz real dünyada yaşayırıq, öz tədbirlərimizi görürük və gün gələcək, Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək. Hələ ki, biz bu istiqamətdə bütün hazırlıq işlərini görürük.

Bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz. Onu da deməliyəm ki, Azərbaycan ictimaiyyəti də bilir, bizə qarşı çox çirkin kampaniya aparılır. Bu kampaniya dayanmır, önəmli beynəlxalq tədbirlər ərəfəsində daha da alovlanır, güclənir, əgər belə demək mümkündürsə, ondan sonra bir az səngiyir. Ancaq bu, daimi bir kampaniyadır, səbəbləri də aydındır. İlk növbədə, dünya erməniliyi, erməni lobbisi bizi hədəf seçib, onların himayəsində

olan riyakar, rüşvətxor siyasətçilər də bu işlərə qoşulub. Xüsusilə bu, Qərb siyasətçilərinə aiddir. Erməni pulları ilə özünə həyat quran konqresmenlər, senatorlar, deputatlar, islamofob siyasətçilər və s. ünsürlər Azərbaycana qarşı müharibə elan ediblər. Əfsuslar olsun ki, bu gün Avropada faşizm, irqçilik, islamofobiya, ksenofobiya, antisemitizm baş qaldırır. Bu hərəkət təkcə müsəlmanlara qarşı deyil. Əlbəttə ki, onlar müsəlman ölkəsinin bu qədər inkişaf etməsini istəməyən qüvvələrdir. Onlar eyni zamanda, Azərbaycanda «beşinci kolon»un qalıqlarının himayədarları ilə birləşib bizə qarşı hücuma keçiblər.

Yəni Avropa oyunları ərəfəsində və oyunlar zamanı bizə qarşı informasiya müharibəsi ən şiddətli mərhələyə qədəm qoymuşdu. Ancaq bu informasiya müharibəsində Azərbaycan xalqı və dövləti qalib gəldi. Çünki bu kampaniya və bu kampaniyanın son mərhələsi bir daha göstərdi ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Ancaq görün və Azərbaycan xalqı bir daha görsün ki, bunlar nə qədər şərəfsiz hərəkətlər edirlər. Avropa oyunlarının açılışına 2 gün qalmış Avropa Parlamenti antiazərbaycan qətnaməsini müzakirəyə çıxarıb və çalışıb ki, bu qətnamə qəbul edilsin. Baxmayaraq ki, Avropa Parlamentinin Sədri Şults, onun müavini Lunaçek və onların əlaltıları qatı antiazərbaycan mövqeyindədirlər və Azərbaycanı düşmən seçiblər, bu qətnamə keçmədi, 136 deputat lehinə, 136 deputat əleyhinə səs verdi. Əslində bu, Şultsun, Lunaçekin və onlar kimilərinin siyasi iflası idi. Əgər onlarda bir balaca vicdan olsaydı, ondan sonra istefa verməli idilər. Gördülər ki, bu keçmir, bəs nə etməli? Almaniya Bundestaqı oyunların açılışı günündə – iyunun 12-də yığışır, qətnamə qəbul edir. Bu qətnamənin mövzusu antiazərbaycan və yalan üzərində qurulubdur. Sual olunur, Almaniya Bundestaqının bizimlə nə işi var və Almaniya Bundestaqı özünü nə zənn edir? Dünyanın ağasıdırmı? Dünyaya hakimdirmi? Hamı onlara tabe olmalıdırmı? Görünür ki, onlar pis öyrəşiblər. Amma bizi başqaları ilə müqayisə etməsinlər. Bizim onlarla münasibətlərimiz distansiya səviyyəsindədir. Bizim onlardan heç bir istəyimiz yoxdur, əksinə, bizim təbii qazımız,

kontraktlarımız, neftimiz, bu ərazidə, bu coğrafiyada fəaliyyətimiz onlara lazımdır. Biz isə onlardan texnologiya alırıq. Onlardan almasaq, başqa yerdən alarıq. Onlardan heç bir asılılığımız yoxdur. Ona görə Almaniya Bundestaqı kimdir ki, antiazərbaycan qətnamə qəbul etsin?! Getsin öz işi ilə məşğul olsun. Bəsdirin başqa ölkələrin daxili işlərinə müdaxilə etdiniz, biz buna imkan verməzik. Ancaq mən nəyi demək istəyirəm, bax, budur yanaşma. Nəyə görə? Çünki boğulur, partlayır, barışa bilmir ki, Azərbaycan uğurla inkişaf edir, dünyada müsəlman ölkəsi – Azərbaycan bu gün Avropa oyunlarını hansı səviyyədə keçirir. Avropa oyunları Olimpiya oyunları səviyyəsində keçirilib. Onlardan fərqli olaraq buraya gələn qonaqlar, Avropanın dəyərli nümayəndələri, adi insanlar, idmançılar Azərbaycana heyran qaldılar, valeh oldular, sevdilər, getmək istəmirdilər. Mənə deyirlər ki, bəzi idmançılar yarışları başa çatandan sonra getmək istəmirdilər, axıra qədər qalmaq istəyirdilər. Bax, budur Azərbaycan və budur normal Avropa vətəndaşları. Biz qabağa getmək istədik, gördük ki, bizi qəbul etmirlər – müsəlman olduğumuza görə, onlara baş əymədiyimiz üçün, başqa səbəblərə görə. Ona görə biz dayanmışıq. İstəyərlər, onlar bizə tərəf gələrlər. Bundestaqdan sonra, oyunlar zamanı Avropa Şurası Parlament Assambleyası antiazərbaycan qətnaməsi qəbul edir. Yəni bu nə deməkdir, bu nə düşmənçilikdir və siz kiminlə düşmənçilik edirsiniz, Azərbaycanla?! Biz düşmənçilik edə bilərik, kim bundan zərər çəkər, bunu onlar yaxşı düşünsünlər.

Bir sözlə, bax, budur bugünkü vəziyyət. Bununla bərabər, Avropa ölkələri ilə ikitərəfli formatda bizim problemlərimiz yoxdur. Bir çox hallarda Avropanın aparıcı ölkələrinin liderləri ilə görüşlər əsnasında mən, əlbəttə ki, bütün bu iradları deyirəm. Deyirlər ki, fikir verməyin, onlar o diqqətə layiq deyillər. Biz fikir vermirik. Əgər fikir versəydik, onların dediklərini edərdik. Burada heç kim onların dediklərinin birini də etməyəcək. O qətnamələr bizim üçün kağız parçasıdır. Ona görə heç kim onları heç vaxt icra etməyəcək. Bunu bilsinlər, Azərbaycan xalqı bilsin və o çirkin yazıları tərtib edənlər də bilsinlər.

Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə, bax, bu istiqamətdə gedəcəyik.

## YEKUN NİTQİ

Biz iqtisadi artımın yüksək templərini ilin sonuna qədər saxlamalıyıq. Əminəm ki, biz buna nail olacağıq. Çünki birinci 6 ayda göstəricilər çox müsbətdir. Gələn 6 ay ərzində elə işləməliyik ki, ili gözəl nəticələrlə başa vuraq. Əminəm ki, makroiqtisadi sabitlik də təmin olunacaq. Çünki bayaq dediyim kimi, inflyasiya cəmi 3,5 faiz təşkil edir və ümumiyyətlə, hesab edirik ki, birrəqəmli inflyasiya hər bir ölkə üçün gözəl göstəricidir. Son illər ərzində bizdə inflyasiya çox aşağı səviyyədədir. Bu səviyyə, əlbəttə ki, normal iqtisadi inkişafı təmin edir və insanların rifah halını yaxşılaşdırır.

Dövlət investisiya proqramı icra edilir. Bu proqram çox konkret xarakter daşıyır. İnvestisiya proqramı ölkə qarşısında duran əsas məsələlərin həlli üçün mühüm vasitədir. İlin sonuna qədər bütün lazımi infrastruktur layihələrinin icrası davam etdirilməlidir və yeni layihələr icra edilməlidir.

Bu yaxınlarda müxtəlif bölgələrdə kənd yollarının tikintisi ilə əlaqədar müvafiq sərəncamlar imzalanmışdır və yeni sərəncamlar da imzalanacaq. Kənd yollarının tikintisi üçün həm dövlət büdcəsindən, eyni zamanda, Prezidentin ehtiyat fondundan əlavə vəsait ayrılmalıdır ki, ilin sonuna qədər bu proses sürətlə davam etsin. Deyə bilərəm ki, son illər ərzində bu sahəyə çox böyük diqqət göstərilib və bu diqqət hesabına bir çox kəndlərdə yeni yollar salınıb. Amma hələ elə kəndlər var ki, orada yollar bərbad vəziyyətdədir. Bizdə bütün informasiyalar var. Mən bölgələrdə olarkən yerli icra orqanlarının nümayəndələri ilə bu məsələləri müzakirə edirəm, göstərişlər verirəm. Onlar təkliflər verir və sonra bu təkliflər nəzərə alınır, məsələlər həllini tapır.

Qazlaşdırma davam etməlidir. Hər ay mənə məlumat verilir, hansı rayonda hansı kənd qazlaşdırılıb. Demək olar ki, hər ay bir neçə kənd qazlaşdırılır. Hesab edirəm ki, bu işlər daha da sürətlə aparılmalıdır. Qazlaşdırma Azərbaycanda çox yüksək səviyyədədir. Amma çalışmalıyıq ki, bu sahəni mümkün qədər daha da genişləndirək, çünki buna böyük tələbat var.

«Azərişıq» Açıq Səhmdar Cəmiyyəti bu il yaranıb. Cəmiyyətin qarşısında vəzifə qoyulubdur ki, bölgələrdə elektrik enerjisi ilə təchizat Bakıdakı kimi olsun. Çox sadə bir göstərişdir. Ancaq bunu icra etmək o qədər də sadə məsələ deyil. Həm vəsait lazımdır, həm texniki məsələlər həllini tapmalıdır. Bölgələrdə köhnəlmiş infrastruktur əfsuslar olsun ki, kifayət qədər çoxdur. Yeni infrastruktur, ötürücü xətlər, transformatorlar – yəni bölgələrdə bütün elektrik təsərrüfatı Bakının səviyyəsinə qalxmalıdır.

Bakıda da işlər davam edir. Baxmayaraq bir neçə ildir ki, biz Bakıda təminatı artıq maksimum dərəcədə həll etmişik. Ancaq, əlbəttə ki, şəhər böyüyür, əhali artır, yeni sənaye obyektləri, ictimai obyektlər, idman qurğuları yaradılır, «Ağ şəhər» kimi, şəhər içində şəhər tikilir. Bütün bunlar əlavə enerji resursu almalıdır. Ona görə yeni yarımstansiyalar inşa edilir, yeni elektrik stansiyalarının tikintisi məsələsi müzakirə olunur. Hazırda bizdə generasiya gücü kifayət qədərdir, ancaq biz gələcəyə baxmalıyıq. Generasiya gücü həmişə tələbatdan 10–15, bəlkə də 20 faiz artıq olmalıdır. Həm ehtiyat kimi saxlamalıyıq, həm də bizim ixrac potensialımız da var. Biz elektrik enerjisinin ixracı ilə məşğuluq. Bunu gələcəkdə daha da böyük həcmdə edə bilərik. Ancaq, əlbəttə ki, ilk növbədə ölkə daxilində, xüsusilə bölgələrdə, uzaq kəndlərdə bütün enerji infrastrukturu ən yüksək səviyyədə olmalıdır.

İçməli su-kanalizasiya layihələri bir çox rayonlarda artıq başa çatıb. Ancaq hələ ki, görüləsi işlər çoxdur. Bu məqsədlə bu il İnvestisiya Proqramında kifayət qədər böyük vəsait nəzərdə tutulub. Ancaq hesab edirəm ki, ilin sonuna qədər əlavə vəsait

ayrılmalıdır. Müvafiq göstərişlər verilib, həm Bakıda, həm də digər şəhər və rayonlarımızda bu işlər aparılmalıdır.

Son illər ərzində görülən tədbirlər nəticəsində Bakıda içməli su ilə dayanıqlı, yəni fasiləsiz təminat əhalinin 78 faizini əhatə edir. Əlbəttə, əvvəlki dövrlə müqayisə etsək, bu, yaxşı göstəricidir. Ancaq bu göstərici bizi heç cür qane edə bilməz. Bakı kimi gözəl, müasir şəhərdə 100 faiz təminat olmalıdır, 24 saat içməli su olmalıdır. Bu çox ağır məsələdir, çünki burada həm böyük investisiyalar olmalıdır, həm də texniki məsələlər kifayət qədər mürəkkəbdir. Əlbəttə, investisiyalar ayrılır, texniki məsələlər də öz həllini tapır və çalışmalıyıq ki, biz Bakını içməli su ilə tam şəkildə təmin edək. Bütün bölgələr üzrə hər bir rayon üçün xüsusi layihə var. Dediyim kimi, bir çox rayonlarda işlər başa çatıb, bəzi yerlərdə davam edir, yaxud da ki, hazırlıq işləri aparılır.

İçməli su ilə təminat, əlbəttə ki, ilk növbədə, «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin üzərinə düşür. Ancaq bununla bərabər, qeyd etməliyəm ki, digər qurumlar da bu işlərlə məşğuldur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi sutəmizləyici qurğuları quraşdırır. Məndə olan məlumata görə, bu il 90 min əhali təmin olunub, 48 məntəqədə qurğular quraşdırılıb, proqramın əvvəlindən isə 530 min insan çaylar boyu yerləşən kəndlərdə artıq bu qurğulardan istifadə edir. Bu proses davam etdirilməlidir. «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin xətti ilə subartezian quyularının qazılması davam edir. Hər il Prezidentin ehtiyat fondundan xüsusi vəsait ayrılır, bu barədə sərəncam mətbuatda dərc edilir və o sərəncamda həm kənd əhalisinin bunu bilməsi, eyni zamanda, nəzarət üçün bütün kəndlərin adları göstərilir. Bu il kəndlərdə 300 quyu qazılmalıdır. Onlardan 170-i artıq qazılıbdır və bu proqram 630 min insanı əhatə edir. Beləliklə, «Azərsu» ilə bərabər, ekologiya və meliorasiya qurumları 1 milyon 160 min insanı təmiz içməli su ilə təmin edib. Bu çox ciddi sosial məsələdir. İlk növbədə, sosial məsələdir, yəni buna ayrılan vəsait heç vaxt dövlət büdcəsinə qayıtmayacaq. Çünki

bizdə suyun qiyməti çox aşağıdır. Ancaq biz bunu insanların sağlamlığı, normal yaşaması üçün edirik və etməliyik.

Suvarma ilə bağlı layihələr – artıq onların böyük hissəsi başa çatıb. Şəmkirçay, Taxtakörpü su anbarları tikilib istifadəyə verilib. Bu, böyük tarixi nailiyyətimizdir. Hazırda yeni kanalların tikintisi gedir və bu məqsədlər üçün də ilin sonuna qədər büdcədən əlavə vəsait ayrılmalıdır. Xüsusilə Şəmkirçay dəryaçasından əkin sahələrinə gedən kanallar sürətlə tikilməlidir ki, biz bu infrastrukturdan maksimum dərəcədə istifadə edək.

Xızı rayonunda artıq kanallar tikilir. Taxtakörpüdən qidalanan torpaq sahələri müəyyən edilib və minlərlə hektar torpaq sahəsi bu il artıq suvarılacaq və oradan biz yaxşı məhsul gözləyirik. Beləliklə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün çox önəmli addımlar atılmış olur.

Bu il Tovuzçay su anbarının tikintisi başa çatıb. Bu da çox önəmli layihədir. 20 min hektar torpaqda suvarma yaxşılaşdırılacaq və 300 hektarda yeni torpaq sahələri suvarılacaqdır.

Əlbəttə ki, bunlar bilavasitə kənd təsərrüfatı ilə bağlı olan işlərdir. Giriş sözümdə qeyd etdiyim kimi, kənd təsərrüfatının inkişafı bizim üçün prioritetdir. Kənd təsərrüfatında 7,3 faiz artım olub və hesab edirəm ki, biz bu yüksək tempi saxlamalıyıq.

Bütün lazımi tədbirlər görülüb – struktur islahatları aparılıb, müvafiq sərəncamlar imzalanıb. Biz öz potensialımızdan maksimum dərəcədə istifadə etməliyik və əhalimizi 100 faiz səviyyəsində ərzaq məhsulları ilə özümüz təmin etməliyik. Biz buna yaxınlaşırıq. Hər il regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını müzakirə edərək, bu barədə xüsusi danışırıq. Bununla bərabər, biz ixrac bazarlarına çıxışı da əldə edirik. Çünki dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, əgər bizdə ixrac bazarlarına böyük çıxışlar olmasa, gələcəkdə bu, kənd təsərrüfatının inkişafını məhdudlaşdıra bilər. Çünki biz öz daxili tələbatımızı ödəyəndən sonra əgər ixrac bazarlarına çıxmasaq, artıq məhsul istehsal edə bilməyəcəyik. İxrac bazarlarına çıxmaq üçün ilk növbədə, məhsul rəqabətqabliyyətli olmalıdır. Digər tərəfdən, o bazarlarda bizim logistik imkanlarımız olmalıdır. Eyni zamanda,

onu da qeyd etməliyəm, dost ölkələrlə əlaqələr yüksək səviyyədə olmalıdır. Çünki indi ölkələr öz daxili bazarlarını qoruyur və demək olar ki, inkişafda olan ölkələr daxili istehsalla ciddi məşğuldurlar. Bu da təbiidir. Necə ki, biz məşğuluq, başqaları da məşğuldur. Ona görə gələcəkdə bazarlara çıxış problemi əsas problem ola bilər. Biz buna hazır olmalıyıq.

Sənayeləşmə prosesi də uğurla gedir. Qeyd etdiyim kimi, qeyri-neft sənayemiz 14 faiz artıb. Mən xatırlamıram ki, nə vaxtsa qeyri-neft sənayemiz bu qədər artsın. Bu doğrudan da rekord göstəricidir. Sənaye artımı əvvəllər də daha çox neft hasilatı hesabına olub. O illərdə sürətli hasilatda artım olmuşdur. Amma qeyri-neft sənayemiz 14 faiz artıb. Bu doğrudan da görülən işlərlə bağlıdır. Hər bir rayonda sənaye zonaları yaradılacaq, eyni zamanda, sənaye parkları. Məndə olan məlumata görə, Sumqayıt Kimya Sənaye Parkında 4 rezident tərəfindən 700 milyon manat investisiya nəzərdə tutulur. Bu da çox gözəl göstəricidir və bir daha onu göstərir ki, bu sənaye parklarının yaradılması çox düzgün və vaxtında atılmış addım idi.

Biz eyni zamanda, özümüzü tikinti materialları ilə tam təmin etməliyik. Bu sahədə də böyük irəliləyiş var və tikinti materiallarını artıq ixrac etməyə başlamışıq. Bu istiqamətdə iş davam etdirilməli, ərzaq məhsulları ilə yanaşı, tikinti materiallarının ixracı üçün yeni bazarlar aşkar edilməlidir.

İş yerlərinin yaradılması qeyd etdiyim kimi, daimi proses olmalıdır. Çünki bəzi başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir, əhali artır. Bu da, əlbəttə ki, insanların yaşayış səviyyəsinin artması ilə bağlıdır. Belə olan halda, iş yerləri daim diqqət mərkəzində olmalıdır. Bizdə hər il əhali orta hesabla təxminən 100 min nəfər artır. Yəni bu, gələcəkdə 100 min iş yerinin açılması deməkdir. Biz bunu nəzərə almalıyıq. Burada, əlbəttə ki, düşünülmüş strategiya olmalıdır. Bilirəm, müvafiq qurumlar – İqtisadiyyat və Sənaye Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi

Nazirliyi, digər qurumlar bu strategiyanı işləyiblər. Bu, daim diqqət mərkəzində olacaq.

Qeyd etməliyəm ki, qeyri-neft sektorunun inkişafı çox sevindiricidir, bu il 9,2 faiz artıb. Əlbəttə ki, daha çox sahibkarlığın inkişafı, sahibkarların fəaliyyəti hesabına. Çünki dövlət sektorunda artımı daha çox enerji sektoru təmin edir. Ona görə sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır. Bildiyiniz kimi, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir. Təkrar əkin üçün indi yeni şərait yaradılır. Digər məsələlər öz həllini tapır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər verilir. İndi təkliflər var ki, faiz dərəcələrini bir az da aşağı salaq. Mən bunu dəstəkləyirəm ki, fermerlər, iş adamları daha da rahat işləsinlər, daha da böyük gəlir əldə etsinlər. Yəni dövlət çalışır ki, bu məsələ daim diqqət mərkəzində qalsın. Məhz bunun nəticəsində bu gün Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb.

Ancaq eyni zamanda, əlbəttə ki, sahibkarlar da məsuliyyətli olmalıdırlar. Onlardan bizim heç bir başqa tələbimiz yoxdur, ancaq vergiləri vaxtında ödəsinlər. Əlbəttə ki, əgər hansısa bir sahibkar hansısa bir sosial məsuliyyəti öz üzərinə götürmək istəsə, mən onu ancaq alqışlaya bilərəm. Ancaq hesab edirəm ki, sahibkarların sosial məsuliyyəti bu gün bir anlayış kimi, cəmiyyətdə artıq formalaşmaqdadır. Bunun müxtəlif formaları ola bilər. Mən burada heç bir tövsiyə vermək istəmirəm. Ancaq tələblərə gəldikdə, sahibkarlar vergiləri tam şəkildə ödəməlidirlər. Əvvəlki dövrlərdə neftin qiyməti yüksək idi. Ölkəyə çox böyük valyuta axını gəlirdi. Hesab edirdim, biz maksimum şərait yaratmalıyıq ki, sahibkarlıq inkişaf etsin və sahibkarlar daha da çox vəsait əldə etsinlər, onu yenidən ölkə iqtisadiyyatına qoysunlar. Ancaq indi bizim gəlirlərimiz azalıb. Bu təbiidir. Bunu hamı bilməlidir. Baxmayaraq, dediyim kimi, iqtisadiyyat, qeyri-neft sektorumuz artır, sosial proqramlar tam şəkildə icra edilir, amma bizim dövlət investisiyamız, kapital qoyuluşu azalıbdır.

Mən giriş sözümdə qeyd etdim ki, son bir neçə il ərzində bəlkə ilk dəfədir, xarici sərmayə daxili sərmayəni üstələyib. Nəyə görə? Ona görə ki, daxili investisiyalar azalıb. Daxili investisiyaların böyük hissəsi dövlət büdcəsi, yaxud da ki, Dövlət Neft Fondu hesabına formalaşıb. Bu reallıqdır, bunu hamı bilməlidir. Belə olan halda, əlbəttə, hər bir hökumət qurumu baxmalıdır ki, bizim rezervlərimiz haradadır. Biz bu rezervləri aşkar etmişik. Görmüşük ki, bir çox hallarda vergilər ödənilmir, burada yayınmalar baş verir. Bunu hamı – sahibkarlar da, cəmiyyət də bilir. Yəni əfsuslar olsun, vergivermə mədəniyyəti bizdə tam şəkildə, şəffaf qaydada formalaşmayıb. Vergiləri dövlət qurumları verir. Əlbəttə, o vergini almaq böyük məharət tələb etmir. Dövlət Neft Şirkətində hər şey şəffafdır. Bu, dövlət qurumudur. Digər dövlət qurumları da vergiləri tam şəkildə ödəyir. Amma özəl sektor vergini tam şəkildə verirmi? Yox, vermir.

Mənə məlumatlar gəlir ki, son vaxtlar Vergilər Nazirliyi özünü çox sərt aparır, tələbkardır. Burada biz iki məsələni bir-birindən ayırmalıyıq. Vergilər Nazirliyi çalışmalıdır ki, vergi ödəyiciləri vergiləri birmənalı olaraq qanuni şəkildə, tam şəkildə versinlər. Burada heç bir başqa söhbət və güzəşt ola bilməz. Ancaq heç bir başqa əsassız tələb irəli sürülməməlidir. Mən bunu qeyd etməliyəm. Ona görə sahibkarlar, sadə dillə desək, dövlətin pulunu 100 faiz verməlidirlər, vəssalam. Ondan başqa, heç kimə 1 manat verməməlidirlər. Bax, mən onlara tapşırıram və göstəriş verirəm. Eyni zamanda, dövlət qurumlarına çox ciddi göstəriş verirəm ki, heç bir əsassız tələb irəli sürülməməlidir. Əfsuslar olsun ki, belə hallar var. Vergilər Nazirliyi, hüquq-mühafizə orqanları, yerli icra hakimiyyətləri Bakıda və rayonlarda haqq qoyurlar, pay istəyirlər, «krişalıq» edirlər. Bu, dözülməz haldır, buna son qoyulmalıdır. Əgər hesab edirlər ki, bunu heç kim bilmir, səhv edirlər. Bu çox ciddi məsələdir və mənə siqnallar gəlir ki, bu bəzi yerlərdə kütləvi xarakter alıb. Bu tamamilə yığışdırılmalıdır. Ona görə, bax, bu gün mən bütün aidiyyəti qurumlara və eyni zamanda,

sahibkarlara göstəriş verirəm. Mənə məlumat versinlər, qorxmasınlar, siqnal versinlər, məktub yazsınlar, e-mailə yazsınlar. Əgər belə hallar varsa, o xoşagəlməz işlərlə məşğul olan dərhal öz cəzasını alacaq.

Ölkəmiz sahibkarlıq hesabına inkişaf edəcək. Di gəl ki, kimsə varlanmaq üçün gəlsin sahibkarları boğsun ki, sahibkar da qapısına qıfıl vurub çıxıb getsin. Bu, dözülməz haldır. Bunu edən dövlətə xəyanət edir. Bunu edən sadəcə olaraq, pul qazanmır, həm də dövlətə xəyanət edir. Mən bunu belə qəbul edirəm və hamı bunu bilsin və nəticə çıxarsın.

Biz ilin sonuna qədər sosial infrastrukturun yaradılması ilə məşğul olacağıq. Göstəriş vermişəm ki, məktəblərin, uşaq bağçalarının və tibb ocaqlarının tikintisinə əlavə vəsait ayrılsın.

Köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu sahədə lazımi tədbirlər görülür, həm Dövlət Neft Fondunun xətti ilə vəsait ayrılır, yeni binalar tikilir, eyni zamanda, dövlət büdcəsində güzəştlər nəzərdə tutulub. Çalışmalıyıq ki, köçkünləri gələcəkdə də maksimum dərəcədə tezliklə yaxşı mənzillərə, evlərə köçürək. Bilirsiniz ki, hər il orta hesabla 20 min insan artıq yeni mənzillərə köçürülür.

Mən bir məsələni də bildirmək istəyirəm. Həm ictimaiyyət bilsin, həm də ki, burada artıq bu məsələ uzun müddətdir müzakirə olunur, göstərişlər verilib. Bu da dərman preparatlarının bazarı ilə bağlı olan məsələdir. Əfsuslar olsun ki, uzun illər burada çox xaotik vəziyyət müşahidə olunurdu. Qeyd etməliyəm ki, bu məsələ bir qədər diqqətdən kənarda qalmışdır. Çünki biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Hər şey bazar tərəfindən tənzimlənir və təklif, qiymət, tələbat – yəni bütün bunlar iqtisadi mexanizmlərdir. Hesab edirdik ki, indi bazar hər şeyi tənzimləyir, alıcılıq qabiliyyəti var, qiymətlər var. Amma sonra məsələni dərindən təhlil edərkən gördük ki, burada çox böyük ədalətsizliklər var. Qiymətlər süni şəkildə qaldırılır. Başqa ölkələrlə müqayisədə Azərbaycanda bəzi dərmanların qiymətləri bir neçə dəfə bahadır. İnsanlar məcbur

olub bu dərmanları alırlar. Bir çox hallarda keyfiyyətsiz dərmanlar satılır. Bu məsələ dərindən öyrənilib.

İqtisadiyyat və Sənaye Nazirliyi, digər qurumlar, Səhiyyə Nazirliyi məruzə ediblər və bir neçə aydır ki, bu məsələ ilə ciddi məşğuluq. Hesab edirəm ki, burada həkimlərin də məsuliyyətsizliyi və bəzi hallarda tamahkarlığı özünü göstərir. Lazım olmayan reseptləri yazırlar. Resepti yazır, deyir ki, sən bu dərmanı filan yerdən almalısan. Hətta reseptlə satılmayan vitaminlərə də resept yazırlar. Bu, böyük bir biznes şəbəkəsidir. Bu biznes kimin hesabınadır? Adi insanın hesabına. Adi insan da məcbur olub gedir ona verilən reseptlə dərman alır. Heç bilmir nə alır. Sonra dərmanın ona kömək edib-etməməsi ilə əfsuslar olsun ki, heç kim maraqlanmır. Digər tərəfdən, dərmanlar var ki, müxtəlif ölkələrdə istehsal olunur. İnkişaf etmiş ölkələrdə onların qiyməti bahadır. O qədər də inkişaf etməmiş ölkələrdə o qiymət aşağıdır. Gedirlər ən ucuzunu, ən aşağı keyfiyyətlisini alırlar, gətirirlər, ən baha qiymətə satırlar. Bu hələ məsələnin az bir hissəsidir. Mən burada bu barədə çox danışmaq istəmirəm. Ancaq bu sahədə çox ciddi pozuntular olub və var. Bu pozuntulara son qoyulmalıdır. Ona görə indi bütün məsələ təhlil edilib. Artıq bir neçə aydan sonra tətbiq edilməyə başlanacaqdır. Hesab edirəm ki, sentyabr ayından gec olmayaraq bu məsələ artıq yeni müstəviyə qalxmalıdır. Həm şəffaflıq təmin ediləcək, həm də hər bir vətəndaş biləcək ki, hansı dərmanı və hansı qiymətə alır. Qiymətlərin yuxarı səviyyəsi müəyyən ediləcək. Heç kim o səviyyədən baha sata bilməyəcək. Dərmanları satanlar da burada öz gəlirlərini götürəcəklər. Onların da normal gəlir səviyyəsi olmalıdır. Ancaq bu səviyyə 100, 200, 300 faiz olmamalıdır. Heç yerdə belə özbaşınalıq yoxdur. Görülən və görüləcək tədbirlər nəticəsində ilin sonuna qədər dərmanların qiymətləri kəskin şəkildə aşağı düşməlidir. İstəyirəm Azərbaycan ictimaiyyəti bunu bilsin. Bu məsələ də daim diqqət mərkəzində olacaq.

Hesab edirəm ki, biz sosial məsələləri müzakirə edərkən, əlbəttə, bu məsələlər sırf sosial xarakter daşıyır. Bu, mənəvi

xarakter daşıyır. Dərman paltar, avtomobil deyil. Dərman insanların həyatıdır, onların sağlamlığıdır. Bu sahədə pozuntulara yol verən insanlar vicdansızdırlar. Başa düşürsünüz nə edirlər? İnsanlar nə etsinlər? Ona resept yazırlar, o da gedir alır. Nəyi alır, hansı keyfiyyətdədir? O onu qəbul etməlidir, yoxsa yox? O haradan bilsin? Dərd burasındadır. Ona görə, bax, biz bu sosial və mənəvi pozuntuları aradan götürəcəyik.

Digər sosial məsələ ipoteka kreditləşməsi ilə bağlıdır. Mən artıq göstəriş vermişəm ki, bu ilin sonuna qədər ipotekaya dövlət büdcəsindən əlavə vəsait ayrılsın. Buna böyük ehtiyac var. Xüsusilə gənclər, digər kateqoriyalı insanlar. Onların həyat şəraiti yaxşılaşmalıdır. Hesab edirəm ki, ilin sonuna qədər ipotekaya dövlət büdcəsindən ən azı 200 milyon manat, bəlkə də çox vəsait verilməlidir. Maliyyə Nazirliyi, Mərkəzi Bank bu məsələ ilə məşğul olurlar. Onlara müvafiq göstərişlər verilib. Bir müddətdən sonra mənə məruzə etməlidirlər ki, bu məsələ necə icra olunur. Bunun mexanizmi nədən ibarət olacaq? Burada 2 yanaşma var. İstəyirəm ki, ictimaiyyət onu da bilsin. Ya verilən vəsaitə mövcud binalardan mənzillər alınacaq, ya da ki, yeni binalar tikiləcək. Əlbəttə, tikinti sektorunu canlandırmaq üçün yeni binaların inşası daha da məqsədəuyğundur. Ancaq bu bir qədər vaxt apara bilər. Ona görə biz bəlkə də bu 2 yanaşmanın sintezini tətbiq etsək pis olmaz. Hər halda bu, əsas məsələ deyil. Əsas məsələ odur ki, vəsait ayrılmalıdır və həmin vəsaitin kimə veriləcəyini də siz müəyyən edin. Əlbəttə, şərtlər elə olmalıdır ki, ipotekaya maraq artsın.

Mən ekoloji vəziyyətlə bağlı dəfələrlə məsələ qaldırıram və şadam ki, Bakıda ekoloji vəziyyət yaxşılaşır. Son mühüm nailiyyət Böyükşor gölü ilə bağlıdır. Avropa oyunlarının açılışı və bağlanışı mərasimlərində yuxarıdan çəkiliş aparılarkən biz Böyükşor gölünün mənzərəsini də görürdük. Görürdük ki, bu, indi şəffaf, gözəl bir göldür. Vaxtilə ekoloji fəlakət gölü idi. İkinci dünya müharibəsi zamanı ondan açıq neft rezervuarı kimi istifadə edirdilər. Ondan sonra kanalizasiya, lay suları, bütün

zir-zibil bu gölə tökülürdü və onun yanında dayanmaq mümkün deyildi. Artıq Böyükşor gölünün bir hissəsi təmizlənib, gözəl bulvar salınıb, göz oxşayır. Bu göstərir ki, hər şeyi etmək mümkündür. Gərək sadəcə, niyyət və istək olsun.

Böyükşor gölünün 2-ci hissəsinin təmizlənməsi davam etdirilməlidir. Bu il və gələn il bu məqsədlər üçün vəsait ayrılmalıdır. Beləliklə, şəhərdə gözəl göl yaranacaq. Bilirsiniz ki, biz təmizləmə işləri aparmaq üçün bu gölü bəndlə ikiyə böldük. Eyni zamanda, bu bənd gələcəkdə yola çevriləcək və əlavə bir yol arteriyası kimi fəaliyyət göstərəcək.

Zığ gölünün təmizlənməsi prosesi də bu il başlanmalıdır. Bu məqsədlər üçün də büdcədən vəsait tapın və biz bunu da yubatmayaq.

Bu il Bakıda «Ağ şəhər» bulvarı istifadəyə verilib. O da ekoloji fəlakət zonasında yaradılan bulvardır. Bayıl bulvarı neft buruqlarına qədər gəlib çatıb. O tərəfə daha gedə bilmirik, çünki artıq orada neft hasil edilir, bu tərəfə də gedə bilmirik ki, orada Neftayırma zavodu yerləşir. Ona görə yəqin ki, bir neçə il gözləməli olacağıq. Heydər Əliyev adına Neftayırma zavodunda böyük yenidənqurma işləri nəzərdə tutulur. Hesab edirəm ki, «Ağ şəhər» bulvarına yaxın yerləşən Neftayırma zavodu tədricən oradan köçürülməlidir. Bu həm ekoloji cəhətdən lazımdır, həm də işin daha da səmərəli şəkildə qurulması bunu tələb edir. İndi o yerlərə, o zonalara yaxınlaşdıqca dərhal havanın tərkibi hiss edilir. Biz havanı təmizləməliyik, havanı çirkləndirən orada uzun illər fəaliyyət göstərən bir qurğudur.

Əminəm ki, Avropa oyunlarından sonra turistlərin Bakıya, Azərbaycana axını daha da artacaq. Buraya gələn qonaqlar Bakının gözəlliyinə, rahatlığına, təhlükəsizliyinə valeh oldular. Qeyd etməliyəm ki, bu məsələlər qonaqların daim diqqət mərkəzində idi. Biz, əlbəttə, çalışmalıyıq ki, turistlərin sayını artıraq. Avropa oyunları gözəl bir imkan, bir təqdimat idi. Qonaqlar bizim imkanlarımızı öz gözləri ilə gördülər.

Ancaq eyni zamanda, bütün başqa məsələlər də öz həllini tapmalıdır ki, biz turistləri daha da böyük sayda buraya dəvət edək. İlk növbədə, vizalar məsələsi. Mən bu məsələ ilə bağlı dəfələrlə göstərişlər vermişəm. İndi müəyyən addımlar atılıb, amma bu məsələ hələ ki, tam şəkildə yoluna düşməyib. Əlbəttə, viza rejimi elə olmalıdır ki, Azərbaycana bəd niyyətlə gəlmək istəyənin qabağında böyük, möhkəm bir sədd olsun. Bu birmənalıdır. Eyni zamanda, bu, turist, qonaq kimi gəlmək istəyənin qarşısında maneəyə çevrilməməlidir. Ona görə vizaların elektron verilməsi, xaricdə səfirliklərə müraciət edilməməsi, bütün bu məsələlər öz həllini tapmalıdır. Bakıya gəlmək istəyən hər bir insan elektron viza almalıdır, bunun üçün səfirliyə, heç bir yerə getməməlidir, evində kompüterlə bileti, vizanı almalıdır, turizm şirkətlərinin xətti ilə gəlməlidir, vəssalam. Xarici İşlər Nazirliyinə, Mədəniyyət və Turizm Nazirliyinə və digər qurumlara göstərişlər verilmişdir, amma nəticə hanı? Yoxdur və əgər kimsə mənə desə ki, var, deyəcəm: yoxdur. Çünki mən soruşuram. Buraya gələn qonaqlar ağızdolusu danışırlar ki, nə gözəl ölkədir. Amma bir problem var ki, gəlmək çətindir, gərək 1 ay, 2 ay qabaq planlaşdıraq. İndi müasir dünyada insanlar sürətlə hərəkət edirlər. Gəlmək istəyən turist 2 gün, 3 gün ərzində hotel sifariş edir, bilet, viza alıb gəlir, vəssalam. Bax, bu məsələni gərək biz mütləq həll edək.

Aviabiletlərin qiyməti bəzi hallarda süni şəkildə qaldırılır. Sual olunur: nəyə görə? Nə üçün? Yüksək xidmət göstərilir. Mən bunu alqışlayıram. Doğrudan da bizim AZAL şirkətimiz yüksək xidmət göstərir. Bunu mənə AZAL-ın təyyarələri ilə gələnlər deyirlər. Mən bunu alqışlayıram. Ancaq Azərbaycan yanacağı xaricdən almır, özü istehsal edir. Başqa ölkələrə nisbətən ağ neft ucuz qiymətə verilir axı! Nə üçün qiymətlər bahadır? AZAL dövlət tərəfindən böyük subsidiyalar alır. Bütün təyyarələr dövlət büdcəsinin vəsaiti hesabına alınır, bütün aeroportlar dövlət hesabına tikilir, bütün şərait dövlət hesabına yaradılır. Nəyə görə biletlərin qiyməti başqa ölkələrə, şəhərlərə nisbətən baha olmalıdır? Nə üçün? Ona görə mən tapşırıram, hökumət, Maliyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi bu məsələ ilə məşğul

olsunlar. Həm müqayisə aparın, həm də burada tənzimləmə mexanizmi, hər şey şəffaf olmalıdır və qiymətlər süni şəkildə qaldırılmamalıdır.

Mənə bir siqnal da gəlib ki, bizdə hotellərin qiyməti də bahadır, xüsusilə bölgələrdə. İndi Bakıda tanınmış brendlər fəaliyyət göstərir. Əlbəttə ki, onlar bütün dünyada fəaliyyət göstərir. İndi Bakıda hotellər şəbəkəsi ən mötəbər şəbəkədir. Onların öz qiymət siyasəti var. Biz buna o qədər də qarışa bilmərik. Ancaq beşulduzlu olmayan hotellərin qiyməti niyə bahadır? Bölgələrdə, rayon yerlərində elə qiymət qoyurlar ki, heç adam oraya getmək istəmir. Yenə də deyirəm, burada bəlkə də buna çox sadə yanaşırlar ki, qiymətləri bazar tənzimləyir, əgər tələbat varsa, təklif də var, amma hər kəs gedə bilmir. Bizdə beşulduzlu hotellərin sayı kifayət qədər çoxdur. Mən buna çox sevinirəm. Bu, ölkəmizin gücünü göstərir, bu prestijdir. Yəni ölkədə gedən proseslərin təzahürüdür. Əgər dünyanın aparıcı beşulduzlu brendləri Bakıdadırsa, demək, Bakı buna layiqdir və onlar layiqdirlər ki, Bakıda olsunlar. Ancaq üçulduzlu hotellər azdır, ikiulduzlu hotellər yoxdur. O qədər də böyük maddi imkanları olmayan ailələr istirahət edə bilmirlər. Budur reallıq. Azərbaycanda o qədər gözəl yerlər var ki, heç xaricə getmək lazım deyil. Dağlar, meşələr, dəniz, çaylar, göllər, xizək kurortu. Ona görə bu 3 məsələyə mütləq baxmaq lazımdır – vizalar, biletlərin, hotellərin qiymətləri və üçulduzlu, ikiulduzlu hotellərin tikintisi. Mədəniyyət və Turizm Nazirliyi də tövsiyələr versin və eyni zamanda, sahibkarlar da bunu eşitsinlər.

Əlbəttə, Avropa oyunlarının keçirilməsi ölkəmiz üçün, Avropa üçün tarixi hadisə idi. Biz bu şərəfli missiyanı öz üzərimizə götürmüşdük və bunu ən yüksək səviyyədə keçirmişik. Avropa oyunları Olimpiya oyunları səviyyəsində keçirilib. Bu, ölkəmizin gücüdür, potensialıdır. Ən sevindirici hal ondan ibarətdir ki, idmançılarımız bizi sevindirib və komanda hesabında 2-ci yerə çıxıblar. Onlar 21-i qızıl olmaqla, 56 medal qazanıblar və sübut ediblər ki, Azərbaycan idman ölkəsidir, Azərbaycan güclü dövlətdir. Bütün qurumlar çox fəal işlədilər,

təşkilat, təhlükəsizlik, nəqliyyat məsələləri, obyektlər, idman qurğuları, könüllülər – yəni hər şey ən yüksək səviyyədə həll olunmuşdur. Bu doğrudan da bizim böyük qələbəmizdir.

Mən Milli Olimpiya Komitəsinin prezidenti kimi, bir çox Olimpiya oyunlarının açılışlarında olmuşam, müqayisə aparmaq üçün kifayət qədər imkanım var. Amma burada Avropa oyunları ən yüksək səviyyədə keçirildi. Keçən Olimpiya oyunlarında London küçələrində əlisilahlı insanlar gəzirdi, binaların damlarında hava hücumuna qarşı qurğular quraşdırılmışdı. Elə bil ki, sən müharibə şəraitində olan ölkəyə gəlmisən. Elə bil ki, fövqəladə vəziyyət yaradılmışdı. Amma Bakıda bir nəfər də əlisilahlı insan görmədi. Bax, budur bizim imkanlarımız. Təhlükəsizlik, mədəniyyət, səviyyə, insanlar – budur bizim dəyərimiz. Azərbaycan göstərdi ki, böyük potensiala malik olan güclü ölkədir. Bu oyunlar Azərbaycan xalqının və Azərbaycan dövlətinin təntənəsidir. Biz ölkəmizlə, xalqımızla fəxr edirik və uğurla irəliyə gedirik. Sağ olun.

## BAKI ŞƏHƏR 5 SAYLI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*14 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 5 saylı Bakı «ASAN xidmət» Mərkəzinin iyulun 14-də açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 115 ünvanında yerləşən mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ilk dəfə bu mərkəzdə «ASAN ECO oturacaq»lar quraşdırılıb. Bunların hər biri ASAN loqosu formasında olan günəş panelləri ilə təchiz olunub. Qurğuya yerləşdirilmiş modem vasitəsilə isə internetdən pulsuz yararlanmaq imkanı var.*

*5 saylı «ASAN xidmət» Mərkəzinin ikimərtəbəli binasında ən yüksək standartlar tətbiq olunub.*

*Prezident İlham Əliyev yeni xidməti işə saldı.*

*Mərkəzdə müasir müstəqil Azərbaycanın banisi və qurucusu, ümummilli lider Heydər Əliyevin ölkəmizdə idmana qayğısını əks etdirən fotoguşə yaradılıb.*

*Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və korrupsiya hallarını aradan qaldırır. 2012-ci ilin iyul ayının 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması ilə bu sahədə mühüm islahata imza atıldı. Həmin ilin dekabrında isə Bakıda pilot layihə olan 1 saylı «ASAN xidmət»*

*Mərkəzi fəaliyyətə başladı. Sonra paytaxtın bir neçə rayonunda da «ASAN xidmət» sakinlərin istifadəsinə verildi. Bu proses regionları da əhatə etdi. Hazırda ölkə üzrə 8 «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərir. Onlardan 4-ü paytaxtda, 4-ü isə regional mərkəz olmaqla, Sumqayıt, Gəncə, Sabirabad və Bərdədədir. İndi isə Bakı şəhər 5 saylı «ASAN xidmət» Mərkəzi də fəaliyyətə hazırdır. Bu mərkəz paytaxtda qeydiyyatda olan sakinlərə xidmət göstərəcək.*

*Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olan xidmətlər üstünlük təşkil edir. Əgər əvvəllər «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 30 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzlərdə 30 növ funksional yardımçı xidmətlər təşkil edilib. Bütün bunlar dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir. Digər mərkəzlərdə olduğu kimi, burada da internetə açıq olan kompüterlər qoyulub və vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılıb. «ASAN xidmət» Mərkəzində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilib. «ASAN xidmət» Mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiq olunması, dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – «dövlət qulluqçusunun*

*vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasıdır.*

*Fəaliyyətə başladığı gündən «ASAN xidmət» mərkəzlərinə 5 milyon 500 minədək vətəndaş müraciəti qeydə alınıb. Gün ərzində «ASAN xidmət» mərkəzlərinə 15-16 min vətəndaş müraciət edir. 2013-cü ildən «ASAN xidmət» mərkəzlərinin təsis edilmədiyi regionların əhalisinə xidmətlərin çatdırılması məqsədi ilə xüsusi avtobuslar vasitəsilə səyyar xidmətlər göstərilir. Bu günədək 200 minədək vətəndaş bu xidmətdən yararlanıb. Xüsusi qayğıya ehtiyacı olan 500-dək əlil vətəndaşa xidmətlər ödənişsiz həyata keçirilib. Prezident İlham Əliyevin tapşırığına əsasən regionlarda yaşayan əhaliyə səyyar xidmətlərin keyfiyyətli və davamlı şəkildə göstərilməsinin təşkili məqsədi ilə səyyar xidmət avtobuslarının sayı artırılaraq 10-a çatdırılıb.*

*Vətəndaşların «ASAN xidmət» mərkəzlərinə müraciəti eyni zamanda, çağrı mərkəzi və sosial şəbəkələr vasitəsilə həyata keçirilir. 2013-cü il fevralın 1-dən fəaliyyətdə olan çağrı mərkəzində 594103 zəng qeydə alınıb. Gündəlik zənglərin sayı 1000–1500-dür. Bundan əlavə, sosial şəbəkələr vasitəsilə 150 mindən çox müraciət qəbul edilib. Bu günədək xidmət mərkəzlərində keçirilmiş 43 dövri rəy sorğusuna əsasən vətəndaşların «ASAN xidmət»lərdən məmnunluğu 98–100 faiz arasında dəyişir. «ASAN xidmət» mərkəzlərində insan resursları və təlimlərə xüsusi önəm verilir.*

*Hazırda Dövlət Agentliyində və «ASAN xidmət» mərkəzlərində 1600-ə yaxın əməkdaş çalışır. Bu günədək Dövlət Agentliyi tərəfindən mərkəzlərdə işləyən bütün əməkdaşlara 675 təlim keçirilib. Mərkəzlərdə çalışan könüllülərlə bağlı da bir sıra mühüm işlər görülüb. Ümumilikdə, agentlik və «ASAN xidmət» mərkəzlərində indiyə qədər 4500 nəfərədək şəxs könüllülük fəaliyyətinə cəlb olunub. Hazırda 600-dək könüllü mərkəzlərdə fəaliyyətini davam etdirir. 2013-cü ilin dekabrın 19-da «ASAN könüllüləri» nin I Qurultayı reallaşıb. 2014-cü ilin dekabrın 16-da isə prezident İlham Əliyevin iştirakı ilə «ASAN könüllüləri»nin I Ümumrespublika Forumu keçirilib. Məzun könüllülərin işlə təmin edilməsinə dəstək məqsədi ilə «ASAN kadr» portalı yaradılıb.*

*Fəaliyyətini başa vuran 600 nəfərə yaxın könüllü müxtəlif təşkilatlar tərəfindən işə götürülüb. Onlardan 142-si «ASAN» mərkəzlərdə çalışır.*

*Prezident İlham Əliyev mərkəzin birinci mərtəbəsində yeni layihələrə baxdı.*

*Bildirildi ki, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Artıq «ASAN xidmət» təcrübəsinin özünəməxsus hüquqi struk-turu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir və bu təcrübə Azərbaycan modeli kimi xüsusi təqdim olunur. Azərbaycan brendi olan «ASAN xidmət» «Dövlət xidmətlərinin çatdırılmasının yaxşılaşdırılması» kateqoriyasında 2015-ci il dövlət xidmətləri sahəsində BMT Mükafatının 1-ci yer üzrə qalibi seçilib. Bu faktın özü bir daha təsdiqləyir ki, «ASAN xidmət»ə dünyada böyük maraq var. Təsadüfi deyil ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək, «ASAN xidmət»lərin fəaliyyəti ilə yaxından tanış olurlar. Geniş beynəlxalq marağın nəticəsidir ki, 2014-cü ildən başlayaraq Dövlət Agentliyi və «ASAN xidmət» mərkəzlərinə beynəlxalq səviyyəli uyğunluq sertifikatları verilib.*

*Dövlətimizin başçısına Masallıda «ASAN həyat» kom-pleksinin tikintisi, həmçinin Qubada «ASAN həyat» kom-pleksinin konseptual həlli və 2016-cı ildə tikiləcək regional «ASAN xidmət» mərkəzləri barədə də ətraflı məlumat verildi. Qeyd edildi ki, bu mərkəzlərdə də ən yüksək standartlar tətbiq olunacaq.*

*Prezident İlham Əliyev «ASAN sorğu» robotunun fəaliyyəti ilə də tanış oldu. Bu robot çağrı mərkəzinin operatorları ilə canlı bağlantı yaradaraq, vətəndaşın sorğu və müraciətinin qəbul olunmasını təmin edir. Robotdan, həmçinin videokonfransların keçirilməsi və videodanışıqların aparılması zamanı da istifadə olunur.*

*Artıq «ASAN FM» layihəsi də hazırlanır və yaxın vaxtlarda fəaliyyətə başlayacaq. Radio dövlət xidmətləri sahəsində ixtisaslaşmış yeganə radio olacaq. Məqsəd daha geniş audito-*

*riyaya çıxış, onların düzgün və operativ məlumatlandırılmasıdır.*

*Dövlətimizin başçısına «İdeya bankı» barədə də ətraflı məlumat verildi. Bu, vətəndaşları «ASAN xidmət» mərkəzlərinin və müxtəlif dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və dövlət xidmətlərinin təqdim edilməsi prosesinə cəlb etmək və onların ideyalarından istifadə məqsədilə hazırlanmış internet-portaldır. Vətəndaşlar bu portalda şəxsi kabinet yaratmaqla, müxtəlif dövlət orqanlarının fəaliyyətinə dair öz ideya və təkliflərini göndərə bilərlər. Toplanılan ideyalar qiymətləndirilir və qalib ideyaların reallaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Bu günə qədər «İdeya bankı»na 1765-dən çox ideya daxil olub. Fərqlənən ideyalar müvafiq tədbirlər planına daxil edilib və bunlardan 194-ü artıq reallaşdırılıb.*

*Prezident İlham Əliyev istifadə edilən çap vərəqi üzərindəki yazıların silinərək yenidən istifadə olunmasını həyata keçirən printerə də baxdı. Bu printer istifadə edilən kağızların üzərindəki yazıları silərək yenidən çapetmə funksiyasına malikdir. Çap zamanı adi kağızdan istifadə olunur. Ekoloji cəhətdən daha sağlam və qənaətcil olan bu qurğu vasitəsilə 1 çap vərəqindən 8 dəfə istifadə etmək mümkündür.*

*Onu da qeyd edək ki, 5 saylı «ASAN xidmət» Mərkəzinin yerləşdiyi ərazidə 150 yerlik avtomobil dayanacağı yaradılıb və buradakı yerüstü keçid piyadaların təhlükəsiz hərəkətini təmin edir.*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Mübarək Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq, mərhəmət, şəfqət və bərabərlik yoluna dəvət edir, əxlaqi saflığın, xeyirxah əməllərin təntənəsini nümayiş etdirir. İnsanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran bu bayram günlərində mömin vətəndaşlarımız din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirir, mənəvi zənginliyin, əxlaqi kamilliyin sevincini yaşayırlar.

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar səslənir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz, saf niyyətiniz Tanrı dərgahında qəbul ediləcək, uca Yaradan öz mərhəmətini sevimli xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu müqəddəs bayramın dövlət səviyyəsində qeyd edilməsi bizim multikultural və tolerant prinsiplərə necə yüksək qiymət verməyimizi nümayiş etdirir. Bu gün biz dünyaya bir daha qəlbimizdəki milli dəyərlərə sadiq olduğumuz qədər, bəşəri dəyərləri də yaşatdığımızı bəyan edirik. Dini, milli rəngarəngliyimizi mənəvi bütövlüyümüzün zənginliyi kimi qəbul edirik. Elə buna görə də bu əziz gün münasibətilə hər bir vətəndaşımıza, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə

firavanlıq və xoşbəxtlik, süfrələrinizə xeyir və bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 iyul 2015-ci il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

Əlahəzrət!

Belçikanın milli bayramı – Kralın Andiçmə Günü münasibətilə Sizi və Sizin simanızda bütün belçikalıları şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Belçika xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2015-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2015-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Şanlıurfa vilayətinin Suruç rayonunda törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyul 2015-ci il*

# AZƏRBAYCAN MİLLİ MƏTBUATININ YARADILMASININ 140 İLLİYİ MÜNASİBƏTİLƏ MƏTBUAT ŞURASI İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*21 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də milli mətbuatımızın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurası İdarə Heyətinin üzvləri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Mətbuat Şurasının üzvləri!

Sizi səmimiyyətlə salamlayıram. Sizi və bütün Azərbaycan xalqını Azərbaycan milli mətbuatının 140 illik yubileyi münasibətilə təbrik etmək istəyirəm. Bu gözəl bayram ərəfəsində jurnalistlərin böyük bir qrupu – 200-ə yaxın mətbuat işçisi mənim sərəncamlarımla orden, medal və fəxri adlarla təltif olundu. Onları da təbrik edirəm və sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Doğrudan da əlamətdar bir tarixdir. Biz fəxr edə bilərik ki, milli mətbuatımızın böyük tarixi var. Bu bizim böyük sərvətimizdir, dəyərimizdir. Ancaq bu da həqiqətdir ki, məhz müstəqillik dövründə Azərbaycan mətbuatı tam azad və müstəqil mətbuat kimi fəaliyyət göstərməyə başlamışdır. Bu barədə biz sizinlə dəfələrlə danışmışıq – xüsusilə 1998-ci ildə prezident Heydər Əliyevin tarixi fərmanı ilə senzuranın ləğv olunması mətbuat üçün yeni dövr açdı və Azərbaycan mətbuatı artıq tam şəkildə azad mətbuat kimi fəaliyyət göstərməyə başladı. Bu gün Azərbaycan mətbuatı, deyə bilərəm ki, yeni səviyyəyə qalxıb. Mən burada ilk növbədə, Mətbuat Şurasının fəaliyyətini qeyd

etmək istəyirəm. Artıq 12 ildir ki, Mətbuat Şurası fəaliyyət göstərir. Mətbuat Şurasının fəaliyyətini həm Azərbaycan jurnalistləri, həm də Azərbaycan ictimaiyyəti görür və hesab edirəm ki, yüksək qiymətləndirir. Çünki Şura yaranana qədər Azərbaycan mətbuatında gedən proseslər imkan vermirdi ki, mətbuat tam müstəqil mətbuat kimi fəaliyyət göstərsin. Azərbaycan mətbuatının keçid dövrü o illərdə olmuşdur. Mətbuat Şurası isə böyük funksiyanı öz üzərinə götürdü. İlk növbədə, jurnalistlərin hüquqlarını qorumağa başladı. Hesab edirəm ki, bu istiqamətdə böyük nailiyyətlər əldə olunub. Zənnimcə, məhz buna görə bu gün jurnalistlərimizin mütləq əksəriyyəti Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirir. Eyni zamanda, Mətbuat Şurası iqtidarla mətbuat arasında bir körpü idi və bu funksiyanı bu gün də uğurla icra edir. Bununla bərabər, hesab edirəm ki, bugünkü mətbuatımızın yüksək səviyyəyə qalxmasında Mətbuat Şurasının çox böyük rolu var. Çünki bu, təkcə mətbuatla bağlı olan məsələ deyil, cəmiyyətimizin inkişafı ilə bağlı olan məsələdir. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illərində Azərbaycan mətbuatında gedən bəzi yazılar bizim nə əxlaq normalarımıza, nə milli dəyərlərimizə sığmırdı. Bu da yəqin ki, keçid dövrünün bir əlaməti idi. Çünki azad mətbuat yaranmışdı və senzura ləğv edilmişdi. Bəzi hallarda təhqirlərə, yalanlara rast gəlinirdi.

Hesab edirəm ki, Mətbuat Şurasının bu sahədəki fəaliyyəti bütün cəmiyyət üçün çox dəyərli olmuşdur. Bu gün belə hallara çox az-az rast gəlinir. Hesab edirəm ki, biz gələcəkdə, ümumiyyətlə, milli dəyərlərimizə, adət-ənənələrimizə, cəmiyyətdə əsrlərboyu formalaşmış davranış qaydalarına xas olmayan yazılara rast gəlməyəcəyik.

Ona görə mən bir daha öz fikrimi bildirmək istəyirəm. Demək istəyirəm ki, Mətbuat Şurasının çox böyük funksiyası var. Mən bunu yüksək qiymətləndirirəm və sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. O ki qaldı dövlət siyasətinə, hesab edirəm ki, bunu jurnalistlər yaxşı bilir və görürlər. Bizim siyasətimiz istənilən sahədə səmimidir və

birmənalıdır. Azərbaycan cəmiyyəti bizim siyasətimizlə bağlı fikirləri vaxtaşırı təbii ki, eşidir. Bizim hər bir məsələ ilə bağlı mütəmadi qaydada konkret yanaşmamız var. Hesab edirəm ki, istər siyasi və iqtisadi islahatlarla, istər beynəlxalq məsələlərlə, istərsə də ölkə daxilində gedən proseslərlə, o cümlədən mətbuatın inkişafı ilə bağlı Azərbaycan iqtidarının mövqeyi cəmiyyət üçün artıq bəllidir.

Mən tam əminəm ki, Azərbaycan bundan sonra da demokratiyanın inkişafı yolu ilə gedəcək. Bu bizim şüurlu seçimimizdir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, bu, cəmiyyət üçün lazımdır. Mən dəfələrlə demişəm, siyasi islahatlar iqtisadi islahatlarla paralel şəkildə aparılmalıdır ki, Azərbaycanın dayanıqlı inkişafı təmin edilsin. Bu gün Azərbaycanda azad cəmiyyət formalaşıb. Mən cəmiyyətdə gedən prosesləri yüksək qiymətləndirirəm. Azərbaycan cəmiyyəti milli ideya ətrafında birləşib. Əlbəttə ki, burada mətbuatın rolu həddindən artıq əhəmiyyətlidir. Azad mətbuatın artıq formalaşması və uğurla fəaliyyət göstərməsi demokratiyanın əsas əlamətlərindən biridir. Azərbaycanda bütün başqa azadlıqlar da – söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı təmin olunur. Azərbaycanda yüzlərlə qəzet, jurnal, 50-dən çox televiziya və radio kanalı fəaliyyət göstərir. Heç bir məhdudiyyət yoxdur və bu bizim böyük sərvətimizdir.

Demokratik inkişafı azad mətbuatsız təsəvvür etmək mümkün deyil. Bir daha demək istəyirəm, həm jurnalistlər bunu bilsinlər, həm də bizim ictimaiyyət Azərbaycanın rəsmi mövqeyini eşitsin ki, Azərbaycanda gələcəkdə də bütün azadlıqların təmin olunması siyasəti davam etdiriləcək. Bu bizim üçün prioritet məsələdir və ölkəmiz məhz bu yolla uğurla inkişaf edə bilər.

Əlbəttə, siyasi islahatlar iqtisadi islahatlarla dəstəklənməlidir. Çünki əks təqdirdə uğurlarımız yarımçıq olar. Bildiyiniz kimi, iqtisadi sahədə də islahatlar aparılır. Bu gün bütün dünyada, bölgədə yaşanan böhranlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, insanların rifah halı yaxşılaşır

və Azərbaycan öz taleyini özü müəyyən edir. Hesab edirəm ki, bu bizim ən böyük sərvətimizdir. Müstəqillik dövründə biz, sözün əsl mənasında, müstəqil siyasət aparırıq. Bu siyasətin mərkəzində Azərbaycan dövlətinin, Azərbaycan vətəndaşının maraqlarıdır. Bu maraqlar, həmçinin milli dəyərlərimiz də bizim üçün hər şeydən üstündür. Əlbəttə ki, mətbuatın fəaliyyəti hər bir insanı maraqlandırır. İnsanlar bütün məlumatı mətbuatdan alırlar. Ona görə hər bir ölkədə, o cümlədən Azərbaycanda mətbuat qərəzsiz olmalıdır, çevik, operativ fəaliyyət göstərməlidir, insanları məlumatlarla tam şəkildə təmin etməlidir. Hesab edirəm ki, biz bunu Azərbaycanda görürük. Çünki bu gün Azərbaycan mətbuatı artıq yüksək səviyyəyə qalxıbdır. Mən həm operativlik, həm milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın fəaliyyətini yüksək qiymətləndirirəm.

Müstəqilliyimizin ilk illərində bizə bəzən elə gəlirdi ki, Qərbdə mövcud olan hər bir sahə gərək Azərbaycanda da tətbiq olunsun. Bizim təsəvvürümüz belə idi ki, ən mütərəqqi təcrübə oradadır, ən azad cəmiyyət orada formalaşıbdır. Ancaq illər keçdikcə biz görürük ki, heç də hər zaman belə deyil. O cümlədən yəqin ki, mətbuatla bağlı olan fikirlər indi sizdə də, məndə də var. Görürük ki, Qərb ölkələrində hər hansı bir vacib mövzu ilə bağlı mətbuatda fikir ayrılığı yoxdur. Əksinə, hər hansı bir alternativ fikri tapmaq çox çətin olur. Biz bunu istər ölkələrin daxili siyasətilə, daha çox isə xarici siyasətlə bağlı əyani şəkildə görürük. Qərb mediası Qərbin siyasi maraqlarını maksimum dərəcədə müdafiə edir. Əlbəttə, bu, təqdirəlayiq bir haldır. Baxmayaraq ki, bu, azad mətbuatın tam şəkildə təzahürü deyil. Ancaq ölkələrin, yaxud da ki, təşkilatların maraqlarını təmin etmək üçün, əlbəttə, təqdirəlayiq haldır. Bizdə də elə olmalıdır və hesab edirəm ki, biz bu yolla gedirik. Çünki cəmiyyətimiz milli ideyalar, milli, strateji maraqlar ətrafında birləşib. Cəmiyyətdə bizim strateji seçimimizlə, ölkəni narahat edən əsas problemlərlə bağlı fikir ayrılığı yoxdur. Bizim mətbuatımız da, əlbəttə ki, ilk növbədə, dövlətimizin strateji maraqlarını, dövlətimizin gələcəkdə

də təhlükəsizlik şəraitində yaşamasını müdafiə etməlidir və milli maraqlarımızı beynəlxalq müstəvidə qorumalıdır. Mən hesab edirəm ki, son vaxtlar, son illər ərzində bizim mətbuatımızda bu istiqamətdə ciddi dönüş yaranmışdır. Nəzərə alsaq ki, XXI əsr informasiya əsridir, əlbəttə, biz bunu daim diqqətdə saxlamalıyıq.

Bizim mətbuatımız ölkədə gedən müxtəlif proseslərlə bağlı operativ məlumat verir. Onu da qeyd etməliyəm ki, bir çox hallarda ölkədə, misal üçün, hər hansı pozuntular baş verdikdə, qüsurlar olanda, yaxud da hər hansı bir xoşagəlməz vəziyyət yarananda mən məlumatı, o cümlədən mətbuatdan əldə edirəm. Bu mənim üçün çox əhəmiyyətlidir. Yəqin siz də bilirsiniz ki, prezidentin hadisələrlə bağlı bilavasitə mətbuata çıxışı yoxdur, vasitəçilər, köməkçilər, administrasiya işçiləri, digər mənbələr var. Ona görə bəzi hallarda məlumat ya gecikir, ya gəlmir, ya da o da sirr deyil ki, məlumatı gizlətmək istəyirlər. Ona görə Azərbaycanda azad mətbuatın mövcudluğu mənim də işimi yüngülləşdirir. Administrasiyada, digər yerlərdə, digər strukturlarda işləyənlər bunu bilirlər ki, mən bəzi hallarda məlumatı onlardan tez əldə edirəm və dərhal reaksiya verirəm. Ən azı, bu yoxlanılmalıdır, əgər həqiqətdirsə, ölçü götürülməlidir. Sizin işiniz mənim üçün də çox dəyərlidir, əhəmiyyətlidir və mən bunu yüksək qiymətləndirirəm. Bu belə də olmalıdır, çünki ölkədə həllini gözləyən problemlər hələ ki, çoxdur. Bir çox məsələlər öz həllini tapıbdır. Ancaq hələ həm siyasi islahatlarla, həm iqtisadi inkişafla bağlı görüləsi işlər çoxdur. Hesab edirəm ki, xüsusilə idarəetmə sistemində islahatlar daha da dərinləşməlidir.

Ölkədə sosial ədalətsizlik halları var. Məmur özbaşınalığı halları, digər xoşagəlməz – korrupsiya, rüşvətxorluq, insanların hüquqlarının pozulması halları var. Əlbəttə, biz bütün bunları bilməliyik və reaksiya verilməlidir. Əgər reaksiya verilməyəcəksə, o pozuntuları törədənlər daha da böyük pozuntular törədəcək. Ona görə mətbuatın burada nadir rolu var. Mən bunu sizə çox səmimi deyirəm və sizdən xahiş edirəm, bu sahədə öz fəaliyyətinizi gələcəkdə də davam etdirəsiniz ki, həm

ictimaiyyət, həm o pozuntuları edən məmurlar bilsinlər ki, heç bir yanlış hərəkət reaksiyasız qalmayacaq.

Son vaxtlar Bakının hər hansı bir yerində əgər bir ağac kəsilirsə, dərhal qəzetlərdə, internet saytlarında bu barədə məlumat gedir. Dərhal reaksiya verilir və ölçü götürülür. Digər sahələrdə də, həmçinin. Mən dəfələrlə həm iş adamlarına, həm, ümumiyyətlə, vətəndaşlara müraciət etmişəm ki, hər hansı bir ədalətsizlik, qanun pozuntusu, özbaşınalıq baş verirsə, dərhal reaksiya verin. İndi kifayət qədər imkanlar var. Azərbaycanda internet şəbəkəsi geniş yayılıb. Əhalinin 75 faizi internet istifadəçisidir. Biz indi hər bir yaşayış məntəqəsinə genişzolaqlı internetin çəkilişini təmin etməyə çalışırıq. Mən bir daha qeyd etmək istəyirəm ki, bu sahədə görüləsi işlər hələ çoxdur. Şəxsən mənim üçün mətbuat burada çox gözəl dəstəkçi rolunu oynayır. Əminəm ki, gələcəkdə biz bu əməkdaşlığı davam etdirəcəyik.

Mən burada Azərbaycanın beynəlxalq mövqeləri haqqında məsələyə də toxunmaq istəyirəm. Əlbəttə, dövlət öz siyasətini aparır. Bizim beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır və beynəlxalq aləmdə Azərbaycanın çox gözəl nüfuzu vardır. Əgər belə olmasaydı, bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçməzdi. Bununla bərabər, siz onu da yaxşı görür və bilirsiniz ki, Azərbaycana qarşı beynəlxalq mediada ədalətsiz kampaniya aparılır. Bu kampaniya ona görə ədalətsizdir ki, ikili standartlar əsasında qurulubdur. Hər bir ölkədə qüsurlar, çatışmayan cəhətlər və sair var. Biz özümüz onları yaxşı bilirik və həll etməyə çalışırıq. Ancaq ümumi regional kontekstdən Azərbaycanı seçib hədəfə çevirmək, əlbəttə ki, ikili standartlar və antiazərbaycan siyasətinin əlamətidir. Xüsusilə önəmli beynəlxalq tədbirlər ərəfəsində bu kampaniya daha da ciddi formalar alır və bizə qarşı əlaqələndirilmiş şəkildə hücumlar təşkil edilir. Biz bunu Avropa oyunları ərəfəsində bir daha gördük və bu mənim üçün sürpriz deyildi. Əksinə, bu belə olmasaydı, mənim üçün sürpriz ola bilərdi. Bunun müxtəlif səbəbləri var. Siz də bunları yaxşı bilirsiniz – həm Azərbaycanın

müstəqil siyasəti, Azərbaycanın uğurları, həm də Qərbdə islamofobiya meyillərinin gücləndirilməsi. Ümumiyyətlə, hər bir ölkənin yerinin müəyyən edilməsi siyasəti var. Elə bil ki, kimsə burada bu ölkələrin reytinqini, yaxud da tutduğu yerləri müəyyən etməyə çalışır.

Erməni lobbisinin bizə qarşı fəaliyyəti öz rolunu oynayır, çünki bir çox hallarda Azərbaycana qarşı yazılan məqalələrin arxasında biz uzun erməni qulaqlarını görürük və onlar bizi hədəf seçiblər. Dünya erməniliyi üçün bir nömrəli hədəf Azərbaycandır. Mən bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, bizim əsas düşmənimiz erməni lobbisidir. Mən bunu istənilən auditoriyada deyə və sübut edə bilərəm. Bu, erməni xalqına aid deyil. Erməni xalqı özü kriminal diktatura rejimindən əziyyət çəkir. Bu rejim erməni xalqını elə pis vəziyyətə qoyub ki, o vəziyyətdən çıxmaq üçün bəlkə 100 il vaxt lazım olacaq. Ancaq erməni lobbisi, bir neçə təşkilatda birləşmiş qurumlar Azərbaycanı qaralamaq, şərböhtan atmaq və nüfuzdan salmaq üçün gecə-gündüz çalışırlar. Onların geniş maliyyə imkanları, əlaqələri var. Onlar yaşadıqları ölkələrin hakimiyyət orqanları ilə sıx bağlıdırlar, qanunvericilik orqanlarının nümayəndələri ilə işləyirlər, onlara pullar verilir. Düzdür, bu lobbiçilik adı ilə gizlədilir. Ancaq bu əslində rüşvət deməkdir. Beləliklə, bizə qarşı təşkil edilmiş kampaniyada erməni lobbisi ön plandadır. Ancaq bunlarla birləşən digər kateqoriyadan olan qurumlar, insanlar bizə qarşı çox çirkin kampaniya aparırlar. Yəqin ki, gələcəkdə bu, davam edəcəkdir. Biz buna hazır olmalıyıq və hazırıq.

Onu da qeyd etməliyəm ki, bu kampaniya Azərbaycanın daxili və xarici siyasətinə heç bir təsir etməmişdir və heç vaxt etməyəcəkdir. Çünki bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır. Bu gün Azərbaycan siyasəti xalqın iradəsinə söykənir. İstər daxili, istər xarici siyasət məsələlərində əsas amil budur. Əlbəttə ki, biz öz yolumuzdan dönməyəcəyik və ölkəmizi uğurla inkişaf etdirəcəyik. Ancaq ona da hazır olmalıyıq ki, biz bundan sonra da müxtəlif xarici mətbu

orqanlarda Azərbaycanla bağlı təhqiramiz, yalan, böhtan əsasında yazılmış məqalələrlə üzləşəcəyik.

Nə etməli? İlk növbədə, biz Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq. Bu gün bu istiqamətdə fəal iş gedir. Həm dövlət orqanları, həm Azərbaycanda fəaliyyət göstərən ictimai təşkilatlar, həm də bizim mediamız bu sahədə böyük işlər görür. Mən hesab edirəm ki, gələcəkdə xarici dillərdə internet saytlarının sayı daha da çox olmalıdır. Bu gün bu saytlar var və biz onların sayını artırmalıyıq. Hesab edirəm ki, Azərbaycanın ən reytinqli internet saytlarının mütləq başqa dillərdə də variantları olmalıdır. Çünki biz ölkə daxilindəki problemləri aşkar edirik, görürük, həll etməyə çalışırıq. Ancaq biz Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq. Bugünkü Azərbaycan necə inkişaf edir? Hansı nailiyyətləri var? Dünya xəzinəsinə hansı töhfələri veribdir? Bu istiqamətdə hələ görüləsi işlər çoxdur. Burada, əlbəttə ki, dövlət dəstəyi də olmalıdır və olacaqdır. Xüsusilə internet məkanında daha da böyük işlər görülməlidir. Çünki məlumatı internetdən əldə edənlərin sayı getdikcə daha da artacaq.

Biz erməni təbliğatını ifşa etməliyik. Biz dünya ictimaiyyətinə çatdırmalıyıq ki, bizə qarşı olan hücumların arxasında nələr dayanır. Bu da çox sadə bir yanaşmadır. Erməni lobbisi nəyə görə bizə qarşı bu fəaliyyəti aparır? İlk növbədə, düşmənçiliyə görə. Biz onların əbədi düşmənləriyik. Bunu heç kim heç vaxt yaddan çıxarmasın. Digər tərəfdən, sübut etməyə çalışırlar ki, Azərbaycanda demokratiya yoxdur, insan haqları pozulur və beləliklə, erməni azlığı gələcəkdə Azərbaycanın tərkibində yaşaya bilməz. Halbuki bu, tam cəfəngiyatdır. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bütün millətlərin, dinlərin nümayəndələri Azərbaycanda qardaşlıq şəraitində yaşayırlar. Bizim ölkəmizdə nadir şərait yaradılıbdır və bu indi bir çox ölkələr üçün nümunə ola bilər. Ancaq bu təbliğatın və antiazərbaycan kampaniyasının arxasında duran əsas tezis məhz bundan ibarətdir. Yenə də Qarabağ mövzusudur, Dağlıq Qarabağ münaqişəsidir. Ona görə biz Azərbaycanı dünya media məkanına müasir, inkişafda olan, açıq, tolerant ölkə kimi təqdim etməliyik. Bununla bərabər, biz

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həm tarixi həqiqətləri, həm Azərbaycanın mövqeyini və ümumiyyətlə, indiki vəziyyəti daha geniş işıqlandırmalıyıq. Çünki Ermənistan daim çalışır ki, mahiyyətlə bağlı məlumatlar heç yerə çıxmasın. Bəli, deyirlər münaqişə var, gəlin bunu sülh yolu ilə həll edək. Amma münaqişə necə yaranıb? Bunun səbəbləri nədir? İşğalçı kimdir? İşğalın qurbanları kimlərdir? Bu barədə, əlbəttə ki, onlar və onlarla əlbir olan xarici media qurumları heç bir məlumat vermirlər. Bu missiya bizim üzərimizə düşür və biz bunu etməliyik. Xarici media resursları ilə bizim daha sıx əlaqələrimiz olmalıdır. Bilirəm ki, indi xarici jurnalistlər Azərbaycana vaxtaşırı səfərlər edirlər və erməni təbliğatı nəticəsində Azərbaycan haqqında formalaşmış qeyri-adekvat rəy onlar ölkəmizə gələndən sonra tamamilə aradan götürülür. Ona görə həm xarici media nümayəndələrini Azərbaycana dəvət etmək, həm də Azərbaycan jurnalistlərinin xaricə səfərlərini təşkil etmək vacibdir. Qərbin aparıcı media qurumları ilə əməkdaşlıq formatı yaradılmalıdır, məsləhətləşmə, yaxud da ki, sadəcə olaraq, informasiya mübadiləsi aparılmalıdır. Biz bu yolla ilk növbədə, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün xarici media məkanına daha çox çıxış əldə edə bilərik.

Bu açıq, ədalətli mübarizədə bizim arqumentlərimizə qarşı erməni tərəfi heç bir arqument qoya bilməz. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan əzəli Azərbaycan torpağıdır. Bunu siz bəlkə də hamıdan yaxşı bilirsiniz. Bugünkü Ermənistanın ərazisində yerləşən şəhərlərin, kəndlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir və Azərbaycan xalqı o torpaqlarda əsrlərboyu yaşamışdır.

Məsələnin hüquqi tərəfi Azərbaycanın mövqeyini birmənalı dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Post-sovet məkanında olan başqa münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası heç bir qətnamə qəbul etməmişdir. Bu, məsələnin həlli üçün əsas sənəddir. Hüquqi, tarixi amillər bundan ibarətdir və bu gün də Ermənistan, sadəcə olaraq, bir marionetka kimi, bu

bölgədə xarici ianələr hesabına fəaliyyət göstərir. Ermənistan dövlət müstəqilliyini çoxdan itiribdir. Ən yaxşı halda ona forpost deyirlər. Amma əslində o, bölgədə nökərlik edir. Əgər erməni xalqının seçimi budursa, biz heç nə deyə bilmərik. Amma inanmıram ki, erməni xalqı müstəqillik arzuları ilə yaşadığı dövrdə, bax, bu müstəqilliyi təsəvvür edirdi və bunun səbəbi nədir? İşğalçı siyasətdir. Əgər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmasaydı, əlbəttə ki, erməni xalqı da real müstəqilliyə qovuşa bilərdi.

Bir sözlə, hesab edirəm ki, xarici media məkanında bizim fəaliyyətimiz, bax, bu iki istiqamət üzrə aparılmalıdır – münaqişə ilə bağlı həqiqətlər və Azərbaycan reallıqları ilə bağlı həqiqətlər. Biz bunları çatdırmalıyıq. Biz istəyirik ki, bizi daha da yaxşı tanısınlar. Avropa oyunları zamanı bizə bəziləri irad tuturdular ki, Azərbaycan bu oyunları özünü tanıtmaq üçün keçirir. Burada heç bir qəbahət yoxdur. Hər bir ölkə istəyir ki, özünü təqdim etsin. İnkişaf etmiş ölkələr istəmirmi? Əlbəttə, istəyir. İstəməsəydilər, onlar da buna bənzər oyunları keçirməzdilər. Bu bizim təbii istəyimizdir. Biz istəyirik ki, bizi tanısınlar, görsünlər necə inkişaf edirik. Görsünlər ki, cəmi 24 il ərzində biz nələr əldə etmişik, nələr yaratmışıq. Kənardan heç bir yardım almadan, heç bir himayədar olmadan bunları özümüz yaratmışıq. Hələ Qarabağ münaqişəsi ola-ola. Ona görə biz çalışacağıq bundan sonra da Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər keçirilsin. Azərbaycan təqdimatları keçirilsin ki, xaricdə bizi daha da yaxından tanısınlar, daha da çox hörmət etsinlər, bizimlə daha da çox hesablaşsınlar. Belə olan halda, bizim maraqlarımız daha da böyük dərəcədə təmin ediləcək.

Hesab edirəm ki, bizim cəmiyyətimizdə bu məsələlərlə bağlı çox müsbət proseslər gedir. Bir daha qeyd etmək istəyirəm ki, cəmiyyətimiz vahid maraqlar, xalqımız milli ideyalar ətrafında birləşib. Biz hamımız çalışırıq və çalışacağıq ki, ölkəmizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı rifahını təmin edək. Əlbəttə ki, burada həm iqtidarın üzərinə böyük funksiya, həm də mətbuatın üzərinə böyük vəzifələr düşür.

Qeyd etdiyim kimi, mətbuat işçiləri bu vəzifələrin öhdəsindən şərəflə gəlirlər. Sizi bir daha salamlayıram, təbrik edirəm və sizə gələcək uğurlar arzulayıram. Sağ olun.

* * *

**Ə f l a t u n A m a ş o v** *(Azərbaycan Mətbuat Şurasının sədri):*Möhtərəm cənab Prezident!

Milli mətbuatımızın tarixi mərhələsinin yaşandığı bu günlərdə bizləri – media nümayəndələrini qəbul etdiyiniz üçün Sizə dərin təşəkkürümüzü bildiririk. Yubiley sevincini media təmsilçiləri ilə bölüşməyiniz bizim üçün böyük fəxrdir. Mətbuatımızın 140 illik yubileyinin keçirilməsi haqqında sərəncamınız ötən müddətin yaşantılarına, mətbu irsimizə verilən ən böyük dəyərdir. Bu dəyər milli mətbuatımızın yubileylərinin qeyd edilməsi ilə bağlı ənənəyə söykənir. Ənənənin təməli isə ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulub.

Media cəmiyyətin güzgüsüdür. Azərbaycan Prezidenti cəmiyyətin fövqündə dayanan ali şəxsdir. Ötən 140 ilin xalqımıza, millətimizə bəxş etdiyi mənəvi dünya zənginliyi müstəqil dövlətimizin gələcək varlığı baxımından son dərəcə vacibdir. Bu dəyəri yaşatmaq missiyası, cənab Prezident, Sizin tərəfinizdən uğurla həyata keçirilməkdədir. Buna görə də milli mətbuatımızın yubileylərindən ən böyük sevinc payı məhz Sizə düşür.

Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti I Avropa oyunlarında qazandığımız möhtəşəm qələbənin sevinci ilə yaşayır. Oyunlar təkcə idman hadisəsi deyil, eyni zamanda, xalqımızın dünyaya sülh çağırışı, mədəniyyətimizin təbliği, mənəvi xəzinəmizin tərənnüm meydanı idi. Sizin sayənizdə bu missiya çox uğurla həyata keçirildi. Yüksək diqqət və qayğınız, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri kimi, yorulmaz fəaliyyəti böyük uğurumuzun təminatı qismində çıxış etdi.

I Avropa oyunları xalqımız və dövlətimiz üçün tarixi sınaq idi. Qətiyyətlə və fəxrlə deyə bilərik ki, biz bu sınaqdan ləyaqətlə çıxdıq. Avropaya və dünyaya varlığımızı, böyüklüyümüzü nümayiş etdirməyi bacardıq. Tam əminik ki, Sizin sayənizdə Vətənimiz Yay Olimpiya oyunlarına da ev sahibliyi edəcək. I Avropa oyunlarının keçirilməsinə jurnalistlərimiz də layiqli töhfə verdilər. Onlar ölkəmizə qarşı yönələn antiazərbaycan kampaniyası ilə mübarizədə vahid platformadan çıxış etdilər. Mediamız siyasi yönümündən asılı olmayaraq Azərbaycan cəmiyyətinin istək və arzularının, duyğu, düşüncə və hisslərinin ifadəçisinə çevrildi. Azərbaycan mediası həmrəyliyi ilə tarixi imtahandan şərəflə çıxdı.

Ümumən, Azərbaycan mətbuatının ötən 140 ili çoxsaylı sınaqlarla xarakterikdir. Həsən bəy Zərdabinin yaratdığı «Əkinçi» xalqımızda milli kimlik hissini, milli şüuru oyatdı. «Əkinçi»dən doğan qığılcımlar «Ziya», «Ziyayi-Qafqaziyyə», «Kaspi», «Şərqi-rus», «Həyat» qəzetlərinin, «Kəşkül», «Füyuzat», «Molla Nəsrəddin» jurnallarının və digər mətbu orqanların fəaliyyətlərində əbədi məşələ çevrildi, dövlət müstəqilliyimizə aparan yolun ideoloji bazasını formalaşdırdı. Bu baza o qədər möhkəm oldu ki, hətta sovet dövrünün qadağaları belə, milli oyanış hissinin qarşısında dayana bilmədi. Jurnalistlərimiz istiqlal mücadiləmizin ön sıralarında getdilər. Onlar ötən əsrin əvvəllərində olduğu kimi, sonlarında da müstəqillik ideyasının carçısı kimi çıxış etdilər. Xalqımızın ümummilli lideri Heydər Əliyev mediamızın məhz bu şərəfli missiyasına həssas yanaşdı, ölkədə demokratik cəmiyyət quruculuğu prosesində azad medianın mühüm rolunu ön plana çəkdi. Məhz onun sayəsində MDB məkanında ilk dəfə Azərbaycanda senzura ləğv olundu. Bununla da Azərbaycan mediasının inkişafında yeni mərhələ başlandı. Yeni mərhələnin davamı və uğurları, cənab Prezident, Sizin adınızla bağlıdır. Bu mərhələni xarakterizə edərkən kütləvi informasiya vasitələri ilə bağlı qanunvericilik bazasının daha da zənginləşdirilməsini, mediaya dövlət dəstəyinin sistemli şəkil almasını və jurnalistlərin sosial-məişət şəraitinin

yaxşılaşdırılmasına yönələn konkret addımları xüsusi vurğulamalıyıq. Mövcud istiqamətdəki ardıcıl fəaliyyətinizə görə Siz Azərbaycan jurnalistlərinin dostusunuz. Bu dostluq ölkəmizdə vətəndaş cəmiyyəti təməlinin daha da möhkəmlənməsinə xidmət prinsipini rəhbər tutur.

Möhtərəm cənab Prezident, çıxışlarınızda qətiyyətlə qeyd etdiyiniz kimi, qloballaşan dünyada dəyərlərimizin, milli maraqlarımızın və mənafelərimizin qorunması son dərəcə önəmlidir. Bunun üçün dəyişən dünyada baş verən hadisə və proseslərə operativ reaksiyanın verilməsi müstəsna əhəmiyyət daşımaqdadır. İnternetin geniş vüsət aldığı hazırkı dövrdə isə ictimai rəy əsasən internet üzərindən yayımlanan media orqanları, habelə sosial şəbəkələr vasitəsilə formalaşdırılır.

Onu da vurğulayaq ki, internet media resurslarımız ilk Avropa oyunlarından əvvəl və oyunların gedişində antiazərbaycan təbliğatına qarşı xüsusi fəallıqları ilə seçildilər. Onlar ümummilli maraqlardan çıxış edərək, ölkəmizlə bağlı qarayaxma kampaniyalarına tutarlı, operativ cavablar verdilər. Lakin internet media resurslarımızın informasiya müharibəsi şəraitində daha aktiv fəaliyyət göstərmələrinə ehtiyac var.

Azərbaycan dövləti Sizin şəxsinizdə ənənəvi media orqanlarının bazar iqtisadiyyatının tələblərinə uyğun fəaliyyətini təmin etmək məqsədilə mühüm tədbirləri gerçəkləşdirməkdədir. Hər il ölkənin tanınan, ictimai rəyə təsir göstərən qəzetləri dövlət büdcəsindən maliyyələşdirilir. Kütləvi informasiya vasitələrinin cəmiyyət həyatının müxtəlif istiqamətləri ilə bağlı təşəbbüsləri qiymətləndirilir. Bu proses həm onları maddi-texniki cəhətdən möhkəmləndirir, həm də yaradıcılıq imkanlarına müsbət təsir göstərir. İstərdik ki, bu mexanizmdən internet media orqanları da faydalansınlar. Bunun eyni zamanda, ölkəmizin xaricdə təbliği baxımından da vacibliyini düşünürük. Onu da qeyd edək ki, ölkəmizin ədalətli mövqeyinin təbliği üçün jurnalistlərimizin xarici dilləri mükəmməl bilmələri, xarici təcrübəni dərindən mənimsəmələri mütləqdir. Cənab Prezident, Siz də çıxışlarınızda bu məsələyə önəm verdiyinizi bildirmisiniz. Azərbaycanlı

tələbələrin xaricdə təhsili ilə bağlı Dövlət Proqramı mövcuddur və faydalı nəticələr verir. İstərdik ki, jurnalistlərimiz də mövcud imtiyazdan bəhrələnsinlər. Jurnalistikanın spesifik sahə olduğunu, eyni zamanda, strateji əhəmiyyət daşıdığını nəzərə alsaq, yaxşı olardı ki, bununla əlaqədar ayrıca fəaliyyət xətti müəyyənləşdirilsin. Belə olarsa, biz Azərbaycan həqiqətlərini, əsasən də Dağlıq Qarabağ həqiqətlərini xarici ölkələrdə daha yaxşı tanıdarıq, eyni zamanda, erməni təbliğatına qarşı daha fəal və ciddi mübarizə apara bilərik.

Möhtərəm cənab Prezident, müstəqillik illərində Azərbaycan mediası bir çox müsbət vərdişlərə yiyələnib. Mediamız hazırda istər texniki xüsusiyyətlərinə, istərsə də yaradıcılıq potensialına görə regionda öncül mövqe tutur. Dünyanın bir çox aparıcı kütləvi informasiya vasitələri bölgə ilə bağlı məlumatlar yayarkən mənbə kimi, Azərbaycanın media orqanlarına istinad edirlər. Əlbəttə, vəziyyət bir qədər də təkmilləşdirilməlidir. Ölkəmizə qarşı informasiya müharibəsinin getdiyi hazırkı şəraitdə yüksək statusa yiyələnmək həqiqətlərimizin dünyaya çatdırılması işini daha da sürətləndirər. Bunun üçün isə jurnalistikanın özünün institutlaşmasına ehtiyac var. Proses ilk növbədə, jurnalistikamızın peşəkarlığının artırılması baxımından vacibdir. Çünki jurnalistika kifayət qədər dinamik sahədir. Onun yeniliklərinin mütəmadi araşdırılması və tətbiqi mütləqdir. Burada dünya mediasının fəaliyyətinin təhlilinə yönələn iş prinsiplərinin birləşdirilməsi də faydalı olardı.

Bu aspektdən çıxış etsək, bir mühüm məqamın da üzərində dayanmaq istərdim. Azərbaycan mediası dünyada baş verən, eyni zamanda, ölkəmizin maraqları ilə kəsişən məsələlərlə bağlı məlumatları əsasən xarici KİV-lərin vasitəsilə əldə edir. Həmin məlumatların əksəriyyəti isə bu KİV-lərin süzgəcindən keçirilir, öz ölkələrinin maraqlarına uyğun yayımlanır. Ona görə də, cənab Prezident, bizim KİV-lərimizin xaricdəki müxbir məntəqələrinin artırılmasına böyük ehtiyac var. Media ictimaiyyətini düşündürən mühüm məqamlardan biri də reklam bazarının qənaətbəxş səviyyədə olmamasıdır. Reklamçılar azad sahibkarlardır.

Redaksiyalar fəaliyyətləri ilə onları özlərinə cəlb etməlidirlər. Bu, məsələnin bir tərəfidir, daha çox zamanla tənzimlənməlidir. Ancaq biz rəsmi qurumların reklam və elanlarının KİV-də yerləşdirilməsi ilə bağlı Türkiyə təcrübəsini də araşdırmışıq. Məsələ ətrafında Azərbaycan Mətbuat Şurasında çoxsaylı müzakirələr aparılıb. Təhlillərdən sonra belə qənaətə gəlmişik ki, Türkiyə təcrübəsinin Azərbaycanda tətbiqi mümkündür. Bu, KİV-lərin iqtisadi dayanıqlığının artırılmasına mühüm töhfə olardı. Eyni zamanda, bütövlükdə reklam bazarının canlanmasına da müsbət təsir göstərərdi.

Mediamız keyfiyyət dəyişikliyi mərhələsini yaşamaqdadır. Proses özünü istər ayrı-ayrı KİV-lərin maddi-texniki bazasının gücləndirilməsində, istərsə də jurnalistlərin sosial-məişət şəraitlərinin yaxşılaşdırılmasında göstərir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş mediaya dövlət qayğısı hazırda «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası»nın, həmçinin bu sənədə uyğun olaraq formalaşdırılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun timsalında fundamental əsasa malikdir. Media nümayəndələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına gəldikdə isə, bu istiqamətdə jurnalistlər üçün inşa olunmuş bina ən mühüm tədbirlərdəndir. Yeri gəlmişkən, cənab Prezident, onu da deyim ki, jurnalistlərimiz səbirsizliklə Sizin sərəncamınız əsasında inşa edilən növbəti binanın da onların istifadəsinə verilməsini gözləyirlər. Azərbaycan jurnalistləri üçüncü dəfədir ki, kütləvi surətdə dövlət mükafatlarına və fəxri adlara layiq görülüblər. Dünən isə 200-ə yaxın həmkarımıza bu sevinci bəxş etdiniz, cənab Prezident. Buna görə də Sizə bütün jurnalistlərimiz adından dərin təşəkkürümü bildirirəm.

Azərbaycan dövlətinin hazırkı media siyasəti jurnalistikanın ictimai həyatımızdakı önəmini vurğulayan son dərəcə mühüm tədbirlərə əsaslanır və üzərindən illər keçdikdən sonra da Sizin adınızla xatırlanacaq. Digər tərəfdən, biz jurnalistlər qlobal

dünyada baş verən bir sıra hadisə və prosesləri, o cümlədən yaşadığımız həssas coğrafi məkanla bağlı reallıqları nəzərdən keçiririk. İstər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətiyyətiniz, istərsə də beynəlxalq müstəvidə Azərbaycanın mövqe və mənafelərinin qorunmasına yönələn fikir və düşüncələriniz, əməli fəaliyyətiniz Vətənimizin sükanının etibarlı əllərdə olduğunu söyləməyə əsas verir. Bu günün Azərbaycanı dünya miqyasında öz sözünü deyən, öz prinsiplərini diktə edən ölkədir. Buna görə də jurnalistlərimiz üçün Siz yalnız müdrik dövlət başçısı deyil, eyni zamanda, ən böyük vətənpərvər azərbaycanlısınız. Möhtərəm cənab Prezident, icazə verin, Sizə ölkə jurnalistlərinin bu yanaşmasının nəticəsi olaraq Azərbaycan Mətbuat Şurasının xüsusi mükafatını təqdim edim.

«Azərbaycanın milli maraqlarının qorunmasında qətiyyətli mövqeyinə görə təltif olunur, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev». Təbrik edirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

*Mükafat dövlətimizin başçısına təqdim olundu.*

**Ə f l a t u n  A m a ş o v:** Cənab Prezident, eyni zamanda, bizim Sizə bir yubiley hədiyyəmiz də var. Bu, Azərbaycan mətbuatının 140 illiyi ilə bağlı kiçik hədiyyədir.

*Yubiley hədiyyəsi prezident İlham Əliyevə təqdim edildi.*

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Biz qaldırdığınız məsələlərlə bağlı lazımi tədbirləri görəcəyik. Çox dəyərli təkliflərdir, həm reklam bazarı, həm də ki, xaricdə müxbir məntəqələri ilə bağlı. Doğrudan da bizə bir çox hallarda artıq xarici medialardan məlumat gəlir. Onların mövqeyi həmin məlumatın daxilində öz əksini tapır. Biz gərək həqiqəti çatdıraq və belə olan halda buna böyük ehtiyac var. İndi biz hansı yolla, hansı istiqamət üzrə bunu edəcəyik? Siz baxın, təklif edin. İnternet-mediaya dövlət dəstəyi mütləq verilməlidir. Bəlkə indi buna daha çox ehtiyac var.

**A k i f  A ş ı r l ı** *(Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, «Şərq» qəzetinin baş redaktoru):* Hörmətli cənab Prezident!

Azərbaycan milli mətbuatının yaranmasının 140 illiyi ilə bağlı verdiyiniz sərəncama, Azərbaycan jurnalistikasına göstərdiyiniz diqqətə və qayğıya görə məxsusi olaraq Sizə dərin təşəkkürlərimi bildirirəm. Məndən öncə çıxış edən Əflatun Amaşov Azərbaycan mətbuatının keçib gəldiyi tarixi yola qısa bir ekskurs etdi və müasir jurnalistikamızın problemləri ətrafında da fikir və mülahizələrini bildirdi, ən çox da ənənələrdən danışdı. Təbii ki, bu ənənələri formalaşdıran böyük şəxsiyyətlərdir, böyük ziyalılardır. Biz o şəxsiyyətləri, o ziyalıları daim hörmətlə anırıq. Hesab edirəm ki, Azərbaycanda ənənələrin formalaşmasında məxsusi rolu olan ümummilli liderimiz Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyev Azərbaycan jurnalistlərinin çox yaxın dostu idi. Bizim bütün problemlərimizə çox həssas yanaşan, onları diqqətlə öyrənən və bu problemlərin həlli yolunda çox ciddi addımlar atan böyük dövlət xadimi idi. Burada əyləşən baş redaktorlarımız və jurnalistlərimiz də çox gözəl bilirlər ki, keçən əsrin 90-cı illərinin sonlarında cəmiyyətin müxtəlif sahələrində olduğu kimi, mətbuatımızda da böhranlı hallar yaşanırdı. Bu böhranı aradan qaldıran, bizi böhrandan çıxaran ümummilli liderimiz oldu.

Həmin dönəmdə problemlərin bir çoxu kütləvi informasiya vasitələri haqqında mükəmməl qanunların olmaması ilə bağlı idi. Çox qısa müddət ərzində kütləvi informasiya vasitələri haqqında nəinki Azərbaycanda, MDB məkanında, hətta Avropa ölkələrinin qanunvericilik bazasından da daha yaxşı, daha humanist və daha demokratik qanunlar külliyyatı qəbul olundu. Senzura ləğv edildi, bizim «Azərbaycan» nəşriyyatına olan borclarımız birdəfəlik silindi, bu proses dayandırıldı. Ulu öndər Heydər Əliyev, ümumiyyətlə, Azərbaycanda mətbuat üçün yeni bir ənənənin əsasını qoydu. Bu, Mətbuat Gününün və mətbuatımızın yubileylərinin dövlət səviyyəsində keçirilməsi ənənəsi idi.

Azərbaycan mətbuatının 125 illiyi 2000-ci ildə məhz ümummilli liderimizin sərəncamı ilə çox yüksək səviyyədə keçirildi.

Ulu öndər Heydər Əliyevlə bizim çox görüşlərimiz olub. Biz onun tövsiyələrini həssaslıqla qəbul etmişik. Biz ulu öndərin mətbuata diqqət və qayğısını həmişə yüksək dəyərləndirmişik. Biz həmin görüşlərin təəssüratını həmişə yaşatmışıq və yaşadacağıq. Çünki bu biz jurnalistlərin fəaliyyəti üçün çox böyük önəm kəsb edir.

Mən istərdim ki, ilk dəfə mətbuatın yubileyinin keçirilməsi mərasiminə toxunum və kiçik bir xatirə danışım. Biz keçmiş «Moskva» mehmanxanasının birinci mərtəbəsindəki salonda yığışmışdıq və ümummilli liderin zala daxil olmasını gözləyirdik. Həmin salonun bir neçə istiqamətdə qapıları var idi. Biz də hesab edirdik ki, ümummilli lider ya ön qapıdan gələcək, ya da arxa qapıdan. İndi burada əyləşən həmkarlarımın bir çoxu orada idi. Biz yan qapının ağzında dayanıb gözləyirdik. Bir də baxdıq ki, qapı açıldı və ümummilli lider göründü. Qapı ilə bizim aramızda məsafə çox az olduğundan bizim üçün daxili bir gərginlik yarandı. Ulu öndər bizə yaxınlaşdı, bayramımızı təbrik etdi və görünür, üzümüzə baxıb gərginlik keçirdiyimizi hiss etdi və bizimlə söhbət etməyə başladı. Hətta bizə zarafatyana suallar verdi. Çox qısa bir zamanda gərginliyimiz aradan qalxdı. O söhbətdə, o görüşdə bizim yaddaşımızda daim yaşayacaq bir məsələnin şahidi olduq. Ulu öndər ölkədə çıxan və ictimai rəyə təsir imkanı olan bütün qəzetləri, onların baş redaktorlarını tanıyırdı. Hətta adbaad tanıyırdı. Bu bizim üçün böyük məsuliyyət idi. Biz bu məsuliyyəti dərk edərək, öz işimizdə daha dəqiq, daha ciddi olmağa çalışırdıq.

Cənab Prezident, Siz hakimiyyətə gələndə ilk aylarda Türkiyə qəzetlərinin birinə belə bir müsahibə vermişdiniz. «Mən dövlət idarəçiliyi ilə bağlı hər hansı bir qərar qəbul edəndə, sənədə imza atanda fikirləşirəm ki, ümummilli lider görəsən bu məsələni, bu problemi necə həll edərdi?» Mən az-çox ictimai rəyi bilən bir insan, Sizin fəaliyyətinizi çox yaxından izləyən, müxtəlif yönlərdən siyasi şərhlər verən bir qəzetin yazarı, sıravi bir qələm adamı kimi deyirəm: Sizin dövlət idarəçiliyi ilə bağlı verdiyiniz hər bir qərar, sənədə

atdığınız imzalar ümummilli liderimizin imzalarının davamıdır. Məhz buna görə biz Sizə təşəkkür edirik. Siz daxilən, ruhən demokratik insansınız. Burada elə bir atmosfer yaradırsınız ki, biz çəkinmədən alternativ fikirlərimizi, ürəyimizdən gələn fikirləri səmimi şəkildə Sizə çatdırırıq. Bu Sizin daxili demokratizminizdən, bizə, Azərbaycan ziyalılarına, qələm sahiblərinə olan hörmətinizdən doğur.

Təbii ki, biz ötən dəfə də elə bu zalda müxtəlif təkliflərlə çıxış etdik. Bu təkliflər öz həllini tapdı. Artıq ali məktəblərin jurnalistika fakültəsinə daxil olan tələbəyə müəllim sual ünvanlamır ki, sən jurnalist olmaq istəyirsən, ya yox?! Çünki əvvəlcə qabiliyyət imtahanı yox idi. Jurnalistikaya çox təsadüfi adamlar – hüquq, beynəlxalq münasibətlər fakültələrinə balı çatmayan abituriyentlər diplom xatirinə gəlirdilər. Artıq bu problem aradan qaldırıldı. Həm Mətbuat Şurası, həm Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, həm KİVDF, həm baş redaktorlar bu seçim prosesində çox şəffaf, azad şəkildə iştirak edir və bizim gələcək kadrların daha peşəkar, daha savadlı olması üçün əllərindən gələni edirlər. Burada ahıl jurnalistlərlə bağlı məsələ qaldırılmışdı. Cənab Prezident, bizim ağsaqqal həmkarımız Yusif Kərimov indi Mətbuat Şurasında müxtəlif layihələr həyata keçirir. Özünü jurnalistikaya həsr edən, Azərbaycan mətbuatının inkişafında məxsusi yeri olan, sadəcə, indi səhhətindəki problemlərlə əlaqədar cəmiyyətdə baş verən proseslərə qatıla bilməyən və diqqət-qayğı uman ahıl jurnalistlər evlərində ziyarət olunurlar. Onların problemləri öyrənilir və həlli istiqamətində addımlar atılır.

Cənab Prezident, biz belə problemlərimizin daha sürətli, daha çevik həlli üçün Sizə bir daha təşəkkür edirik. Biz Sizi özümüzə dost seçmişik və çox istərdik ki, Siz bizim daim dostumuz olasınız. Çünki Əflatun Amaşov burada bizim yeni mediamızın gətirdiyi yeni problemlər ətrafında söhbət açdı. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində işlərimizi sürətləndirmək üçün inanırıq ki, Sizin tərəfinizdən zəruri tədbirlər görüləcək. Əminik ki, əvvəlki problemlərimiz kimi, bu

problemlərin də həllinə Siz öz yardımınızı, köməyinizi göstərəcəksiniz.

Cənab Prezident, biz çox istərdik ki, bir daha deyirəm, həmişə bizim dostumuz olasınız. Çünki bu dostluq bizim problemlərimizin həllində mühüm rol oynayır.

**İ l h a m Ə l i y e v:** Yəni bu təmənnalı dostluqdur, eləmi?

**A k i f A ş ı r l ı:** Təmənnalı dostluq deyil. Təbii ki, dostluq birtərəfli deyil, dostluğun iki tərəfi olur. Biz də çalışırıq ki, Azərbaycan həqiqətlərinin, milli maraqlarımıza söykənən fikirlərinizin, ideyalarınızın, yürütdüyünüz müstəqil siyasətin dünyaya çatdırılması istiqamətində imkanlarımızı səfərbər edək, bu yolda fəaliyyət göstərək.

Siz burada media haqqında həm nəzəri, həm də təcrübi fikirlərinizi söylədiniz. Təbii ki, media cəmiyyəti təkcə maarifləndirmə, yönləndirmə institutu deyil, həm də cəmiyyəti öyrənmə institutudur. Biz cəmiyyət içərisində oluruq və ayrı-ayrı təbəqələrlə ünsiyyət qururuq. Onların yazılarını çap edirik. O insanların ümumi fikri bundan ibarətdir ki, Siz Azərbaycanın müstəqilliyi ideyasından bir addım kənara çəkilməmisiniz. Bu, böyük fədakarlıqdır. Bu fədakarlığa görə Sizə «Çox sağ olun!» – deyirik.

Azərbaycan artıq özünü, öz müstəqil dövlətçilik tarixini dünyaya təqdim edib. Bakı indi artıq dünyanın, Qərb ölkələrinin dialoq mərkəzinə çevrilib. Bakı Beynəlxalq Humanitar forumlarının keçirilməsi buna əyani sübutdur. Yeri gəlmişkən, orada Sizin media haqqında dediyiniz bir fikri xatırlatmaq istəyirəm. Siz orada dediniz ki, media dördüncü hakimiyyət deyil, media artıq birinci hakimiyyətdir. Azərbaycan təkcə humanitar, iqtisadi sahələrdə deyil, idman sahəsində də öz sözünü deyir. Əflatun Amaşov ilk Avropa oyunları ilə bağlı öz fikirlərini çatdırdı. Oyunlar zamanı Azərbaycan xalqı yekdil bir mövqe tutdu, dövlətini, dövlətçiliyini və Sizin yürütdüyünüz siyasəti dəstəklədi. Bu, məhz xalqımızın uğurudur, cənab Prezident, Sizin uğurunuzdur.

Cənab Prezident, indi 140 illiyini qeyd etdiyimiz Azərbaycan mətbuatının, jurnalistikasının qarşısında həmişə bir problem olub.

Elə «Əkinçi» qəzeti yarananda Həsən bəy Zərdabinin əleyhinə yazan erməni «Muşaq» qəzetinin redaktoru idi və Həsən bəy də işini-gücünü atıb ona cavab verirdi. 140 ildir ki, artıq bu problem Azərbaycan jurnalistlərinin, jurnalistikasının qarşısındadır. Çox xoşdur ki, bu gün Azərbaycanda peşəkar jurnalist ordusu, söz ordusu var. Vətənimizə söz ilə güllə atan o insanlara biz layiqli cavablarını veririk. Siz də Ali Baş Komandan kimi, hansı bir məqamdasa bizi torpaqlarımızı işğaldan azad etməyə çağırsanız, rahat redaksiyalarımızı səngərə dəyişməyə, səngər qəzetləri çıxarmağa, yeni medianın imkan verdiyi formatda bunu etməyə hazırıq. Hesab edirəm ki, Azərbaycan tarixində bunun örnəkləri olub. İkinci dünya savaşında bizim jurnalistlərimiz məhz bu cür davranıblar.

Cənab Prezident, bizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Biz burada səslənən fikirləri ümumiləşdirib, qərar qəbul edəcəyik. Çox dəyərli fikirlər, təkliflər səsləndi.

**U m u d R ə h i m o ğ l u** *(Azərbaycan Mətbuat Şurası sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri):* Möhtərəm cənab Prezident!

İcazə verin, mən də milli mətbuatımızın 140 illik yubileyi münasibətilə bizləri bir araya gətirdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirim. Bu gün Sizin mətbuata və jurnalistikaya göstərdiyiniz dəstək sayəsində ölkə mediası, sözün əsl mənasında, keyfiyyət dəyişiklikləri dövrünü yaşayır. Bu, ümumilikdə, müstəqil Azərbaycanın mətbuat tarixində məzmun etibarilə yeni, fərqli, daha dinamik, mütərəqqi mərhələnin başlanması kimi dəyərləndirilə bilər. Bəllidir ki, dövlətin və vətəndaş cəmiyyətinin hərtərəfli inkişafında kütləvi informasiya vasitələrinin, medianın özünəməxsus rolu var. Media ictimai rəyin formalaşdırılması ilə yanaşı, müxtəlif təmayüllərin cəmiyyətdə təşəkkül tapması üçün əsas vasitədir. Biz çox yaxşı anlayırıq ki, bu gün Sizin əzmkar və cəsarətli siyasətiniz nəticəsində Azərbaycanın beynəlxalq arenada söz sahibi olması, beynəlxalq münasibətlər

sistemində yerini möhkəmləndirməsi ölkəmizin və dövlətçiliyimizin gücləndirilməsini istəməyən qüvvələrin ürəyincə deyildir.

Amma fərəh hissi ilə deyə bilərəm, ötən ay paytaxtımızda təşkil olunan I Avropa oyunları göstərdi ki, milli mətbuatımız, vətəndaş cəmiyyəti institutlarımız, bütövlükdə xalqımız ağı qaradan seçməyi yaxşı bacarır. Mətbuatımız oyunlar müddətində bu idman bayramını yüksək səviyyədə işıqlandırmaqla bərabər, Azərbaycanın uğurlarına qısqanclıqla yanaşan bəzi xarici media orqanlarına və təşkilatlara, sözün əsl mənasında, dirəniş göstərdi, onlara layiqli cavab verdi. Bu həm sosial mediada, həm də müxtəlif yazılar, təhlil materialları, araşdırmalar şəklində kütləvi informasiya vasitələrində açıq-aydın hiss olunurdu.

Möhtərəm cənab Prezident, rəhbəri olduğum Beynəlxalq Avrasiya Mətbuat Fondu 2 böyük beynəlxalq qurumda – Beynəlxalq Mətbuat İnstitutunun İdarə Heyətində və Beynəlxalq Sülh Bürosunun Ali Şurasında təmsil olunur.

Təşkilatımız BMT İqtisadi-Sosial Şurasının əsas məşvərətçi statuslu üzvüdür. Təvazökarlıqdan uzaq olsa da, qeyd etmək istərdim ki, bizim kimi beynəlxalq statuslu bir media təşkilatının Azərbaycanda mövcud olması ölkəmizdə vətəndaş cəmiyyətinin yüksək səviyyədə inkişaf etməsinin bariz nümunəsidir və bununla bağlı ara-sıra səslənən əsassız iddialara layiqli cavab verir. Beynəlxalq təmsilçiliyimiz Azərbaycana qarşı qarayaxma kampaniyasına tutarlı cavab vermək, bəyanatlar yaymaq, dövlətimizin haqq səsinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində bizə əlavə üstünlüklər verir və biz bundan layiqincə yararlanmağa çalışırıq. Qeyd etməliyəm ki, təmsil olunduğumuz beynəlxalq qurumlarda Azərbaycana qarşı formalaşdırılmış ikili münasibətlərin müsbət məcrada dəyişilməsinə müəyyən mənada nail olmuşuq. Bu da ölkəmizdə Sizin rəhbərliyinizlə aparılan inkişaf strategiyasının uğurlu icrası, media və bütövlükdə vətəndaş cəmiyyətinə diqqət və qayğınız, doğru informasiya mübadiləmiz sayəsində mümkün olmuşdur. Yeri gəlmişkən, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına əvəzolunmaz dəstəyiniz barədə bu ilin may ayında Əli Həsənovun iştirakı ilə keçirilən

təşkilatımızın baş ofisinin açılışı mərasimində xarici ölkələrin Azərbaycandakı təmsilçiləri beynəlxalq təşkilatların nümayəndələrinə geniş məlumat verdi. Elə həmin tədbirdə Sizin adınıza təqdim etdiyimiz təşkilatımızın ali mükafatı da mərasim iştirakçıları tərəfindən çox yüksək səviyyədə qarşılandı. Bu gün Azərbaycanın üzləşdiyi təhdidlər, ikili standartlar göz qabağındadır. Belə bir tarixi dönəmdə düşünürəm ki, Azərbaycan mediasının, bütövlükdə vətəndaş cəmiyyətinin məsuliyyəti torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan əsgərinin məsuliyyətindən heç də az deyildir.

Ona görə də hesab edirəm ki, ciddi beynəlxalq qurumlarda təmsil olunan vətəndaş cəmiyyəti təşkilatları və mediamızın ölkəmizin hüdudlarından kənarda fəaliyyətinin gücləndirilməsi məqsədilə əlavə imkanların yaradılması, dövlət orqanları ilə media və vətəndaş cəmiyyəti təşkilatları arasında sıx əməkdaşlığın qurulması zərurəti vardır. Sizi əmin edirəm ki, Azərbaycan haqqında doğru, dürüst informasiyanın geniş coğrafi məkanda yayılmasına bu, əlavə stimul yaradacaq. Sözsüz ki, Azərbaycan Mətbuat Şurasının medianın fəaliyyətini səmərəli şəkildə əlaqələndirməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun media qurumlarının inkişafına hərtərəfli yardımı nəticəsində bu istiqamətdə vəziyyəti nəzərəçarpacaq dərəcədə müsbət yöndə dəyişmişdir. Sevindirici haldır ki, son illər milli mətbuatımız ölkəmizdə gənc nəslə vətənpərvərlik hissinin aşılanması, dövlətçilik ənənələrimizin möhkəmləndirilməsi istiqamətində Sizin qarşıya qoyduğunuz vəzifələrin yerinə yetirilməsində böyük uğurlar əldə etmişdir.

Hörmətli cənab Prezident, Şərqdə ilk dəfə söz azadlığı, bəyan və təmin edilən Azərbaycan mətbuatının davamçılarını müqəddəs Ramazan bayramının da qeyd edildiyi bu günlərdə bir araya toplamaqla, Siz medianın əhəmiyyətini, onun hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğundakı vacib rolunu, dövlətimizin mətbuatımıza olan diqqət və dəstəyini bir daha göstərmiş oldunuz. Bu gün Sizin müəyyən etdiyiniz prioritetlər əsasında ölkəmizdə

gerçəkləşdirilən tədbirlər, aparılan islahatlar, media və vətəndaş cəmiyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasət öz bəhrəsini verir.

Özüm və həmkarlarım adından bir daha əmin etmək istərdim ki, Sizin rəhbərliyiniz altında əldə olunmuş uğurların qorunmasında, Azərbaycanın haqlı mövqeyinin müdafiəsində milli mətbuatımız, bütövlükdə Azərbaycanın vətəndaş cəmiyyəti hər zaman Sizinlə birgə olacaq, nailiyyətlərinizin keşiyində duracaqdır. Təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Bir daha Sizi qarşıdan gələn bayram münasibətilə təbrik etmək istəyirəm. Burada səslənən təkliflərə baxılacaq və lazımi tədbirlər görüləcək. Mən də çalışacağam ki, bundan sonra da mətbuatın dostu kimi qalım. Əlimdən gələni edəcəyəm ki, Azərbaycan mətbuatı inkişaf etsin və media qarşısında duran problemlər öz həllini tapsın.

Dünən imzaladığım sərəncamlar əsasında böyük bir qrup mətbuat işçisi dövlət mükafatları ilə təltif olunubdur. Onların arasında Mətbuat Şurasının üzvləri də vardır. İstərdim ki, onlara bu təltifləri mən özüm şəxsən təqdim edim.

*Prezident İlham Əliyev Əflatun Əhməd oğlu Amaşova və Vüqar Müzəffər oğlu Səfərliyə 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordenlərini, Rauf Arif oğlu Abbasova və Azər Hacıqulu oğlu Həsrətə «Əməkdar jurnalist» fəxri adlarının vəsiqələrini və döş nişanlarını təqdim etdi.*

## QEYDLƏR

**1. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 89,3 min $km^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 6.

**2. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütçü və pilotdur. – 6.

**3. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 7, 19, 68, 141, 151, 171.

**4. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013-cü ildən Gürcüstan Respublikasının Prezidentidir. – 7, 171.

**5. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər

Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 8, 27, 28, 29, 33, 52, 53, 54, 60, 62, 75, 79, 94, 95, 97, 98, 103, 104, 107, 110, 112, 113, 115, 116, 117, 118, 119, 124, 126, 127, 133–134, 142, 149, 152, 154–156, 161, 166, 168, 172, 178, 190, 191, 192, 193, 194, 198, 205, 225, 226, 228, 230, 237, 244, 246–248, 254, 257, 262–263, 267, 269, 278, 289, 290, 298.

**6. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 12, 35, 38, 55, 62, 64, 74, 97, 186, 287, 288, 293, 294, 334, 344.

**7. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 16, 70, 176, 276.

**8. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmış, 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 17, 47, 65.

**9. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 17, 18, 19, 20, 47, 48, 64, 65, 67, 68, 69, 71, 77.

**10. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 18, 45, 175, 210, 218, 339, 343.

**11. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 18, 23, 24, 38, 43, 45, 46, 135, 210, 212, 218, 220, 264, 289, 303, 307, 342, 343.

**12. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi

prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 20, 69, 70, 73, 74, 281, 283, 301.

**13. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 19, 48, 62, 68, 77, 78, 107, 136, 149, 152, 185, 186, 197, 333.

**14. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil-qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 24.

**15. Həbəşistan,** Həbəşistan Federativ Demok-ratik Respublikası – Şərqi Afrikada dövlət. Sahəsi 1,104 min km$^2$, əhalisi 102,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Əddis-Əbəbə şəhəridir. – 26.

**16. Mulatu Teşom** (d.1955) – hüquqşünas, diplomat. 2013-cü ildən Həbəşistan Federativ Demokratik Respublikasının Prezidentidir. – 26.

**17. Azad Rəhimov,** A z a d A r i f o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 27, 52, 95, 105, 107, 261, 263.

**18. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 35–48.

**19. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 38.

**20. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 38.

**21. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 638, 221.

**22. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 44, 175, 303.

**23. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 44,175, 209, 211, 296.

**24. Misir,** M i s i r Ə r ə b R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1,01 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 49–50, 74–76, 332.

**25. Əbdülfəttah Əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 49, 50, 332.

**26. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 51, 68, 107, 152, 162, 267, 269–283.

**27. Sercio Mattarella** – (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 51, 282–283.

**28. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 58, 107, 133–134, 149, 152.

**29. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a- l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 57, 71–72, 122, 142, 149, 151, 178.

**30. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 62, 78, 107, 121, 149, 152, 164–165, 178, 244.

**31. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 62, 78, 92.

**32. *bp*,** «B r i t i s h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 66, 72, 75.

**33. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 68, 107, 131, 141, 149–151, 239–241, 244.

**34. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri, 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 71–72.

**35. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 78.

**36. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 647 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 78, 107, 151, 285.

**37. Danimarka,** D a n i m a r k a  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,7 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagen şəhəridir. – 81, 151, 178.

**38. II Marqret** (d.1940) – 1972-ci ildən Danimarka Krallığının Kraliçası. Kral IX Frederikin qızıdır. – 81.

**39. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 82, 152.

**40. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O, həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 82.

**41. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 92.

**42. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n  F ə t t a h  o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 97.

**43. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 102.

**44. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 102.

**45. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 104, 107, 110, 112, 113, 115, 116, 117, 118, 119.

**46. Namiq Abdullayev,** Namiq Yadulla oğlu (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 104, 153

**47. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 18 mahala və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 106, 152.

**48. Anibal Kavaku Silva** (d.1939) – Portuqaliyanın siyasi xadimi. 2006–2016-cı illərdə Portuqaliya Respublikasının Prezidenti, 1985–95-ci illərdə isə Baş naziri olmuşdur. – 106.

**49. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min $km^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 107, 151, 331.

**50. Qobustan qayaüstü rəsmləri** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü rəsmlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların 5-də Mezolit, 4-də Neolit, 7-də Tunc, 1-də Antik və 5-də orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 159.

**51. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 121, 149, 152, 164–165.

**52. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 122.

**53. San-Marino,** S a n - M a r i n o  R e s p u b l i k a s ı – Cənubi Avropada, Apennin yarımadasında dövlət. Sahəsi 61 $km^2$, əhalisi 33 min nəfərdir. Ölkə inzibati cəhətdən 12 mahala bölünür. Dövlət başçısı funksiyasını bərabərhüquqlu 2 kapitan - regent icra edir. Ali qanunverici orqan 5 il müddətinə seçilən Böyük Baş Şuradır. Paytaxtı San-Marino şəhəridir. – 128, 149, 152.

**54. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabr və 2018-ci ilin aprel ayında yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 136, 141, 149, 152, 185, 333.

**55. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 137–138, 149.

**56. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 137–138, 141, 149.

**57. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 141, 149.

**58. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 141, 149.

**59. Monako,** M o n a k o K n y a z l ı ğ ı – Cənubi Avropada, Aralıq dənizi sahilində dövlət. Sahəsi 2,02 km$^2$, əhalisi 37,3 min nəfərdir. İnzibati cəhətdən 3 mahal-şəhərdən ibarətdir. Monako

Knyazlığı konstitusiyalı monarxiyadır. Dövlət başçısı knyazdır. Qanunverici hakimiyyət knyaza və Milli Şuraya (parlamentə) məxsusdur. Paytaxtı Monako şəhəridir. – 141, 149.

**60. II Albert** (d.1958) – 2005-ci ildən Monako Knyazlığının Knyazıdır. – 141, 149.

**61. Tomas Bax** (d.1953) – alman və beynəlxalq olimpiya hərəkatının nümayəndələrindən biri. 2013-cü ildən Beynəlxalq Olimpiya Komitəsinin prezidentidir. – 149, 170, 177.

**62. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 150, 151, 227.

**63. Mənsum İbrahimov,** M ə n s u m  İ s r a f i l  o ğ l u (d.1960) – muğam xanəndəsi, professor. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 152.

**64. Alim Qasımov,** A l i m  H ə m z ə  o ğ l u (d.1957) – xanəndə. Azərbaycan Respublikasının Xalq artisti. Muğam sənətinin, xüsusilə də «tarab» janrının bilicilərindəndir. Alim Qasımov 1999-cu ildə Beynəlxalq İMC YUNESKO musiqi mükafatını almışdır. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. Respublika Dövlət mükafatı laureatıdır. – 158.

**65. Fikrət Əmirov,** F i k r ə t  C ə m i l  o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının ya-

radıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 159.

**66. Firdovsi Fərzəliyev** (d.1993) – karateçi, dünya (2014) və I Avropa oyunlarının (2015) çempionu. – 166–167.

**67. Rəsul Çunayev,** R ə s u l   A b a k a r   o ğ l u (d.1991) – Yunan-Roma güləşçisi, dünya və I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 168–169.

**68. Mariya Stadnik** (d.1988) – sərbəst güləşçi, I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 183–184.

**69. Süleyman Dəmirəl** (1924–2015) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. 7 dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının Prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

Süleyman Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 185, 186, 197.

**70. Toğrul Əsgərov,** T o ğ r u l   Ş ə h r i y a r   o ğ l u (d.1992) – sərbəst güləşçi, Olimpiya (2012) və I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 190.

**71. Xetaq Qazyumov** (d.1983) – sərbəst güləşçi, dünya (2010) və I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 191.

**72. Ayxan Tağızadə,** A y x a n Ə v ə z o ğ l u (d.1996) – taekvandoçu, I Avropa oyunlarının (2015) çempionu. – 192.

**73. Ceyhun Məmmədov,** C e y h u n M ə h ə m m ə d o ğ l u (d.1968) – samboçu, 9 dəfə dünya çempionu. Sambonun qızıl nişanına layiq görülən yeganə samboçu. 2003-cü ildən Azərbaycan Sambo Federasiyasının Prezidentidir. – 208.

**74. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 213.

**75. Teymur Məmmədov,** T e y m u r F ü z u l i o ğ l u (d.1993) – boksçu. I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 225.

**76. Elvin Məmişzadə,** E l v i n R a u f o ğ l u (d.1991) – boksçu, dünya və I Avropa oyunlarının (2015) çempionu. – 228.

**77. Kollazo Sotomayor** (d.1985) – Kuba əsilli Azərbaycan boksçusu. I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 228.

**78. Rosen Plevneliev** (d.1964) – Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 239–241, 244.

**79. Sergey Narışkin** (d.1954) – Rusiyanın dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011–2016-cı illərdə Rusiya Federasiyası Dövlət Dumasının Sədri olmuşdur. Hal-hazırda Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 244.

**80. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 36 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 253.

**81. Devid Conston** (d.1941) – 2010–2017-ci illərdə Kanadanın general-qubernatoru olmuşdur. – 253.

**82. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 264, 286.

**83. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 264.

**84. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 264, 285.

**85. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı

səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 269, 282.

**86. Matteo Renzi** (d.1975) – İtaliyanın siyasi və dövlət xadimi, 2014–2016-cı illərdə İtaliya Nazirlər Şurasının sədri olmuşdur. – 280–281.

**87. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 285.

**88. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 287–291.

**89. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazır-

lanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 287.

**90. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 295.

**91. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdir. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 295.

**92. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. – 329–330.

**93. Filipp** (d.1960) – 2013-cü ildən Belçika kralı. Kral II Albertin böyük oğlu. – 331.

## Şəxsi adlar göstəricisi

**II Abdullah** – 6
**Abdullayev Abdulqadir** – 238
**Abdullayev Namiq** – 104,153
**Al Səud Abdullah** – 163
**II Albert** *(Monako şahzadəsi)* – 141, 149
**Aleksandr ata***(Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri)* – 291–292
**Amaşov Əflatun** – 344–349
**Anri** *(Lüksemburq hersoqu)* – 149, 196
**Atambayev Almazbek** – 268
**Ayala Luis** – 236
**Aslanov Fuad** – 98
**Aşırlı Akif** – 350–353
**Babayev Arif** – 104
**Bağırov Pərviz** – 238
**Bax Tomas** – 149, 170, 177
**Belluzzi Andrea** – 128, 141
**III Beniqno Akino** – 123
**Berdıməhəmmədov Qurbanqulu** – 137–138, 141, 149
**Bimis Tomas** – 153
**Bodiu İqor** – 88
**Borisov Boyko** – 131, 141, 149
**Conston Devid** – 253
**Currentzis Teador** – 148
**Çavuşoğlu Mövlud** – 142
**Çunayev Rəsul** – 168–169
**Da Silva Qratsiano** – 25
**Daçiç İvitsa** – 58
**De Vinçenti Klaudio** – 162
**Demiris Thanassis** – 148
**Dekosse Lüsi** – 153
**Dəmirəl Süleyman** – 185, 186, 197
**Dəmirəl Şəvkət** – 186
**Duda Andjey** – 31

**Elbeqdorj Saxiaqiyn** – 266
**II Elizabet** – 122
**Elvud Tobias** – 142
**Əbdülmehdi Adil** – 59, 74–76
**Əhməd Faiq** – 244
**Əl-Barrak Heydər** – 211–212
**Əl-Tani Sənan** – 141
**Əl-Tüveycri Əbdüləziz** – 142, 149
**Əliyev Heydər** – 12, 35, 38, 55, 62, 64, 74, 97, 186, 287, 288, 293, 294, 334, 344
**Əliyeva Arzu** – 60, 104
**Əliyeva Leyla** – 104, 107, 110, 112, 113, 115, 116, 117, 118, 119
**Əliyeva Mehriban** – 8, 27, 28, 29, 33, 52, 53, 54, 60, 62, 75, 79, 94, 95, 97, 98, 103, 104, 107, 110, 112, 113, 115, 116, 117, 118, 119, 124, 126, 127, 133–134, 142, 149, 152, 154–156, 161, 166, 168, 172, 178, 190, 191, 192, 193, 194, 198, 205, 225, 226, 228, 230, 237, 244, 246–248, 254, 257, 262–263, 267, 269, 278, 289, 290, 298
**Əliyeva Zərifə xanım** – 287
**Ələkbərov Vüqar** – 98
**Əmirov Fikrət** – 159
**Ərdoğan Rəcəb Tayyib** – 136, 141, 149, 152, 185, 333
**Əsgərov Toğrul** – 190
**Əs-Sisi Əbdülfəttah** – 49, 50, 332
**Əzizova Fəridə** – 194
**Fərzəliyev Firdovsi** – 166–167
**Fətəliyev Şirzad** – 252
**Filipp** *(Belçika kralı)* – 331
**Flores Xuan** – 93
**Fouda Xaled** – 49–50
**Frik Albert** – 233, 244
**Gəncəvi Nizami** – 150, 151, 227
**Hacızadə İqbal** – 104
**Hamaçek Yan** – 130, 141

**Haqverdi Hüseyn** – 110
**Hedli Ceyms** – 243
**Heydərov Kəmaləddin** – 97
**Həsənov Zakir** – 213
**Hikki Patrik** – 147, 149, 157–158, 177–178, 187–188, 234–235, 244, 248–250
**Hokstayn Amos** – 286
**Hüseynov Rövşən** – 98
**Xəlilova Nəzakət** – 205
**İbrahimov Mənsum** – 152
**İmranov Şahin** – 98
**İsa** (*peyğəmbər*) – 290
**İsayev Radik** – 198
**İvaniç Mladen** – 132, 141, 149
**Kampriani Nikkolo** – 153
**Kapralos Spiros** – 178, 234
**XVI Karl Qustav** – 82
**Kemeron Devid** – 71–72
**Kleq Saymon** – 260–261
**Koplend Aaron** – 152
**Kocijançiç Janez** – 178, 234
**Köver Laszlo** – 189
**Kopf Karlhaynts** – 141
**Qaqa Leydi** – 152
**Qaribaşvili İrakli** – 129, 141, 149
**Qasımov Alim** – 158
**Qasımov Amil** – 205
**Qazyumov Xetaq** – 191
**Qasımov Elmar** – 152
**Qrabar-Kitaroviç Kolinda** – 203
**Qoslavski Yozef** – 74
**Qudərzi Mahmud** – 142
**Quliyev Səid** – 150
**Landau Lev** – 153
**Lindberq Qunilla** – 178
**Lukaşenko Aleksandr** – 5, 139–140, 141, 149, 265
**Manikadaki Eva** – 148
**Marqvelaşvili Giorgi** – 7, 171
**Mattarella Sercio** – 51, 282–283
**II Marqret** – 81

**Məcidov Məhəmmədrəsul** – 98
**Məmmədov Ağası** – 98
**Məmmədov Ceyhun** – 208
**Məmmədov Şahin** – 214
**Məmmədov Teymur** – 98, 225
**Məsimov Kərim** – 149
**Məmişzadə Elvin** – 228
**Mürsəliyev Elvin** – 181
**Musa** *(peyğəmbər)* – 290
**Mustafayev Şahin** – 8
**Mosaad Abdullah** – 142
**Narışkin Sergey** – 244
**Nasirov Roman** – 141
**Nikoliç Tomislav** – 58, 133–134, 141, 149
**Nuriyev Nahid** – 103
**Obama Barak** – 264
**Olland Fransua** – 285
**Pahor Borut** – 202
**Papaioannou Dimitris** – 148
**Paşazadə Hacı Allahşükür** – 287–291
**Parsons Endrü** – 231–232
**Pasquino Bruno** – 273–274
**Paqnozzi Rafael** – 178, 234
**Pelleqrini Peter** – 141
**Pexoçinski Yanuş** – 72–74, 80
**Plevneliev Rosen** – 239–241, 244
**Putin Vladimir** – 121, 149, 152, 164–165
**Renzi Matteo** – 280–281
**Rəhimov Azad** – 27, 52, 95, 105, 107, 261, 263
**Rəhimoğlu Umud** – 354–357
**Rəhmon Emoməli** – 141, 149
**Rozenqarten Martin** – 252
**Said Sudirman** – 102
**Saive Jan** – 178
**Sarpaşev Tayrıbek** – 141
**Semaşko Vladimir** – 5
**Serageldin İsmail** – 227
**Sotomayor Kollazo** – 228
**Səlimov Albert** – 237
**Səttarova Fatma** – 104
**Si Cinpin** – 92

**Silva Anibal** – 106
**Stepko Oleq** – 200
**Stadnik Mariya** – 183–184
**Şahtaxtinski Aleksis** – 87
**Şestakov Vasili** – 207–208
**Şirinov Natiq** – 152
**Şostakoviç Dmitri** – 149
**Ştaynhauzer Kristian** – 250, 252
**Şərifov Samir** – 83
**Tağızadə Ayxan** – 192
**Təzəgül Şərbət** – 153
**Teşome Mulatu** – 26
**Teylor Keti** – 153
**Venturini Roberto** – 128, 141
**Veyonis Raymonds** – 91, 204
**Vidodo Coko** – 102
**Vike-Freyberqa Vayra** – 224
**Vud Endryu** – 62–63
**Vuçiç Aleksandr** – 58
**Vuyanoviç Filip** – 135, 141, 149, 284
**Yadav Ram** – 32
**Yarrou Alderman** – 57, 71–72
**Yevdayev Milix** – 292–293
**Yıldız Tanər** – 142
**Zatlers Valdes** – 142
**Zamolodçikova Yelena** – 153
**Zeman Miloş** – 130
**Zenoviç Stanislav** – 74
**Zəkiyev İlham** – 150, 230, 234
**Zur Kristina** – 153

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 272
**Afina** – 148
**Afrika** – 140
**Albaniya** – 20, 68, 151
**Almaniya** – 62, 107, 151, 178
**Amerika Birləşmiş Ştatları** – 264, 286
**Andorra** – 151
**Aralıq dənizi** – 65, 75
**Asiya** – 18, 140
**Avrasiya** – 20
**Avropa** – 17, 18, 19, 37, 55, 67, 69, 73, 113, 140, 143, 144, 153, 173, 243, 255, 290, 299, 300, 302
**Avstriya** – 141
**Balaxanı** – 11
**Belçika** – 107, 151, 331
**Bərdə** – 325
**Belarus** – 5, 139–140, 141, 149, 151, 265
**Bolqarıstan** – 68, 107, 131, 141, 149, 151, 239–241, 244
**Bosniya və Herseqovina** – 57, 132, 141, 149, 151
**Böyük Britaniya** – 57, 71–72, 122, 142, 149, 151, 178
**Böyükşor** – 8–11
**Cənubi Qafqaz** – 15, 72, 73, 285
**Ciddə** – 209
**Çin** – 62, 78, 92
**Çexiya** – 62, 130, 141, 149, 151
**Dağlıq Qarabağ** – 18, 23, 24, 38, 43, 45, 46, 135, 210, 212, 218, 220, 264, 289, 303, 307, 342, 343
**Danimarka** – 81, 151, 178
**Davos** – 16
**Estoniya** – 151

**Fars körfəzi** – 75
**Fransa** – 78, 107, 151, 285
**Filippin** – 123
**Finikiya** – 153
**Finlandiya** – 107, 151
**Gəncə** – 15, 272, 325
**Göyçə** – 218
**Gürcüstan** – 7, 19, 68, 129, 141, 151, 171
**Həbəşistan** – 26
**Hind okeanı** – 75
**Hollandiya** – 107, 152
**Xankəndi** – 221
**Xəzər dənizi** – 17, 65, 67, 75, 108, 159, 160, 215
**Xızı** – 272
**Xorvatiya** – 107, 151, 203
**İndoneziya** – 102
**İordaniya** – 6
**İraq** – 59, 74–76
**İran** – 79, 142, 149
**İrlandiya** – 152
**İrəvan** – 37
**İrəvan xanlığı** – 218
**İslandiya** – 152
**İspaniya** – 152, 178
**İsrail** – 152, 178
**İsveç** – 82, 152
**İsveçrə** – 149, 152
**İtaliya** – 20, 51, 68, 107, 152, 162, 267, 269–283
**Kanada** – 253
**Kəlbəcər** – 38
**Kipr** – 151
**Küveyt** – 142, 149
**Kosovo** – 152
**Qafqaz** – 290, 294
**Qara dəniz** – 65, 75
**Qars** – 19, 67
**Qəbələ** – 272
**Qətər** – 141, 149
**Qırğız Respublikası** – 141, 268

**Quba** – 272, 327
**Laçın** – 38
**Latviya** – 91, 141, 142, 149, 152, 204, 224
**Latın Amerikası** – 140
**Lənkəran** – 272
**Lixtenşteyn** – 149, 152, 233, 244
**Litva** – 152, 178
**London** – 57, 71, 99
**Lüksemburq** – 141, 149, 152, 178, 196
**Macarıstan** – 20, 151, 189
**Makedoniya** – 151
**Malayziya** – 77
**Malta** – 152
**Meksika** – 93, 99
**Məkkə** – 295
**Milan** – 269–279
**Mingəçevir** – 15
**Misir** – 49–50, 74–76, 332
**Moldova** – 88
**Monako** – 141, 152
**Monqolustan** – 266
**Monteneqro** – 135, 141, 149, 152, 284
**Moskva** – 164
**Naxçıvan** – 272
**Nepal** – 32
**Norveç** – 152
**Oman dənizi** – 75
**Oman Sultanlığı** – 142, 149
**Polşa** – 31, 62, 72–74, 79, 80, 107, 152, 178
**Portuqaliya** – 106, 152
**Rio-de-Janeyro** – 127
**Roma** – 280–283
**Rumıniya** – 20, 107, 149, 152
**Rusiya** – 62, 78, 107, 121, 149, 152, 164–165, 178, 244
**Sabirabad** – 325
**San-Marino** – 128, 149, 152
**Serbiya** – 58, 107, 133–134, 149, 152
**Səudiyyə Ərəbistanı** – 141, 149, 163, 288, 295, 296

**Siyəzən** – 272
**Slovakiya** – 107, 141, 149, 152, 178
**Sloveniya** – 152, 202
**Sumqayıt** – 15, 325
**Şabran** – 272
**Şəki** – 272
**Şəmkir** – 272
**Şirvan** – 272
**Şuşa** – 38, 221
**Tacikistan** – 141, 149
**Tiflis** – 35
**Türkiyə** – 19, 48, 67, 68, 77, 78, 107, 136, 141, 142, 149, 152, 185, 186, 197, 333
**Türkmənistan** – 137–138, 141, 149
**Ukrayna** – 141, 149, 152
**Vatikan** – 142
**Yaxın Şərq** – 299, 302
**Yardımlı** – 272
**Yunanıstan** – 20, 68, 173, 302
**Zəngəzur** – 218

# MÜNDƏRİCAT

BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ VLADİMİR SEMAŞKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2015-ci il* ............................................................ *5*

İORDANİYA KRALI II ABDULLAH İBN ƏL-HÜSEYNƏ

*22 may 2015-ci il* ............................................................ *6*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

*22 may 2015-ci il* ............................................................ *7*

BÖYÜKŞOR BULVARININ VƏ PARKININ AÇILIŞI MƏRASİMİ

*22 may 2015-ci il* ............................................................ *8*

«THE BUSİNESS YEAR» JURNALINA MÜSAHİBƏ

*22 may 2015-ci il* ............................................................ *12*

BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORU JOZE QRATSİANO DA SİLVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2015-ci il* ............................................................ *25*

HƏBƏŞİSTAN FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ

*25 may 2015-ci il* ............................................................ *26*

I AVROPA OYUNLARININ ATLETLƏR VƏ MEDİA KƏNDLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*25 may 2015-ci il* ............................................................ *27*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDJEY DUDAYA

*26 may 2015-ci il* ............................................................ *31*

NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM BARAN YADAVA

*26 may 2015-ci il* ........................................................................................ *32*

«DALĞA BEACH–AQUA PARK» AİLƏVİ İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*26 may 2015-ci il* ........................................................................................ *33*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2015-ci il* ........................................................................................ *35*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*27 may 2015-ci il* ........................................................................................ *36*

MİSİR ƏRƏB RESPUBLİKASININ CƏNUBİ SİNAY ƏYALƏTİNİN QUBERNATORU XALED FOUDANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 may 2015-ci il* ........................................................................................ *49*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*29 may 2015-ci il* ........................................................................................ *51*

I AVROPA OYUNLARI ƏMƏLİYYAT KOMİTƏSİNİN BAŞ OFİSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*29 may 2015-ci il* ........................................................................................ *52*

XXII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ» SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*1 iyun 2015-ci il* ........................................................................................ *55*

LONDON ŞƏHƏRİNİN LORD-MERİ ALDERMAN ALAN YARROUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2015-ci il* ........................................................................................ *57*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ İVİTSA DAÇİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2015-ci il* ........................................................................................... *58*
İRAQ RESPUBLİKASININ NEFT NAZİRİ ADİL ƏBDÜLMEHDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2015-ci il* ........................................................................................... *59*

BAKI «AĞ ŞƏHƏR» BULVARININ AÇILIŞI MƏRASİMİ

*1 iyun 2015-ci il* ........................................................................................... *60*

XXII BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2015» SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİ

*2 iyun 2015-ci il* ........................................................................................... *62*

POLŞA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ YANUŞ PEXOÇİNSKİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyun 2015-ci il* ........................................................................................... *80*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

*3 iyun 2015-ci il* ........................................................................................... *81*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*3 iyun 2015-ci il* ........................................................................................... *82*

I AVROPA OYUNLARI ÜÇÜN AVTOBUS DEPOSU VƏ TƏLİM MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*3 iyun 2015-ci il* ........................................................................................... *83*

ATƏT-in BAKIDAKI LAYİHƏ ƏLAQƏLƏNDİRİCİSİ ALEKSİS ŞAHTAXTİNSKİ İLƏ GÖRÜŞ

*3 iyun 2015-ci il* ........................................................................................... *87*

MOLDOVA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ İQOR BODİU İLƏ GÖRÜŞ

*3 iyun 2015-ci il* ........................................................................................... *88*

BAKIYA GƏTİRİLƏN YENİ ELEKTRİK QATARI İLƏ TANIŞLIQ

*3 iyun 2015-ci il* ........................................................................................... *89*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAYMONDS VEYONİSƏ

*4 iyun 2015-ci il*........................................................................................................ *91*
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SI CINPINƏ

*4 iyun 2015-ci il*........................................................................................................ *92*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XUAN RODRİQO LABARDİNİ FLORES İLƏ GÖRÜŞ

*4 iyun 2015-ci il* ....................................................................................................... *93*

AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ YAXINLIĞINDA SALINAN YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 iyun 2015-ci il* ...................................................................................................... *94*

TOFİQ BƏHRAMOV ADINA RESPUBLİKA STADİONUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 iyun 2015-ci il*........................................................................................................ *95*

AZƏRBAYCAN BOKS FEDERASİYASININ İNZİBATİ BİNASININ VƏ «QAFQAZ BAKU SPORT HOTEL»İN AÇILIŞI MƏRASİMİ

*5 iyun 2015-ci il*........................................................................................................ *97*

İNDONEZİYA RESPUBLİKASININ ENERGETİKA VƏ MİNERAL EHTİYATLAR NAZİRİ SUDİRMAN SAİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2015-ci il*...................................................................................................... *102*

AZƏRBAYCANIN BÖLGƏLƏRİNƏ VƏ ƏFSANƏVİ NEFT DAŞLARINA SƏYAHƏTİNİ BAŞA ÇATDIRAN «BAKI–2015» MƏŞƏLİNİN DƏNİZKƏNARI MİLLİ PARKDAKI «SADKO» LİMANINDA QƏBUL EDİLMƏSİ MƏRASİMİ

*7 iyun 2015-ci il* ..................................................................................................... *103*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*8 iyun 2015-ci il*...................................................................................................... *106*

I AVROPA OYUNLARINDA İDMANIN BİR NEÇƏ NÖVÜ ÜZRƏ YARIŞLARIN KEÇİRİLƏCƏYİ «BAKU CRYSTAL HALL»DA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il* ........................................................................................ *107*

DÖVLƏT BAYRAĞI MEYDANI ƏRAZİSİNDƏ «DAŞ SALNAMƏ» MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il* ........................................................................................ *110*

DÖVLƏT BAYRAĞI MEYDANI ƏRAZİSİNDƏ YENİ FƏALİYYƏTƏ BAŞLAYACAQ «AZƏRBAYCAN EVİ»NDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*........................................................................................ *112*

HEYDƏR ƏLİYEV FONDUNUN YENİ LAYİHƏSİ OLAN «XX–XXI ƏSR AZƏRBAYCAN RƏNGKARLIĞI» EKSPOZİSİYASININ AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il*........................................................................................ *113*

YENİ İNŞA OLUNAN «ATELYE 61» RESTORANINDA MEKSİKA MƏTBƏXİNİN NÜMUNƏLƏRİ İLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*........................................................................................ *115*

YARAT MÜASİR İNCƏSƏNƏT MƏRKƏZİNİN İLK DAİMİ MƏKANI İLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*........................................................................................ *116*

BAYIL BULVARININ AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il* ........................................................................................ *117*

AVROPA OYUNLARI PARKININ QARŞISINDA SALINAN YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 iyun 2015-ci il*........................................................................................ *118*

BAKI–ƏLƏT YOLUNUN 4–6 KİLOMETRLİK HİSSƏSİNDƏ BAĞLANTI YOLLARI VƏ BAYIL BULVARINDA PİYADA KEÇİDİNİN AÇILIŞI MƏRASİMİ

*8 iyun 2015-ci il*........................................................................................ *119*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*9 iyun 2015-ci il*........................................................................................ *121*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI
ÜLYAHƏZRƏT II ELİZABETƏ

*9 iyun 2015-ci il* ........ *122*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
III BENİQNO AKİNOYA

*9 iyun 2015-ci il* ........ *123*

I AVROPA OYUNLARINDA İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ ATLETLƏR KƏNDİNDƏ GÖRÜŞ

*9 iyun 2015-ci il* ........ *124*

SAN-MARİNO RESPUBLİKASININ BAŞÇILARI ANDREA BELLUZZİ
VƏ ROBERTO VENTURİNİ İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il* ........ *128*

GÜRCÜSTAN RESRUBLİKASININ BAŞ NAZİRİ
İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il* ........ *129*

ÇEX RESPUBLİKASI PARLAMENTİNİN DEPUTATLAR PALATASININ
SƏDRİ YAN HAMAÇEK İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il* ........ *130*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
BOYKO BORİSOV İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il* ........ *131*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ
MLADEN İVANİÇ İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il* ........ *132*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ TOMİSLAV NİKOLİÇ
İLƏ GÖRÜŞ

*11 iyun 2015-ci il* ........ *133*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP
VUYANOVİÇ İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il* ........ *135*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il ............................................................................................ 136*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il ............................................................................................ 137*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ GÖRÜŞ

*12 iyun 2015-ci il ............................................................................................ 139*

I AVROPA OYUNLARININ RƏSMİ MƏRASİMİ AÇILIŞI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNAN RƏSMİ QƏBULDA İŞTİRAK

*12 iyun 2015-ci il............................................................................................. 141*

«BAKI–2015» I AVROPA OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*12 iyun 2015-ci il............................................................................................. 147*

I AVROPA OYUNLARININ AÇILIŞI MƏRASİMİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏT, HÖKUMƏT BAŞÇILARI VƏ YÜKSƏK VƏZİFƏLİ QONAQLAR İLƏ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*12 iyun 2015-ci il ............................................................................................ 161*

İTALİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ KLAUDİO DE VİNÇENTI İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il ............................................................................................ 162*

İSLAM HƏMRƏYLİYİ İDMAN FEDERASİYASININ PREZİDENTİ ABDULLAH BİN MOSAAD BİN ƏBDÜLƏZİZ AL SƏUD İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il ............................................................................................ 163*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il............................................................................................. 164*

I AVROPA OYUNLARININ İLK ÇEMPİONU FİRDOVSİ FƏRZƏLİYEVƏ QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*13 iyun 2015-ci il* ............................................................................................ *166*

I AVROPA OYUNLARINDA YUNAN-ROMA GÜLƏŞÇİSİ RƏSUL ÇUNAYEVƏ QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*13 iyun 2015-ci il* ............................................................................................ *168*

BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ TOMAS BAX İLƏ GÖRÜŞ

*13 iyun 2015-ci il* ............................................................................................ *170*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

*14 iyun 2015-ci il*............................................................................................. *171*

OLİMPİYA AİLƏSİNİN ÜZVLƏRİ ÜÇÜN TƏŞKİL EDİLƏN QƏBULDA İŞTİRAK

*14 iyun 2015-ci il*............................................................................................. *172*

YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ QALİBLƏRƏ MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*14 iyun 2015-ci il* ............................................................................................ *181*

QADINLAR ARASINDA SƏRBƏST GÜLƏŞ YARIŞLARININ QALİBLƏRİNƏ MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*15 iyun 2015-ci il*............................................................................................. *183*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*17 iyun 2015-ci il*............................................................................................. *185*

CƏNAB ŞƏVKƏT DƏMİRƏLƏ

*17 iyun 2015-ci il*............................................................................................. *186*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKKİYƏ «ŞƏRƏF» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*17 iyun 2015-ci il* ............................................................................................ *187*

MACARISTAN RESPUBLİKASININ MİLLİ ASSAMBLEYA-
SININ SƏDRİ LASZLO KÖVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*17 iyun 2015-ci il* ........................................................................................ *189*
I AVROPA OYUNLARININ ÇEMPİONU TOĞRUL ƏSGƏROVA
QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*17 iyun 2015-ci il*........................................................................................ *190*

10-cu QIZIL MEDALIN XETAQ QAZYUMOVA TƏQDİMETMƏ
MƏRASİMİ

*17 iyun 2015-ci il* ........................................................................................ *191*

TAEKVONDO YARIŞLARINDA AYXAN TAĞIZADƏNİN FİNAL
UĞRUNDA MÜBARİZƏSİNƏ BAXIŞ

*17 iyun 2015-ci il* ........................................................................................ *192*

QADIN VOLEYBOLÇULARIMIZIN İTALİYA MİLLİSİ İLƏ
OYUNUNA BAXIŞ

*17 iyun 2015-ci il* ........................................................................................ *193*

12-ci QIZIL MEDALIN SAHİBİNƏ TƏQDİMETMƏ MƏRASİMİ

*18 iyun 2015-ci il* ........................................................................................ *194*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*19 iyun 2015-ci il*........................................................................................ *196*

TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*19 iyun 2015-ci il*........................................................................................ *197*

AZƏRBAYCANIN AKTİVİNƏ YAZILAN 13-cü QIZIL MEDALIN RADİK
İSAYEVƏ TƏQDİMETMƏ MƏRASİMİ

*19 iyun 2015-ci il* ........................................................................................ *198*

AZƏRBAYCAN GİMNASTI OLEQ STEPKOYA QIZIL MEDALIN
TƏQDİMETMƏ MƏRASİMİ

*20 iyun 2015-ci il* ........................................................................................ *200*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BORUT PAHORA

*22 iyun 2015-ci il* ........................................................................................ *202*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

*22 iyun 2015-ci il* ........................................................................................ *203*

LATVİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ GÖRÜŞ

*22 iyun 2015-ci il* ........................................................................................ *204*

I AVROPA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN SAMBO YARIŞLARINA BAXIŞ

*22 iyun 2015-ci il* ........................................................................................ *205*

BEYNƏLXALQ SAMBO FEDERASİYASI İCRAİYYƏ KOMİTƏSİNİN QƏRARI İLƏ SAMBO ÇEMPİON KƏMƏRİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*22 iyun 2015-ci il* ........................................................................................ *207*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*22 iyun 2015-ci il* ........................................................................................ *209*

QARADAĞ RAYONUNDA HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN YENİ BAZASININ VƏ «N» SAYLI HƏRBİ HİSSƏNİN AÇILIŞI MƏRASİMİ

*25 iyun 2015-ci il* ........................................................................................ *213*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*25 iyun 2015-ci il* ........................................................................................ *224*

BOKSÇU TEYMUR MƏMMƏDOVA QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*25 iyun 2015-ci il* ........................................................................................ *225*

I AVROPA OYUNLARI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏ QADIN VOLEYBOLÇULARININ YARIMFİNAL OYUNUNA BAXIŞ

*25 iyun 2015-ci il* ........................................................................................ *226*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ İSMAİL SERAGELDİN İLƏ GÖRÜŞ

*26 iyun 2015-ci il* ........................................................................................ *227*

DAHA İKİ BOKSÇUMUZA QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*26 iyun 2015-ci il* ........................................................................................ *228*

PARALİMPİYAÇI CÜDOÇU İLHAM ZƏKİYEVƏ QIZIL MEDALIN TƏQDİMETMƏ MƏRASİMİ

*26 iyun 2015-ci il*........................................................................................ *230*

AZƏRBAYCAN PREZİDENTİNƏ ALİ PARALİMPİYA MÜKAFATI VƏ BEYNƏLXALQ PARALİMPİYA KOMİTƏSİNİN XÜSUSİ HƏDİYYƏSİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*26 iyun 2015-ci il*........................................................................................ *231*

LİXTENŞTEYN PARLAMENTİNİN SƏDRİ ALBERT FRİK İLƏ GÖRÜŞ

*27 iyun 2015-ci il* ........................................................................................ *233*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2015-ci il* ........................................................................................ *234*

SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALA İLƏ GÖRÜŞ

*27 iyun 2015-ci il* ........................................................................................ *236*

I AVROPA OYUNLARININ BOKS YARIŞLARINDA QALİB GƏLƏN İDMANÇILARIMIZA QIZIL MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*27 iyun 2015-ci il* ........................................................................................ *237*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEVİN AZƏRBAYCANA SƏFƏRİ

*28 iyun 2015-ci il* ........................................................................................ *239*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ GÖRÜŞ

*28 iyun 2015-ci il* ............................................................................................ *240*

«BAKI–2015» I AVROPA OYUNLARININ MÖHTƏŞƏM BAĞLANIŞI MƏRASİMİ

*28 iyun 2015-ci il* ............................................................................................ *242*

KANADANIN GENEREL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CONSTONA

*29 iyun 2015-ci il* ............................................................................................ *253*

I AVROPA OYUNLARINDA QALİB GƏLMİŞ İDMANÇILAR, ONLARIN MƏŞQÇİLƏRİ, İDMAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ XARİCİ TƏRƏFDAŞLARLA GÖRÜŞ

*29 iyun 2015-ci il* ............................................................................................ *254*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*1 iyul 2015-ci il* ............................................................................................ *264*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*1 iyul 2015-ci il* ............................................................................................ *265*

MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

*8 iyul 2015-ci il* ............................................................................................ *266*

İTALİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*8 iyul 2015-ci il* ............................................................................................ *267*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*9 iyul 2015-ci il* ............................................................................................ *268*

«MİLAN EXPO 2015» ÜMUMDÜNYA SƏRGİSİNDƏ İŞTİRAK

*9 iyul 2015-ci il* ............................................................................................ *269*

İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MATTEO RENZİ İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*9 iyul 2015-ci il* ........................................................................................ *280*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ SERCİO MATTARELLA İLƏ GÖRÜŞ

*9 iyul 2015-ci il*......................................................................................... *282*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

*10 iyul 2015-ci il*....................................................................................... *284*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*10 iyul 2015-ci il*....................................................................................... *285*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XÜSUSİ ELÇİSİ VƏ ƏLAQƏLƏNDİRİCİSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyul 2015-ci il*....................................................................................... *286*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*11 iyul 2015-ci il*....................................................................................... *287*

NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASINDA İŞTİRAK

*13 iyul 2015-ci il* ...................................................................................... *300*

YEKUN NİTQİ

*13 iyul 2015-ci il* ...................................................................................... *310*

BAKI ŞƏHƏR 5 SAYLI «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*14 iyul 2015-ci il*....................................................................................... *324*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*15 iyul 2015-ci il* ........................................................................................ *329*

BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

*16 iyul 2015-ci il* ........................................................................................ *331*
MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*16 iyul 2015-ci il* ........................................................................................ *332*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*20 iyul 2015-ci il* ........................................................................................ *333*

AZƏRBAYCAN MİLLİ MƏTBUATININ YARADILMASININ 140
İLLİYİ MÜNASİBƏTİLƏ MƏTBUAT ŞURASI İDARƏ HEYƏTİNİN
ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*21 iyul 2015-ci il* ........................................................................................ *334*

QEYDLƏR ........................................................................................ *358*

*Şəxsi adlar göstəricisi* ........................................................................................ *380*

*Coğrafi adlar göstəricisi* ........................................................................................ *386*

---

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.